Bu Kitab Jale Jako Jale İstəyi İlə

https://www.facebook.com/groups/Kitabsever/

qrupu üçün hazırlanmışdır.



https://www.facebook.com/groups/Kitabsever/

Aqata Kristi ON ZƏNCİ BALASI

Kiçik bir ada və bir-birini tanımayan on qonaq...

Naməlum ev sahibi...

Bəs görəsən, hər kəsi bura dəvət edən bu məşum cənab kimdir?

Qonaqların bunu araşdırmağa isə vaxtı qalmır. Patefon valından növbəylə səslənən ittihamlar bütün qonaqlar sanki hakim qarşısında, müttəhim kürsüsündə hiss etməyə vadar edir. Əlqərəz, əsl faciələr də bundan sonra başlanır. Naməlum ev sahibi tərəfindən ittiham olunan qonaqlar qəribə ardıcıllıqla qətlə yetirilirlər. Adada isə onlardan başqa heç kim yoxdur...



https://www.facebook.com/groups/Kitabsever/

Agatha Christie TEN LITTLE NIGGERS

Aqata Kristi ON ZƏNCİ BALASI

Bakı, Qanun Nəşriyyatı, 2014

Ruscadan tərcümə: İlqar Fəhmi

Korrektor: İradə Musalı

Qanun Nəşriyyatı

Bakı, AZ 1102, Tbilisi pros., 76

Tel: (+994 12) 431-16-62; 431-38-18

Mobil: (+994 55) 212 42 37

e-mail: info@qanun.az

www.qanun.az

www.fb.com/Qanunpublishing

ISBN 978-9952-26-842-3

© Qanun Nəşriyyatı, 2014

Ten Little Niggers © 1939 Agatha Christie Limited. All rights reserved. AGATHA CHRISTIE are registered trade marks of Agatha Christie Limited

in the UK and/or elsewhere. All rights reserved.

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım

hüquqları Qanun Nəşriyyatına məxsusdur.

Kitabın təkrar və hissə-hissə nəşri «Müəlliflik hüququ və



https://www.facebook.com/groups/Kitabsever/

əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu»na ziddir.



https://www.facebook.com/groups/Kitabsever/

# BİRİNCİ FƏSİL

## 1

Siqar çəkənlərçün nəzərdə tutulmuş birinci dərəcəli vaqonun küncündə əyləşmiş ucaboylu kişi – təzəlikcə istefaya çıxmış hakim Uorqreyv siqarın külünü barmağıyla çırparaq «Tayms» qəzetinin siyasi xəbərlər rubrikasını gözdən keçirirdi. Bir müddət sonra qəzeti kənara qoyub pəncərədən bayıra boylandı. Qatar Sommersetdən keçirdi. Hakimin hesabına görə, hələ iki saatlıq yolu qalmışdı.

Yolu seyr elədiyi müddətdə yenə də Zəncilər adası barədə qəzetlərdə yazılanları təkrar-təkrar fikrində götür-qoy edirdi. Ən əvvəl onu yaxta həvəskarı olan bir amerikalı almışdı və bu adanın Devon sahilinə yaxın, hündür bir yerində muasir üslubda malikanə tikdirmişdi. Amma əfsuslar olsun ki, milyonçunun sonuncu – üçüncü arvadı dəniz xəstəliyinə düçar olmuşdu, yırğalanmaya dözə bilmirdi, onunçün də ərini məcbur etmişdi ki, adanı evlə birlikdə satsın. Və budur, qəzetlərdə adanın əlvan təsvirli satış elanı yerləşdirilmişdi. Sonradan maraqlı bir xəbər yayıldı ki, adanı cənab Onim adlı bir şəxs alıb. Bu xəbər qəzet yazarlarının təxəyyülünün işə düşməsinə səbəb oldu. Yazıldı ki, əslində Zəncilər adasını Hollivud ulduzu miss Qabriella Terl alıb, o istəyir ki, reklamlardan və reportyorlardan uzaq, sakit şəraitdə bir müddət istirahət eləsin. «Biz bi» qəzeti isə ehmallıca işarə vururdu ki, bu ada çox güman ki, kral ailəsinin yay üçün nəzərdə tutulan istirahət guşəsi olacaq. Mister Merriuderin isə qulağına çatmışdı ki, adanı gənc Lord L. alıb, özü də evlənəndən sonra bal ayını məhz bu adada keçirmək istəyir. «Conasu» qəzeti isə israrla bildirirdi ki, adanı Admirallıq idarəsi hərbi eksperimentlər keçirtmək niyyətiylə alıb.

Həqiqətən də son aylarda Zəncilər adası barədə yazılar qəzet səhifələrindən düşmürdü.

Hakim Uorqreyv cibindən bir məktub çıxartdı. Xətt çox pis olsa da, əsas məqsədi ifadə edən sözlər aydın oxunurdu: «Əziz Lorens, yüz ildir ki, sizdən xəbər tuta bilmirəm... Mütləq Zəncilər adasına gəlin. Çox gözəl yerdir. Yada salmalı o qədər şey var ki: köhnə vaxt, ...təbiətlə ünsiyyət... günəşlənmək... Qatar 12.40-da Paddinqton vağzalından yola düşür...



https://www.facebook.com/groups/Kitabsever/

Oukbricdə sizi qarşılayacam... – və... imza. – Həmişə sizin Konstansiya Kalminqton».

Uorqreyv xəyalən keçmişə qayıtdı və ledi Konstansiya Kalminqtonu son dəfə nə vaxt gördüyünü xatırlamağa çalışdı. Hə, təxminən yeddi, səkkiz il əvvəl... O vaxt ledi İtaliyaya getmişdi ki, həm təbiət, həm də kəndlilərlə ünsiyyətdə olsun. Sonradan hakim eşitmişdi ki, ledi Suriyaya köçüb və orada yandırıcı qızmar günəş altında bədəvi ərəblərin həyatını öyrənir.

Hakim fikirləşirdi ki, bu cür sirr qatına bürünmüş bir adanı gizlincə almaq elə Konstansiyanın xasiyyətinə tam uyğundur. Hakim başını tərpətdi: o öz fikirlərindən razı qaldı, məntiqi həmişəki kimi qüsursuz idi. Elə bu fikirlər içində onu hiss olunmadan yuxu apardı.


https://www.facebook.com/groups/Kitabsever/

# 2

Üçüncü dərəcəli vaqonda gedən Vera Kleytorn kürəyini oturacağın arxasına söykəyib gözlərini yummuşdu. Vaqonda ondan başqa daha beş nəfər var idi. Bu gün qatarda dəhşətli dərəcədə isti idi. Əlbəttə, belə havada bir müddət dəniz sahilində olmaq həddən artıq xoş olardı. Həqiqətən də bu işi uğurlu saymaq olardı. Adətən yayda onu işə dəvət edəndə çoxuşaqlı ailələrə düşürdü və uşaqlar bütün yayı onun burnundan gətirirdilər.

Və budur, qəfildən məktub alır.

«Mənə sizi «bacarıqlı qadınlar» agentliyi məsləhət görüb. Onlar sizi yaxşı tanıyırlar, istədiyiniz məbləği deyin, mən hər şeyə razıyam. Mən sizi avqustun səkkizində gözləyəcəm. Qatar 12.40-da Paddinqton vağzalından yola düşür. Oukbric stansiyasında sizi qarşılayacaqlar. İndidən ilkin xərclər üçün beş funt sterlinq yollayıram.

Hörmətlə Anna Nensi Onim».

Yuxarıda isə ünvan yazılmışdı: Zəncilər adası, Stikxlevn, Devon.

Zəncilər adası... Son aylarda qəzetlər ondan çox yazırdılar. Reportyorlar müxtəlif şayiələri araşdırır, həqiqəti öyrənməyə çalışırdılar. Buna baxmayaraq, deyəsən, onların yazdığında həqiqətin heç işartıları da gözə dəymirdi. Amma hər nəydisə, bu evi milyonçu tikmişdi və görünür ki, cah-cəlalına söz ola bilməzdi.

Təzəlikcə sona çatmış semestrdən sonra əməllicə əldən düşmüş Vera Kleytorn fikirləşirdi: «İkinci dərəcəli məktəbdə idman müəllimliyi o qədər də layiqli iş deyil. Heç olmasa babat məktəblərin birinə özümü sala bilsəydim...». Lakin birdən öz fikirlərini dəyişdi: «Yox, hər halda hesab eləmək lazımdır ki, mənim bəxtim gətirdi. İstintaq altında olmağım bioqrafiyama kölgə salacaqdı. Sonra da məni təhsil sahəsinə yaxın buraxmayacaqdılar. Yaxşı ki tam bəraət aldım».



https://www.facebook.com/groups/Kitabsever/

Xatırladı ki, müstəntiq son qərarında onun soyuqqanlığını və cəsarətini xüsusi qeyd eləmişdi. Hə, istintaq həqiqətən də əsl onun istədiyi kimi keçdi. Bundan yaxşı sonluğu heç arzu eləmək də mümkün deyildi. Missis Hamilton da ona qarşı çox mehriban idi. Bircə bu Huqo olmasaydı. (Yox, yox, o daha Huqo barədə düşünməyəcək. Hər halda çalışacaq ki, düşünməsin.)

İstiyə baxmayaraq, tükləri biz-biz durdu. İçindən təəssüf hissi keçdi. Yenə dəniz sahili... Yenə tanış mənzərə... Sirli qayalığa tərəf üzür, başı gah suyun altında yox olur, gah suyun üzünə çıxır... eyni görüntü dəfələrlə təkrar olunur. O, dalğaları rahatlıqla yararaq üzür, üzür...

Dəniz, isti dalğalar, günün altında sonu görünməyən saatlar və... Huqo. “Sevirəm” sözü dilindən düşmür... yox, Huqo barədə düşünmək olmaz. Qətiyyən olmaz...

Vera gözünü açıb üzbəüzdə oturan kişiyə baxdı. Uca boylu, xırda gözlü, sərt cizgilərə malik, dərisi gündən -qaralmış...

Düşündü ki, bu kişi, deyəsən, səyahətlərdə çox olub, dünyanın çox yerini görüb...



https://www.facebook.com/groups/Kitabsever/

# 3

Bircə baxış kifayət idi ki, Filipp Lombard qarşısındakı qız barədə təəssüratlarını formalaşdırsın: gözəl qızdır, deyəsən, müəlliməyə oxşayır. Soyuqqanlıdır, deyəsən, lazım olsa, öz təəssübünü çəkə bilər – həm həyatda, həm də sevgidə. Hə, deyəsən, onunla ciddi şəkildə məşğul olmağına dəyər.

Amma birdən qaşlarını çatıb fikirləşdi ki, yox, indi vaxtı deyil, əsas məsələ tapşırıqdır, onu qoyub qadınlara vaxt sərf eləmək düz olmaz...

Maraqlıdır, görəsən, onu hansı işə görə dəvət ediblər?

Morris də o gün məsələni üstüörtülü dedi.

– Özünüz qərar qəbul edin. Lombard, istəmirsinizsə, götürməyin.

Filipp fikirli halda dedi:

– Deməli, siz yüz gineya pul təklif edirsiniz? – o, yüz gineya sözünü elə etinasızlıqla dedi ki, elə bil onunçün bu boyda məbləğ əslində heç nə idi. Hərçənd Morris bilirdi ki, Lombardın vəziyyəti bu saat o qədər də ürəkaçan deyil, hələ bəlkə bu saat nahara eləməyə də cibində pul yoxdur. Pul məsələlərində onu aldatmaq mümkün deyil. Vəziyyəti adamın baxışlarından hiss edir. – Axı dəqiq bir şey demədiniz. Nə işdir, nə axtarmalı olacam?..

Cənab Ayzek Morris keçəl başını qətiyyətlə tərpətdi.

– Yox, mister Lombard, dəqiq bir şey deyilməyib. Bizim müştərimiz bilir ki, siz öz işinizdə yüksək səviyyəli peşəkarsınız, ona görə də mənə yüz gineya yollayıb tapşırdılar ki, sizinlə danışım. Razılaşsanız, Devon sahilindəki Stikvell stansiyasına getməli, oradan Oukbricə yola düşməlisiniz. Oukbricdə sizi qarşılayacaqlar və Zəncilər adasına aparacaqlar. Müştərinin sizdən konkret hansı işi tələb etməsi yalnız orada bilinəcək.

– Nə qədər çəkəcək? – Lombard soruşdu.



https://www.facebook.com/groups/Kitabsever/

– Ən uzağı bir həftəlik.

Bığlarını dartışdıran kapitan Lombard mızıldandı.

– Ümid edirəm ki, qanunsuz bir şey olmayacaq. Mən belə sifarişlərə yaxın getmirəm.

Bu sözü deyən Filipp sınayıcı baxışlarla həmsöhbətinə baxdı. Mister Morrisin qalın dodaqlarında yüngül təbəssüm parlasa da, ciddiyyətlə cavab verdi.

– Əgər sizə hansısa qanunsuz iş təklif eləsələr, imtina eləməyə tam ixtiyarınız var.

Onun gülüşü Lombardı əsəbiləşdirdi. Elə bil demək istəyirdi ki, sənin keçmişdə o qədər də qanunpərəst olmadığını bilməyən yoxdur.

Lombard özü də təbəssümünü saxlaya bilmədi. Düzdür, bir neçə dəfə xoşagəlməz işlərə burun soxmuşdu. Amma birtəhər altından çıxa bilmişdi. İstədiyinə çatmaq üçün heç nəyə fikir vermirdi. Məhz belə. Heç nəyə. Deyəsən, Zəncilər adasında da darıxmayacaqdı. Hər halda bunu sanki qabaqcadan hiss edirdi.



https://www.facebook.com/groups/Kitabsever/

# 4

Siqaret çəkməyənlərçün vaqonda gedən miss Brent elə dik oturmuşdu ki, sanki paya udmuşdu. Altmış yaşı vardı və müasir dövrdə dəbə minən sərbəstliyi, nizamsızlığı heç cür qəbul edə bilmirdi. Onun uzun illər hərbiçi olmuş polkovnik atası yerişə, oturuşa çox əhəmiyyət verirdi. Yeriş də, oturuş da şax olmalı, insanın içindəki nizam-intizamdan xəbər verməlidir.

Əfsuslar olsun ki, müasir gənclərin maneraları getdikcə korlanırdı – bircə baxış kifayət edirdi ki, adamın ürəyini vursun...

Vaqonda adam çoxluğu, basırıqlıq Emili Brentə çox-çox əziyyət versə də, o bunu hiss elətdirməməyə çalışırdı.

İndi insanlar öz-özlərini çox ərköyün öyrədirlər. Fikirləşdi, ağrıkəsici olmasa diş çıxartmırlar, yuxu dərmanı olmasa yata bilmirlər, ancaq yumşaq kreslolarda otururlar, ya da kürəklərinə mütləq döşək qoyurlar. Gənc qızların geyim-kecimi barədə isə heç danışmağa dəyməz, korset geymirlər, saçlarına qulluq eləmirlər, yayda da çimərliklərdə utanıb-qızarmadan yarımçılpaq uzanırlar... Miss Brent dodaqlarını sıxdı. O sanki öz timsalında əsl səviyyəli adamların özünü necə aparmalı olduğunu göstərməyə çalışırdı... Ötən yayı xatırladı. Yox-yox, bu il hər şey tamam başqa cür olacaq. Zəncilər adası... Və yenə də aldığı məktubu xatırladı:

«Əziz miss Brent, ümid edirəm ki, məni unutmamısınız. Neçə il əvvəl biz Bellhevn pansionunda tanış olmuşduq. Mənə elə gəlir ki, aramızda ümumi cəhətlər çox idi.

Mən Devon sahillərində, Zəncilər adasında yeni pansion açmışam. Burada müasir dəbdəbədən əsər-əlamət yoxdur. Çox gözəl və bir qədər də köhnə üslublu mətbəxi var. Hər şey səviyyəli insanların rahat istirahəti üçün nəzərdə tutulub. Burada gənclərin hay-küylü istirahəti, səhərəcən səslənən qrammofon sizi narahat etməyəcək. Əgər bura təşrif buyurmağa razılıq



https://www.facebook.com/groups/Kitabsever/

versəydiniz, mən çox sevinərdim. Əlbəttə ki, heç bir ödəniş etmədən, sadəcə mənim köhnə dostum və qonağım qismində. Avqust ayı sizi qane edirmi? Ayın səkkizindən?

Hörmətlə A.N.....»

Bəs adı necəydi?

Miss Brent məktubun bütün mətnini xatırlasa da, köhnə tanışının soyadını heç cür xatırlaya bilmədi. Deyəsən, imza da çox səliqəsiz idi. «İndi heç kim yazının səlisliyinə fikir vermir», – miss Brent ürəyində əsəbiləşdi.

O, məktubu alanda Bellhevndə rastlaşdığı adamların hamısını bir-bir yadına salmağa çalışmışdı. İki il dalbadal yay istirahətini orda keçirmişdi. Yəqin ki, məktubu yollayan da üzbəüz otaqda yaşayan yaşlı qadın idi. Adı nə idi?.. Miss Olten, Onyon... Hə, deyəsən, Onyon idi...

Zəncilər adası. Qəzetlər bu barədə yazmaqda elə bil bəhsə girirdilər. Deyəsən, əvvəllər hansısa amerikan milyonçusuna məxsus olmuşdu. Miss Brent yenə də ürəyində hökumətə qəzəbləndi: «Nə olsun ki, ətrafda çoxlu xırda adalar var. Kimə gəldi, su qiymətinə satırlar. Zənciyə, hinduya...».

Amma hər nəydisə, havayı istirahət təmin olunmuşdu. Bunu fikirləşən Emili Brent bir qədər sakitləşdi. Əlalxüsus indi maddi vəziyyətin bir qədər çətinləşdiyi, dividentlərin vaxtlı-vaxtında ödənilmədiyi bir vəziyyətdə havayı istirahət lap yerinə düşmüşdü. Əfsus ki, bu miss Onyon barədə dəqiq heç nəyi xatırlaya bilmirdi…

# 5

General Makartur pəncərədən bayıra baxdı. Qatar Eksetərə gedirdi. Orada general başqa qatara keçməliydi. Bu qatarların tısbağa sürəti və dolanbac dəmir yolu xətləri kimi istəsən hövsələdən çıxara bilər. Axı düz yolla getsəydilər, Zəncilər adasına daha tez çata bilərdilər.

O hələ də bu mənhus Onimin kim olduğunu dəqiq xatırlaya bilməmişdi. Deyəsən, Proyd Leqqard və Conni Dayerlə birlikdə xidmət eləmişdi.

“Hərbiçi dostlarımızın hamısı yığışacaq. Keçmiş dövrləri xatırlayaçağıq”.

Hə, o vaxtları xatırlamaq lap yerinə düşərdi. Son illər ona elə gəlirdi ki, əvvəlki hərbiçi həmkarları sanki ondan uzaq qaçmağa çalışırlar. Hər şeyin də baiskarı bu axmaq şayiələr idi. İşə bax, axı o hadisələrin üstündən otuz ildən çox keçib. Bəlkə Armitic hardasa ağzından qaçırdıb? Həyasız küçük. Bir də ki, axı o nə bilə bilərdi? Bəsdir daha, bu barədə düşünmək də lazım deyil. Bəlkə də bütün bunlar sadəcə onun qocalmış şüurunun, işsiz qalmış təxəyyülünün uydurmasıdır, – general düşündü.

Maraqlıdır, görəsən, bu Zəncilər adası necə yerdir? Onun barəsində o qədər danışırlar ki...

Yəqin ki, adanın Admirallıq, yaxud Hərbi nazirlik tərəfindən alındığı barədə şayiələr həqiqətdən o qədər də uzaq deyil.

Adadakı evi amerikalı gənc milyonçu Elmer Robson tikib. Deyirlər, filan qədər pul qoyub evin üstünə, şahanə bir cah-cəlal yaradıb. Eksetərə hələ bir saatlıq yol var. Hövsələm çatmır. Mənzil başına tez yetişmək istəyirəm.



https://www.facebook.com/groups/Kitabsever/

# 6

Doktor Armstronq öz «Morris»ini Solsberi düzənliyiylə sürürdü. Tamam əldən düşmüşdü. Uğurun əks tərəfi də olur. Bir vaxtlar Harli-stritdəki bərbəzəkli kabinetində, müasir avadanlığın içində oturub saatlarla müştəri -gözləyirdi, gələcəyin uğurlu, yaxud uğursuz olacağı barədə düşünürdü.

Onun bəxti gətirdi, uğur onun qapısını açdı. Bir də ki, təkcə bəxt kifayət eləmir, həm də yüksək səviyyəli peşəkar olmaq lazımdır. O, yüksək səviyyəli peşəkar idi, amma təkcə bu da uğur üçün kifayət etmirdi. Bunların ikisinin də birlikdə olması vacib idi. Cəmiyyətin yüksək təbəqələrində tanınan bir-iki pasient, uğurlu müalicə və budur, artıq onun adı hallanmağa başlayır. “Armstronqun yanına gedin, o, cavan olsa da, çox biliklidir. Odur, Pem bu neçə ildə daha kimlərin yanında olmamışdı, nə qədər müalicə almışdı. Amma Armstronq bir ayın içində onu sağaltdı. Sizə deyirəm, ondan yaxşısı yoxdur”.

Və işlər yavaş-yavaş qaydasına düşməyə başladı.

Beləcə, doktor Armstronq həkim kimi dəbə mindi. İndi onun günləri artıq saatbasaat tutulub. Hətta istirahətə də vaxt qalmır. Məhz buna görə də bu avqust da Londonu tərk edərək, Devon sahillərinə getməyinə çox sevindi. Düzdür, bunu tam mənada istirahət də hesab eləmək olmazdı. Nəsə müalicəylə bağlı iş olmalıydı. Amma zərfə qoyulan qonorar çox yüksək idi. Bu Onimlər, deyəsən, pullarını yığıb-yığışdıra bilmirlər. Deyəsən, qadının vəziyyəti ərini narahat edir və ondan xəbərsiz qonaq qismində həkim dəvət edib ki, hiss olunmadan qadını müayinə eləsin. Belə çıxır ki, qadın inadla həkimə getmək istəmir. Əsəbləri qaydasında deyil…

«Axx, bu əsəblər… – Doktorun qaşları yuxarı qalxdı.



https://www.facebook.com/groups/Kitabsever/

– Axx, bu qadınlar və onların əsəbləri». Əslində qadınların kaprizləri doktorun xeyrinə idi. Ona əsəblərindən -şikayətlə müraciət edən qadınların çoxunda o heç bir ciddi xəstəlik müşahidə eləmirdi, sadəcə kapriz və bekarçılıq… Əlbəttə, doktor bunu onlara demirdi, müxtəlif yüngül sakitləşdirici müalicələr aparırdı.

– Sizdə (bunun ardınca çox uzun bir tibbi termin gəlirdi) … qaydasında deyil, amma qorxulu bir şey yoxdur, bir müddət müalicə olunarsınız, hər şey qaydasına düşər.

Axı tibbdə bir çox hallarda təkcə inam müalicə edir. Doktor Armstronq isə öz işini bilirdi, sakitləşdirməyi və ruhani rahatlıq yaratmağı da çox gözəl bacarırdı.

Şükürlər olsun ki, o bədbəxt hadisədən sonra – on il, yoxsa on beş il keçib üstündən – doktor Armstronq özündə güc tapıb özünü ələ ala bildi. Təskinlik tapmaqçün sığındığı içkidən çox çətinliklə xilas oldu. Son anda bütün gücünü toplayıb problemdən qurtulmağı bacardı. İçkini də atdı…

…Qəfil avtomobil siqnalı onu çaşdırdı. Yanından aşağısı saatda yüz otuz kilometr sürətlə yeni «super sport dalmeyn» maşını keçəndə doktor sükanı yığışdıra bilmədi, az qaldı yoldan çıxıb hasara çırpılsın. Yəqin ki, kimdirsə, gözlərini yumub pedalı basan avaralardandır. Necə bezib onların əlindən. Diqqətli olmasaydı, qəzaya düşəcəkdi. Lənətə gəlsin bu avara. Belə maşın sürərlər?



https://www.facebook.com/groups/Kitabsever/

# 7

Toni Morston Mir kəndinin yanından böyük sürətlə keçəndə yolun ortasıyla sürünən köhnə maşına, deyəsən, yüngülcə toxundu. Öz-özünə deyindi ki, görəsən, tısbağa kimi sürünən bu köhnə arabalar harda çıxır, niyə tullamırlar getsin? Sürməkləri cəhənnəm, heç olmasa kənarla getsin, arxadan gələnə yol versin. Yox, tısbağa kimi düşəcək yolun ortasına, heç kimə imkan verməyəcək ki, rahat maşın sürsün. Elə bunlara görə də İngiltərənin yollarında sürücülükdə ustalıq göstərməyə imkan yoxdur. Fransanın yolları isə tamam başqa məsələdir.

«Görəsən, burda dayanıb boğazımı yaşlayım, yoxsa birbaşa sürüm? Onsuz da vaxta hələ çox var. Mənzil başına da cəmisi yüz kilometr qalıb», – o düşündü. Yox, hava çox istidir, deyəsən, bir şüşə sərin limonad içməsə yolunu davam edə bilməyəcək.

Bu adada, deyəsən, həqiqətən də yaxşı vaxt keçirtmək olacaq, əlbəttə, əgər hava korlanmasa. Maraqlıdır, görəsən, kimdir bu Onimlər? Bəlkə sadəcə pullarını xərcləməyə yer axtarırlar? Ümid eləyək ki, içki məsələsində də simiclik etməyəcəklər. Heyif ki, adanı Qabriella Terlin aldığı barədə söhbətlər yalan çıxdı. Kino ulduzlarının arasında fırlanmağı pis olmazdı. Hər halda orda yaxşı qızlar olmamış olmaz.

O, limonadını içdi, yenə də yolun qırağına çıxıb avtomobilinə baxdı. Sonra da maşının şüşəsində öz əksinə diqqət yetirdi. Uca boylu, buruq saçlı, açıq-mavi gözlü, hamar dərili – qızlara bundan artıq nə lazımdır ki?



https://www.facebook.com/groups/Kitabsever/

O, maşına oturub akseleratoru sıxdı və avtomobil kənd yoluna çıxdı. Yolda oynayan uşaqlar tez kənara çəkildilər və heyranlıqla maşını süzməyə başladılar.

Antoni Morston qürurla öz triumfal yoluna davam -elədi.

# 8

Mister Blorun Plimutda mindiyi qatar çox asta sürətlə gedirdi. Ondan başqa vaqonda cəmisi bir sərnişin vardı – gözlərinin altı tuluqlanmış bu sərxoş kişi dənizçiyə oxşayırdı. Elə indi də başını sinəsinə sallayıb yuxulayırdı. Mister Blor isə öz dəftərçəsinə səliqəylə qeydlər edir və mızıldanırdı: «Budur, bizim quşcuğazlar – Emili Brent, Vera Kleytorn, doktor Armstronq, Antoni Morston, qoca hakim Uorqreyv, Filipp Lombard, general Makartur və iki qulluqçu mister və missis Rocers».

Bloknotu qatlayıb cibinə qoydu və yenə də mürgüləyən dənizçini gözdən keçirməyə başladı. Şübhəsiz ki, səhər tezdən hardasa möhkəm içib.

Nəzərini yayındırıb, görəcəyi işləri fikrində planlaşdırmağa başladı.

Ümumiyyətlə, çətin işə oxşamırdı. Yəqin ki, problem olmayacaq. Görkəmində də şübhəli bir şey yoxdur. Qalxıb vaqonun başındakı güzgüdə özünü gözdən keçirməyə başladı. Güzgüdəki adamın görünüşündə diqqət çəkən heç nə yox idi. Sakit gözləri, balaca bığları… İstefada olan hərbiçilərə oxşayırdı.

«Məndən əla mayor çıxar, – Blor öz-özünə düşündü.

– Amma yox, axı orada həmin general da olacaq. Beş dəqiqə söhbət eləsəm, o saat başa düşəcək ki, hərbiçi deyiləm. Cənubi Afrika… – Blor düşündü. – Hə, yəqin ki, ordakıların heç biri Cənubi Afrikada olmayıb».



https://www.facebook.com/groups/Kitabsever/

Düzdür, Blor özü də Cənubi Afrika barəsində yalnız turist agentliyinin reklam jurnalında oxumuşdu, amma ona elə gəldi ki, əldə elədiyi informasiyalar özünü Cənubi Afrikadan gəlmiş iş adamı kimi qələmə verməyə kifayət edər. Orada insanlar ağla gəlməyən işlərlə də məşğul olarlar.

Zəncilər adası... Deyəsən, uşaq vaxtı bir dəfə orda -olmuşdu.

...Onun yadında qalan sahildən beş-altı kilometr aralıdakı adada pis qoxu verən hündür və qəribə qayalar olmuşdu. Adanı da məhz bu qayaların cizgilərinin enlidodaqlı insan başına bənzəməsinə görə «Zəncilər adası» adlandırmışdılar.

Blor düşündü ki, ağıllı adam belə axmaq yerdə filan qədər pul qoyub malikanə tikməz. Hava pis olanda adaya, ümumiyyətlə, yaxın getmək mümkün olmurdu. «Amma milyonçu üçün nə var ki, – Blor fikirləşdi, – istəyər tikər, istəyər satar...».

Küncdəki adam qatarın silkələnməsindən oyanıb -dilləndi:

– Dənizdə qabaqcadan heç nəyi bilmək mümkün deyil, heç nəyi...

– Siz tamamilə haqlısınız. Qabaqcadan heç nəyi bilmək mümkün deyil, – Blor təsdiq elədi.

Qoca bir neçə dəfə hıçqırıb əlavə elədi:

– Deyəsən, tufan olacaq.

– Yox, nə danışırsan, – Blor etiraz etdi. – Əla havadır.

– Amma mən sizə deyirəm ki, tezliklə tufan qopacaq.

– Qoca əsəbiləşdi, deyəsən. – Mən hiss edirəm.

– Bəlkə də haqlısınız. – Blor çox baş aparmayıb sülh bağladı.

Qatar dayananda qoca yellənə-yellənə qapıya tərəf getdi.

– Mən burda düşürəm, – dedi, amma nə qədər əlləşsə də qapını aça bilmədi, gücü çatmadı.

Blor yaxınlaşıb qapını onunçün açdı. Qoca ayağını qapıdan bayıra qoymamışdan əvvəl əllərini geniş açıb təntənəli şəkildə hansısa şeirdən bir misra dedi:



https://www.facebook.com/groups/Kitabsever/

– Ayıq olun, dua edin, məhşər günü yaxınlaşır…

Bunu deyib, perrona düşdü. Amma getmədi, ayaq saxlayıb Blora tərəf döndü, bayaqkı kimi təntənəli səslə təkrar elədi:

– Mən sizə müraciət edirəm, cavan oğlan, məhşər günü yaxınlaşır…

Mister Blor yerinə qayıdaraq fikirləşdi ki, bu qoca məhşər gününə, yəqin ki, məndən əvvəl yetişəcək…

Amma yanılırdı…

# İKİNCİ FƏSİL

## 1

Oukbric stansiyasının inzibati binasının qarşısında xeyli sərnişin tərəddüd içində dayanmışdı. Onların arxalarında isə çamadanları saxlayan fəhlələr düzülmüşdü.

Fəhlələrdən biri qışqırdı:

– Cim!

Sürücü taksidən çıxdı.

– Siz təsadüfən Zəncilər adasına getmirsiniz? – maraqlandı.

Onun sualına sərnişinlərdən dördü eyni vaxtda cavab verdi və çönüb maraqla bir-birini süzməyə başladılar.

– Burda iki taksi var. – Sürücü hamıdan yaşlı görünən hakim Uorqreyvə müraciət elədi. – Taksilərdən biri Ekseterdən gələn qatarı gözləməlidir. Ordan da qonağımız olacaq. Beş-on dəqiqəyə qatar gələcək. Kimlər çox tələsirsə bir maşınla getsin. Amma kim tələsmirsə o biri maşını gözləsin.



https://www.facebook.com/groups/Kitabsever/

Vera Kleytorn öz katibə peşəsini xatırlayıbmış kimi işgüzar tonda dilləndi.

– Eybi yox, mən qalaram. Siz gedin, – bunu deyib, o biri qonaqlara baxdı.

Miss Brent üz-gözünü turşudaraq dodaqaltı təşəkkür edəndən sonra qabaqda dayanmış taksiyə yaxınlaşdı. Taksi sürücüsü ədəblə onunçün qapını açdı.

Hakim Uorqreyv də onunla bərabər maşına oturdu.

Kapitan Lombard isə bir neçə saniyəlik tərəddüddən sonra qərar verdi:

– Mən də qalıram. Xanımı tək qoymaq yaxşı düşməz,

– bunu deyib, üzünü Veraya tutdu. – Mənim adım Lombarddır, Filipp Lombard.

– Vera Kleytorn, – qız əlini uzatdı.

Çamadanlar taksiyə yerləşdiriləndən sonra maşın yola düşdü.

Bir qədər getdikdən sonra hakim Uorqreyv əsl qanun keşikçilərinə xas ehtiyatla dilləndi.

– Bu gün çox yaxşı hava var.

– Həqiqətən də gözəl havadır, – miss Brent təsdiq -

elədi.

«Çox ləyaqətli centlmendir, – miss Brent düşündü, – yaşından bilinir ki, təqaüdə çıxmış hökumət adamıdır. Dənizkənarı pansionatlarda belələrinə rast gəlmək mümkün deyil. Deyəsən, bu miss Onyonun yüksək təbəqələrdə çox yaxşı əlaqələri var».

– Siz bu yerləri yaxşı tanıyırsınız, deyəsən. – Hakim -maraqlandı.

– Kornuollda, Torkidə çox olmuşam, amma Devon körfəzinin bu tərəfinə keçməyim birinci dəfədir.

– Mən də yaxşı tanımıram. – Hakim ah çəkdi.



https://www.facebook.com/groups/Kitabsever/

Uzaqlaşan maşının dalınca baxan o biri taksi sürücüsü üzünü Veraya tutdu.

– Bəlkə maşında əyləşəsiniz?

– Yox, ehtiyac yoxdur. – Vera qətiyyətlə etiraz elədi.

Kapitan Filipp Lombard müdaxilə elədi:

– Mənə elə gəlir ki, günəşin qızdırdığı divarlar arasında oturmaq günün altında dayanmaqdan daha yaxşıdır. Bəlkə vağzalın gözləmə zalına keçək?

– Yox, vaqondakı boğanaqdan sonra təmiz havada olmaq daha xoşdur.

– Hə, düzdür, belə havada qatarda yola çıxmaq doğrudan da yorucudur. – Lombard təsdiq elədi.

– Ümid eləyək ki, bu isti hava hələ bir neçə gün davam edəcək. – Vera nəzakətlə dilləndi. – Axı bizim havaya etibar yoxdur. Çox dəyişkəndir.

– Siz bu yerləri yaxşı tanıyırsınız? – Kapitan Lombardın sualı orijinallığı ilə seçilirdi.

– Yox, birinci dəfədir. Əvvəllər burda olmamışam.

– Vera nə fikirləşdisə, bütün məsələyə birdəfəlik aydınlıq gətirməyi ərara aldı. – Ev sahibəsiylə də tanış deyiləm. Bir dəfə də görüşməmişəm.

– Ev sahibəsi?

– Bəli. Mən missis Onimin yeni şəxsi katibəsiyəm.

– Belə de. – Lombardın sifəti elə bil bir qədər canlandı. Söhbəti daha sərbəst tərzdə aparmağa başladı. – Bəs bütün bunlar sizə qəribə gəlmir? – soruşdu.

– Burda təəccüblü nə var ki? Missis Onimin əvvəlki şəxsi katibi xəstələnib və o, agentliyə məktub yollayaraq xahiş edib ki, onunçün təzə katib göndərsinlər. Agentlikdən də məni məsləhət görüblər.

– Bəs birdən təzə sahibiniz sizin xoşunuza gəlmədi?

Vera qəhqəhə çəkdi.



https://www.facebook.com/groups/Kitabsever/

Axı mən yalnız tətil müddətində müqavilə bağlamışam. Daimi iş yerim qız məktəbidir. Bir də ki, Zəncilər adasını görməyi çoxdan arzulayırdım. Onun barəsində qəzetlərdə o qədər yazmışdılar ki... Siz bilərsiniz, ora doğrudan da bu qədər gözəldir?

– Bilmirəm. Orada olmamışam. – Lombard çiyinlərini çəkdi.

– Doğrudan? Deyəsən, Onimlər bu adanı çox sevirlər. Axı onlar necə adamdırlar? Danışın, mənə maraqlıdır.

«Axmaq vəziyyətdir, – Lombard düşündü, – görəsən, özümü onlarla tanış kimi göstərim, yoxsa yox?»

– Qolunuza arı qonub, – qızın fikrini yayındırmaq üçün dedi, – tərpənməyin, – əlini yellətdi. – Hə, qovdum. Uçub -getdi.

– Çox sağ olun, mister Lombard, bu il arı həddən artıq çoxdur.

– Hamısı istidəndir. Sizcə, biz kimi gözləyirik?

– Qətiyyən xəbərim yoxdur.

Yaxınlaşan qatarın fiti eşidildi.

– Budur, qatar gəlir. İndi bilərik gözlədiyimiz kimlərdir.


https://www.facebook.com/groups/Kitabsever/

# 2

Perronun qapısından səliqəylə qırxılmış bığları olan uçaboy, yaşlı bir kişi çıxdı. Yerişindən hiss olunurdu ki, istefada olan yüksək rütbəli hərbiçidir.

Vera ona yaxınlaşıb işgüzarlıqla:

– Mən missis Onimin katibiyəm, – dedi. – Maşın bizi gözləyir. – Həmsöhbətini göstərib əlavə elədi: – Bu da cənab Lombarddır...

Qocanın sınayıcı baxışları Lomdardı diqqətlə süzdü və ürəyində fikirləşdi ki, çox şübhəli adama oxşayır. Hərçənd ki, çox yaraşıqlı oğlandır.

Üçü də taksiyə əyləşdilər. Oukbricin əyri-üyrü küçələrini keçəndən sonra Plimut şosesinə çıxdılar, təxminən iki-üç kilometr gedəndən sonra yenə də hansısa bir kəndin dar küçələrinə daxil oldular.



https://www.facebook.com/groups/Kitabsever/

General Makartur bayıra baxaraq təəssüflə dedi:

– Mən buraları heç tanımıram. Mənim evim Devonun şərqindədir, Dorsetlə sərhəddə.

– Buralar çox gözəldir. –Vera dedi. – Təpəliklər, sarımtıl torpaq, hər yer gül açır, otluqların ətri gəlir...

– Amma mənə elə gəlir ki, bir az darıxdırıcıdır. Mən böyük düzənlikləri sevirəm. Orada heç kim gizlincə səni yaxalaya bilmir. – Filipp Lombard etiraz elədi.

– Siz, deyəsən, çox səyahət eləmisiniz. – General Lombarddan soruşdu.

– Hə, işlə bağlı çox yerlərdə olmuşam.

Lombard düşündü ki, general indi, yəqin, mənim müharibədə iştirak edib-etmədiyimlə maraqlanacaq. Bu qocaları müharibədən başqa heç nə maraqlandırmır.

Amma general müharibə barədə bir kəlmə də soruşmadı.

## 3

Hündür təpəliyi aşandan sonra onlar halqavarı torpaq yolla sahilkənarı Stikxlevn kəndinə yaxınlaşdılar. Kəndin yaxınlığında beş-altı balıqçı koması görünürdü. Qürub günəşi sahildən bir qədər aralıda, suyun içində başını qaldırmış hündür qayaları sarımtıl rəngə boyamışdı.

Və yalnız indi onlar ilk dəfə uzaqdan da olsa Zəncilər adasını görə bildilər.

– Sahildən xeyli aralıda imiş. – Vera maraqla dedi.

O, təsəvvür edirdi ki, ada sahilin yaxınlığında yerləşir, üstündəki malikanəni də xəyalında tamam başqa cür canlandırmışdı. Amma sahildən baxanda adadakı ev görünmürdü, yalnız zənci başını xatırladan hündür

qayalıqların silueti sezilirdi. Adanın görünüşündə sanki nəsə məşumluq vardı. Veranın əti ürpəşdi.

«Yeddi ulduz» mehmanxanasında onları artıq gözləyirdilər. Beli bükülmüş qoca hakim, taxta kimi dümdüz miss Brent, yekəpər və kobud görünüşlü kişi – ən birinci o irəli çıxıb özünü təqdim elədi.

– Biz qərara gəldik ki, sizi gözləyək və gəmiyə hamımız birlikdə minək. Mənim adım Deyvisdi. Əslim -Natalyadandı. Xahiş edirəm, Transvaalla səhv salmayasınız. Ha-ha-ha… – o, qəşş edərək özündən getdi.

Hakim Uorqreyv qaşlarını çataraq kişiyə baxdı. Hiss olunur ki, bu əbləhi burdan rədd eləməkçün böyük məmnuniyyətlə əmr verərdi, lakin əfsuslar olsun ki, bura məhkəmə salonu deyildi. Miss Brent isə koloniyanın gələcək sakinlərilə necə münasibət quracağı barədə hələ ki tərəddüdlər keçirirdi.

– Gəmiyə minməmişdən əvvəl boğazınızı yaşlamaq istəmirsiniz ki? – Deyvis nəzakətlə təklif elədi.

Heç kim ona cavab vermədi və Deyvis üzünü kiçik gəmiyə tərəf çevirib çiddi səslə bildirdi:

– Elə isə yubanmağa dəyməz. Ev sahibləri bizi gözləyir.

Bu sözdən sonra qonaqların üzündə çaşqınlıq müşahidə olundu. Elə bil ev sahibləri barədə informasiya onların iradəsini iflic eləmişdi.

Deyvis əli ilə işarə verdi və divarın dibində dayanmış dənizçi onlara yaxınlaşdı.

– Siz hazırsınız, cənablar? – o soruşdu. – Gəmi artıq gözləyir. Daha iki centlmen öz maşınlarında gəlməlidir, lakin mister Onim sərəncam verdi ki, onları gözləməyək, çünki nə vaxt gəlib çatacaqları dəqiq məlum deyil.

Dəstə dənizçinin dalınca düşərək körpüyə söykənmiş kiçik gəmiyə yaxınlaşdı.

– Necə də balacadır. – Emili Brent narazılıqla dilləndi.

– Əla gəmidir, – dənizçi etiraz elədi. – Gözünüzü yumub açanacan Zəncilər adasına çatacağıq.



https://www.facebook.com/groups/Kitabsever/

– Deməli, hər şey qaydasındadır. – Filipp Lombard müdaxilə elədi. – Hava yaxşıdır. Dəniz sakitdir.

Miss Brent qabağa düşdü, o birilər də onun ardınca gəmiyə mindilər.

Dənizçi gəmini körpüyə bağlayan kəndiri açan məqamda qəfildən əl saxladı. Təpəliyin üstündən kəndə düşən yolda avtomobil peyda oldu. Onun həm yaraşıqlı zahiri görünüşü, həm də sürətlə hərəkət eləməsi sahibi barədə çox şey deyirdi. Avtomobil yaxınlaşanda gəmidəkilər gördülər ki, sükan arxasında gənc bir oğlan əyləşib. Qürub günəşinin şüaları onu Skandinaviya saqalarındakı tanrılara bənzədirdi. Cavan oğlan siqnalı basdı və siqnal səsi qayalarda əks-səda verdi.

Antoni Morston həmin an hamıya göydən enmiş mələk timsalında görünmüşdü və bu lövhə hələ uzun müddət qonaqların yaddaşından silinmirdi.

## 4

Fred Narrokot mühərrikin yanında əyləşərək qonaqları süzüb fikirləşirdi ki, çox qəribə kompaniya əmələ gəlib. Cənab Onimin qonaqlarını o nədənsə tamam başqa cür təsəvvür edirdi – daha elitar, daha dəbdəbəli.

Misalçün cənab Elmer Rolstonun qonaqları tamam başqaydılar. Fred Narrokot o günləri xatırlayıb gülümsündü. Lənət şeytana, əla istirahət elədilər, kalan da içdilər.



https://www.facebook.com/groups/Kitabsever/

Bu cənab Onim isə deyəsən, tamam başqa adamdır. «Maraqlıdır, – Fred düşündü, – nə cənab Onimi, nə də onun xanımını bircə dəfə də görməmişəm. Axı o, bir dəfə də bu tərəflərə keçməmişdi. Hər şeyi mister Morris həll edirdi, sərəncamları o verir, pulu da o ödəyirdi».

Qəzetlərdə yazırdılar ki, cənab Onimlə nəsə böyük bir sirr bağlıdır. «Deyəsən, həqiqətən də belədir», – Fred -düşündü.

Bəlkə adanı həqiqətən də miss Qabriella Terl alıb? Amma qonaqları diqqətlə nəzərdən keçirəndən sonra Fred başa düşdü ki, bu ağlasığmazdır. Kino ulduzu heç vaxt belə bir kompaniya ilə oturub-durmaz.

Fred yenə də qonaqları süzməyə başladı. Sirkə kimi tünd yaşlı qadın. Gözləri də qəzəbli. Hələ bəlkə heç ərə də getməyib. Fred belələrini çox görmüşdü. O, enlikürək qoca da, yəqin ki, hərbiçi olub. O qız da pis deyil, yaraşıqlıdır, ancaq Hollivud ulduzuna rəfiqə olacaq səviyyədə deyil. O üzügülər centlmen isə deyəsən, heç ümumiyyətlə, centlmen deyil. Daha çox şəhər alverçilərinə bənzəyir. Amma o biri, qaşqabaqlı centlmendə isə nəsə bir sirr var. Əsl kino adamına məhz o oxşayır.

Bütün bu kompaniyanın içində kino ulduzuyla dostluğa layiq olan yalnız öz idman maşınında gələn o cavan oğlandır. Amma maşına həqiqətən də söz ola bilməzdi. Stikxlevndə bu vaxtacan, deyəsən, ümumiyyətlə, bu cür avtomobil olmayıb. Yəqin ki, neçə min funt qiyməti var. Bax, bu, həqiqətən də yüksək səviyyəli qonaqdır. Pulunu da balta kəsmir. Əgər bütün qonaqlar bu cür olsaydı, onda, yəqin, istirahətləri də tamam başqa cür olardı.

## 5

Adamla dolu kiçik gəmi qayalıqların arasından burulub keçdi və bir azdan adaya yaxınlaşdı. Adanın cənub tərəfi şimal sahilindən fərqli olaraq daha sıldırımlı idi. Malikanə şimal sahilində tikilmişdi. Müasir ev idi, dairəvi pəncərələri vardı. Gözəl malikanə idi. Hər halda qonaqların, deyəsən, hamısının xoşuna gəlmişdi.

Fred Narrokot sahildəki kiçik körpüyə yan alıb mühərriki söndürdü.

– Hava pis olanda, yəqin ki, bura yan almaq da çətin olur? – Filipp Lombard soruşdu.



https://www.facebook.com/groups/Kitabsever/

– Şimal-şərq küləyi əsəndə Zəncilər adasına yaxınlaşmaq olmur. – Fred Narrokot nədənsə şən əhval-ruhiyyəylə cavab verdi. – Ada həftələrlə dünyadan təcrid olunmuş olur.

Vera Kleytorn düşündü ki, ərzaq təminatıyla bağlı, yəqin ki, çətinliklər olacaq. Belə adaların çətinliyi odur ki, təsərrüfatı idarə eləmək asan olmur.

Gəmi körpüyə yan alandan sonra Fred Narrokot Lombardla birlikdə gəmidən birinci düşdülər və o birilərə də düşməyə kömək elədilər. Sonra qonaqlar qayalıqlarda səliqəylə çapılmış pilləkənlərlə yuxarı qalxmağa başladılar.

– Görünüşü pis deyil. – General Makartur qeyd elədi. Amma ürəyində qəribə narahatçılıq vardı. – «Çox qəribə yerdir», – deyə fikirləşdi.

Amma pilləkənləri qalxıb evin qarşısındakı meydançaya çatan kimi hamının kefi kökəldi. Taybatay açılmış -qapının qarşısında dayanmış təmtəraqlı geyimli qulluqçunun görkəmi hamıya sakitləşdirici təsir  göstərmişdi. Elə ev də çox gözəl idi, meydançadan əla dəniz mənzərəsi açılırdı.

Arıq, uca boylu, ağ saçlı qulluqçu qonaqların qarşısına yeridi.

– Xoş gəlmisiniz, buyurun içəri, – deyib qonaqları içəri dəvət elədi.

Uzun hollda Antoni Morstonun diqqətini divarın dibindəki içki qutuları cəlb elədi. Onun eyni açıldı.

Qonaqlara baxıb düşündü ki, görəsən, bu tipləri hardan tapıblar? Görəsən, mənimlə onların arasında ümumi nə var? Sarışın məni bura dəvət edəndə, görəsən, nə düşünürdü? Amma bircə o yaxşıdır ki, deyəsən, içki sarıdan qıtlığımız olmayacaq. Qulluqçu kişinin sözləri onu fikirdən ayırdı.

– Mənim adım Rocersdir. Həyat yoldaşımla birlikdə burda xidmət edirik. Təəssüf ki, cənab Onim vacib işlə əlaqədar yubanmalı olacaq. O yalnız sabah gələcək. Mənə tapşırılıb ki, qonaqları qəbul edib yerləşdirim. Buyurun, otaqlarınızı sizə göstərim. Şam yeməyi saat doqquzda veriləcək.



https://www.facebook.com/groups/Kitabsever/

# 6

Vera missis Rocersin ardınca yuxarı qalxdı. Qulluqçu qadın qalacağı otağın qapılarını Vera üçün açıb kənara çəkildi. Qız içəri girəndə otağın görünüşündən valeh oldu. Pəncərələri dənizə açılan çox gözəl bir yataq otağıydı.



https://www.facebook.com/groups/Kitabsever/

– Mənə elə gəlir ki, sizə lazım olan hər şey bura qoyulub. Əlavə bir şey lazım deyil ki? – qulluqçu qadın soruşdu.

Vera çönüb gördü ki, artıq onun çamadanını da gətirib otağa qoyublar. O, çamadanını gözdən keçirib mavi kafellə döşənmiş vanna otağına daxil oldu.

– Hə, hər şey var.

– Əlavə nəsə lazım olsa xəbər eləyin.

Miss Rocersin səsində qəribə bir tutqunluq, sönüklük vardı. Vera maraqla onu gözdən keçirməyə başladı. Sifətinin dərisi solğun, gözləri batıq – lap kabusa oxşayır. Saçları yığılıb, əyninə qara paltar geyinib. Bircə göz bəbəkləri narahatlıqla oynayırdı.

«Deyəsən, öz kölgəsindən də qorxur». – Vera düşündü.

Deyəsən, qız haqlı idi. Missis Rocers elə bil həqiqətən də nədənsə qorxmuşdu… Veranın bədənindən üşütmə keçdi ki, görəsən, bu qadın nədən qorxur?

Təbii ki, Vera düşündüklərini dilinə gətirmədi.

– Mən missis Onimin yeni katibəsiyəm. Yəqin ki, sizin xəbəriniz var.

– Yox, miss, mən bu barədə bir şey bilmirəm. – Missis Rocers çiyinlərini çəkdi. – Mən yalnız qonaqların adları və yerləşdiriləcəkləri otaqların nömrəsi olan siyahı almışam.

– Bəs missis Onim bu barədə özü sizə bir şey deməyib? – Vera təəccüblə soruşdu.

– Yox, mən onu görməmişəm. – Missis Rocers cavab verdi. – Biz cəmisi iki gün əvvəl işə qəbul olunmuşuq.

Vera düşündü ki, Onimlər ailəsi kimi qəribə tiplərlə, deyəsən, ilk dəfə rastlaşır. Ətrafı maraqla süzüb soruşdu.

– Bəs evdə başqa qulluqçular yoxdur?

– Yox, yalnız ərimlə mənəm.

Vera təəccüblə qaşlarını qaldırdı. «Ev sahibəsiylə birlikdə on nəfər və cəmisi iki qulluqçu. Az deyil?» – deyə düşündü.

– Mən çox yaxşı bişirirəm. – Missis Rocers, deyəsən, Veranın nə düşündüyünü hiss elədi. – Rocers ilə ev işlərinin öhdəsindən gəlirəm. Amma etiraf edim ki, onların bu qədər qonaq çağıracaqlarını düşünməmişdim.

– Deyirsiniz yəni çatdırmazsınız? – Vera soruşdu.

– Narahat olmayın. Hər şey qaydasında olacaq. – Qadın onu sakitləşdirməyə çalışdı. – Əgər ev sahibləri yenə də qonaq çağıracaqlarsa, yəqin ki, əlavə qulluqçular da gələcək.

– Ümid edirəm ki, məhz siz deyən kimi olacaq. – Vera dedi.

Missis Rocers sakitcə otaqdan çıxdı.

Vera isə pəncərəyə yaxınlaşıb çərçivəyə söykəndi. Onun içinə qəribə narahatlıq çökdü. Burda elə bil qəribə bir sirr gizlənmişdi. Həm Onimlərin yoxluğu, həm də missis Rocersin qəribə görkəmi.

Qonaqlar barədə isə heç danışmağa da dəyməzdi. Çox qəribə kompaniya yığılıb. Vera əvvəlcədən Onimlərlə tanış olmamağına təəssüfləndi: «Heç olmasa kimliklərini bilərdim».

O qalxıb otaqda narahatlıqla gəzişməyə başladı. Ultramüasir üslubda düzəldilmiş çox gözəl yataq otağıdır. Döşəmədəki parıldayan parketin üstünə krem rəngli -xalçalar salınıb. Divarda uzun güzgü kaminin üstündə isə mərmərdən düzəldilmiş ayı fiquru var. Ayının böyründə saat yerləşdirilib. İlk baxışdan adama elə gəlir ki, ayı sol əli ilə saatı qucaqlayıb.

Saatın üstündəki dəmir çərçivənin içində isə perqament parçası görünür. Perqamentdə şeir parçası var.

Vera yaxınlaşıb yazını oxudu və o saat da uşaqlığını xatırladı. Uşaq vaxtı gizlənqaç oynayarkən dedikləri şeir idi:

On zənci balası nahara getdi,

Birisi boğuldu, aradan itdi.

Doqquz zənci balası çox yedilər,

Birisi yuxudan durmadı səhər.

Səkkiz zənci balası Devona qaçdı,

Biri qayıtmadı, qayadan uçdu.

Yeddi zənci balası odun doğradı,

Balta kəsdi birini, altısı qaldı.

Altı zənci balası gəzməyə çıxdı,

Birini arı sancıb tez göyə qalxdı.

Beş zənci balası məhkəmə qurdu,

Biri cəzalandı və qaldı dördü.

Dörd zənci balası dənizdə çimdi,

Biri tora düşdü, bilmədi kimdi.

Üç zənci balası heyvanxanada,

Birini ayı yedi, düşmədi yada.

İki zənci balası gündə uzandı,

Birini gün yandırdı, yandırdı, bircəsi qaldı.

Son zənci balası yoruldu nəsə,

Gedib özünü asdı, qalmadı kimsə.



https://www.facebook.com/groups/Kitabsever/

Vera gülümsündü. Məlum məsələdir: Zəncilər adası, divarda da belə şeir. O yenə də pəncərəyə yaxınlaşıb şüşəni açdı. Onun qarşısında sonsuz dəniz görünürdü. Adanın bu istiqamətində torpaq gözə dəymirdi. Üfüqə qədər yalnız dəniz, qürub günəşinin qızılı rəngə boyadığı dəniz...

Dəniz... bu gün yaman sakitdir. Elə bil adamı özünə, içinə çəkir. Adam lap dənizdə batmaq istəyir... Budur, suda doğulmuş bir adam tapırlar. Boğulub, batıb... Yox, yox, Vera bunları xatırlamamağa çalışacaq. Bütün bunlar arxada qalıb. Uzaq keçmişdə...

# 7


https://www.facebook.com/groups/Kitabsever/

Doktor Armstronq Zəncilər adasına qürubdan sonra gəlib çatdı. Yolda gəmiçiylə söhbət elədi, adanın sahibləri barədə məlumatlar yığmağa çalışdı, amma Narrokot, qəribə də olsa, heç nə bilmirdi, bəlkə də bildiyini demək istəmirdi. Ona görə də doktor Armstronq təbiətin -müzakirəsiylə və balıqçılara tamaşa eləməklə kifayətlənməyə məcbur oldu.

O, sükan arxasında neçə saat oturmuşdu və bu onu tamam əldən salmışdı. Bütün günü üzü qərbə maşın sürmüşdü və gün üzünə döymüşdü. Əl-ayağı süstləşmişdi. Dəniz və tam sakitlik – bu saat ən çox arzuladığı bunlar idi. Əlbəttə, bir müddət dincəlmək pis olmazdı, amma bu o qədər də asan deyildi. İşlərdən uzun müddət kənarlaşsaydı, müştərilərini itirmək təhlükəsiylə üzləşəcəkdi. Məhz indi, uğura əlini çatdırdığı bir vaxtda, qazandıqlarını itirmək heç yerinə düşməzdi. Bütün bunlara baxmayaraq, doktor Armstronq sevinirdi ki, heç olmasa bir neçə günlük Londonu, Harli-striti unuda biləcək.

«Ada» sözünün özündə çox qəribə bir cəlbedicilik var. Adada yaşayarkən kənar aləmlə əlaqəni tam itirirsən. Ada öz-özlüyündə ayrı bir dünyadır. Elə bir dünyadır ki, ordan hətta qayıtmamaq da mümkündür. Doktor düşünürdü ki, indi gündəlik qayğıları bir neçə günlük də olsa unutmaq yaxşı olardı. Hesab edim ki, mən daha heç vaxt Londona qayıtmayacam. Onun dodaqlarında təbəssüm peyda oldu, xəyalında gələcəklə bağlı planlar qurmağa başladı.

Doktor Armstronq gəmidən düşüb qayalıqda çapılmış daş pilləkənlərlə yuxarı, malikanəyə tərəf qalxanda da dodaqlarındakı gülüş hələ çəkilməmişdi.

Evin qarşısındakı meydançanın kənarında, kresloda oturmuş qocanın sifəti doktora tanış gəldi. Görəsən, bu qurbağa sifəti, tısbağa boyunu, donuq gözləri harda görə bilərdi?

Hə, hə, axı bu, hakim Uorqreyvdir. Bir dəfə onun apardığı bir prosesdə doktor Armstronq şahid qismində dindirilmişdi. Hakimin görkəmi bir qədər yorğun, yuxulu görünsə də heç kim onu aldada bilmirdi, kimin yalan, kimin doğru danışdığını elə bil saçlarının tükləriylə hiss edirdi. İclasçılara da təsiri böyük idi. Deyirdilər ki, istənilən iclasçı heyətini öz istədiyi qərarı çıxartmağa məcbur edə bilər. Neçə dəfə olmuşdu ki, hamı


https://www.facebook.com/groups/Kitabsever/

müttəhimin bəraət alacağını gözlədiyi halda Uorqreyv ona ən sərt cəzanı vermişdi. Əbəs yerə ona «Mantiyalı dar ağacı» ləqəbini -verməmişdilər.

Kimi, kimi, amma məhz hakim Uorqreyvi burada görəcəyi doktor Armstronqun qətiyyən ağlına gəlmirdi.


https://www.facebook.com/groups/Kitabsever/

# 8

Hakim Uorqreyv başını qaldırıb təzə qonağı görcək fikirləşdi: «Armstronq da burdadır? Yadımdadır, o necə ehtiyatla və düşünülmüş şəkildə ifadə verirdi. Bütün həkimlər maymaqdır. Harli-stritdəkilərə isə heç çatan olmaz».

Lakin təbii ki, düşündüklərini dilinə gətirmədi. Əvvəl salamlaşdı, sonra isə hollu göstərdi.

– İçkilər ordadır.

– Çox sağ olun. Amma əvvəlcə gərək ev sahibləriylə -salamlaşım.

Hakim Uorqreyv gözlərini yumaraq başını tərpətdi və nədənsə bu jesti onu kərtənkələyə oxşatdı.

– Bu mümkün deyil.

– Niyə? – doktor Armstronq heyrətlə qocaya baxdı.

– Nə ev sahibi, nə də ev sahibəsi burda yoxdur.

Doktor Armstronq gözlərini geniş açaraq təəccüblə qocaya baxmağa başladı. Amma hakim bir müddət gözlərini açmadı. Doktor elə bildi ki, onu yuxu aparıb. Qoca qəfildən dilləndi:

– Siz Konstansiya Kalminqtonu yaxşı tanıyırsınız?

– Təəssüf ki, heç tanımıram.

– Eybi yox, bu o qədər də vacib deyil. – Hakim dedi. – Çox dağınıq qadındır, səhlənkardır, xəttini də ki, ümumiyyətlə, normal oxumaq mümkün deyil. Bayaqdan mənə elə gəlir ki, deyəsən, səhv gəlmişəm.

Doktor Armstronq başını yellədib evə keçdi.

Hakim Uorqreyv isə hələ bir müddət Konstansiya Kalminqton barədə düşündü. Etibarsız qadındır. Lakin məgər qadınlar etibarın nə olduğunu bilirlər? Və qeyri-ixtiyari gözünün qarşısında bura gələrkən tanış olduğu qadınlar canlandı – yaşlı, qaşqabaqlı qadın və gənc üzügülər qız.



https://www.facebook.com/groups/Kitabsever/

Qız o qədər də ürəyinə yatmamışdı. O saat bilinirdi ki, müasir yelbeyin qızlardandır. «Amma yox, – hakim fikirləşdi, – burda iki yox, üç qadın var. Qulluqçu Rocersin arvadını da nəzərə almaq lazımdır. Qəribə qadındır. Elə bil bütün günü nədənsə qorxur. Yeriyəndə də ayaqlarını döşəməyə yavaş basır, sanki hansısa kabusları oyatmaqdan çəkinir».

Elə bu vaxt qapı açıldı və qulluqçu Rocers meydançaya çıxdı.

– Rocers, – hakim soruşdu, – qonaqların arasında ledi Konstansiya Kalminqtonun adıyla rastlaşmamısınız ki?

Rocers təəccüblə qocaya baxdı.

– Yox, cənab, belə adam xatırlamıram.

Hakim təəccüblə qaşlarını qaldırdı. Amma heç nə demədi. Deyəsən, buranın Zəncilər adası adlandırılmağı əbəs deyil. Hər şey zənci dərisi kimi qaranlıqdır.


https://www.facebook.com/groups/Kitabsever/

# 9

Antoni Morston vanna qəbul edirdi. İsti suyu geninə-boluna işlədəndən sonra, nəhayət ki, ayağa qalxıb vannadan çıxdı. Sükan arxasında uzun müddət oturmaq onu əldən salmışdı. Hətta düşüncələri də ona ağırlıq gətirirdi. Yeni hisslər, yeni duyğular istəyirdi. Axı Antoni bütün ömrü boyu maraqlı duyğuların ovçusu olmuşdu.

Bir müddət yataqda uzandı. Artıq fikirləri beynindən çıxartmağa çalışdı. «Eybi yox, – düşündü, – kokteyldən sonra, yəqin ki, özümə gələrəm. Yəqin süfrə arxasında kifayət qədər içki olacaq... Bəs sonra?»


https://www.facebook.com/groups/Kitabsever/

# 10

Mister Blor qalstukunu bağlayırdı. Həmişə bu işə xeyli vaxtı gedirdi, heç vaxt vərdiş edə bilmirdi. Nəhayət, qalstuku bağlayandan sonra güzgü qarşısına keçdi. Deyəsən, düz bağlamışdı.

Onunla burda çox da mehriban davranmırdılar. Şübhəli şəkildə elə baxışırdılar ki, elə bil hər şeyi bilirdilər. Yox, heç nə bilə bilməzlər. Əlbəttə ki, hər şey onun özündən asılı idi. O öz işini çox yaxşı bilirdi və öhdəsindən də gələcəkdi. Başını qaldırıb kaminin üstündə çərçivəyə keçirilərək asılmış balaca şeirə baxdı. Uşaq vaxtı dəstə oyunlarında bundan çox istifadə edirdilər. On zənci vardı, biri öldü, sonra o birisi, sonra üçüncüsü, sonra dördüncüsü... nəhayət, biri qaldı, o da özünü asdı. «Öz aramızdır, çox axmaq şeirdir», – Blor düşündü və uşaq vaxtı bura səfərini xatırladı. Atasıyla gəlmişdilər, birgünlük.

Sonra yenə düşüncələrini bu günün üstünə qaytardı: «Heç vaxt ağlıma gəlməzdi ki, bu adada elə bir işlə məşğul olmalı olacam. Hər nədirsə, uğurlu iş olmalıdır. Yaxşı da mənfəət gözlənilir».


https://www.facebook.com/groups/Kitabsever/

## 11

General Makartur qaranlıq fikirləri heç cür başından çıxara bilmirdi.

«Hər şey çox qəribədir, lənət şeytana. Heç də onun gözlədiyi kimi deyil. Əgər imkan olsaydı, elə bu gün bir bəhanə tapıb gedərdim. Burda bir dəqiqə də qalmazdım. Amma gəmi getdi, onunçün də istər-istəməz qalmalıyam. Bu Lombard isə çox şübhəli tipdir. Avaranın biridir. Əsl tüfeyli, avara...».


https://www.facebook.com/groups/Kitabsever/

## 12

Onları şam yeməyinə dəvət edən qonqun səsini eşidən kimi Filipp Lombard cəld otaqdan çıxdı və pilləkənə tərəf getdi. O, çox səssiz və yüngül hərəkət edirdi. Ümumiyyətlə, onun davranışında yaquar cizgiləri sezilirdi. Həqiqətən də Filipp Lombard bu gözəl və plastik vəhşini çox xatırladırdı.

«Cəmisi bir həftə, – o, pilləkənləri düşərək düşünürdü, – artıq yox. Yəqin ki, darıxmağa vaxt da olmayacaq».


https://www.facebook.com/groups/Kitabsever/

# 13

Şam yeməyi üçün qara ipək paltarını geyinən Emili Brent kresloda oturub İncil oxuyurdu.

Dodaqları səssizcə tərpənirdi.

«Xalqlar uçuruma yuvarlandılar. Öz qazdıqları uçuruma. Ayaqları öz toxuduqları tora ilişdi.

Tanrı yalnız məhşər günündə tanındı. Günahkarlar əməlinə görə cavab verməli oldular. Məhşər günündən üzüağ çıxa bilməyənlər cəhənnəmə vasil oldular».

O, dodaqlarını sıxdı və kitabı bükdü. Elə bu vaxt şam yeməyinə səsləyən qonqun səsi eşidildi. Emili Brent üstündə boz rəngli iri qaş olan sancağı yaxasına vurub otaqdan çıxdı və şam yeməyinə düşdü.


https://www.facebook.com/groups/Kitabsever/

# ÜÇÜNCÜ FƏSİL

## 1

Şam yeməyi sona çatırdı. Yemək doğrudan da əla hazırlanmışdı, şərablar da yüksək səviyyəli idi. Rocersin qulluq göstərməyində də heç bir qüsur ola bilməzdi.

Qonaqların kefi yavaş-yavaş açılır, dilləri işə düşürdü. Hakim Uorqreyv yüngül portveyndən sonra rahatlanaraq nəsə maraqlı bir məhkəmə prosesindən danışırdı. Doktor Armstronq ilə Antoni Morston diqqətlə ona qulaq asırdılar. Miss Brent isə general Makarturla hansısa ümumi tanışları barədə danışırdılar. Vera Kleytorn mister Deyvislə bir kənara çəkilərək ona Cənubi Afrika barədə suallar verirdi. Lombard da onların söhbətinə qulaq asırdı, ara-sıra isə stol ətrafındakıları şübhəli nəzərlərlə süzürdü.

– Görün necə maraqlı fiqurlardır. – Birdən Antoni Morston dilləndi.

Dairəvi çay stolunun ortasındakı şüşə altlığın üstünə qara rəngli balaca zənci fiqurları qoyulmuşdu.

– Məlum məsələdir. – Antoni əlavə elədi. – Axı bura Zəncilər adasıdır. Zənci balaları da mütləq olmalıdır.

Vera stolun üstünə əyilərək fiqurları daha da diqqətlə gözdən keçirtməyə başladı.

– Görəsən, neçə dənədir? On dənə...

– Hə, düz on dənə.

– Necə də gülməlidirlər. – Vera özü də gülümsündü.

– Uşaq vaxtı gizlənqaç oynayanda sayırdıq. On zənci balası... Mənim otağımda divardan asılıb bu şeir.

Lombard dedi:

– Məndə də.

– Məndə də.

– Məndə də, – səslərin xoru eşidildi.

– Maraqlıdır, deyilmi? – Vera dedi.

– Uşaqlar üçündür. – Hakim Uorqreyv başını yellətdi və özünə portveyn süzdü. – Biz uşaq olanda belə şey yox idi.

Emili Brent ilə Vera Kleytorn baxışdılar və birlikdə yerlərindən qalxıb pəncərənin qarşısına keçdilər.

Ləpədöyənə çırpılan dalğaların səsi otağın açıq pəncərəsindən içəri daxil olurdu.

– Dənizin səsini sevirəm. – Emili Brent dedi.

– Mənsə nifrət edirəm. – Vera başını tərpətdi.

Emili Brent təəccüblə ona baxdı və Vera öz hisslərini gizlətməyə çalışaraq laqeydliklə çiyinlərini çəkdi.

– Mənə elə gəlir ki, küləkdə burda qalmaq heç də yaxşı olmaz.

Qadın razılaşdı.

– Amma əminəm ki, qışda burda qalan olmaz, – dedi, – yəqin qapı-pəncərəni bağlayıb gedirlər. Ən azı ona görə ki, qışda heç bir pula burda qulluqçu saxlamaq olmaz.

Vera mızıldandı.

– Məncə, ümumiyyətlə, adada qalmağa razı olan qulluqçu tapmaq çətindir, istər qışda, istər yayda.

Emili Brent yenə etiraz etmədi.



https://www.facebook.com/groups/Kitabsever/

– Miss Onyonun qulluqçu baxımından bəxti gətirib. Missis Rocers əla bişirir.

Vera düşündü ki, qoca adamlar həmişə adları səhv -salırlar.

– Tamamilə razıyam. – Vera başını tərpətdi. – Missis Onimin həqiqətən də bəxti gətirib.

Çantasından toxumaqçün milləri və yun sap irpası çıxaran miss Brent birdən-birə heyrətləndi.

– Onim? Siz Onim dediniz? – bir də soruşdu.

– Hə...

– Axı mən heç bir Onim tanımıram. – Emili Brent bunu deyib ətrafda oturanlara baxdı.

Vera qaşlarını qaldırıb ona zilləndi.

– Bəs axı...

Qız sözünü bitirməyə macal tapmadı, qapı açıldı, əlində iri sini və qəhvədan olan Rocers içəri daxil oldu.

Hakim miss Brentə yaxın əyləşdi. Armstronq isə Verayla oturdu. Antoni Morston pəncərəyə yaxınlaşdı. Blor stolun üstündəki zənci fiqurlarına zilləndi. General Makartur kaminə söykənərək bığlarını eşirdi. Bundan yaxşı nahar təsəvvür etmək mümkün deyildi. Generalın kefi əməllicə açılmışdı.

Lombard isə divarın dibindəki stolun üstündəki jurnalların arasından «Panç»ın yeni sayını götürərək vərəqləməyə başladı.

Rocers qəhvə fincanlarını qonaqların qarşısına düzməyə başladı. Qəhvə tünd və çox dadlı idi. Yüksək səviyyəli nahardan sonra qonaqlar həm özlərindən, həm də həyatdan razı görünürdülər. Saat ona iyirmi dəqiqə qaldığını göstərirdi. Qəhvədən sonra araya rahatlıq gətirən bir sükut çökdü.

Və qəfildən naməlum bir SƏS sükutu pozdu. Ürəyi üşüdən bu səs sanki qış şaxtası kimi içəridəkilərin üstünə hücum çəkdi.

– Xanımlar və cənablar. Xahiş edirəm, sakit olun.



https://www.facebook.com/groups/Kitabsever/

Hamı diksindi. Ətrafa və bir-birinə nəzər saldılar.

Görəsən, bu səs hardan gəlirdi.

Səs isə qətiyyətli bir tonda davam edirdi.

– Sizə aşağıdakı ittihamlar irəli sürülür:

Eduard Corc Armstronq, siz 14 mart 1925-ci ildə vəfat etmiş Luiza Meri Kliisin ölümündə günahlandırılırsınız.

Emili Karolina Brent, siz 5 noyabr 1931-ci ildə vəfat etmiş Beatris Teylorun ölümündə günahlandırılırsınız.

Uilyam Henri Blor, siz 5 noyabr 1931-ci ildə Ceyms Stiven Landorun ölümünə səbəb olmusunuz.

Vera Elizabet Kleytorn, siz 11 avqust 1935-ci ildə Siril Oqilvi Hamiltonu öldürmüsünüz.

Filipp Lombard, siz 1932-ci ilin fevralında Şərqi Afrika qəbiləsindən olan 20 nəfərin ölümünə şərait yaratmısınız.

Con Qordon Makartur, siz 4 fevral 1917-ci ildə arvadınızın məşuqu Artur Riçmondu qəsdən ölümə göndərmisiniz.

Antoni Ceyms Morston, ötən ilin noyabrında siz Con və Lüsi Kombsları qətlə yetirmisiniz.

Tomas və Etel Rocers, siz 6 may 1929-cu ildə Cenifer Breydinin ölümünə səbəb olmusunuz.

Lorens Con Uorqreyv, siz 10 iyun 1930-cu ildə Eduard Sittonun ölümündə günahkarsınız.

Müttəhimlər, siz öz bəraətiniz üçün nə deyə bilərsiniz?



https://www.facebook.com/groups/Kitabsever/

## 2

Səs kəsildi.

Salona bir anlıq qəbir sükutu çökdü, bunun ardınca cingilti eşidildi. Rocers əlindəki sinini yerə saldı. Elə bu an da dəhlizdən tappıltı səsi gəldi. Elə bil kimsə yıxıldı.

Ən birinci Lombard özünə gəldi, cəld dəhlizə atıldı, qapını açanda döşəmədə uzanmış missis Rocersi gördü.

– Morston... – Lombard qışqırdı.

Antoni onun köməyinə gəldi, onlar qadını birtəhər qaldırıb salona gətirdilər. Doktor Armstronq da cəld onların yanına gəldi, qadını divana uzandırmağa kömək elədi və onun üstünə əyilərək nəfəsini yoxlamağa başladı.

– Qorxulu heç nə yoxdur. – Doktor dedi. – Sadəcə huşunu itirib. İndi özünə gələr.

Lombard özünü itirmiş Rocersə baxdı.

– Konyak gətirin.

Rəngi təbaşir kimi ağarmış və əlləri əsən Rocers dili dolaşa-dolaşa dedi:

– Bu saat, ser, bu saat.

Bunu deyib otaqdan çıxdı.

– Axı bu kimin səsiydi? – Vera özünü saxlaya bilmədi.


https://www.facebook.com/groups/Kitabsever/

– Hardadır bu adam? Onun səsi elə bil, elə bil...

– Lənət şeytana, bu nədir axı? – General Makartur sanki pələng kimi nərildədi. – Bu axmaq zarafat kimin işidir axı?

Onun əlləri əsirdi, beli bükülmüşdü. Elə bil bir dəqiqənin içində on il qocalmışdı.

Blor dəsmalla üzünü silirdi. Yalnız hakim Uorqreyv və miss Brent nisbətən sakit görünürdülər. Taxta kimi dümdüz olan Emili Brentin oturuşunun bir cizgisi də dəyişməmişdi. Başını həmişəki kimi dik tutmuşdu. Yalnız yanaqlarına yüngül qızartı çökmüşdü. Hakim də həmişəki pozasında oturub barmağıyla qulağını qaşıyırdı. Amma diri və çevik baxışları otaqdakıların üstündə dolaşırdı.

Yenə də ilk olaraq Lombard özünə gəldi. Doktor Armstronq missis Rocerslə məşğul olduğu vaxtda Filipp yenə də təşəbbüsü ələ aldı.

– Mənə elə gəldi ki, səs o biri otaqdan gəlir.

– Görəsən, bu kim ola? – Vera yenə də özünü saxlaya bilmədi. – Məlum məsələdir ki, bu, bizlərdən biri deyildi.

Lombardla birgə hakim də otağı süzməyə başladı. Açıq pəncərəyə diqqət eləsələr də, hər ikisi başa düşdü ki, səs bayırdan gələ bilməz. Qəfildən Lombardın gözləri parıldadı, tez o biri otağa aparan qapıya yaxınlaşdı, ani tərəddüddən sonra qapını açıb içəri boylandı və dedi:

– Əlbəttə ki, lənət şeytana, əlbəttə ki, burdadır... – Otaqdakılar onun səsini eşitdilər.

Hamı tələsik ora cumdu, yalnız miss Brent ümumi axına qoşulmayaraq yerində qaldı.

O biri otağın qapısının yanında kiçik stol qoyulmuşdu. Onun üstündə köhnə üslublu qrammofon vardı. Lombard qrammofonun iynəsini yenə əvvələ qoydu və yayı burmağa başladı. Qonaqlar divardakı xırda deşikləri görəndə başa düşdülər ki, bunlar məhz səsin o biri otaqda aydın eşidilməsi üçün açılıb.

Lombard qrammofonun yayını burub qurtarandan sonra iynəni plastinkanın üstünə qoyub düyməni basdı. Otağı yenə də müdhiş səs bürüdü.

«Sizə qarşı aşağıdakı ittihamlar irəli sürülür…».



https://www.facebook.com/groups/Kitabsever/

– Söndürün onu. Bu saat söndürün. – Özünü saxlaya bilməyən Veranın vahiməli qışqırığı eşidildi. – Bu, dəhşətdir, əsl dəhşət…

Lombard qızın dediyinə əməl edərək qrammofonu söndürdü. Doktor Armstronq rahatlıqla nəfəs aldı.

– Məncə, bu, çox axmaq və mənasız bir zarafat idi.

– Doktor yavaşca dilləndi.

– Sizcə, bu, sadəcə zarafat idi? – Hakim Uorqreyv sakit, lakin qətiyyətli səslə soruşdu.

– Başqa nə ola bilər ki? – doktor onun üzünə zilləndi.

– İndiki durumda mən bu məsələylə bağlı fikir yürütməyə çətinlik çəkirəm. – Hakim bunu deyib, fikirli halda dodaqlarını çeynəməyə başladı.

– Dayanın, – Antoni Morston onların sözünü kəsdi.

– Ən azı bu zəhrimara qalmış qrammofonu kimsə yandırmalıydı axı. Öz-özünə işə düşə bilməzdi.

– Siz haqlısınız, – hakim Uorqreyv təsdiq elədi. – Bunu aydınlaşdırmaq lazımdır.

O geriyə, salona qayıtdı, o birilər də hakimin ardınca geri döndülər.

Elə bu vaxt əlində konyak şüşəsi və boş qədəh tutan Rocers içəri daxil olaraq həyat yoldaşının başı üstə əyilmiş miss Brentə yaxınlaşıb onu kənara çəkdi.

– Bağışlayın, mən həyat yoldaşımla bir-iki kəlmə danışmaq istəyirəm. – Başını aşağı əyən Rocers davam elədi. – Etel, eşidirsən məni, Etel, narahat olma, qorxulu heç nə yoxdur. Eşidirsən məni, hər şey yaxşıdır. Özünü ələ al...

Missis Rocers ağır-ağır nəfəs alırdı. O, gözlərini açıb narahatlıq və qorxuyla ətrafdakıları süzməyə başladı.

– Özünü ələ al, Etel, hər şey yaxşıdır. – Rocers onu sakitləşdirməyə davam edirdi. – Narahat olma.



https://www.facebook.com/groups/Kitabsever/

– Bir azdan özünüzə gələcəksiniz. – Doktor Armstronq da qulluqçu qadına təskinlik verməyə başladı. – Qorxmayın. Bu, sadəcə kiminsə zarafatı idi.

– Mən huşumu itirmişdim? – qadın qorxa-qorxa başını qaldırdı. – Yoxsa nə olmuşdu?

– Yox, heç nə olmamışdı.

– Hamısı o səsin ucbatındandır, – qadının sifəti yenə ağardı, gözləri doldu. – Adama elə gəlirdi ki, hamıya ölüm hökmü oxuyurdu. Dəhşətdir.

– Konyak necə oldu? – Doktor Armstronqun əsəbi səsi eşidildi.

Rocers şüşəni stolun üstünə qoydu, stəkanı konyakla doldurub təngnəfəs halda divanda dirsəklənmiş missis Rocersə uzatdı.

– İçin, xanım. – Həkim ona ürək-dirək verməyə çalışdı.

Qulluqçu qadın konyakı içən kimi yanaqları qızardı, öskürdü, gözlərini yumdu. Amma bir neçə saniyə ərzində konyak öz təsirini göstərdi. Qadın gözlərini açanda əvvəlki qorxu hissi, deyəsən, əriyib getmişdi.

– Mən bir az özümə gəldim, – qadın dedi. – Hər şey o qədər gözlənilmədən oldu ki, mən lap özümü itirdim.

– Əlbəttə, – Rocers təsdiq elədi. – Mən özüm də sinini yerə saldım. Hər şey başdan-ayağa uydurmadır, əvvəldən axıra qədər. Maraqlıdır, görəsən...

Amma bu yerdə onun sözünü kəsdilər. Hakim Uorqreyvin öskürəyi eşidildi. Rocers nəsə fikirləşib hakimə çöndü.

– Valı kim qoyub qrammofonu yandırdı? – hakim soruşdu. – Sız yandırmısınız, Rocers?

– Axı mən nə biləydim ki, bu nə valdır? – Rocers özünü təmizə çıxartmağa çalışdı. – Tanrıya and olsun ki, mən özüm də bilmirdim orda nə var. Bilsəydim, qoşmazdım axı.

– Mən sizə inanıram, Rocers. – Hakim, deyəsən, əl çəkmək istəmirdi. – Amma hər şeyi ətraflı danışsanız daha yaxşı olar.

Qulluqçu əlindəki dəsmalla üzünü silməyə başladı.



https://www.facebook.com/groups/Kitabsever/

– Mən sərəncamı yerinə yetirirdim, ser. – O, çiyinlərini çəkdi.

– Kimin sərəncamını?

– Mister Onimin.

Hakim Uorqreyv ətrafdakılara mənalı baxışlarla baxıb yenə də qulluqçuya çöndü.

– Hər şeyi danışın, Rocers. Sizə konkret nə sərəncam verilmişdi?

– Mənə sərəncam verilmişdi ki, şkafdan valı götürüb qrammofona qoyum, şam yeməyindən sonra qəhvə paylayan-da isə xanımım qrammofonu işə salsın. – Rocers etiraf elədi.

– Çox maraqlıdır. Olduqca maraqlıdır. – Hakim fikirli halda mızıldandı.

– Mən yalan demirəm, ser, – Rocers əvvəl hakimə, sonra qonaqlara baxdı. – Tanrı eşqinə, inanın mənə, dediklərimin hamısı həqiqətdir. Əgər mən bu valda nə yazıldığını bilsəydim, onu qrammofona qoymazdım. Onun üstündə başqa şey yazılmışdı. Mən də elə bildim ki, musiqidir.

Uorqreyv Lombarda çöndü.

– Plastinkanın üstündə adı var?

Lombard başını tərpətdi.

– Bəli.

– Nə yazılıb orda?

– Qu quşunun mahnısı, – Lombard bunu deyib əsəbiliklə dişlərini ağartdı.



https://www.facebook.com/groups/Kitabsever/

## 3

General Makartur özünü saxlaya bilmədi.

– Görünməmiş həyasızlıqdır, – az qala nərə çəkdi.

– Oturduğun yerdə belə axmaq ittihamlarla üzbəüz -qalasan. Yox, biz nəsə eləməliyik, mütləq nəsə eləməliyik. Qoy bu Onim kim olur-olsun, o bilməlidir ki...

– Bax əsl məsələ də bundadır. – Miss Emili Brent araya girdi. – Ən əvvəl aydınlaşdırmaq lazımdır ki, görək bu cənab Onim kimdir.

Hakim Uorqreyv qətiyyətli səslə yenə təşəbbüsü ələ aldı.

– Düzdür, ilk olaraq məhz bundan başlamaq lazımdır. Rocers, xahiş edirəm, xanımınızı yatağa uzandırıb yenə bura gələsiniz.

– Baş üstə, ser.

– Mən sizə kömək edərəm, – doktor Armstronq divana yaxınlaşdı.

Doktorla ərinin köməyilə missis Rocers ayağa qalxdı, səntirləyərək otaqdan çıxdı. Qapı onların ardınca örtüləndən sonra Antoni Morston dedi:

– Sizi bilmirəm, amma mən mütləq içməliyəm.

– Mən də, – Lombard da ona qoşuldu.


https://www.facebook.com/groups/Kitabsever/

– Gedim görüm içməyə nə tapıram. – Morston bunu deyib qapıdan çıxdı, amma tez də geri döndü.

Onun əlində içki şüşəsi vardı. Əlindəkini stolun üstünə qoyan Antoni Morston qədəhlərə içki süzdü.

– Sini qapının yanındakı stolun üstündə qalmışdı. Götürün içək, cənablar.

Hakim Uorqreyvlə general Makartur viskini heç nəylə qatmadılar. Lakin Emili Brent onun üçün bir stəkan su gətirmələrini xahiş etdi.

Bir azdan doktor Armstronq otağa qayıtdı.

– Narahatçılığa əsas yoxdur. – Həkim dedi. – Mən ona yuxu dərmanı verdim. Nə içirsiniz, viski? Hə, mən də bir az içsəm pis olmaz.

Kişilər ikinci dəfə qədəhləri doldurdular, onlar içib qurtarana qədər Rocers də otağa qayıtdı. Yuxarı başda oturan hakim Uorqreyv qonaq otağını nədənsə məhkəmə zalına bənzətdi.

– İndi isə, Rocers, – hakim dedi. – Biz əsl həqiqəti öyrənməliyik. Bu mister Onim kimdir?

– Bu adanın sahibi, – qulluqçu bunu deyib hakimin sifətinə baxdı.

– Bunu bilirik, Rocers, siz bu insan barədə şəxsən özünüz nə bilirsiniz?

Rocers başını tərpətdi.

– Heç nə bilmirəm, ser, mən onu bircə dəfə də -görməmişəm.

– Biz cəmisi bir həftədir burdayıq, mən və həyat yoldaşım. Bizi agentlik vasitəsiylə işə dəvət ediblər.

– Hansı agentlik?

– Plimutdakı «Regina» agentliyindən məktub yollamışdılar, üstündə də beh.

– Tanınmış firmadır. – Blor təsdiq elədi.

– O məktubu saxlamısınız? – Uorqreyv maraqlandı.



https://www.facebook.com/groups/Kitabsever/

– Yox, saxlamamışam. Daha doğrusu, bəlkə də evdə harasa qoymuşam, amma özümüzlə bura gətirməmişik.

– Rocers etiraf elədi.

– Davam edin. Deməli, məktub vasitəsilə sizi işə götürüblər. Bunu bildik. Bəs sonra?

– Bizə məktubda bildirilmişdi ki, ayın biri bura gələk. Biz də yazıldığı kimi, məhz həmin tarixdə bura gəldik. Ev səliqə-sahmanlıydı. Biz sadəcə tozu silməli olduq.

– Bəs sonra, sonra...

– Sonra heç nə. Yenə bir məktub aldıq, orada qonaqların sayı və yerləşdiriləcəyi otaqlar barədə məlumatlar yazılmışdı. Biz də hər şeyi hazırladıq. Nəhayət, dünən üçüncü məktubu aldıq, orda yazılmışdı ki, mister və missis Onim müəyyən səbəblərdən bir az yubanmalı olacaqlar, bizə də tapşırılırdı ki, qonaqları bacardıqca yüksək səviyyədə qarşılayaq. Şam yeməyi, qəhvə və o lənətə gəlmiş val barədə də  hər şey məhz o son məktubda yazılmışdı.

– Heç olmasa bu məktubu saxlamısınız? – Hakim elə bil qorxa-qorxa soruşdu.

– Bəli, onu saxlamışam, məndədir. – Rocers bunu deyib, cibindən məktubu çıxararaq hakimə uzatdı.

Hakim Uorqreyv bir müddət məktubu gözdən keçirəndən sonra dedi.

– «Rits» otelindən göndərilib. Çap maşınında yazılıb.

– İcazə olar? – Blor məktubu hakimdən alıb yazıya baxdı. – «Korneyşn» markalı çap maşınıdır. – Mızıldandı.

– Heç bir defekt yoxdur. Adi kağızdır, hamının yazdığından. Yox, məktub bizə heç nə vermir. Yəqin ki, üstündə barmaq izləri də yoxdur.

Uorqreyv birdən Blora zilləndi. Onun yanında dayanmış Morston isə çiyni üstündən məktuba boylandı.

– Əcaib adı var. Adamın lap dili dolaşır. Alek Normann Onim.

Hakim qəfildən ilan vurmuş kimi yerindən sıçradı.

– Sizə çox minnətdaram, cənab Morston. – Hakim həyəcanla dedi. – Siz çox düşündürücü və maraqlı detala diqqət yetirdiniz. – O, ətrafdakıları qəribə nəzərlərlə süzüb dodaqlarını sıxdı. – Mənə elə gəlir ki, bizim hamımız bildiklərimizi bölüşməliyik. Hər birimiz ev sahibi barədə nə məlumata malikiksə açıq deyək. – Kiçik fasilə verib davam elədi. – Hamımız bu adaya dəvət edilmişik. Məncə, bir-bir danışmalıyıq, kim tərəfindən və necə dəvət edildiyimizi açıqlamalıyıq.

Sükut çökdü, nəhayət, Emili Brent dilləndi:

– Bütün bunlar çox şübhəlidir. – Qadın dedi. – Mən çox qarışıq xətlə yazılmış bir məktub aldım. Mənə elə gəldi ki, bu məktubu neçə il əvvəl pansionatda dincəldiyimiz vaxt tanış olduğum qadın yazıb. Mənə elə gəlir ki, onun adı missis Oden idi, yaxud Onyon. Mən missis Onyonu da, Odeni də yaxşı tanıyıram. Amma dəqiq deyə bilərəm ki, missis Onim adlı heç bir tanışım yoxdur.

– Siz bu məktubu saxlamısınız, miss Brent? – hakim -maraqlandı.

– Mən indi onu gətirərəm. Otağımdakı çantadadır.

Emili Brent qalxıb çıxdı və bir azdan məktubu gətirib gəldi.

– Deyəsən, yavaş-yavaş məsələyə aydınlıq gəlir. – Məktubu oxuyan hakim Uorqreyv dedi. – Miss Kleytorn?

Vera katib vəzifəsini necə aldığını danışdı.

– Morston? – hakim Antoniyə tərəf çöndü.

– Bir dostumdan teleqram almışam, sarışın Barklidən. Çox təəccübləndim. Axı o, bir müddət əvvəl Norveçdəydi. O yazırdı ki, qayıdıb və mənim də adaya bacardıqca tez gəlməyimi xahiş edirdi.

Hakim razılıq əlaməti olaraq başını tərpədib, bu dəfə doktor Armstronqa tərəf çöndü.

– Bəs siz, doktor?

– Məni həkim qismində dəvət ediblər. Ev sahibəsinin sağlamlığıyla bağlı problemi var deyə.

– Siz bu ailəni əvvəldən tanıyırdınız?


https://www.facebook.com/groups/Kitabsever/

– Yox, amma məktubda mənim bir yaxın kolleqamın adı çəkilirdi. Ona görə arxayınca gəldim.

– Sadəcə maraq xatirinə soruşuram. – Hakim üzünü qırışdırdı. – Sizin həmin kolleqanız, yəqin ki, indi çox uzaqda olar.

– Hə, o neçə müddətdir xaricdə yaşayır.

Bütün bu müddət ərzində gözlərini Blordan çəkməyən Lombard qəfildən dilləndi.

– Bağışlayın, bir dəqiqə…

Amma hakim ona sözünü deməyə imkan vermədi.

– Sakit olun. Xahiş edirəm.

– Axı mən…

– Dedim ki, sakit olun. Gəlin qayda-qanuna riayət eləyək, mister Lombard. Hal-hazırda biz hamımızın adaya gəlib çıxmasının səbəblərini araşdırırıq.Buyurun, general Makartur.

General bığlarını dartışdıraraq mızıldandı.

– Məktub almışam… bu Onimdən. O mənim bir çox köhnə zabit dostlarımın bura yığışacağını bildirmişdi. Məktubu saxlamamışam.

– Mister Lombard… – hakim dilləndi.

Lombard gərgin tərzdə fikirləşirdi ki, həqiqəti desin, yoxsa yox.

– Məndə də oxşar hadisədir. – Nəhayət, o, cavab verdi. – Bir çox tanışlarımın xatırlandığı bir məktub almışdım. Məktubu cırıb atmışam oxuyan kimi.

Hakim Uorqreyv, nəhayət ki, üzünü Blora tərəf çevirdi və barmağıyla dodaqlarını sığallayaraq şübhəli səslə dedi:

– Bayaq biz hamımız çox xoşagəlməz dəqiqələr yaşadıq. Naməlum və müdhiş bir səs bizim hamımıza qarşı konkret ittihamlar irəli sürdü. Vaxtı çatanda bu ittihamlara da diqqət yetirəcəyik. İndi isə başqa məqama toxunmaq istəyərdim. Səsi dinlədikdə biz Uilyam Henri Blor adına rast gəldik, amma qonaqların arasında beləsi yox idi. Siz buna nə deyirsiniz, mister Deyvis?



https://www.facebook.com/groups/Kitabsever/

– Məncə, daha gizlənqaç oynamağın yeri yoxdur. – Blor etiraf elədi. – Siz haqlısınız, mənim adım Deyvis deyil.

– Deməli, Uilyam Henri Blor sizsiniz?

– Bəli, elədir.

– Mən bir-iki söz də əlavə eləmək istəyərdim. – Lombard müdaxilə elədi. – Mister Blorun bura özgə adla gəlməsi hələ məsələnin yarısıdır. Siz iddia edirdiniz ki, Cənubi Afrikada yaşamısınız, Natalidə. Amma mən o tərəfləri yaxşı tanıyıram və sizin danışdıqlarınız əsasında deyə bilərəm ki, siz oranın heç üzünü də görməmisiniz.

Səkkiz cüt göz qəzəblə Blora zilləndi. Özünü saxlaya bilməyən Antoni Morston isə yumruqlarını düyünləyib onun üstünə yeridi.

Blor isə laqeydcəsinə çiyinlərini çəkdi.

– Siz ünvanı səhv salmısınız. – O dedi. – Mənim üstümdə şəxsiyyət vəsiqəsi var, budur. Mən Skotland Yardın cinayət axtarışı şöbəsinin keçmiş əməkdaşıyam. İndi isə Plimutda şəxsi detektiv agentliyinə rəhbərlik edirəm. Bura da məni iş üçün dəvət ediblər.

– Kim dəvət edib? – hakim maraqlandı.

– Onim. O, konvertin içinə böyük məbləğdə çek qoyub mənə yollamışdı. Nə etməli olduğum da orada yazılmışdı. Mənə tapşırılmışdı ki, qonaqların etibarını qazanım və hər qonaq barədə ayrı-ayrılıqda informasiya toplayım. Adlarınızı da əvvəlcədən mənə yazıb yollamışdılar.

– Bunun səbəbi sizə izah olunmuşdumu?

– Missis Onimin qiymətli əşyalarıyla bağlıymış bütün bunlar. Guya nəsə oğurluq olubmuş. – Blor açıq dedi və başını yellətdi. – Necə ilişdim, axx, necə ilişdim. Deyəsən, Mister Onim adlı şəxs, ümumiyyətlə, mövcud deyil.

Hakim yenə də dodaqlarını çeynəyib qətiyyətlə dedi.

– Sizin mühakimələriniz mənə çox maraqlı gəlir. Alek Normann Onim. Miss Brentin aldığı məktubun altında da Anna Nensi inisialları vardı. Deməli, hər iki variantda bizə eyni işarə təqdim olunur: A.N.Onim. Təxəyyülümüzü bir qədər işlətsək, başa düşərik ki, burada nə yazılıb: Anonim.

– Aman Tanrım, – Vera inildədi. – Bu, sərsəmlikdir.



https://www.facebook.com/groups/Kitabsever/

Hakim razılıqla başını tərpətdi.

– Tamamilə razıyam, – dedi. – Mən qətiyyən şübhə etmirəm ki, adaya bizi sərsəm, ağlı çaşmış bir adam dəvət edib. Həm də bu adam, deyəsən, çox təhlükəli manyakdır.

# DÖRDÜNCÜ FƏSİL

## 1

Yenə də sükut çökdü. Qonaqların hamısı oturduqları yerdə donub qalmışdılar. Yenə də hakimin yorğun səsi sükutu pozdu.

– İndi isə araşdırmamızın ikinci hissəsinə keçə bilərik. Lakin bundan əvvəl mən də bura dəvət olunmağım barədə bir-iki kəlmə danışmaq istəyərdim. – O, cibindən məktub çıxarıb stolun üstünə atdı. – Məktub mənim köhnə dostum ledi Konstansiya Kalminqtonun adından yazılıb. Mən çoxdandır onu görmürdüm. Bir neçə il əvvəl o, Şərqə getmişdi. Məktubda bildirirdi ki, yenə vətənə qayıdıb, ada alıb və məni də istirahətə dəvət edir. – Hakim ah çəkdi. – Bizi bura dəvət edən adam hər kimdirsə, istər kişi olsun, istərsə də qadın, o bizim haqqımızda hər şeyi bilir. Ən azından özünə lazım olan informasiyanı əldə edə bilib. O mənim ledi ilə dostluğumdan xəbərdardır, doktor Armstronqun həmkarlarını tanıyır, Antoni Morstonun



https://www.facebook.com/groups/Kitabsever/

dostunun ləqəbini bilir, miss Brentin iki il əvvəl harada və kimlərlə dincəldiyini öyrənib. General Makarturun da əsgər dostlarına yaxından bələddir. Deməli, bizim evin sahibi bizim keçmişimizi kifayət qədər öyrənəndən sonra bizə qarşı konkret ittihamlar irəli sürüb.

Bu sözlər oturanların etirazlı hay-küyü ilə qarşılandı.

– Yalandır, – general Makartur inildədi. – Alçaq -böhtandır.

– Bu, qanuna ziddir. – Vera qışqırdı. – Onun səsi titrəyirdi. – Necə də alçaqlıqdır.

Hakim Uorqreyv əlini qaldıraraq hamını sakitliyə -çağırdı.

– Mən açıqlama vermək istəyirəm. Bizim dostumuz məni Eduard Sitton adlı bir nəfərin ölümündə günahlandırdı. Onun məhkəməsi 1930-cu ilin iyununda olmuşdu. Dəqiq yadımdadır. O, qoca bir qadını öldürməkdə ittiham olunurdu. Onun çox mahir vəkili var idi, iclasçıların da rəğbətini qazana bilmişdi. Buna baxmayaraq, şahid ifadələri onun günahkar olduğunu sübut edirdi. Mən ittiham aktını bunun üzərində qurdum və iclasçılar qərar çıxartdı ki, o günahkardır. Ona ölüm hökmü çıxararkən mən iclasçıların iradəsinə uyğun hərəkət edirdim. Müdafiə tərəfi mənim iclasçılara təzyiq etməyimi əsas gətirərək apelyasiya şikayəti verdi. Şikayət qəbul olunmadı və hökm yerinə yetirildi. Mən bəyan edirəm ki, məhz bu halda mənim vicdanım təmizdir. Qatilə ölüm hökmü çıxararkən mən vicdanla hərəkət eləmişəm.

– Hə, Sittonun işi, – doktor Armstronq başını tərpətdi,

– yadımdadır. O vaxt hökm hamını heyrətləndirmişdi. Mən hökm çıxarılandan bir müddət əvvəl onun vəkili Matyuzu təsadüfən restoranda görmüşdüm və o mənə demişdi ki, bəraət aktı, demək olar, artıq cibimizdədir. Axı hamı inanırdı ki, o günahsızdır. Amma sonra şayiələr yayıldı ki, hakimin Sittonla nəsə şəxsi qərəzliyi varmış, iclasçılar da onun təkidlərinə uyub belə hökm çıxarıblar.

– Bəs siz Sittonla məhkəmədən əvvəl görüşmüşdünüz? – kimsə soruşdu.

– Mən onu məhkəməyə qədər tanımırdım. – Hakimin kərtənkələ gözləri hərəkətə gəldi.

«Yalan deyir», – doktor Armstronq düşündü.



https://www.facebook.com/groups/Kitabsever/

## 2

– Mən də o uşaq barədə danışmaq istəyirəm. Siril Hamiltonu deyirəm. – Vera titrək səslə danışmağa başladı. – Mən onun dayəsi idim. Evləri dəniz sahilindəydi. Ona icazə vermirdilər ki, çox uzağa üzsün. Bir dəfə mənim fikrim yayındı və o üzüb getdi. Mən onu xilas eləməyə cumdum, amma çatdıra bilmədim. Bu, dəhşət idi. Amma bu işdə mənim günahım yoxdur. Müstəntiqlər də mənə bəraət verdilər. Sirilin anası da mənə qarşı çox mehriban idi. Əgər hətta anası da mənə heç bir irad tutmurdusa, bu dəhşətli ittihamı irəli sürmək kimə lazım idi? Bu, böyük ədalətsizlikdir. – Vera özünü saxlaya bilməyib hönkürdü.

General Makartur yaxınlaşıb qızın kürəyini sığallamaqla onu sakitləşdirməyə çalışdı.



https://www.facebook.com/groups/Kitabsever/

– Sakit olun, əzizim, – general dedi. – Biz sizə inanırıq. Bu tip kimdirsə anormal adamdır. Onun yeri dəlixanadır. Ağıldankəm adamın fikrinə çox şey gələ bilər. – General belini dikəltdi. – Belə ittihamlara, ümumiyyətlə, fikir verməmək lazımdır. Mən də özümə borc bilirəm ki, bəzi məqamları danışım. Gənc Riçmondla bağlı məsələdə bir zərrə də həqiqət yoxdur. Riçmond zabit idi, mənim polkumda xidmət edirdi. Mən onu kəşfiyyata yolladım və o öldürüldü. Müharibədə belə şeylər hər gün olur. Amma mənə ən çox təsir edən çox əxlaqlı, alicənab qadın olan həyat yoldaşım barədə belə sərsəm sözlərin deyilməsi idi. O, müqəddəs qadın idi.

General sözünü bitirib oturdu və titrəyən əlləriylə yenə də bığlarını yoluşdurmağa başladı. Görünür ki, bu nitqi söyləmək ona o qədər də asan olmamışdı.

Ondan sonra sözü Lombard götürdü. Onun gözlərində sanki şeytanlar oynayırdı.

– O ki qaldı həmin afrikalılara... – o, başlayan kimi də susdu.

– Hə, eşidirik sizi... – Morston səbirsizliklə dedi.

– Lombard həyasızcasına gülümsündü.

– Deyilənlər doğrudur. Mən onları taleyin ixtiyarına buraxdım, özümsə aradan çıxdım. Axı bu, özünüxilas instinktidir. Biz cəngəllikdə azmışdıq. Ərzağımız da az idi. Onda mən iki yoldaşımla birlikdə bütün ərzağı götürüb gecəylə aradan çıxdıq.

– Siz öz xidmətçilərinizi tərk elədiniz? – general Makartur nərildədi. – Axı onlar acından öləcəkdi.

– Elə də oldu. – Lombard bunu deyib Veranın vahiməli gözlərinə baxdı.

– Mən bayaqdan Con və Lüsi Kombsları xatırlamağa çalışıram, amma ağlıma yalnız bir şey gəlir. – Antoni Morston dedi. – Yəqin bu həmin uşaqlardır ki, keçən il maşınla vurmuşdum. Qəza Kembric yaxınlığında olmuşdu. Bəxtim gətirmədi.

– Sizin, yoxsa uşaqların? – hakim Uorqreyv acı-acı -soruşdu.

– Mənim də, elə onların da. Onlar yolun kənarında oynayırdılar, sonra necə oldusa, qəfildən düz yola qaçdılar. Mən əyləci basdım, amma maşını


https://www.facebook.com/groups/Kitabsever/

yığışdıra bilmədim. O vaxt məni sürücülük hüququndan birillik məhrum eləmişdilər. Çox pis hadisə idi.

Həkim Armstronq özündən çıxdı.

– Belə sürətlə maşın sürməyin özü cinayətdir. Buna görə cəzalandırmaq lazımdır. Sizin kimi yelbeyin cavanlar cəmiyyət üçün təhlükə mənbəyidir.

Antoni çiyinlərini çəkdi.

– Siz nə danışırsınız? Axı indi yüksək sürət əsridir. Bir də ki, məsələ sürətdə yox, bizim yollarımızın keyfiyyətsizliyindədir. – O, gözləriylə qədəhi axtardı, stola yaxınlaşıb özünə viski süzdü.

## 3

Diliylə qurumuş dodaqlarını yalayan Rocers də söhbətə müdaxilə elədi.

– İcazənizlə mən də bir-iki kəlmə deyərdim. – O, ədəblə dilləndi.

– Buyur görək. – Lombard əlini yellətdi.

Rocers danışmamışdan qabaq boğazını arıtdı, öskürdü və nəhayət, sakit səslə danışmağa başladı.

– Burada mənim və missis Rocersin adı hallandı. Miss Breydiylə bağlı məsələdə həqiqətdən əsər-əlamət yoxdur. Biz onun xidmətçiləriydik və o, canını tapşırana qədər yanında olmuşduq. O, son illər, demək olar ki,



https://www.facebook.com/groups/Kitabsever/

həmişə xəstəhal olurdu, ürəyindən əməliyyat keçirtmişdi. Onu ağrı tutan gecə isə küçədə əməlli-başlı tufan qopmuşdu. Telefon işləmirdi və biz həkim çağıra bilmədik. Mən piyada çıxmalı oldum, amma həkim özünü çox gec çatdırdı. Biz onu xilas eləmək üçün əlimizdən gələni etdik. Onu çox sevirdik, bunu ətrafda hamı bilirdi. Bizim barəmizdə heç kim bir kəlmə də pis söz deyə bilməz. And içirəm.

Rocers bunu deyib xaç vurdu.

Lombard rəngi ağarmış qulluqçuya baxaraq onun sinini yerə salmasını, arvadının isə özündən getməsini xatırlayıb fikirləşdi ki, bu nağıl heç də inandırıcı olmadı.

– Onun ölümündən sonra, yəqin ki, sizə də nəsə qaldı? – Blor əsl polisə xas olan həyasızlıqla soruşdu.

– Miss Breydi bizə bir qədər pul vəsiyyət eləmişdi, səmimi qəlbdən xidmətində durduğumuza görə. Amma bu o qədər də böyük pul deyildi. Bir də, burda pis nə var ki? – Rocersin son cümləsində artıq əvvəlki utancaqlıqdan əsər-əlamət qalmamışdı.

– Bəs siz nəsə demək istəmirsiniz, mister Blor? – Lombard soruşdu.

– Mən?

– Sizin adınız da siyahıda vardı.

Blorun rəngi qaraldı.

– Siz Landorun işini deyirsiniz? London kommersiya bankının qarət olunması məsələsi?

– Hə, yaxşı yadımdadır, hərçənd ki, bu prosesi mən özüm aparmırdım. – Hakim Uorqreyv kreslonun içində qurcalandı. – Landoru sizin ifadələriniz əsasında mühakimə elədilər, Blor. Elə deyilmi? Siz o vaxt polisdə işləyirdiniz və bu istintaqı aparırdınız.

– Bəli, elədir. – Blor razılaşdı.

– Landora ömürlük həbs cəzası kəsdilər. – Və o, bir neçə il sonra Dartmurdakı katorqada öldü. Səhhəti zəif idi.

– O, cani idi. Bu da sübut olunmuşdu. – Blor dedi.



https://www.facebook.com/groups/Kitabsever/

– Bankın keşikçisini də Landor öldürmüşdü.

– Yanılmıramsa, bu işi uğurla başa çatdırdığınıza görə sizə də mükafat vermişdilər. – Uorqreyv xatırladı.

– Hətta vəzifəmi də yüksəltmişdilər. – Blor donquldandı və yorğun səslə əlavə elədi. – Mən öz vəzifə borcumu yerinə yetirirdim.

– Amma doğrudan da çox gözəl kompaniya yığılıb. – Lombard qəhqəhə çəkdi. – Hamı bir nəfər kimi qanunsevər, günahsız, məsum insanlar... Əlbəttə ki, məni çıxmaq şərtilə. Bəs siz, doktor, nə deyə bilərsiniz. Əməliyyat vaxtı əlləriniz dinc dayanmayıb? Qadağan olunmuş əməliyyat? Yoxsa nəsə başqa məsələdir?

Emili Brent ah çəkib qaşqabaqla Lombarda baxdı və iyrənirmiş kimi ondan kənara çəkildi.

Öz emosiyalarına çox gözəl nəzarət edən doktor Armstronq bu atmacadan əsəbiləşmədi, sadəcə yüngülcə -gülümsündü.

– Düzünü deyim ki, mən heç nə xatırlaya bilmirəm,

– səmimiyyətlə dedi. – Mənim qurbanımın adı mənə heç nə demir. Nə idi adı? Kliis, yoxsa Klouz? Bu adda xəstə xatırlamıram. Ümumiyyətlə, yadıma gəlmir ki, mənim pasientlərimdən hansısa əməliyyat stolunda ölsün. Bəlkə də lap gəncliyimdə, ümumi xəstəxanada işlədiyim vaxt belə adamla rastlaşmışam. Bilirsiniz, belə hal çox olur, xəstəni həkimin yanına çox gec gətirirlər, sonra da vəziyyət pisləşəndə hər şeydə həkimi günahlandırırlar.

O, ah çəkib başını tərpətdi.

Əslində doktor Armstronq hər şeyi çox yaxşı xatırlayırdı.

«Mən sərxoş idim. Çox içmişdim. – Fikirləşirdi. – Əllərim əsirdi, amma mən əməliyyatdan imtina eləmədim. Əlbəttə ki, mən onu öldürdüm. Heç yaxşı düşməmişdi. Ayıq başla belə əməliyyatın gündə beşini edə bilərəm. Yaxşı ki peşəkar sirr deyilən bir şey var. Tibb bacısı hər şeyi başa düşmüşdü, amma heç kimə heç nə demədi. Məni çox silkələdilər, lakin heç nə sübut edə bilmədilər. Özümü ələ almağı bacardım... Maraqlıdır, görəsən, bunları hardan öyrəniblər, axı üstündən gör neçə il keçib...».



https://www.facebook.com/groups/Kitabsever/

# 4

Otaqda artıq neçənci dəfə sükut çökdü. Oturanların hamısı Miss Brentə tərəf çöndü. Bir dəqiqə, iki dəqiqə keçdi. Nəhayət ki, o özünə zillənmiş baxışları hiss etdi. Qaşları qalxdı, ensiz alnını qırışlar bürüdü.

– Siz mənim etiraflarımı gözləyirsiniz? – o soruşdu.



https://www.facebook.com/groups/Kitabsever/

– Amma mənim deməyə sözüm yoxdur.

– Heç nə? – hakim maraqlandı.

– Əlbəttə, – qadın təkrar elədi.

Hakim əlini qaldırdı.

– Deməli, öz müdafiənizi sonraya saxlayırsınız?

– Heç bir müdafiədən söhbət gedə bilməz. – Miss Brent özündən çıxdı. – Siz nə danışırsınız? Mən həmişə Tanrının buyruqlarına əməl eləmişəm, bir dəfə də düz yoldan çıxmamışam. Mən heç bir əməlimə görə özümü günahlandıra bilmərəm.

Onun sözləri narazılıqla qarşılandı. Ancaq Emili Brent çoxluğun rəyinə əhəmiyyət verənlərdən deyildi. Narazılıqlara baxmayaraq, yenə də öz fikrində qaldı.

– Mənim deməyə sözüm yoxdur.

Hakim yüngülcə öskürüb yenə dilləndi:

– Deməli, belə, məncə, istintaqımızın birinci mərhələsini başa çatdırmaq olar. İndi isə, Rocers, deyin, adada sizdən və xanımınızdan başqa kimsə varmı?

– Yox, burda heç kim yoxdur... – Bir an susub əlavə elədi. – Məncə...

– Siz buna əminsiniz?

Rocers yenə də susub bu dəfə əminliklə dedi:

– Yox, heç kim yoxdur.

– Onda mən heç cür başa düşə bilmirəm ki, bizim anonim dostumuz niyə hamımızı bura toplayıb? Görünür ki, bu adamın ağlı başında olduğu faktı şübhə altındadır. Bacardıqca tez buradan çıxıb getmək lazımdır. Mən təklif edirəm ki, elə bu gecə çıxıb gedək.

– Bağışlayın, ser, – Rocers onun sözünü kəsdi. – Amma adada qayıq-filan yoxdur.

– Bircə dənə də?

– Heç yarım dənə də.



https://www.facebook.com/groups/Kitabsever/

– Bəs sahillə necə əlaqə saxlayırsınız?

– Sizi gətirən gəmi hər gün səhər gəlir, Fred Narrokot ərzaq və məktubları gətirir.

Onda belə danışaq. – Hakim sanki məhkəmədəymiş kimi qərar verdi. – Sabah Narrokot gələn kimi hamımız bu mənhus adadan çıxıb getməliyik.

Hamı razılaşdı, bircə Antoni Morston etiraz elədi.

– Mən dovşan kimi qaçıb aradan çıxa bilmərəm. – O, qətiyyətlə dedi. – Mən idmançıyam, özümə görə də ləyaqətim var. Bu sirri açmamış da heç yerə gedən deyiləm. Maraqlı hadisədir, kəskin süjetli detektivlərə bənzəyir.

– Mənim yaşıma çatsanız, – hakim Uorqreyv laqeydliklə dilləndi, – belə hadisələr sizə o qədər də maraqlı gəlməz.

Antoni gülümsündü.

– Siz hüquqşünassınız, hər şeyə də peşəkar nəzərlə baxırsınız. Mən isə cinayətləri sevirəm və onların şərəfinə içmək istəyirəm.

O, qədəhi bir anda boşaltdı. Amma deyəsən, viski onun nəfəs yoluna getdi. Antoni öskürməyə başladı. Sifəti -qızardı, gözləri bərəldi. Ağzını geniş açaraq hava tutmağa çalışdı. Amma elə bil geniş açılmış ağzından ciyərlərinə bir zərrə də hava getmədi.

Və nəhayət, donub qalmış qonaqların heyrət dolu baxışları altında Antoni Morston kreslodan yerə çökdü, əlindəki qədəh isə xalçanın üstüylə yuvarlandı.

# BEŞİNCİ FƏSİL

## 1

Həyəcandan hamı donub yerində qalmışdı, heç kim yerindən tərpənməyə özündə güc tapmırdı. Hamının donuq gözləri xalçanın üstündə



https://www.facebook.com/groups/Kitabsever/

uzanıb qalmış Antoni Morstona zillənmişdi. İlk olaraq doktor Armstronq hərəkətə gəldi, cəld cumub Morstonun üstünə əyildi, nəfəsini, ürəyini yoxlamağa başladı.

O qalxanda artıq qonaqların hamısı doktorun gözlərində heyrət nişanələri gördü.

– Lənət şeytana! O öldü! – Doktor Armstronq dəhşətdən sanki boğularaq dilləndi.

Onun sözləri elə bil qonaqlara çatmadı. Necə yəni ölüb? Bu cür, bir göz qırpımında ölmək olar? Bu boy-buxunlu, gözəl-göyçək Apollon dayandığı yerdə niyə ölməlidir ki?

– Doğrudan ölüb? – general Makartur inanmırmış kimi soruşdu. – Demək istəyirsiniz ki, viski nəfəsinə getdi, çeçəyib öldü?

– Çeçədi? – doktor fikirli halda təkrar elədi. – Hə, istəsəniz belə də adlandıra bilərsiniz. Hər halda boğulmadan ölüb.

Doktor Armstronq xalçanın üstündəki qədəhi götürüb barmağını içinə saldı, dibində qalmış mayeyə batırıb burnuna yaxınlaşdırdı, sonra da dilinin ucuna toxundurdu.

O saat da sifətini turşutdu.

General isə sakitləşmək bilmirdi.

– Heç vaxt inanmazdım ki, adam viskidən çeçəyə bilər.

– Hər şey Tanrının əlindədir. – Emili Brent kilsədə moizə oxuyurmuş kimi dedi.

Doktor Armstronq, nəhayət ki, ayağa qalxdı.

– Yox, adam viskidən çeçəyib ölə bilməz. – O, əsəbiliklə bildirdi. – Morstonun ölümü təbii ölüm deyil.

– Belə çıxır ki, viskiyə nəsə qatıblarmış? – Vera güclə eşidiləcək səslə dedi.

Armstronq başını tərpətdi.



https://www.facebook.com/groups/Kitabsever/

– Bəli. Dəqiq deyə bilmirəm, amma yəqin ki, onun qədəhinə azca sianid qatıblar. Sinil turşusunun kəskin qoxusunu hiss eləmədim. Deməli, kalium-sianiddir. O, ani təsir göstərir.

– Zəhər qədəhdə idi? – hakim soruşdu.

– Bəli.

Doktor Armstronq sola yaxınlaşdı, viski şüşəsinin ağzını açıb burnuna yaxınlaşdırdı. Sonra sodalı suyu da iylədi və başını tərpətdi. – Yox, burada şübhəli heç nə yoxdur. Adi sodalı sudur və təmiz viski.

– Deməli, hesab edirsiniz ki, – Lombard inamsızlıqla soruşdu, – o, zəhəri özü öz stəkanına töküb?

– Belə çıxır ki, bu, intihardır? – Blor, deyəsən, inanmadı. – Yox, inandırıcı deyil.

Vera fikirli halda mızıldandı.

– Heç vaxt ağlıma gəlməzdi ki, o, intihar edə bilər. O, həyat eşqiylə qaynayırdı. Yox, o heç vaxt özünə qəsd edə bilməzdi...

– Kiminsə başqa düşüncəsi var? – doktor Armstronq ətrafa baxdı.

Hamı başını tərpətdi. Əlbəttə ki, başqa bir hipotez heç kimin ağlına gəlmirdi. Viskinin içində təhlükəli bir şey yox idi. Deməli, zəhər qədəhdə olub. Qədəhə də zəhəri onun özündən başqa heç kim tökə bilməzdi. Hər halda axı nəyə görə Antoni Morston intihar eləməlidir? Həm də belə qəribə şəkildə...

– Yox, mən qətiyyən inanmıram. – Blor doktor Armstronqa baxdı. – Axı siz özünüz də görürdünüz ki, o, intihar edən adamlardan deyildi. Yox, beləleri heç vaxt özünə qəsd eləməz.

– Sizinlə tamamilə razıyam. – Armstronq razılaşdı.

## 2



https://www.facebook.com/groups/Kitabsever/

Müzakirələr elə bununla da başa çatdı. Axı başqa nə demək olardı? Armstronqla Lombard meyiti yataq otağına keçirib üzünə ağ çəkdilər.

Onlar zala qayıdanda qonaqların hərəsi bir küncdə büzüşüb oturmuşdu.

– Məncə, yatmaq vaxtıdır. – Nəhayət ki, Emili Brent -dilləndi.

Onun sözləri, deyəsən, yerinə düşmüşdü. Saat artıq on ikini keçmişdi. Lakin buna baxmayaraq, qonaqlar dağılışmağa tələsmədilər. Hiss olunurdu ki, hamı təklikdən qorxur.

– Miss Brent haqlıdır. – Hakim Uorqreyv dilləndi. – Bizim hamımızın istirahətə ehtiyacımız var.

– Axı mən qonaq otağını hələ yığışdırmamışam. – Rocers dedi.

– Sabah yığışdırarsınız. – Lombard dedi.

– Xanımınız özünü necə hiss edir? – Armstronq qulluqçudan soruşdu.

– İndi qalxıb baxaram.

Rocers bir azdan qayıdıb doktora dedi:

– O, ölü kimi yatıb.

– Lap yaxşı. – Doktor nəfəsini dərdi. – Səhərə qədər qoy beyni dincəlsin.

Qonaqlar könülsüz də olsa, zalı tərk edərək yuxarı -qalxdılar.

Əgər onlar taxta divarlı, döşəmələri cırıldayan, pəncərələrindən vıyıltı eşidilən köhnə qəsrlərdən birində olsaydılar, qorxu hissi anlaşılan olardı. Lakin burada nə qaranlıq künc-bucaq, nə cırıldayan döşəmə, nə də gizli qapılar var. Müasir malikanə, hər yer işıq saçır, hər şey təzədir.

Yox, burada kimsə gizlənə bilməzdi. Heç bir sirr-filan da yox idi. Amma qonaqları vahimələndirən də məhz bu idi – hər şeyin işıqlı və təzə olması.

kinci mərtəbənin dəhlizində qonaqlar bir-birinə «Xeyirli gecələr!» deyərək otaqlarına çəkildilər. Öz otağına çəkilən kimi hər kəs sanki qeyri-ixtiyari olaraq otağın qapısını içəridən möhkəm bağladı.



https://www.facebook.com/groups/Kitabsever/

3

3



https://www.facebook.com/groups/Kitabsever/

Hakim Uorqreyv öz otağında soyunaraq yatmağa hazırlaşırdı. O, Eduard Sitton barədə düşünürdü. Sitton onun gözünün qarşısından getmirdi. Uca boylu, sarışın və mavi gözlü oğlanın şəffaf baxışları iclasçılara sanki sehrli təsir göstərirdi.

Prosesdə dövlət ittihamçısı olan Luellin bacarıqsız adam idi. Çox uğursuz çıxış elədi, fikirlərini düzgün əsaslandıra bilmədi. Əvəzində müttəhimin vəkili Metyuz parlaq bir çıxış elədi və bütün faktları müttəhimin xeyrinə təqdim edə bildi. Öz müştərisi üçün də çox gözəl bir çıxış hazırlamışdı.

Sittonun özü də dindirmələr zamanı çox ləyaqətlə davranırdı, danışığı, rəftarı yüksək səviyyədə idi. Çox həyəcanlanmırdı, özünü itirmirdi, sadəcə özünü səmimi göstərməyə çalışırdı ki, bununla da iclasçıların rəğbətini qazandı. Metyuz hesab edirdi ki, işi artıq həll olunmuş hesab eləmək olar.

Hakim Uorqreyv saatını quraraq çarpayının yanındakı dolabın üstünə qoydu. O bu məhkəmə iclasını sanki dünən olubmuş kimi xatırlayırdı. Müttəhimin əleyhinə olan -faktları bir-bir toplamağı, şahidlərin dindirilməyi, hər şey dəqiqliyinə qədər yadındaydı. Hə, belə proseslər heç də hər gün olmurdu. Metyuz sonda çox gözəl bir nitq söylədi və dövlət ittihamçısı onun yaratdığı rəyi dağıda bilmədi. Amma iclasçılar son müşavirəyə çəkilməmişdən əvvəl hakim də öz nitqini dedi...

Hakim protez damağını səliqəylə çıxarıb suyla dolu stəkana qoydu. Sıxılmış dodaqları onun sifətinə bir qədər də qorxunc ifadə verdi. Hakim qırışmış göz qapaqlarını razılıqla endirib öz-özünə düşündü: «Mən bu əclaf Sittona ədalət mühakiməsindən qaçmağa imkan vermədim».

Sümüklərini xırçıldadan hakim, nəhayət ki, yatağa girib üstünü örtdü və işığı söndürdü.


https://www.facebook.com/groups/Kitabsever/

Aşağıda, qonaq otağında Rocers qabları yığışdırarkən diqqətini qara zənci balalarının fiqurları cəlb elədi. Nəyəsə fikir verən Rocers bir neçə dəfə saydı və çiyinlərini çəkdi.

– Bu da möcüzədir? Kimə istəsən and içərdim ki, burda bir az əvvəl on fiqur olub...


https://www.facebook.com/groups/Kitabsever/

# 5

General Makartur yataqda nə qədər oyan-buyana çevrilsə də, heç cür yuxuya gedə bilmirdi. Artur Riçmondun sifəti heç cür onun gözünün qabağından getmirdi. Artur onun xoşuna gəlirdi, hətta öyrəşmişdi ona. General -görürdü ki, bu gənc zabit onun arvadı Leslinin də xoşuna gəlir, amma buna pis baxmırdı. Çünki polkovnikin əvvəlki həmkarlarını, dostlarını Lesli bəyənmirdi. Hərəsinə bir qulp qoyurdu, ağız büzürdü, qarşılarına çıxmırdı, qulluq eləmirdi. Neynəmək olar, xasiyyəti beləydi. Amma Artur Riçmonda ağız büzmədi. Elə əvvəl gündən ürəyinə yatdı. Generalın hərbiçi həmkarlarının arasında Artur Riçmond yeganə adam idi ki, Lesli onunla musiqidən, rəssamlıqdan danışa bilirdi. Lesli bəzən Arturu qıcıqlandırmaqdan da həzz alırdı. General da sevinirdi ki, onun həyat yoldaşı bu gənc oğlana bir ana qayğısı ilə yaxınlaşır.

Ana qayğısı... general sonradan bu fikirlərinə görə özünü lağa qoyurdu. Hansı ana qayğısından söhbət gedə bilər ki, Arturun iyirmi yeddi yaşı vardı, Leslidən cəmisi iki yaş kiçik idi.

General Leslini çox sevirdi. İndiyəcən xəyalı onun gözünün önündən getmirdi. Uzun, zərif sifəti, tünd-boz gözləri, şabalıdı saçları var idi. Hə, general Leslini çox sevirdi və ona özü qədər inanırdı.

Orda, Fransada da hətta döyüşlərin ən qızğın vaxtında tez-tez cibindən Leslinin fotoşəklini çıxarıb baxırdı, xəyalən onun yanına qayıdırdı... Amma bir dəfə... hər şey o axmaq romanlarda olduğu kimi gecə baş verdi. Lesli onların hər ikisinə məktub yazmışdı və tərslikdən konvertləri səhv salmışdı. Artur Riçmonda yazdığı məktubu ərinə yollamışdı... Hətta indi, üstündən neçə il keçsə də, general yenə də o hadisəni iztirabsız xatırlaya bilmirdi... İlahi, o necə də əziyyət çəkirdi.

Onların əlaqələri, demə, çoxdan başlayıbmış. Məktub bu barədə bütün şübhələri alt-üst edirdi. Uik-endlər, Artur Riçmondun son ezamiyyəti... Yalançı, əclaf...

Vəziyyətdən xəbərdar olandan sonra general qisas hissiylə alışıb yanmağa başladı. Amma içindəkiləri hiss elətdirməməyə çalışırdı, Riçmondla da həmişə olduğu kimi davranırdı. Alındımı? Görünür ki, alındı. Hər halda Artur Riçmond heç nədən şübhələnmədi.  Qəzəbli danlaqlara



https://www.facebook.com/groups/Kitabsever/

cəbhədə öyrəncəliydilər – hamının əsəbləri tarıma çəkilmişdi. Düzdür, general bəzən Armiticin çoxmənalı baxışlarını tuturdu. Yeniyetmə uşaq idi, amma ağlı yaxşı işləyirdi. Hə, deyəsən, Armitic onun niyyətini başa düşmüşdü. Döyüşlərin birindən əvvəl general Riçmondu düşmən arxasına kəşfiyyata yolladı. Bu, elə bir tapşırıq idi ki, Artur yalnız möcüzə sayəsində geri salamat qayıda bilərdi. Amma möcüzə baş vermədi.

Hə, o, Riçmondu ölümə göndərəndə zərrə qədər də təəssüflənmədi. O vaxt hər şey ona çox sadə gəlirdi. Ətrafda o qədər faciəli hadisələr olurdu, bir nəfərin səhvinə görə batalyonlar, polklar qurban gedirdi. Bir nəfər nədir ki? Yəqin ətrafda çox deyinirdi ki, qoca Makartur gərginlikdən çaşıb qalıb, ən yaxşı adamlarını fəda elədi və sair və ilaxır. Müharibədə hər şey olur.

Amma bu çoxbilmiş Armitici aldatmaq o qədər də asan deyildi. Hiss eləmişdi ki, general Riçmondu bu ağır tapşırığa qəsdən yollayıb. Müharibədən sonra isə deyəsən, Armitic bu barədə orda-burda danışırdı.

Lesli heç nə bilmirdi. Riçmondun ölümünə kədərlənsə də, əri İngiltərəyə dönəndə bunu hiss elətdirmədi. General da özünü heç nə olmayıbmış kimi apardı.

Hər şey əvvəlki axarına düşsə də, Leslinin ona münasibətində elə bil soyuqluq əmələ gəlmişdi. Müharibədən iki-üç il sonra isə Lesli ikitərəfli sətəlcəmdən vəfat etdi. Bütün bunlar çox-çox keçmişdə olmuşdu. Neçə il keçib, on beş, on altı il...

General təqaüdə çıxdı, Devonda kiçik bir ev aldı. Həmişə belə sakit guşədə yaşamağı arzulamışdı.

Gözəl yerlərdir. Mehriban qonşular, balıqçılıq, ov... bazar günləri isə kilsə...

Qonşular onunla çox yaxşı davranırdılar. Lakin sonra generala elə gəldi ki, onun ardınca baxıb nəsə pıçıldaşırlar. Bir müddət sonra isə ona əyri baxmağa başladılar. Elə bil qulaqlarına nəsə xoşagəlməz bir şayiə gəlib çatmışdı. (Əgər doğrudan da Armitic orda-burda danışıbsa, yəqin ki, söhbət qonşuların da qulağına gəlib çatıb.)

İndi də bu mənhus səs uzun illər əvvəl baş vermiş hadisəni təzədən xatırlatdı. General fikirləşdi ki, görəsən, səs danışarkən onun sifətinin ifadəsi çoxmu dəyişmişdi? Görəsən, qonaqlar onun sifətində hansı hissləri oxumuşdular. Kim bilir... Yəqin ki qonaqların heç biri bu ittihamları ciddi


https://www.facebook.com/groups/Kitabsever/

qəbul eləmədi. Axı ittihamların bəziləri, ümumiyyətlə, ağlasığmaz idi. Misalçün o gözəl qızı günahlandırırdılar ki, dənizdə uşağı batırıb. Belə də səfehlik olar? Deyəsən, doğrudan da bütün bunları hansısa ağıldankəm adam təşkil edib. Onun köhnə əsgər dostu olan Tom -Brentin bacısı qızı Emili Brenti isə birbaşa qətldə ittiham elədilər. Onun nə qədər mömin insan olduğunu görməməkçünsə gərək kor olasan: beləlvaleri keşişlə məsləhətləşməmiş bircə addım da atmırlar.

General fikirləşdi ki, görəsən, adadan nə vaxt çıxıb gedəcəklər? Yəqin ki, sabah, o kiçik gəmi gələndən sonra. Amma birdən-birə darıxdı general. Yenə ev, yenə tənhalıq, qaşqabaqlı qonşular... birdən-birə hiss elədi ki, burdan getmək istəmir. Dənizin səsi elə bil layla çalırdı. «Adada yaşamaq maraqlıdır, – general düşündü.– Sən elə bil dünyanın axırındasan».


https://www.facebook.com/groups/Kitabsever/

## 6

Vera Kleytorn yataqda uzanıb gözlərini geniş açaraq tavana baxırdı. Qaranlıqdan qorxduğu üçün işığı da -söndürməmişdi.

«Huqo, Huqo, – o düşünürdü, – bütün axşamı mənə elə gəlib ki, o hardasa buralarda, yaxındadır. Görəsən, doğrudan indi hardadır? Bilmirəm və yəqin ki, heç vaxt bilməyəcəm. O mənim həyatımdan yox oldu, birdəfəlik yox oldu».

Yox, unutmaq lazımdır, unutmaq. Axı niyə? Məgər xatirə belə pis şeydir?

Kornuell... Qara qayalar, sapsarı narın qum... mehriban missis Hamilton... Balaca Siril həmişə onun əlindən tutub dənizə tərəf çəkir: «Mən o qayalığın yanına qədər üzmək istəyirəm». «Yox, olmaz, təhlükəlidir».

Hər dəfə də eyni şey, eyni söz... Baxışlarını qaldıranda isə Vera hər dəfə Huqonun ona zillənmiş baxışlarını görürdü. Axşam, Siril yatandan sonra isə...

– Siz gəzməyə çıxmaq istəmirsiniz, miss Kleytorn?

– Hə, yaxşı havadır, çıxmaq olar.

Həmin axşam onlar çimərlikdə çox gəzdilər. İsti, aylı bir axşam idi. Huqo onun belini qucaqlamışdı.

– Mən sizi sevirəm, Vera, sevirəm. Siz bilirsiniz, mən sizi necə sevirəm?

Hə, o bilirdi. (Hər halda ona elə gəlirdi ki, bilir.)

– Mən sizə evlənmək təklif eləməyə özümdə cəsarət tapa bilmirəm. Mənim bir qəpiyim də yoxdur. Özümü saxlamağa güclə çatır. Mənim varlanmaq şansım vardı, amma Siril dünyaya gəldi və hər şey mənim əlimdən çıxdı. İndi varis odur.



https://www.facebook.com/groups/Kitabsever/

Əgər dünyaya qız gəlsəydi, varis Huqo olacaqdı. Özü də etiraf elədi ki, Siril dünyaya gələndə kədərlənmişdi.

– Əlbəttə, mən pis fikirləri özümdən qovmağa çalışırdım. Amma etiraf edim ki, bu mənimçün ağır zərbə idi. Yəqin ki, mən bəxtsiz adamam. Siril yaxşı uşaqdır, mən artıq ona öyrəşmişəm.

O, yalan demirdi. Həqiqətən də uşağı sevirdi, hər şıltaqlığına dözürdü, bütün günü onun nazıyla oynamağa hazır idi. Görünür ki, kinli deyildi.

Bəs sonra?

– Miss Kleytorn, qayanın yanına üzmək olar? Axı niyə icazə vermirsiniz? – Siril ara vermədən deyirdi.

– Qaya çox uzaqdadır, ora üzmək təhlükəlidir.

– Axı mən yaxşı üzə bilirəm, miss Kleytorn, yaxşı üzürəm...

Vera fikrini dağıdıb yenə bu günü düşünməyə başladı: «Əgər mən intihar eləmək istəsəydim, ya böyük dozada veronal, ya da başqa yuxu dərmanı içərdim. Amma kalium sianidi? Heç cür uyğun gəlmir».

Antoni Morstonun qana bulaşmış sifətini xatırlayan Veranın tükü ürpəşdi, qalxıb otaqda gəzişməyə başladı.

Kaminin yanından keçəndə Veranın nəzəri yenə də kaminin üstündəki çərçivəyə sataşdı:

On zənci balası nahara getdi,

Birisi boğuldu, aradan itdi.

«Dəhşətdir, – Vera düşündü, – axı bu gün hər şey məhz bu cür oldu».

Axı nəyə görə Morston ölmək istəyirdi? Hər nədirsə Morston özü bilər, amma Vera ölmək istəmir. Yox, qətiyyən istəmir. Ölüm barədə düşüncələrdən də zəhləsi gedir. Ölüm onunçün deyil.



https://www.facebook.com/groups/Kitabsever/

# ALTINCI FƏSİL

## 1

Doktor Armstronq yuxu görürdü...

Əməliyyat otağında dəhşətli dərəcədə istidir... Axı niyə sobanı bu cür qızdırıblar? Bütün bədənindən dayanmadan tər gedir. Əlləri keyiyib, skalpeli tuta bilmir... Yaman itidir, beləsiylə adam öldürmək də olar. Budur, o, artıq öldürdü.

Qurbanının bədəni ona tanış gəlmədi. Piyli, kök qadın idi. Üzü də yaxşı görünmürdü. Bu, həmin adamdır? Bəlkə artıq başqasıdır? Tibb bacısından soruşmaq lazımdır. Qız diqqətlə onun hərəkətlərini müşahidə edir. Yox, soruşmaq olmaz.

Axı bu qadının sifətinə niyə ağ çəkiblər? Ona nə olub, görəsən? Bəlkə açıb baxım? Nəhayət, gənc assistenti ağı çəkir. Əməliyyat stolunda uzanan Emili Brentdir.

Əlbəttə, o, Emili Brenti öldürməlidir. Mütləq öldürməlidir. Doktorun gözləri qəzəblə parıldayır. Brentin isə -dodaqları tərpənir. Nəsə deyir... Nə deyir, görəsən? «Hamı Tanrının iradəsinə tabedir».

Sonra da qəhqəhə çəkir.

– Yox, yox, – doktor tibb bacısına deyir. – Üzünü örtməyin. Mən narkoz verəndə onun üzünü görməliyəm. Efir hardadır? Mən axı özümlə götürmüşdüm.

Birdən doktor Armstronq yanında tibb bacısının yerinə Antoni Morstonu gördü. Onun sifəti qırışıb, ağzından qan axır və qəhqəhə çəkir.

Qəfildən doktor Armstronq yuxudan oyandı. Gün şüaları otağı işıqlandırmışdı. Kimsə başını onun üstünə əyib çiyinlərini silkələyirdi. Rocers... Hə, odur...

Üzü bozarmış Rocers vahimə dolu gözlərlə doktoru -çağırırdı.



https://www.facebook.com/groups/Kitabsever/

– Doktor, oyanın, doktor...

Armstronq tam özünə gəldi, yerinin içində oturdu.

– Nə olub ki?

– Xanımın vəziyyəti, deyəsən, yaxşı deyil. Bayaqdan nə qədər əlləşirəmsə, yuxudan oyada bilmirəm. Görünüşü də yaxşı deyil.

Həkim cəld qalxıb geyindi və Rocerslə birlikdə dəhlizə çıxdı.

Qadın çarpayıda yanı üstə uzanıb gözlərini yummuşdu. Əllərini başının altında cütləmişdi.

Doktor Armstronq onun üstünə əyilib əllərini yoxladı. Göz qapaqlarını qaldırdı.

– Ola bilməz. – Rocers inildədi. – Ola bilməz...

Qulluqçu susub qurumuş dodaqlarını yaladı.

Armstronq təəssüflə başını yellədi.

– Hə. Artıq hər şey bitib.

– Ürəyidir, doktor?

Doktor Armstronq bir müddət susub fikirləşdi, sonra çarpayının başlığının yanındakı stolun üstünə baxdı.

– Rocers, xanımınız əvvəllər ağır xəstəliklərdən əziyyət çəkib?

– Yalnız revmatizmi vardı, doktor.

– Son vaxtlar onu kim müalicə edib?

– Müalicə? – Rocers çiyinlərini çəkdi. – Etiraf edim ki, axırıncı dəfə nə vaxt həkimə getdiyini özüm də -xatırlamıram.

– Sizin xanımınız ürəyindən şikayət edib?

– Yox, heç vaxt.

– Bəs yuxusu necəydi? – doktor suallarına ara vermirdi.

Rocers təəssüflə içini çəkib başını yellətdi.

– Yaxşı deyildi.

– Yuxu dərmanı atırdı?

– Mən bildiyimə görə yox, yoxsa mən bilərdim.

Armstronq dolaba yaxınlaşdı. Ordan bir neçə balaca şüşə götürdü. Saç üçün losyon, lavanda suyu, qliserin, diş pastası, eliksir…

Onlar dolabın bütün siyirmələrini axtardılar, amma nə yuxu dərmanı, nə də narkotik tapdılar.

– Dünən axşam arvadım yalnız sizin verdiyiniz dərmanları içib. – Rocers etiraf etdi.


https://www.facebook.com/groups/Kitabsever/

## 2

Saat doqquza yaxın qonaqların hamısı artıq aşağı -düşmüşdülər.

Hakim Uorqreyvlə general Makartur binanın qarşısındakı meydançada gəzişirdilər, arabir də dünya siyasəti barədə bir-iki kəlmə fikirlərini bölüşürdülər.

Vera Kleytorn ilə Filipp Lombard isə evin arxasındakı qayanın üstünə çıxdılar. Onlar yuxarı qalxanda Blor artıq orada idi. O, nisgillə sahilə tərəf baxırdı.

– Mən bayaqdan burdayam, – o dedi. – Amma gəmidən əsər-əlamət görünmür.

– Devon camaatı tənbəldir. – Vera acı-acı güldü. – Burdakılar yuxudan gec dururlar.

Filipp Lombard isə gözünü onlardan çəkib yenə də dənizə baxırdı.

– Hava ürəyinizcədir? – o soruşdu.

Blor səmaya nəzər saldı.

– Pis deyil.

Lombard fit çaldı.

– Sizə xəbər verim ki, axşam tufan qalxacaq.

– Doğrudan, yəni tufan? – Blor sanki inanmadı.

Aşağıdan qonqun boğuq səsi eşidildi.

– Səhər yeməyinə çağırırlar. – Lombard dedi. – Onu da deyim ki, mən doğrudan da acmışam.

Onlar aşağı düşəndə Blor öz fikirlərini Lombardla bölüşməyə başladı.



https://www.facebook.com/groups/Kitabsever/

– Bilirsiniz, Lombard, mən bütün gecə fikirləşmişəm, heç cür beynimə sığışdıra bilmirəm ki, axı nəyə görə Morston intihar eləmək fikrinə düşsün.

Vera lap qabaqda gedirdi.

Lombard isə sanki arxalarınca sürünürdü.

Lombard Blorun sualına sualla cavab verdi.

– Sizin başqa hipoteziniz varmı?

– Mən sübutlar toplamaq istəyirəm. Ən əvvəl səbəbləri öyrənmək lazımdır. Axı onu intihara vadar edən nə olub? İlk baxışdan hiss olunurdu ki, pul baxımından problemləri olmayıb.

Onlar meydançaya düşəndə Emili Brent onların qarşısına çıxdı.

– Gəmi artıq gəlib? – soruşdu.

– Hələ yox, – Vera cavab verdi.

Onlar yemək otağına daxil oldular. Stolun üstündə qızardılmış bekonla qayğanaq, yanında da qəhvəylə dolu qəhvədan görünürdü. Rocers onları içəri buraxandan sonra qapını örtdü.

– Bu gün onun görkəmi heç əvvəlki kimi deyil. Yaman sınıxıb.

Arxası pəncərəyə dayanmış doktor Armstronq öskürərək deyir:

– Biz bu gün ona daha mərhəmətlə yanaşmalıyıq. – O dedi. – Rocers bu səhər yeməyini tək hazırlayıb. Missis Rocers ona kömək edə bilməyib.

– Ona nə olub ki? – Emili Brent maraqlandı.

– Gəlin yeməyimizi yeyək. – Doktor Armstronq onun sualını qulaqardına vurub dedi. – Yumurta soyuyur. Sonra sizinlə bəzi şeyləri məsləhət eləməliyəm.

Hamı onun dediyilə razılaşdı, nimçələrini doldurdular, fincanlarına qəhvə süzdülər, yeməyə başladılar. Sözsüz razılıq əldə olunmuş kimi, heç kim ada barədə danışmırdı. Beynəlxalq hadisələr, idman yenilikləri, Loxness əjdahası və sair.

Yemək bitəndən sonra doktor Armstronq kreslonun arxalığına söykənib mənalı şəkildə öskürdü və danışmağa başladı.



https://www.facebook.com/groups/Kitabsever/

– Mən qəsdən kədərli xəbərləri yeməkdən sonraya saxladım ki, rahat yeyə biləsiniz. Xəbər isə bundan ibarətdir ki, missis Rocers yuxudan oyanmayıb. Yatmışkən vəfat edib.

Dəhşət və heyrət dolu səslər eşidildi.

– Ola bilməz.

– İlahi, necə olub bu?

– Belə çıxır ki, adada artıq ikinci ölümdür? – Vera çaşqınlıqla dedi. – İki günün içində.

– Çox maraqlıdır. – Hakim Uorqreyv dilləndi. – Bəs ölümə nə səbəb olub?

Armstronq çiyinlərini çəkdi.

– İlk baxışdan demək çətindir.

– Bunun üçün meyiti yarmaq lazımdır?

– Əlbəttə, – doktor Armstronq etiraf elədi. – Yarılmasa mən onun ölüm səbəbini dəqiq deyə bilmərəm. Mən onu müalicə eləməmişəm, xəstəliklərindən də xəbərim yoxdur.

– Görünüşündən bilinirdi ki, elə bil nədənsə yaman qorxur. – Vera dedi. – Sonra da dünən axşam. O cür sarsıntı yaşadı. Yəqin ürəyi dözməyib.

– Ürəyinin dözməməyi məlum məsələdir. – Doktor Armstronq onun sözünü kəsdi. – Amma nəyə dözməyib? Bunu öyrənmək maraqlı olardı. Ürəyin dayanmasına nə səbəb olub?

– Əlbəttə ki, vicdan. – Miss Emili Brent sərt səslə dedi və hamı heyrətdən donub qaldı.

– Nə demək istəyirsiniz, miss Brent? – doktor Armstronq ona baxdı.

Qız qarımış, yaşı keçmiş miss Brent məhz öz vəziyyətində olan insanlara xas kinayəylə dedi:

– Axı siz özünüz də hər şeyi eşitdiniz. – Dodaqlarını sıxdı. – Onu ittiham elədilər ki, əriylə birlikdə öz yaşlı sahibəsini öldürüb.

– Deməli, siz hesab edirsiniz ki...


https://www.facebook.com/groups/Kitabsever/

– Mən hesab edirəm ki, bu, həqiqətdir. – Emili Brent soyuq tərzdə dedi. – Görmədiniz özünü necə aparırdı? Möhkəm qorxdu, sarsıldı, huşunu itirdi. Günah əməlinin üstü açıldığına görə özünü ələ ala bilmədi. Yəqin ki, elə qorxudan da ölüb.

Armstronq ağır-ağır başını tərpətdi:

– İnandırıcı versiyadır. – Sakitcə dedi. – Amma onun sağlamlığı barədə dəqiq məlumatım olmadan bir söz deyə bilmərəm. Əgər doğrudan da onun ürəyi zəif olubsa, onda siz deyən ola bilərdi.

– Yox, zəif-sağlam məsələsi deyil. Bu, Tanrının cəzasıdır. – Emili Brent daha böyük qətiyyətlə bildirdi.

Onun sözləri otaqdakılara pis təsir elədi.

– Bu, lap ağ oldu, miss Brent, – Blor dilləndi.

Miss Brent başını qaldırıb qürurla cavab verdi:

– Bəlkə siz inanmırsınız ki, Tanrı günahkar bəndənin cəzasını verə bilər? Şəxsən mən inanıram.

Hakim Uorqreyv çənəsini sığallayıb dilləndi:

– Mənim əzizim. – Onun səsində kinayə hiss olundu. – Öz təcrübəmə əsasən deyə bilərəm ki, Tanrı günahkar bəndələrinin cəzasını verməyi bizlərə etibar edib. Amma əfsuslar olsun ki, bu işi lazım olduğu kimi həyata keçirmək çoxsaylı maneələrlə toqquşur. Lakin başqa yol yoxdur.

Emili Brent çiyinlərini çəkdi.

– Bəs dünən axşam o nə yeyib, nə içib, – Blor maraqlandı, – siz onu yatağa uzandıranda?

– Heç nə yeməyib, – doktor Armstronq dedi.

– Tamam heç nə? Bir fincan çay, bir stəkan su da içməyib? And içərəm ki, ən azından bir fincan cay içməmiş olmaz. Elə adamlar çaysız yaşaya bilmirlər.

– Rocers iddia edirdi ki, heç nə yeməyib, içməyib.

– O, çox söz deyə bilər. – Blor bunu elə tərzdə dedi ki, hamı təəccüblə ona baxdı.


https://www.facebook.com/groups/Kitabsever/

– Deməli, siz ondan şübhələnirsiniz? – Lombard -soruşdu.

– Buna əsasım da var. – Blor dişlərini qıcadı. – Biz o ittiham aktını eşitdik. Adama elə gələ bilər ki, bütün bunlar sərsəm adamın işləridir. Başqa tərəfdən yanaşaq. Bəlkə bunlar həqiqətdir? Hesab edək ki, Rocerslə xanımı doğrudan da qoca qadının axırına çıxıblar. Onda nə alınır? Deməli, onlar bu vaxta qədər özlərini rahat hiss ediblər, düşünüblər ki, heç kimin bu cinayətdən xəbəri yoxdur. Amma birdən-birə hər şeyin üstü açılıb.

Vera onun sözünü kəsdi.

– Ona baxanda mənə elə gəldi ki, missis Rocers heç vaxt özünü rahat hiss etməyib. – Sakitcə dedi.

Blor hiddətlə Veraya baxdı. Sanki baxışlarıyla demək istəyirdi ki, siz qadınlar adama ağız açmağa imkan -vermirsiniz.

– Olsun. – Blor davam elədi. – Deməli, dünən onların sirrinin üstü açılandan sonra missis Rocersin əsəbləri dözmür, özünü ələ ala bilmir. Görürdünüz, dünən əri onun başına necə dolanırdı? Onu sakit eləməkçün? Yox. Ona görə ki, ayaqlarının altında torpaq yanmağa başlamışdı. Qorxurdu ki, birdən arvadın ağzından nəsə bir söz qaçar, hər şeyi etiraf edər. Məsələ məhz belə olub. Onlar cinayət törədiblər, adam öldürüblər. Və əgər bunu araşdıran olsa, onların aqibəti necə olacaq? Yəqin ki, qadın hər şeyi etiraf edəcək. O, sona qədər hər şeyi rədd etməyə özündə güc tapa bilməyəcək. öz əri üçün daimi təhlükə mənbəyinə çevrilir. Rocersin özünün problemi yoxdur, hətta məhşər gününəcən yalan danışa bilər. Amma əgər qadın hər şeyi danışsa, deməli, Rocersin də axırı çatıb. Ona görə özünü itirən Rocers artıq şahid kimi arvadını aradan götürməyi qərara alır. Onun çayına, ya suyuna yüksək dozada yuxu dərmanı tökür ki, birdəfəlik ağzı yumulsun.

– Dolabın üstündə fincan, stəkan-filan yox idi. – Doktor Armstronq sanki ona inanmırdı. – Ümumiyyətlə, orda heç nə yox idi.

– Əlbəttə, belə də olmalıdır. – Blor başını yellətdi.

– Qadını içizdirəndən sonra Rocers stəkanı orada qoymalı deyildi axı. Əlbəttə ki, tez aparıb yaxşıca yuyub ki, iz qalmasın.

Sükut çöndü, bir azdan general Makarturun səsi eşidildi:



https://www.facebook.com/groups/Kitabsever/

– Bəlkə həqiqətən də belə olub. Lakin mən insanın öz həyat yoldaşını zəhərləməyini heç cür ağlıma sığışdıra -bilmirəm.

– İnsanın öz həyatı təhlükə qarşısında olanda hər şeyə qadir olur. – Blor dedi.

Yenə də hamı susdu. Qapı açıldı və Rocers içəri daxil oldu.

– Mən sizə lazımam? – O, əyləşənləri süzüb davam elədi. – Bağışlayın, süfrədə çörək az idi. Un qurtarıb. Gəmi gətirməliydi, amma o da bayaqdan gözə görünmür.

– Adətən saat neçədə gəlir? – hakim Uorqreyv -maraqlandı.

– Səhər saat yeddiylə səkkiz arası. Bəzən yarım saat yubanır. Bilmirəm, bu Narrokot niyə görünmür. Əgər xəstələnibsə, qardaşı gəlməliydi. Belə danışmışdıq.

– İndi saat neçədir? – Filipp Lombard soruşdu.

– Ona on dəqiqə qalıb.

Lombardın qaşları qalxdı, başını yellətdi.

Rocers bir müddət də gözlədi.

– Sizə dərin hüznlə başsağlığı veririk, Rocers, – general Makartur nəzakətlə qulluqçuya müraciət elədi. – Doktor bayaq bizə bu faciə barədə xəbər verdi.

Rocers başını əydi.

– Minnətdarlığımı bildirirəm, ser, – o, boşalmış qabları yığıb otaqdan çıxdı.

Yenə sakitlik çökdü.



https://www.facebook.com/groups/Kitabsever/

# 3

Evin qarşısındakı meydançada dayanan Filipp Lombard dedi:

– O ki qaldı gəmiyə...

Blor ona baxıb razılıqla başını tərpətdi.

– Bilirəm nə düşünürsünüz, – o dedi. – Mən iki saatdır bu sualı özümə verirəm. Gəmi iki saat əvvəl gəlməliydi, amma gəlməyib. Sual olunur, niyə?

– Cavab tapmısınız? – Lombard soruşdu.

– Bircə onu bilirəm ki, bu, sadəcə təsadüf deyil, məqsədli şəkildə qurulmuş oyundur.

– Deyirsiniz ki, gəmi, ümumiyyətlə, gəlməyəcək?

– Əlbəttə, gəlməyəcək. – Arxadan qıcıqlandırıcı bir səs eşidildi.

Blor hündür, enli bədənini yavaşca arxa tərəfə çöndərib soruşdu.

– Siz nə fikirdəsiniz, general?

– Əlbəttə, gəmi gəlməyəcək. – General bir az əsəbiliklə təkrar elədi. – Biz hamımız gözləyirik ki, gəmi gəlib bizi adadan aparacaq. Amma biz buradan heç yerə gedən deyilik. Hər şey bu cür düşünülüb. Hamı burda qalacaq. Bu ada hər şeyin sonudur. Başa düşürsünüz, son. – Generalın səsi boğuldu, bir qədər fasilə verib yumşaq səslə davam elədi: – Burda elə qəribə sakitlik var ki, hər şeyin axırı məhz belə olmalıydı. Belə olmağı daha gözəldir. Sakitlik və rahatlıq.



https://www.facebook.com/groups/Kitabsever/

O, qəfildən çönüb onlardan uzaqlaşdı, sərt enişlə aşağı, dənizin sahilinə düşdü, sahildəki xırda qayalıqlara çırpılan ləpələrə baxmağa başladı. Onun yerişi havalı adamların yerişinə oxşayırdı.

– Deyəsən, birinin də başına hava gəldi. – Blor dedi.

– Deyəsən, əvvəl-axır hamımız onun gününə qalacağıq.

– Siz heç ağlı çaşan adama oxşamırsınız. – Filipp Lombard dilləndi.

İstefada olan müfəttiş etiraf elədi.

– Düzdür, məni havalandırmaq o qədər də asan deyil. – Və bir qədər kobudluqla əlavə elədi: – Deyəsən, sizin də havalanmaq təhlükəniz yoxdur.

– Düzdür, haqlısınız. Mən özümdə havalanmanın heç bir əlamətini görmürəm. – Lombard cavab verdi.



https://www.facebook.com/groups/Kitabsever/

# 4

Doktor Armstronq evin qarşısındakı meydançaya çıxıb fikrə getdi. Lombard ilə Blor sol tərəfdə dayanmışdılar. Sağ tərəfdə başını aşağı salan Uorqreyv gəzişirdi. Qısa tərəddüdlərdən sonra doktor Armstronq qoca hakimə yaxınlaşmağa qərar verdi. Elə bu vaxt asta addım səsləri eşidildi.

– Mən sizinlə danışmaq istəyirəm, ser, – arxadan Rocersin səsi gəldi.

Doktor Armstronq arxaya çönəndə yerində donub qaldı. Qulluqçunun gözləri bərəlmişdi. Üzünün dərisi yaşıllaşmışdı. Əlləri əsirdi. Bir neçə dəqiqə əvvəl o daha təmkinli görünürdü. Təzad o qədər böyük idi ki, doktor Armstronq yerindən cəld tərpənib ona yaxınlaşdı.

– Doktor, mən sizinlə təklikdə danışmalıyam, içəridə.

Doktor içəri keçdi, qulluqçu da addımbaaddım onu izləməyə başladı.

– Axı nə olub, Rocers?

– Bura gəlin, ser, bura...

O, qonaq otağının qapısını açdı, doktoru irəli buraxıb özü də onun ardınca içəri keçdi.

– Hə. Eşidirəm səni. – Doktor Armstronq dedi. – De görüm nə olub?

Rocersin hülqumunun sürətlə qalxıb-enməsindən hiss olunurdu ki, yaman narahatdır. Elə bil boğazında nəsə -qalmışdı.



https://www.facebook.com/groups/Kitabsever/

– Burda qəribə hadisələr baş verir, ser. – Nəhayət, Rocers yavaşca dilləndi.

– Siz nəyi nəzərdə tutursunuz? – doktor Armstronq soruşdu.

– Bəlkə elə düşünəcəksiniz ki, mənim başıma hava gəlib, bütün bunlar boş şeydir. Çünki bunu başqa cür izah eləmək mümkün deyil. Amma bunun nəsə bir mənası var.

– Lənət şeytana, sözünüzü deyin. Tapmacalarla danışmayın. – Doktor Armstronq özündən çıxdı.

Rocers udqundu.

– Bu fiqurları deyirəm, ser. Stolun üstündəki zənci balaları fiqurlarını. Əvvəl on dənəydi. And içirəm, özüm -saymışdım.

– Hə, də, – doktor çiyinlərini çəkdi. – Biz də saymışdıq. Nə olsun axı.

Rocers onu stola yaxın gətirdi.

– Elə məsələ də bundadır, ser, dünən stolu yığışdıranda doqquzu qalmışdı. Mən saydım, amma əhəmiyyət vermədim. Özünüz bilirsiniz ki, xanımın vəziyyəti məni daha çox narahat edirdi. İndi isə yenə də yığışdırmağa gələndə saydım. İnanmırsınızsa özünüz baxın. Cəmisi səkkizi qalıb, yalnız səkkizi. Sizcə, bu nə deməkdir?



https://www.facebook.com/groups/Kitabsever/

# YEDDİNCİ FƏSİL

## 1

Səhər yeməyindən sonra Emili Brent Veraya təklif elədi ki, qayanın yuxarısına çıxıb dənizə baxsınlar, görsünlər ki, gəmi gəlir, yoxsa yox.

Soyuq sərt külək əsirdi. Dəniz ləpələnməyə başlamışdı. Balıqçı qayıqları da, Narrokotun gəmisi də, deyəsən, dənizə çıxmamışdılar. Yalnız Stikxlevn kəndinin üstündəki təpəlik görünürdü. Kəndin özü görünmürdü – aralıqdakı qayalıq kəndin qarşısındakı buxtanı bağlamışdı.

– Bizi bura gətirən kapitan məndə xoş təəssürat oyatmışdı. Görəsən, indi niyə gecikir? – Emili Brent təəssüflə dedi.

Vera cavab vermədi. O, ruhunu bürümüş vahiməylə mübarizə aparırdı.

«Soyuqqanlılığı saxlamaq lazımdır, – öz-özünə təkrar edirdi. – Özünü ələ al, axı sən belə deyildin, sənin əsəblərin həmişə sakit olub».

– Nə qədər tez gəlsə, o qədər yaxşıdır. – Vera dilləndi.

– Mən burdan rədd olub getmək istəyirəm.

– Təkcə sən yox. – Miss Brent dedi.



https://www.facebook.com/groups/Kitabsever/

– Butun bunlar o qədər mənasız görünür ki... – Vera cavab verdi. – Hər şey mənasızdır.

– Mən özümdən çox narazıyam. – Miss Brent əsəbiliklə dedi. – Mən gərək bu qarmağa keçməyəydim, hər şeyi yoxlamamış gəlməzdim bura. Çox səthi yazılmış məktub idi. Amma o vaxt mənim içimdə zərrə qədər də şübhə yaranmadı.

– Əlbəttə, – Vera fikirli olsa da razılaşdı.

– Biz çox vaxt yalanları həqiqət kimi qəbul eləməyə öyrəşmişik. – Emili Brent davam elədi.

Vera isə içini çəkib həmsöhbətinə çöndü:

– Siz doğrudan da səhər yeməyi zamanı deyilənlərə inandınız? – o soruşdu.

– Fikrinizi dəqiq ifadə edin. Konkret nəyi nəzərdə -tutursunuz?

– Siz həqiqətən də düşünürsünüz ki, Rocerslə arvadı qoca sahibələrini o dünyaya göndəriblər? – Vera pıçıldadı.

– Buna heç şübhə də ola bilməz. – Miss Brent əminliklə dedi. – Görmədiniz o ittihamı eşidən kimi necə ürəyi getdi? Rocersin özü də həyəcandan əlindəki sinini yerə saldı. Təşvişi də saxta idi. Hiss olunurdu. Mən şübhə eləmirəm ki, həmin o miss Breydini bizim Rocerslə arvadı

öldürüb.

– Mənə elə gəlirdi ki, missis Rocers öz kölgəsindən də qorxur. – Vera bildirdi. – Həyatım boyu belə qorxacaq məxluqla rastlaşmamışdım. Yəqin ki, vicdanı ona əziyyət verirdi.

Miss Brent elə bil nəyisə xatırladı:

– Mənim uşaq otağımda o vaxt belə bir yazı asılmışdı: «Öz günahlarınıza görə cəza çəkməlisiniz». Məncə, indi də eyni vəziyyətdir.

– Miss Brent, belə isə bəs onda... – Vera sözünü bitirmədi.

– Nə, əzizim?



https://www.facebook.com/groups/Kitabsever/

– Bəs o birilər? O biri ittihamlar?

– Mən sizi başa düşmürəm.

– Deyirəm ki, o biri ittihamlar... Axı onlar doğru deyildir. Əgər Rocersləri haqlı olaraq ittiham ediblərsə, onda belə çıxır ki... – Veranın fikirləri qarışdı.

Miss Brentin şübhələrdən qırışmış üzü açıldı.

– Başa düşürəm, – o dedi. – Məsəlçün, mister Lombard özü etiraf elədi ki, iyirmi nəfər adamı ölümlə üz-üzə qoyub.

– Axı bunlar aborigenlərdir. – Vera bildirdi.

– Nə olsun? Qara, ya ağ, hamısı bizim qardaşlarımızdır. – Miss Brent müdrikcəsinə dedi.

«Bizim qara qardaşlarımız, bizim İsa qardaşlığı... – Veranın fikrindən nə vaxtsa eşitdiyi qırıq-qırıq cümlələr keçdi. – İlahi, mən indi gülüb özümdən gedəcəm. İsterikaya düşməsəm yaxşıdır. Elə bil heç özümdə deyiləm».

Emili Brent isə mənalı səslə davam elədi:

– Əlbəttə ki, bəzi ittihamlar çox gülünc görünür. Hakim Uorqreyv cəmiyyət qarşısında öz borcunu yerinə yetirib. O istefada olan polis də. O ki qaldı mənim ittihamıma,

– o, ani fasilə verib davam elədi. – Mən dünən bəzi şeyləri gizlətməli oldum. Kişilərin yanında belə mövzulardan danışmaq ədəbsizlikdir.

– Hansı mövzular? – Veranı maraq bürüdü.

Miss Brent laqeydliklə davam elədi:

– Beatris Teylor mənim yanımda qulluqçu işləyirdi. Əfsuslar olsun ki, mən onun kim olduğunu çox gec başa düşdüm. Yaman aldandım. Əvvəllər çox zəhmətkeş, işgüzar qız kimi görünürdü, mən ondan razı idim. Çox xoşuma gəlirdi. Ancaq sonralar bildim ki, əxlaqsızın, tərbiyəsizin biri imiş. Mən bunu gec başa düşdüm. Yalnız özüm məsələnin üstünə çıxandan sonra... – Emili Brent üzünü qırışdırdı.

– Mən sarsılmışdım. Valideynləri alicənab adamlar idi, onu da yaxşı tərbiyə eləmişdilər. Şükür ki, onlar da bu tərbiyəsizə qahmar çıxmadılar.

– Bəs o qızın aqibəti necə oldu? – Vera həyəcanla həmsöhbətinin üzünə baxdı.

– Təbii ki, mən daha onu öz evimdə saxlaya bilməzdim. Onun əxlaqsızlığının qarşısını heç kim ala bilməzdi.

– Bəs axırı necə oldu? – Vera sualını təkrar elədi.

– Onun üstündə artıq bir günah vardı. Amma hamı ondan üz döndərəndən sonra o qız daha böyük günaha qol qoydu.

– İntihar elədi? – Vera dəhşət içində pıçıldadı.

– Hə, özünü dənizə atıb boğdu.

Veranın bədənindən üşütmə keçdi. Miss Brentin laqeyd sifətinə baxıb soruşdu:

– Onun intihar xəbərini eşidəndə bəs nə hisslər keçirdiniz? Onu qovmağınıza təəssüfləndiniz? Özünüzü -günahlandırmırdınız?

– Özümü? – Emili Brent əsəbiləşdi. – Mən axı nəyə görə özümü qınamalıydım ki?

– Bəlkə onu bu addıma sizin qəddarlığınız vadar edib? – Vera əl çəkmədi.

– Onun əxlaqsızlığı və günahı. İntiharın səbəbi bunlar olub. Əgər özünü ədəbli, əxlaqlı qız kimi aparsaydı, bunlar baş verməzdi.

O, sözünü deyib Veraya tərəf çöndü. Onun gözlərində zərrə qədər də təəssüf hissi yox idi. Yalnız və yalnız öz haqlılığına inam var idi. Emili Brent sanki öz əxlaqının zirehinə bürünüb Zəncilər adasının başında oturmuşdu.

Bu vaxtı keçmiş, qarımış qız daha Veraya gülünc görünmürdü. Yox, o, qorxunc görünürdü.



https://www.facebook.com/groups/Kitabsever/

## 2

Doktor Armstronq Rocerslə söhbətdən sonra yenə də evin qarşısındakı meydançaya çıxdı. Heç nə dəyişməmişdi. Hakim yenə də sağ tərəfdəki kresloda oturub dənizə baxırdı. Lombardla Blor da solda yavaşca söhbət edərək siqaret çəkirdilər.

Doktor əvvəlcə tərəddüd elədi. Sınayıcı nəzərlərlə hakimə baxdı. Onun sərt məntiqi doktorun xoşuna gəlirdi. Buna baxmayaraq, içində şübhələr oynayırdı. Əlbəttə, mister Uorqreyv çox ağıllı adamdır, amma yaşı keçib. Belə məqamlarda cəld, sürətli adam lazımdır. Və doktor qərarını verdi.

– Lombard, sizi bir dəqiqə olar?

Filipp cəld yaxınlaşdı.

– Əlbəttə.



https://www.facebook.com/groups/Kitabsever/

Onlar birlikdə sahilə düşdülər. Bir qədər aralanandan sonra doktor Armstronq dedi.

– Mənə sizin məsləhətiniz lazımdır, Lombard.

Filipp Lombard qaşlarını çatdı.

– Axı mənim tibbdən başım çıxmır.

– Bu, başqa məsələdir.

– Siz məni başa düşmədiniz. Mən bu hadisə barədə məsləhət eləmək istəyirdim.

– Hə, bu olar.

– Açıq deyin. – Armstronq soruşdu. – Bizim düşdüyümüz vəziyyət barədə nə düşünürsünüz?

Lombard bir anlıq fikrə getdi.

– Burda baş sındırmalı məsələlər çoxdur, – etiraf elədi.

– Missis Rocersin ölümü barədə nə düşünürsünüz? Siz Blorun səhər dediyi fikirlərlə razısınız?

Filipp sinəsinə çəkdiyi tüstünü halqavari şəkildə havaya buraxdı.

– Bu hadisəni ayrılıqda nəzərdən keçirtsəydik, mən onunla tam razılaşardım.

– Məsələ də elə bundadır. – Armstronq ah çəkdi. Əmin oldu ki, Lombard ağıllı adamdır.

Filipp isə davam edirdi.

– Tutalım, mister və missis Rocers həqiqətən də nə vaxtsa cinayət törədiblər və sudan quru çıxıblar. Bu mümkündür. Siz necə düşünürsünüz, onlar qarını zəhərləyiblər, yoxsa başqa cür olub hadisə?

– Məncə, hadisə başqa cür baş verib. – Doktor Armstronq dedi. – Mən bu səhər Rocersdən soruşub maraqlandım. O, miss Breydinin xəstəliyi barədə mənə danışdı. Tibbi xırdalıqlara varmaq istəmirəm, amma deyim ki, bəzi ürək xəstəliklərində amilnitrit preparatı tətbiq olunur. Tutması başlayanda ampulanı sındırıb xəstəyə verirlər. Əgər dərman vaxtında



https://www.facebook.com/groups/Kitabsever/

verilməsə, xəstə ölə bilər. Belə çıxır ki, onların hansısa hərəkəti yox, sadəcə hərəkətsizliyi qadının ölümünə səbəb ola bilərdi. Həm də Rocers gecəylə doktorun dalınca gedib. Deməli, heç kimin şübhələnməyə əsası ola bilməzdi.

– Əsas olubsa da bunu sübut eləmək mümkün olmaz.

– Filipp Lombard dedi. – Bu hər şeyi izah edir.

– Bağışlayın, nəyi? – doktor soruşdu.

– Yəni bizim bu Zəncilər adasına gətirilməyimizin səbəbləri aydın olur. Elə cinayətlər var ki, onlara görə məsuliyyətə cəlb eləmək mümkün deyil. Elə Rocerslərin işi, yaxud hakim Uorqreyvin məsələsini götürək. İlk baxışdan onların əməlində qanundankənar heç bir əməl yoxdur.

– Siz də Uorqreyvin o məhkuma qəsdən ölüm hökmü verdiyinə inanırsınız?

Lombard gülümsündü.

– Əlbəttə, inanıram. Bu, şübhəsiz ki, qətldir. Elə bil ki, bıçağı Sittonun ürəyinə saplayıb. Amma o həddən artıq ağıllı idi, bıçağa əlini vurmamışdı, öz cinayətini hakim kreslosunda oturaraq həyata keçirtmişdi. Deməli, onu adi yolla məsuliyyətə cəlb eləmək mümkün deyil.

Armstronqun beynindən o vaxtkı qəzet yazıları keçdi. «Hospitalda ölüm», «Əməliyyat stolu arxasında qatil»...

Lombard isə davam edirdi.

– Mister Onimə Zəncilər adası məhz buna görə lazım idi.

Armstronq ağır-ağır nəfəsini dərdi.

– İndi isə məsələnin mahiyyətinə yaxınlaşırıq. Bizi bura niyə yığıblar?

– Bəs, sizcə, niyə? – Lombard azca gülümsündü.

– Gəlin missis Rocersin ölümü anını xatırlayaq. – Doktor Armstronq dedi. – Burada hansı versiyalar ola bilər? Birincisi, onu Rocers öldürüb. İkincisi, o özü qorxudan havalanıb və özünə qəsd edib.

– Deməli, intihar? – Lombard dəqiqləşdirdi.

– Siz buna nə deyirsiniz?



https://www.facebook.com/groups/Kitabsever/

– Əgər Morstonun intiharı olmasaydı, mən sizinlə razılaşardım. Amma on iki saata iki intihar ağlasığmazdır. Həm də siz bu saat mənə desəniz ki, Antoni Morston kimi əhlikef, həyat eşqiylə qaynayan xudbin, özündənrazı səfeh iki uşağı maşınla basdığına görə vicdan əzabı çəkib və buna görə də intihar edib, mən sizə gülərəm. Ürəkdən gülərəm. Mən hələ bu vaxtacan görməmişəm ki, kalium-sianid kimi zəhəri velyur jiletlərin cibində gəzdirsinlər. Hər halda belə məsələlərdə siz daha məlumatlı olarsınız.

– Heç bir adam üstündə kalium-sianid gəzdirməz. Əlbəttə, əgər arıçılıqla məşğul olmursa. – Doktor Armstronq dedi.

– Qısaca desək, əgər Morston ya arıçı, ya da fermer olsaydı, onda başadüşülən olardı. Amma belə peşələr Morston kimilər üçün deyil. Kalium-sianidi izah eləmək o qədər də asan deyil. Belə çıxır ki, Antoni Morston bura gəlməmişdən əvvəl intihar eləmək qərarına gəlib, zəhəri də ona görə özüylə götürüb. – Lombard pauza verdi. – Ya da...

– Ya da... – Doktor Armstronq sanki qorxa-qorxa təkrar elədi. – Siz, deyəsən, istəyirsiniz ki, bu sözü məhz mənim dilimdən eşidəsiniz. – Filipp Lombard acı-acı güldü. – İkinci versiyanı siz məndən də yaxşı başa düşürsünüz. Antoni Morstonun intihar eləmək niyyəti olmayıb. Onu zəhərləyib öldürüblər.

– Bəs missis Rocers? – doktor soruşdu.

– Missis Rocersin ölümü olmasaydı, mən Morstonun intiharına inanardım. Ya da əksinə, missis Rocersin əri tərəfindən öldürüldüyünə inanardım, əgər Morstonun ölümü olmasaydı. Məncə, bizə elə bir versiya lazımdır ki, dalbadal gələn hər iki qətlin səbəbini aça bilsin.

– Bəlkə indi mənim deyəcəklərim bəzi məqamlara aydınlıq gətirə bilər. – Doktor Armstronq bunu deyib zənci balalarının fiqurlarının ikisinin yoxa çıxdığını dedi.

Hə, zənci balaları. – Lombard fikirli halda dedi.

– Dünən on dənəydi. Mən də saymışdım. İndi deyirsiniz səkkizi qalıb?

Armstronq şeiri dedi:

On zənci balası nahara getdi,

Birisi boğuldu, aradan itdi.



https://www.facebook.com/groups/Kitabsever/

Doqquz zənci balası çox yedi,

Birisi yuxudan durmadı səhər.

Kişilər təəccüblə baxışdılar. Filipp Lombard başını yellədib siqareti kənara atdı.

– Hər şey qəribə şəkildə uzlaşır. Burda təsadüf ola bilməz. Antoni Morston şam yeməyindən sonra çeçəyərək boğulub ölür. Rocersin xanımı isə gecə yatır, səhər durmur. Eynən o şeirdəki kimi.

– Belə çıxır ki... – Armstronq yenə sözünün ardını deməyə qorxdu sanki.

– Belə çıxır ki, biz yeni tapmaca qarşısındayıq. – Lombard dedi. – Görəsən, bu mister Onim kimdir, hardadır?

– Aha, – doktor Armstronq sanki rahat nəfəs aldı.

– Deməli, siz mənim düşündüyüm kimi düşünürsünüz. Lakin siz başa düşürsünüz ki, bu nə deməkdir? Axı Rocers and içir ki, adada daha heç kim yoxdur.

– Onda ya Rocers yanılır, ya da yalan deyir.

Armstronq başını tərpətdi.

– İnandırıcı görünmür. O, dəhşətli dərəcədə qorxub. Qorxudan elə haldadır ki, ayaq üstə güclə durur.

– Gəmi də bu gün gəlmədi. – Lombard dedi. – Hər şey uyğun gəlir. Hər şeydə mister Onimin oyunu hiss olunur. O öz niyyətlərini həyata keçirənə qədər Zəncilər adası sudan və qurudan təcrid olunacaq.

Doktor Armstronqun rəngi ağardı.

– Siz başa düşürsünüz ki, bu adam əsl manyakdır?

– dedi.

– Buna baxmayaraq, mister Onim bir şeyi nəzərə almayıb. – Filipp Lombard dedi.

– Nəyi?



https://www.facebook.com/groups/Kitabsever/

– Ada o qədər də böyük deyil, gizlənməyə yer yoxdur. Biz birlikdə adanı yoxlayıb bu mister Onimi boğazlaya bilərik.

– O, yəqin ki, çox təhlükəli adamdır. – Doktor Armstronqun səsi titrədi.

Filipp Lombard isə qəhqəhə çəkdi.

– Təhlükəlidir? Sən nə danışırsan? Mən öz işimdə ondan da təhlükəlilərilə üzləşmişəm. Hələ bir dəfə də geri çəkildiyim olmayıb. Sizi inandırım ki, əgər mən onun boğazından yapışa bilsəm, əsl təhlükəli adam məhz mən olacam. Əlbəttə ki, yalnız onun üçün. – Lombard nəsə xatırladı. – Amma Bloru da köməyimizə çağırsaq, pis olmaz. Belə işlərdə kara gələn adamdır. Qadınlara isə heç nə deməyək. O ki qaldı qocalara, məncə, nə Makartur, nə də Uorqreyv bizə kömək edə bilərlər. Bu işin öhdəsindən gəlməyə bizim üçümüz tam kifayət edərik.

# SƏKKİZİNCİ FƏSİL

## 1

Bloru razı salmaq o qədər də çətin olmadı. O, doktorla Lombardın dəlillərinə qulaq asan kimi razılıq verdi.

– Bu çini fiqurların itməsi hər şeyi izah edir. Yüz faiz bütün bunlar ağlı çaşmış manyakın işidir. Başqa bir fikir ola bilməz. Siz düşünürsünüz ki, mister Onim öz əməlini başqalarının əliylə görür?



https://www.facebook.com/groups/Kitabsever/

– Anlamadıq. – Doktor etiraf elədi. – Fikrinizi aydın izah edin.

– Məncə, məsələ belə olub. Dünənki ittihamlardan sonra Morston küyə düşüb intihar edib. Rocers də təşvişə düşərək arvadını o dünyaya göndərib. Mister Onimin planlarına tam uyğun şəkildə.

Armstronq başını yellətdi.

– Kalium-sianidi unutmayın.

– Hə. Bağışlayın, unutmuşdum. – Blor dedi. – Əlbəttə ki, heç kim həmişə üstündə zəhər gəzdirən deyil. Bəs zəhər onun qədəhinə necə düşüb?

– Mən də bu barədə düşünmüşəm. – Lombard dedi.

– Mortson iki dəfə içmişdi. Birinci və ikinci qədəhin arasında xeyli vaxt keçmişdi. Bu müddət ərzində qədəh pəncərənin qarşısındakı stolun üstündə idi. Pəncərə də açıq qalmışdı. Kimsə pəncərədən əlini uzadıb qədəhə zəhər ata bilərdi.

– Axı bizlərdən biri bunu görə bilərdik. – Blor tərəddüdlə dedi.

– Həmin vaxt bizim fikrimiz tamam başqa yerdəydi. Hamımızın fikri… – Lombard ah çəkdi.

– Düz deyirsiniz. – Armstronq təsdiq elədi. – Bu ittihamlar bizim hamımızın halını dəyişmişdi. Hamı gərgin şəkildə mübahisə edirdi, vurnuxurdu. Kimsə çox rahat şəkildə pəncərədən qədəhə nəsə ata bilərdi.

Blor çiyinlərini çəkdi.

– Yəqin ki, məsələ elə bu cür də olub. İndi isə iş başına, cənablar. Kimsə hər ehtimala qarşı özüylə silah götürməyib ki? – təəssüflə başını yellətdi. – Amma bu, çox xoş təsadüf olardı.

– Təsadüf niyə? – Lombard əlini pencəyinin arxasına vurdu. – Mən silahlıyam.

Blor bərəlmiş gözlərini ona zillədi.

– Doğrudan? Siz həmişə revolverlə gəzirsiniz?

– Vərdiş eləmişəm. Bilirsiniz, mən həyatım boyu o qədər gərgin işlərdən çıxmışam ki, bunsuz bir günümü də təsəvvür edə bilmirəm.



https://www.facebook.com/groups/Kitabsever/

– Ola bilər. – Blor dedi. – Amma sizi inandırıram ki, bu iş hamısından gərgin olacaq. Əgər adada manyak gizlənirsə, onda deməli, silahsız olmaz, yəqin ki, bir anbar tapança, xəncər, bıçaq hazırlayıb.

Armstronq irişdi.

– Məncə, burda yanılırsınız, Blor. Belə manyaklar həyatda adətən çox sakit, fağır adamlar olurlar.

– Mənim təcrübəm və intuisiyam isə deyir ki, bu manyak onların tayı deyil.

## 2

Beləliklə, üçlük adanı axtarışa çıxdı. Bu, o qədər də çətin olmadı. Şimal-qərbdə qayalıq birbaşa dəniz sahilinə düşürdü. Ağaclar gözə dəymirdi, hətta ot da bitmirdi. Yalnız daşlıq idi. Əsasən qayalıqların arasını axtarmaq lazım gəldi – bəlkə gizli mağaralar var? Amma heç bir mağaranın izi-tozu da yox idi.

Əks tərəfin sahilini yoxlayanda onların qarşısına general Makartur çıxdı. O, qəribə pozada oturub üfüqə zillənmişdi. Özü üçün çox sakit bir yer


https://www.facebook.com/groups/Kitabsever/

seçmişdi. Sükutu yalnız ləpədöyənə çırpılan dalğaların səsi pozurdu. Qoca hərbiçi doktorla dostlarına fikir vermədi. Gözünü üfüqdən çəkmədi. Məhz buna görə də hər üçünün ürəyinə qəribə narahatçılıq çökdü.

Blor düşündü: «Görəsən, qoca havalanmayıb ki?»

Blor öz varlıqlarını hiss elətdirmək üçün yavaşca öskürdü və dilləndi.

– Çox sakit yer tapmısınız – səssizlik və dəniz.

General qaşlarını çatıb çiyni üstündən onlara baxdı.

– O qədər də çox vaxt qalmayıb, – o dedi. – Az qalıb, çox az. Və mən israrla xahiş edirəm ki, məni narahat -eləməyəsiniz.

– Sizi narahat eləmək fikrimiz yox idi, ser. – Blor səmimiyyətlə dedi. – Biz sadəcə adanı gözdən keçiririk. Yoxlamaq istəyirik ki, görək adada kimsə gizlənir, ya yox.

Generalın rəngi qaraldı.

– Siz başa düşmürsünüz. Siz heç nə başa düşmürsünüz, – o dedi. Xahiş edirəm, məni tək buraxın.

Blor qocadan uzaqlaşan dostlarının ardınca getdi. Onlara çatandan sonra təəssüflə dedi:

– Deyəsən, qocanın ağlı çaşıb. Ağlına gələni danışır.

– Sizə nə deyirdi ki?

Blor çiyinlərini çəkdi.

– Dedi ki, az vaxt qalıb, xahiş edirəm, məni narahat -etməyəsiniz.

Armstronqun alnı qırışdı.

– Maraqlıdır...


https://www.facebook.com/groups/Kitabsever/

Onlar bütün adanı gəzib dolaşdılar. Sonra da qayalığın başına çıxıb dənizə baxmağa başladılar.

## 3



https://www.facebook.com/groups/Kitabsever/

– Balıqçı qayıqları da bu gün dənizə çıxmayıb. – Lombard dedi. – Tufan yaxınlaşır. Heyif ki, burdan baxanda kənd görünmür. Yoxsa şərti işarə verib köməyə çağırmaq olardı.

– Axşam ocaq qalamaq lazımdır. – Blor təklif elədi.

– Bütün məsələ də bundadır. – Lombard etiraz elədi.

– O, yəqin ki, hər şeyi nəzərə alıb.

– Nə demək istəyirsən?

– O, yəqin, kənddəkiləri də xəbərdar edib ki, bizim siqnallarımıza əhəmiyyət verməsinlər.

– Əlimizdə qayıq olsaydı, artıq gedib sahilə çıxmışdıq. – Lombard dedi.

– Düzdür. Olsaydı...

Elə bil Lombardın ağlına nəsə gəldi.

– Burda yalnız bir gizli yer qaldı. Bax o qayalığın altı. Sağ tərəfdə, suyun yanında. Bəlkə bu cənab Onim orada öz qayığını gizlədir. Gəlin kəndir tapaq, belimə bağlayım, sallayın məni ora.

– Əla fikirdir. – Blor razılaşdı. – Gedim görüm kəndir tapa bilirəmmi.

O, sözünü deyib evə tərəf getdi.

Lombard başını qaldırıb səmaya baxdı. Səmanı qara buludlar bürüyürdü. Külək də güclənirdi. Lombard doktor Armstronqa baxdı.

– Niyə susdunuz, doktor? Nə düşünürsünüz?

– Mənə maraqlıdır ki... – Doktor sözünü yarımçıq saxladı, bir müddət susub davam elədi. – Makartur məni yaman narahat edir. Yazıq qocanın başına hava gəlməsə yaxşıdır.

## 4

Günün birinci yarısını Vera özünə yer tapa bilmirdi. Emili Brentdən uzaq qaçmağa çalışırdı. Bu qarımış yaşlı qızın hətta görkəmi də onda ikrah yaratmağa başlamışdı.

Miss Brent öz kreslosunu evin arxasına keçirib sakitlikdə nəsə toxumaqla məşğul idi. Vera onun barəsində düşünən kimi özünü suda boğan qızın cizgiləri gəlib gözünün qabağında dayanırdı. Solğun bənizi, saçlarına dolaşan yosunlar...

Evin qarşısındakı meydançada isə səhərdən bəri hakim Uorqreyv sakitcə oturub dənizə baxırdı. Kreslonun arxasına elə söykənmişdi ki, balaca tüksüz başı sanki çiyinlərinin arasında yoxa çıxmışdı. Vera ona da rahat baxa bilmirdi. Gözünün qabağına müttəhim masasında oturan üzügülər bir gənc gəlirdi. Sarı saçlı, mavi gözlü Eduard Sitton. Veranın gözünün qabağına gəlirdi ki, hakim Uorqreyv dərisi qırışmış əlləriylə kəndiri onun boğazına keçirir və ölüm hökmünü oxuyur...

Bir müddət sonra Vera aşağı düşüb sahilboyu gəzişməyə başladı. Özü də hiss eləmədən ayaqları onu general Makarturun oturduğu qayalığa gətirib çıxartdı.

Addım səslərini eşidən Makartur tərpəndi və çönüb arxaya baxdı. Onun gözlərindəki narahatlıq və sual ifadəsi nədənsə Veraya qorxunc göründü. Qızın bədənindən üşütmə keçdi. Bir neçə dəqiqə ərzində generalın qəribə ifadəli baxışları Veraya zillənib durdu. Qız fikirləşdi: «Qəribə baxışları var. Elə baxır ki, elə bil hər şeyi bilir».

– Hə, sizsiniz? – nəhayət, general dilləndi. – Siz -gəlmisiniz...

Vera onun yanında qayanın üstündə oturdu.

– Burda oturub sakitcə dənizə baxmaq, deyəsən, sizin xoşunuza gəlir.

– Xoşuma gəlir. – General etiraf elədi. – Burda gözləmək daha yaxşıdır.

– Gözləmək? – Vera heç nə anlamadı. – Axı siz nəyi -gözləyirsiniz?

– Hər şeyin sonunu. – General yavaşca dedi. – Axı siz bunu məndən də yaxşı bilirsiniz. Düz deyil? Biz hamımız hər şeyin sonunu gözləyirik.

– Siz bununla nə demək istəyirsiniz? – titrəyən səslə Vera soruşdu.


https://www.facebook.com/groups/Kitabsever/

– Bizim heç birimiz bu adanı tərk edə bilməyəcəyik. Arxayın olun. Çünki hər şey əvvəlcədən düşünülüb. Yəqin özünüz də başa düşürsünüz. Amma bir şeyi, yəqin ki, anlamırsınız. Başa düşmürsünüz ki, bu necə rahatlıq gətirəcək.

– Rahatlıq? – Vera təəccübləndi.

– Bəli, məhz rahatlıq. – General təkrar elədi. – Siz hələ çox cavansınız. Bunu yaxşı anlaya bilməzsiniz. Lakin bir müddətdən sonra günahın yükü sizi sıxmağa başlayacaq. Yük getdikcə ağırlaşacaq və görəcəksiniz ki, sizin ruhunuzun bütün gücü, enerjisi yalnız bu yükü daşımağa sərf olunur. Bax onda siz də mənim kimi beləcə sakit bir sahildə oturub hər şeyin sonunu gözləyəcəksiniz.

– Mən sizi başa düşmürəm. – Veranın səsi çox boğuq çıxdı. Qeyri-ixtiyari barmaqlarını şaqqıldatmağa başladı.

Əvvəl sakit görünən bu qoca da Verada vahimə yaratmağa başladı. Hiss elədi ki, ondan qorxur.

– Lesli sizin xanımınızdır? – Vera soruşdu.

Bəli. Mən onu çox sevirdim. Onunla fəxr edirdim. O, çox gözəl, şən bir qadın idi. – Bir-iki dəqiqə susan general əlavə elədi. – Hə, mən Leslini sevirdim, bu addımı da ona görə atdım.

– Siz demək istəyirsiniz ki... – Vera sözünü yarımçıq saxladı.

General başını tərpətdi.

– İnkar eləməyin nə mənası var? Onsuz da yaxın vaxtlarda hamımız öləcəyik. Mən həqiqətən də Riçmondu ölümə göndərmişəm. Ən qəribəsi budur ki, mən həmişə qanuna hörmət edən adam olmuşam. Ancaq o vaxt məsələyə başqa cür baxırdım. Vicdan əzabı çəkmirdim. O vaxt fikirləşirdim ki, Artur bu aqibətə layiqdir. Özü günahkardır. Lakin vaxt keçdikcə...

– Vaxt keçdikcə nə oldu ki? – Veranın səsində yüngül qəzəb hiss olundu.

General ah çəkib başını yellətdi.

– Bilmirəm, – dedi. – Heç nə bilmirəm. Sonra hər şey dəyişdi. Bilmirəm, Lesli məsələdən xəbər tutmuşdu, yoxsa yox. Məncə, yox. Lakin o



https://www.facebook.com/groups/Kitabsever/

hadisədən sonra Lesli məndən yavaş-yavaş uzaqlaşmağa başladı. Bir müddət sonra isə bir evin içində tamam yad adamlara çevrildik. Sonra isə öldü. Mən də tək qaldım.

– Tək... tək... – Vera sanki qeyri-ixtiyari onun dediklərini təkrar eləməyə başladı.

– Hər şeyin sonu gələndə siz də sevinəcəksiniz, görərsiniz. – General Makartur sözünü bitirdi.

Vera ayağa qalxıb paltarını çırpdı.

– Mən başa düşmürəm, siz nədən danışırsınız. – Hiss elədi ki, əsəblərini çətinliklə cilovlayır.

– Mənsə başa düşürəm, mənim balam, çox yaxşı başa düşürəm.

– Yox. Siz də başa düşmürsünüz, heç nə başa -düşmürsünüz.

General yenə də üfüqlərə zilləndi. Elə bil ki, qızın mövcudluğu artıq onu yormuşdu.

– Ah, Lesli, Lesli... – o, ah çəkərək pıçıldadı.


https://www.facebook.com/groups/Kitabsever/

# 5

Blor bir qucaq kəndirlə geri qayıdanda doktor Armstronq bayaqkı yerində dayanıb qayalıqların altına baxırdı.

– Bəs mister Lombard hardadır? – Blor soruşdu.

– Ağlına nəsə bir versiya gəldi. Onu yoxlamağa getdi.

– Doktor dedi. – İndi qayıdar. Qulaq asın, Blor, mən narahat olmağa başlayıram.

– Hamımız narahatıq.

Doktor Armstronq səbirsizliklə əlini yellətdi.

– Bilirəm, bilirəm. Onu demirəm. Mən qoca Makarturu nəzərdə tuturam. – Armstronq tutqun səslə dedi. – Onun barəsində nə düşünürsünüz?

– Deyirsiniz yəni manyak odur? – Blorun gözləri bərəldi.

– Yox, elə deməK istəmirdim. Yox, yox, – Armstronq onun sözünü kəsdi. – Hərçənd ki, mən psixiatr deyiləm. Bundan başqa, mən onunla kəlmə də kəsməmişəm, ona diqqət yetirməyə imkan olmayıb.

– Düzdür, bu saat onun ağlı, deyəsən, çaşmaq üzrədir. – Blor inamsızlıqla dedi. – Amma mənim heç ağlıma da gəlməzdi ki...

– Düz deyirsiniz. Ondan şübhələnməyinə dəyməz.

– Armstronq mızıldandı. – Qatil, yəqin ki, adada gizlənir. Budur, Lombard da gəlir.

Onlar kəndiri Lombardın belinə yaxşıca bağladılar.

– İnanmıram köməyinizə ehtiyacım olsun, lakin hər ehtimala qarşı diqqətli olun. – Lombard dedi. – Mən ipi dartsam, qaldırarsınız yuxarı.

Lombard bunu deyib aşağı düşdü. Onlar bir neçə dəqiqə Filippin dalınca baxdılar.



https://www.facebook.com/groups/Kitabsever/

– Lap pişik kimi düşür. – Blor başını yellədib dedi.

– Yəqin vaxtilə dağlarda çox olub. – Armstronq dedi.

– Ola bilər.

Bir müddət sükut çökdü. Nəhayət, istefada olan inspektor dilləndi.

– Maraqlı tipdir. Siz necə düşünürsünüz?

– Nə?

– Mən ona inanmıram.

– Niyə ki?

Blor dişlərini qıcıdı.

– Onun, deyəsən, qızğın keçmişi olub. Həm də yaman qaranlıq keçmişi, – nəsə fikirləşən Blor əlavə elədi. – Doktor Armstronq, siz təsadüfən özünüzlə tapança -götürməmisiniz?

Doktorun gözləri kəlləsinə çıxdı.

– Mən? Siz nə danışırsınız? Əlbəttə ki, yox. Axı nəyə görə bura silahlı gəlməliydim ki?

– Bəs nə səbəbdən mister Lombard bura silahlı gəlib?

– Yəqin vərdiş edib. – Doktor Armstronq inamsız səslə dedi.

Blor yenə də dişlərini qıcıdı.

Birdən kanat dartıldı. Bir neçə dəqiqə ərzində onlar ikilikdə Lombardı yuxarı çəkməklə məşğul oldular.

Blor fikirlərini davam elədi:

– Əlbəttə, əgər mister Lombard hansısa vəhşi bir cəngəlliyə getsəydi, silah, yaxud primus, ya da yataq kisəsi aparmağı təbii olardı. Amma İngiltərənin ortasında istirahətə gələn adam silah götürürsə, bu, əbəs deyil. Heç vaxt silahından ayrılmayan adamlar yalnız macəra romanlarında olur.

Armstronq başını tərpətdi. Onlar qayalığın qırağında əyilib kəndiri darta-darta aşağı baxırdılar. Lombard çətinliklə də olsa yuxarı çıxıb tərini sildi.



https://www.facebook.com/groups/Kitabsever/

– Aşağıda heç nə yoxdur. Evdə axtarmaq lazımdır.

# 6

Evi axtarmaq da çox vaxt aparmadı. Əvvəlcə əlavə tikililəri gəzdilər, sonra əsas binaya keçdilər. Mətbəx şkafında missis Rocersin metrəsini tapdılar və bütün divarların qalınlığını, otaqların sahəsini ölçdülər. Bayırdan binanın ölçülərini götürüb rəqəmləri tutuşdurdular. Hər şey düz gəlirdi. Deməli, divarların arasında gizli otaq, filan yox idi. Aşağıdakı otaqların da hamısını gəzdilər. İkinci mərtəbəni axtaranda pəncərədən Rocersi gördülər. O, əlindəki kokteyl dolu siniylə yuxarı qalxırdı.

– Maraqlı məxluqdur. Yaxşı xidmətçidir. Nə olursa-olsun, soyuqqanlılığını itirmir, – Lombard sanki qibtə ilə dedi.

– Rocers yüksək səviyyəli qulluqçudur. – Armstronq razılaşdı. – Bunu onun əlindən almaq mümkün deyil.

– Elə arvadı da yaxşı aşpaz idi. – Blor əlavə elədi.

– Dünənki şam yeməyi mənim çox xoşuma gəldi.

Onlar birinci yataq otağına daxil oldular və on dəqiqə ərzində artıq bütün yataq otaqlarını ələk-vələk eləmiş üçlük pilləkəndə dayanıb vəziyyəti müzakirə edirdi.

– Bəs, görəsən, bu pilləkən hara aparır?– Blor soruşdu.

– Qulluqçuların otağına, – doktor Armstronq dedi.

– Damın altında heç bir otaq yoxdur? Ola bilməz. Axı su çənləri üçün, sisternlər üçün, başqa belə şeylər üçün yer ayrılmalıdır. Yuxarı bizim son ümid yerimizdir.

irdən yuxarıdan yüngül səslər eşidildi. Elə bil kimsə barmaqları üstə gəzirdi. Hamı bu səsi eşitdi. Armstronq Blorun əlindən tutdu.

Lombard barmağını dodaqlarına sıxdı.



https://www.facebook.com/groups/Kitabsever/

– Tsss, qulaq asın.

Onlar yenə də səsi eşitdilər. Yuxarıda gəzən adam elə bil ona kiminsə göz qoyduğunu hiss edib, bir az da ehtiyatla gəzməyə başladı.

– O, yataq otağındadır. Missis Rocersin meyiti qoyulan otaqda.

– Necə də ağlımıza gəlməyib. – Blor dedi. – Axı gizlənmək üçün bundan yaxşı yer ola bilməz. Heç kim onu meyitin yanında axtarmaz. Gəlin, amma səs salmayın.

Onlar kiçik pilləkənlə üçüncü mərtəbəyə çıxdılar, dar meydançada, yataq otağının qapısının yanında dayandılar. Otaqda, şübhəsiz ki, kimsə vardı. Döşəmə taxtalarının yüngül cırıltısı eşidilirdi.

– İrəli, – Blor pıçıldadı və qapını çırpıb özünü içəri atdı. Lombardla Armstronq da onun ardınca içəri atıldılar və ilan vurmuş kimi yerlərində donub qaldılar. Onların qarşısında əlində bir topa paltar tutmuş Rocers dayanmışdı.



https://www.facebook.com/groups/Kitabsever/

# 7

Ən birinci Blor dilləndi.

– Bağışlayın, Rocers, biz ayaq səsləri eşitdik, elə bildik ki... Qısası, özünüz hər şeyi başa düşürsünüz. – O, sözünü deyib susdu.

– Bağışlayın, üzr istəyirəm, centlmenlər. – Rocers dedi. – Mən paltarlarımı aparmaq istəyirdim. Daha burda qalmağım mümkün deyil. Yəqin ki, aşağıdakı boş otaqlardan birini tutsam, heç kim etiraz eləməz. Ən kiçiyini. – O, Armstronqa çöndü.

– Əlbəttə. – Armstronq dedi. – Burda nə var ki...

Rocers təşəkkür edib otaqdan çıxdı, pilləkənlə aşağı düşdü. Armstronq isə mərhuma yaxınlaşıb üstünə çəkilmiş mələfəni qaldırdı və onun üzünə baxdı. Qorxu ifadəsindən əsər-əlamət yox idi. Üzünə qəribə bir rahatlıq çökmüşdü.

– Heyif ki, lazım olan avadanlıqlarım yoxdur. – Doktor dedi. – Onun nədən zəhərləndiyini dəqiqləşdirmək pis olmazdı. Bir də ki, gəlin bu mənasız axtarışları qurtaraq. İnstinktim mənə deyir ki, biz heç nə tapa bilməyəcəyik.

– Bu tip tamamilə səssiz yeriyir. – Blor dedi. – Beş dəqiqə əvvəl onu aşağıdakı meydançada görmüşdük. Sonra yuxarıda peyda oldu. Lakin heç birimiz onun pilləkənlə necə qalxdığını eşitməmişdik.

– Elə ona görə qərara gəlmişdik ki, burda kimsə başqası gəzir. – Lombard da təsdiq elədi.

Blor çardağın balaca qapısını açıb ora keçdi. Lombard cibindən fənərini çıxarıb onun dalınca çardağa dırmaşdı.

Beş dəqiqə sonra onların üçü də aşağıdakı meydançada dayanıb heyrətlə bir-birinə baxırdılar. Onların bütün üst-başı batmışdı. Bütün alanı



https://www.facebook.com/groups/Kitabsever/

və evi ələk-vələk eləmişdilər. Lakin heç nə tapmamışdılar. Belə məlum olurdu ki, adada onlardan başqa heç kim yoxdur. Cəmisi səkkiz nəfərdirlər.

# DOQQUZUNCU FƏSİL

## 1

– Beləliklə, biz səhv eləmişik. Hər şeydə səhv eləmişik. – Lombard əsəbiliklə dedi. – İki təsadüfi ölümə görə özümüzdən dəhşətli şeylər fikirləşmişik.

– Yox, elə deyil. – Armstronq cavab verdi. – Sual açıq qalır. Mən hər halda həkiməm, intihar məsələlərində də az-çox təcrübəm var. Antoni Morston özünü öldürən adamlardan deyildi.

– Buna baxmayaraq, bu ölüm bədbəxt hadisə ola bilməzdi. Mən belə düşünürəm. – Lombardın səsində qətiyyət hiss olundu.

– Mən də bədbəxt hadisə versiyasına inanmıram. – Blor da təsdiq elədi.

Bir müddət susdular, nəhayət, yenə Blor dilləndi.

– Bəs o qadın... – sözünü yarımçıq saxladı.

– Missis Rocers?

– Bu hadisədə təsadüfi ölüm ola bilərdi?

– Təsadüfi? – Filipp Lombard gülümsündü. – Bunu necə təsəvvür edirsiniz?

Blorun sifəti bir az da qaraldı.

– Doktor, qulaq asın, bəlkə siz ona nəsə bir narkotik vermisiniz sakitləşdirməkçün? Onun ürəyi də dözməyib.

Armstronqun gözləri bərəldi.



https://www.facebook.com/groups/Kitabsever/

– Narkotik? Siz nəyi nəzərdə tutursunuz?

– Axı özünüz dediniz ki, dünən ona sakitləşdirici...

– Bəli, vermişəm, – Armstronq təsdiq elədi. – Amma bu, çox ziyansız, yüngül bir sakitləşdirici idi.

Blor bir az da qaraldı, hiss olunurdu ki, özünü çətinliklə saxlayır.

– Qulaq asın, doktor, məsələni uzatmayaq, bəlkə siz dünən həyəcanlı olmusunuz və o qadına sakitləşdirici dərmanın yüksək dozasını vermisiniz, ya da çaşıb başqa dərman vermisiniz.

– Siz dəli olmusunuz. – Doktor özündən çıxdı.

– Axı burda nə var? – Filipp Lombard onları sakitləşdirməyə çalışdı. – Məgər insan səhv edə bilməz? Özü də dünənki kimi əsəbi bir situasiyada...

– Siz özünüz də bilmirsiniz nə danışırsınız. – Doktor Armstronq başını yellətdi. – Bunu fikirləşməyin özü də gülüncdür. – Soyuq tonda davam elədi. – Dediyinizdən belə çıxır ki, o qadını mən öldürmüşəm?

Lombard yenə müdaxilə elədi:

– Özünüzü ələ alın, xahiş edirəm. Bir-birinizi ittiham eləməyin yeri yoxdur.

– Mən sadəcə belə fikir irəli sürdüm ki, bəlkə doktor əsəbi olub, təsadüfən çaşıb... – Blor sakitləşdirici tonda dedi.

Armstronq da özünü gülümsəməyə məcbur elədi.

– Həkimlər belə təsadüfi səhvlərə yol verə bilməzlər. Buna ixtiyarımız yoxdur.

– Bu sizin ilk səhviniz olmayacaqdı. – Blor yenə zəhərini atdı. – Əlbəttə, əgər valda deyilənlərə inansaq...

Doktor Armstronqun rəngi bozardı, amma heç nə  demədi.

Lombard yenə də Bloru sakitləşdirməyə çalışdı.

– Bir-birinizi ittiham eləməyin mənası yoxdur, bəsdirin. Bizim hamımız eyni qayıqdayıq. Təkcə bu kifayət edir ki, bütün narazılıqları bir



https://www.facebook.com/groups/Kitabsever/

kənara qoyub birləşək. Doğrudan, Blor, bəs sizə qarşı irəli sürülən ittihamlarla bağlı nə deyə bilərsiniz?

Blor yumruqlarını sıxıb irəli yeridi.

– Əl çəkin məndən, rahat buraxın. – Qəfildən onun səsi boğuldu. – Bu, iftiradır. Siz, yəqin ki, mənim ağzımı bağlamaq üçün bunu dediniz. Amma sizə aid olan məsələlər də var.

– Mənə aid? – Lombardın qaşları qalxdı.

– Açıq deyin görüm, nəyə görə adaya istirahətə gələndə özünüzlə tapança götürmüsünüz?

– Bilirsiniz, Blor, siz ilk baxışdan göründüyünüz qədər də səfeh deyilsiniz. – Lombard gülümsündü. – Mən tapançanı ona görə götürmüşəm ki, çətin vəziyyətə düşəcəyimi bilirdim.

– Amma dünən axşam bunu bizdən gizlətmişdiniz.

– Blor şübhəli şəkildə dedi.

Lombard başını yellədib cavab vermədi.

– Belə çıxır ki, bizi aldatmısınız. – Blor əl çəkmədi.

– Müəyyən mənada, hə. – Lombard razılaşdı.

– Tez ol, boynuna al, görüm niyə belə eləmisən.

– Siz elə hesab elədiniz ki, mən də bura sizin kimi qonaq qismində dəvət olunmuşam. Mən də sizi bu fikirlərdən daşındırmağı artıq hesab elədim. Lakin həqiqətdə bu belə deyil. Mənə Morris adında bir tip müraciət eləyib. O, yüz gineya pul təklif elədi və tapşırdı ki, bura gəlib qonaqlara qarışım, hamı haqqında informasiya toplayım. O dedi ki, ev sahibi sizin reputasiyanıza bələddir, sizə inanır.

– Bəs sonra? – Blor səbirsizliklə soruşdu.

– Sonra heç nə. – Lombard etiraf elədi. – Qalan sərəncamları mənə burda verməliydilər.

– Bəs o adam ev sahibi barədə sizə başqa heç nə demədi? Onun sözləri, deyəsən, Blora inandırıcı görünmədi.

– Yox, heç nə demədi. Bircə onu dedi ki, istəsən razılaşmaya bilərsən. Amma mənim pula ehtiyacım vardı deyə razılaşdım.

– Bəs nəyə görə bu barədə dünən heç nə demədiniz?

– Blor soruşdu.

– Bilirsiniz, dostum. Dünən mənə elə gəldi ki, məni məhz bu hadisələrin üstünü açmaq üçün çağırıblar. Yəni ev sahibi nəsə faciənin olacağından şübhələnmişdi, onunçün detektiv çağırıb. Ona görə də sizə həqiqəti demədim.

– Bəs indi öz fikrinizi dəyişmisiniz? – Armstronq müdaxilə elədi.

– Hə, indi mən başa düşürəm ki, bizim hamımız eyni tələyə düşmüşük. – Lombard etiraf elədi. – O yüz gineya isə məni tələyə salmaqçün təklif edilmişdi. Mən əminəm, bizim hamımız tələdəyik, çox məharətlə qurulmuş tələdə.

Aşağıdan qonqun səsi eşidildi. Onları lança çağırırdılar.



https://www.facebook.com/groups/Kitabsever/

## 2

Rocers qonaq otağının qapısında dayanmışdı.

Kişilər aşağı düşəndə qulluqçu onların qarşısına yeridi.

– Ümid edirəm ki, lançdan narazı qalmayacaqsınız, – o dedi. – Mən vetçina, dil əti və kartof hazırlamışam. Hələ bir az pendir, peçenye və qurudulmuş meyvələr də var.

– Başa düşmədim. Bunun nəyi pisdir? – Lombard dedi. – Ərzağımız kifayət qədər var.

– Yemək doğrudan da çoxdur, ser, amma hamısı konservlərdir. Evin anbarı doludur. Lakin təzə ərzaq qalmayıb, çörəyimiz də qurtarıb.

– Eybi yox, – Lombard dedi. – Adada əsas konservlərdir. Axı uzun müddətə ətraf aləmdən qırılmalı olur.

Kişilər söhbət edə-edə qonaq otağına gəldilər. Lombardın ardınca gələn Rocers mızıldanmağındaydı.

– Narrokot məni çox narahat edir. Axı nəyə görə bu gün gəlmədi? Bəlkə havaya görə? – o, başını yellətdi. – Bəxtimiz heç gətirmir.

– Onu düz dediniz, – Lombard başını tərpətdi. – Doğrudan da bəxtimiz gətirmir.



https://www.facebook.com/groups/Kitabsever/

Miss Brent otağa girən kimi əlindəki yumaq yerə düşüb bir az açıldı və o öz yerində oturub ipi təzədən yığaraq danışmağa başladı.

– Hava korlanır, deyəsən, yavaş-yavaş tufan qalxır.

Asta addımlarla otağa hakim Uorqreyv daxil oldu. Onun qalın qaşlarının altından çətinliklə görünən gözləri otaqdakıları süzməyə başladı.

– Bu səhər xeyli əziyyət çəkdiniz. – O, acı tonda dedi.

– Deyəsən, adanı ələk-vələk eləmisiniz.

Lombardla Blor cavab verməyə macal tapmamış Vera Kleytorn otağa girdi.

– Deyəsən, məni gözləyirdiniz, – o dedi. – Çox yubanmamışam ki?

– Gecikən təkcə siz deyilsiniz. – Miss Brent başını qaldırmadan dedi. – General Makartur da hələ gəlməyib.

Hamı stol arxasına keçdi.

– Yeməkləri gətirim, yoxsa hələ bir az da gözləyək? – Rocers üzünü miss Brentə tutub soruşdu.

– General Makartur dəniz sahilində oturmuşdu. – Vera əlilə o tərəfi göstərdi. – İnanmıram ki, qonqun səsini eşidə, özü də bu küləkdə.

– Onda mən aşağı düşüb onu lançа dəvət edərəm. – Rocers üzünü çevirdi.

Lakin doktor Armstronq ona imkan vermədi, ayağa qalxıb qapıya tərəf getdi.

– Siz yeməklə məşğul olun, Rocers, generalı mən -çağıraram.

Doktor otaqdan çıxanda arxadan Rocersin səsini eşitdi.

– Miss Brent, sizə nə gətirim, dil, yoxsa vetçina?



https://www.facebook.com/groups/Kitabsever/

## 3

Stol arxasında oturan beş nəfər nə qədər çalışsa da ümumi söhbət heç cür alınmırdı. Pəncərəyə çırpılan sərt külək sanki onlara mane olurdu.

Gözünü pəncərədən çəkməyən Vera ah çəkərək dedi:

– Tufan yaxınlaşır.

– Dünən Plimutdan gələndə qatarda bir qoca matrosla rastlaşdım. – Blor söhbətə qoşuldu. – O bütün yolu israr edirdi ki, tufan yaxınlaşır. Maraqlıdır, bu qoca dənizçilər havanın dəyişəcəyini əvvəlcədən necə hiss edirlər?

Uorqreyv başını tərpətdi.

– Təcrübədir, mənim balam, təcrübə.

Yemək qurtarandan sonra Rocers qabları yığışdırmağa başladı, lakin qəfildən elə bil nəsə eşidib hərəkətsiz dayandı, qulaqlarını şəklədi.

– Kimsə qaça-qaça gəlir.

Bir neçə saniyə sonra doğrudan da hamı ayaq səsləri eşitdi. Elə bil hamı bəd xəbər gözləyirmiş kimi bir-birindən xəbərsiz qapıya zilləndilər.

Doktor Armstronq təngnəfəs halda otağa daxil oldu.



https://www.facebook.com/groups/Kitabsever/

– General Makartur... – O, sözünü deyə bilmədi.

– Ölüb? – Veranın boğazından boğuq səs çıxdı.

– Hə, ölüb. – Doktor Armstronq təsdiq elədi.

Sükut çökdü. Çox uzun sükut... Yeddi nəfər bir-birinə baxaraq bir kəlmə də danışmağa cəsarət etmirdilər.

## 4

Generalın cəsədini evə gətirəndə artıq əməlli-başlı tufan qalxmışdı. Onlar hollda generalın başına yığışdığı vaxt navalçalardan şırıltı səsləri eşidilməyə başladı. Artıq güclü yağış da başlamaq üzrəydi.

Blor ilə Armstronq generalın cəsədini yuxarı mərtəbədəki yataq otağına qaldırarkən Vera qəfildən elə bil nəyisə xatırladı, cəld qonaq otağına cumdu. Orda hər şey öz yerindəydi. Desert də bufetdə toxunulmamış qalmışdı.

– Vera stola yaxınlaşıb zənci balaları fiqurlarına baxmağa başladı.

Elə bu vaxt səssiz addımlarla Rocers daxil oldu. Veranı görüb diksindi.

– Mən sadəcə... miss, mən baxmağa gəlmişdim.

Vera fiqurları göstərdi.

– Siz yanılmamısınız, Rocers. –– Veranın səsi xırıldadı. – Cəmi yeddisi qalıb.

# 5

General Makarturun meyitini öz yataq otağına uzandırandan sonra hamı aşağı düşdü. Bircə doktor Armstronq cəsədi müayinə eləmək üçün qaldı.

Aşağıdakılar səbirsizliklə doktoru gözləyirdilər. Miss Emili Brent toxumağındaydı, Blor kresloda oturub fikrə getmişdi, Vera Kleytorn pəncərənin qarşısında dayanıb yağışa baxırdı, Lombard narahatlıqla otaqda gəzişirdi. Hakim Uorqreyv isə otağın yuxarı başındakı iri kresloya çöküb büzüşmüşdü. Onun gözləri yarıaçıq idi.

Doktor Armstronq otağa girəndə hakim başını qaldırıb ondan soruşdu.

– Nə hökm çıxartdınız, doktor?

Armstronqun rəngi ağarmışdı.

– Bu dəfə ürək çatışmazlığından, sarsıntıdan söhbət gedə bilməz. Generalın boynunun ardından küt alətlə vurub öldürüblər.

Hamı pıçıldaşmağa başladı. Hakimin qətiyyətli səsi -eşidildi.

– Siz cinayət törədilən aləti tapdınız?


https://www.facebook.com/groups/Kitabsever/

– Yox.

– Buna rəğmən əminsiniz ki, qətl küt alətlə törədilib?

– Əminəm.

– Lap yaxşı. Deməli, biz neyləməli olduğumuzu bildik.

Onun səsinin tonundan məlum oldu ki, bundan sonra hakimiyyət kimin əlində olacaq. O, yüngülcə öskürəndən sonra sözünə davam elədi.

– Centlmenlər, mən bütün günü meydançada oturub sizi müşahidə eləmişəm. Hamınızın məqsədi mənə aydın idi. Siz adanı axtarırdınız ki, o məşum mister Onimi tapasınız.

– Düz tapmısınız, ser, – Filipp Lombard etiraf elədi.

– Elədir.

– Deməli, bizim çıxartdığımız nəticələr üst-üstə düşüb. – Hakim davam elədi. – Missis Rocers ilə Antoni Morston təsadüfən ölməyib. Yəqin o da ağlınıza gəlib ki, mister Onim bizi adaya nəyə görə yığıb?

– Onun ağlı çaşıb. – Blor xırıldadı. – Psixdir, manyakdır.

– Bəlkə də haqlısınız. – Hakimin səsinin tonu əvvəlki kimi qətiyyətli idi. – Amma bu, məsələnin mahiyyətini dəyişmir. Bizim bu saat əsas məqsədimiz həyatımızı xilas etməkdir.

– Axı adada heç kim yoxdur, ser. – Armstronq bərkdən dedi. – İnandırıram sizi, heç kim.

Hakim çənəsini qaşıdı.

– Burda da haqlısınız, – o dedi. – Mən də bu gün səhər məhz belə nəticəyə gəldim. Əvvəldən sizə deyə bilərdim ki, axtarışlarınızın nəticəsi olmayacaq. Lakin istədim ki, özünüz əmin olasınız. Lakin bütün bunlara rəğmən mən bu fikirdəyəm ki, mister Onim hal-hazırda bu adadadır. Buna şübhə ola bilməz. Hesab edək ki, mister Onim qanunla cəzalandırılması mümkün olmayan cinayətkarları bu üsulla cəzalandırmaq fikrinə düşüb. Bu planı həyata keçirtmək üçün o, mütləq adada olmalıydı. Və onun qurduğu plan mənə tam aydın görünür. Mister Onim qonaqların arasında ərimәliydi. Elə çıxır ki, bizim axtardığımız adam... elə özümüzün arasındadır. O bizlərdən biridir.

# 6

– Yox, yox, ola bilməz. – Vera inildədi.

Hakim Uorqreyv şübhəli nəzərlərlə ona baxıb başını tərpətdi.

– Əzizim, faktların üzünə açıq baxmaq lazımdır. Biz ciddi təhlükə qarşısındayıq. Bizlərdən biri mister Onimdir. Amma konkret olaraq kimdir, bunu bilmirik. Adaya gələn on nəfərdən üçü artıq şübhələrdən kənardır. Antoni Morston, missis Rocers və general Makartur. Geridə yeddi nəfər qalır. Bu yeddi nəfərdən biri, belə demək olarsa, saxta zənci balasıdır, – o, ətrafdakıları qəribə nəzərlərlə süzdü. – Siz mənimlə razısınız?

– İnanmaq çətindir. Amma dərindən düşünəndə haqlı olduğunuza şübhə qalmır. – Armstronq dedi.

– Mən də buna şübhə eləmirəm. – Blor təsdiq elədi.

– Əgər mənim rəyimi bilmək istəyirsinizsə...

Hakim Uorqreyv əlini qaldıraraq ona susmaq işarəsi verdi.

– Biz sizin fikirlərinizə qulaq asacağıq, amma vaxtında. İndi isə açıq deyin, sizin hamınız mənim dediklərimlə razısınız?


https://www.facebook.com/groups/Kitabsever/

– Sizin dedikləriniz məntiqə uyğundur. – Toxumağına fasilə verməyən Emili Brent başını qaldırmadan dedi. – Bizim içimizdə iblis var.

– Mənsə heç cür inana bilmirəm. – Veranın boğuq səsi eşidildi. – İnana bilmirəm, bacarmıram.

– Lombard... – Hakim ona baxdı.

– Sizinlə tamamilə razıyam.

Hakim razılıqla başını tərpətdi.

– İndi isə, – o dedi, – baxaq görək hansı məlumatlara malikik. Ən əvvəl istəyirdim biləm, siz konkret kimdənsə şübhələnirsiniz? Mister Blor, siz bayaq nəsə demək -istəyirdiniz...

Blorun gözləri qaynadı.

– Lombardın tapançası var. – O dedi. – Dünən axşam da bizə yalan danışıb. Sonra özü boynuna aldı.

Filipp Lombard dişlərini qıcıdı.

– Hə, belə görünür ki, ikinci dəfə izahat verməli olacam. – O, səhər danışdığını qısa şəkildə təkrarladı.

– Bəs yalan danışmadığınızı nəylə sübut edə bilərsiniz? – Blor təslim olmurdu.

Hakim yenə də mənalı şəkildə öskürdü.

– Əfsuslar olsun, bizim vəziyyətimiz elədir ki, sadəcə sözlərə inanmaqla kifayətlənməliyik. Mənə elə gəlir ki, bizim heç birimiz vəziyyətin nə qədər qəribə və qorxulu olduğunu tam dərk eləməyib. İndi isə söhbətimizin ikinci mərhələsinə qədəm qoyaq. Bizim aramızda eləsi ola bilərmi ki, əldə olan məlumatlara əsasən onu tam şübhədən kənar hesab edək?

– Mən məşhur mütəxəssisəm. – Doktor Armstronq dedi. – Mənim cinayətkar olmağımı düşünməyin özü belə…

Hakim yenə də əlini qaldıraraq onun sözünü kəsdi.

– Mən özüm də məşhur adamam. Lakin, mənim əzizim, bu heç nəyi dəyişmir. Həkimlərin də ağlı çaşa bilər, -hakimlərin də, polis işçilərinin də. – O bunu deyəndə Blora baxdı. – Heç kim bundan sığortalanmayıb.



https://www.facebook.com/groups/Kitabsever/

Lombard qadınlara tərəf  baxdı.

– Mən ümid edirəm ki, qadınlar şübhədən kənarda -qalıblar.

Hakim qaşlarını qaldırıb, adətən müdafiəçilərin qorxduğu açıq tonda dedi:

– Əgər sizi düz anlamışamsa, belə hesab edirsiniz ki, qadınların arasında manyak ola bilməz?

– Yox, elə deyil. Bəlkə də ola bilər. – Lombard qıcıqlanmış səslə cavab verdi. – Amma mən heç cür inana bilmirəm ki, bizim qadınlar... – onun səsi boğuldu.

Hakim bayaqkı qətiyyətli səslə davam elədi.

– Doktor Armstronq, sizcə, general Makarturu o cür öldürmək üçün qadın gücü kifayət edərdi?

– Əgər uyğun gələn silahı, tutalım, dəmir parçası, ya daş olsaydı, tam mümkün idi ki, qadın da öldürsün.

– Doktor dedi.

– Çətinlik çəkmədən?

– Çətinlik çəkmədən. – Doktor qətiyyətlə dedi.

Hakim bir müddət susdu, boğazını sığalladı.

– O biri iki ölüm təsadüfi zəhərlənmələr nəticəsində baş verib, – o, nəhayət, dedi. – Yəqin heç kim etiraz eləməz ki, adam zəhərləmək o qədər də çətin deyil, buna o qədər də böyük güc lazım deyil.

– Siz nə danışırsınız? – Vera dedi. – Başınıza hava gəlib?

Hakimin nəzəri yavaş-yavaş Veraya tərəf çöndü.

«O mənə elə baxır ki, elə bil nadir nüsxəyəm. – Vera düşündü. – Deyəsən, o qədər də xoşuna gəlməmişəm».

– Gözəl xanım, mən sizdən xahiş edirəm, özünüzü ələ alın. Mən konkret heç kimi ittiham eləmirəm. Ümid edirəm ki, miss Brent, – hakim o biri qadına tərəf çöndü, – sizi şübhədən kənar hesab etməməyim xətrinizə dəyməyib?



https://www.facebook.com/groups/Kitabsever/

Miss Brent ani olaraq əl saxlayıb davam elədi:

– Mənim adam öldürməyimi, hətta bir yox, üç adam öldürməyimi düşünməyin özü ağılsızlıqdır, – o, sakitcə dedi. – Məni yaxından tanıyan adamlar sizə gülərdilər. Amma siz məni yaxından tanıyan adamlardan deyilsiniz və mən sizi qınamıram. Heç kim şübhədən kənar olmamalıdır. Əlbəttə ki, özünü tam təmizə çıxaran faktları ortaya qoymasa. Ümumilikdə isə hesab edirəm ki, bizlərdən birinin içinə iblis girib.

– Deməli, ortaq nəticəyə gəldik. – Hakim razılıqla dedi. – Heç kim şübhədən kənar qalmadı. Nə təmiz reputasiya, nə də cəmiyyətdəki mövqe hesaba alınmır.

– Bəs Rocers nə olsun? – Lombard soruşdu. – Mənə elə gəlir ki, onu təmiz ürəklə siyahıdan çıxartmaq olar.

– Hansı əsasla? – hakim Uorqreyv soruşdu.

– Birincisi, belə oyun qurmağa onun ağlı və cəsarəti çatmazdı. – Lombard izah eləməyə başladı. – İkincisi də ki, o özü qurbanlardan biridir. Həyat yoldaşını itirib.

– Mən işlədiyim müddət ərzində bizdə həyat yoldaşını öldürən adamlarla bağlı çoxlu işlər keçirdi. – Hakimin qaşları oynadı. – Və sizə bildirirəm ki, bir neçə hal istisna olmaqla, bütün hallarda ərin günahı sübut olunmuşdu.

– Düzdür. Mübahisə eləmək istəməzdim, – Lombard sanki təslim oldu. – Kişinin öz arvadını öldürməsi -mümkün olan işdir. Tutalım, Rocers qorxuya düşüb, fikirləşib ki, arvadı dözə bilməyib hər şeyi boynuna ala bilər. Məhz bu səbəbdən də qadını öldürmək qərarına gəlib. Bunu anlamaq olar. Amma mister Onimin məhz Rocers olduğu heç cür mənim ağlıma batmır. Rocers hara, qeyri-adi ədalət məhkəməsi qurmaq hara? Yox, Rocers bu oyunlar üçün çox xırda adamdır.

– Siz heç nəylə təsdiqlənməmiş faktlara əsaslanırsınız. – Hakim Uorqreyv dedi. – Axı biz dəqiq bilmirik ki, Rocerslə arvadı öz keçmiş sahibələrini həqiqətən öldürüb, ya yox. Bəlkə Rocersə qarşı bu yalançı ittiham məhz ona görə irəli sürülüb ki, o da bizimlə eyni vəziyyətdə görünsün, hamımızdan biri olsun. Ola da bilər ki, əriylə əvvəl işbirliyinə razılıq verib, lakin sonradan qorxuya düşüb fikrini dəyişib, ona kömək eləməkdən imtina edib, Rocers də qadını zəhərləyib.

– Onda sizinlə tam razıyam. – Lombard tam təslim oldu. – Siz haqlısınız. Mister Onim bizlərdən biridir və heç kim şübhədən kənar deyil.

Hakim Uorqreyv davam elədi.

– Yenə də bayaq dediyimin üstünə qayıdıram. Nə reputasiya, nə də cəmiyyətdəki mövqe cinayət məsuliyyətindən azad eləmir. İndi isə faktlara keçək və görək konkret sübutlar arasında kimisə şübhədən kənara çıxara bilirik, ya yox. Yəni bizim içimizdə elə adam varmı ki, heç cür Morstonu zəhərləyə bilməzdi, Rocersin arvadına yuxu dərmanı verə bilməzdi və general Makarturu öldürə bilməzdi? Yəni kiminsə alibisi olacaqmı?

Blorun sifətinin kobud cizgiləri hərəkətə gəldi.

– Bax bu, artıq ciddi yanaşmadır, – o dedi. – İşin mahiyyətinə yalnız indi yaxınlaşırıq. Yəqin ki, Morstonla bağlı indi nəsə aydınlaşdırmaq çətin olar, çünki vaxt çox keçib. Belə şübhələr oldu ki, guya kimsə pəncərədən onun stəkanına zəhər atıb. Amma qeyd eləyim ki, bu zəhəri otaqdakıların atmağı daha rahat olardı. Dəqiq yadımda deyil, həmin vaxt Rocers otaqdaydı, ya yox, amma o birilərin hamısı bunu eləyə bilərdilər. – Blor nəfəsini dərib davam elədi. – İndi isə missis Rocersə keçək. Onun məsələsində, məncə, ilk olaraq şübhə altına düşən əri və doktor Arsmtronqdur. Onların hər ikisi çox asan şəkildə qadını o dünyaya göndərə bilərdilər.

Doktor yerindən sıçradı. Qəzəbindən titrəyirdi.

– Mən etiraz edirəm... Bu, inanılmazdır, bu, böhtandır, şərdir... and içirəm ki, mən ona yalnız sakitləşdirici vermişəm, adi sakitləşdirici...

– Doktor Armstronq, – hakimin qəzəbli səsi doktoru sakitləşdirdi. – Sizin qəzəbiniz təbiidir. Buna baxmayaraq, faktları diqqətlə araşdırmaq lazımdır. Blor düz deyir. Missis Rocersə yüksək dozalı yuxu dərmanını siz də, əri də verə bilərdiniz. İndi o birilərə keçək. Mən, müfəttiş Blor, miss Brent, miss Kleytorn, yaxud mister Lombard bu imkanlardan məhrum idikmi? Siz bu barədə nə düşünürsünüz? Bizi şübhədən kənar hesab etmək olarmı? – Hakim ani pauza verib öz sualına özü də cavab verdi. – Məncə, yox.

– Mən ona heç yaxın da getməmişəm. – Vera yerindən sıçradı.

– İndi mən hadisələri təzədən yaddaşlarımızda canlandırmağa çalışacam. – Hakim yavaşca dedi. – Əgər hardasa səhv eləsəm, xahiş edirəm, düzəliş verin. Antoni Morston ilə mister Lombard yerə yıxılmış missis Rocersi qaldırdılar, sonra divana keçirtdilər. Sonra doktor Armstronq ona yaxınlaşdı. Yoxlayandan sonra Rocersi konyak dalınca yolladı. Biz də səsin hardan gəldiyi haqqında mübahisələrə başladıq. Sonra biz hamımız qalxıb o biri otağa, qrammofonun yanına keçdik. Bu otaqda yalnız huşsuz missis Rocers və... miss Brent qaldı.

Emili Brentin yanaqlarında qırmızı ləkələr peyda oldu. Əlindəki millər donub qaldı.

– Siz nə danışırsınız? Ağlınız çaşıb? – o, boğuq səslə dedi.

Hakim sakit, lakin qətiyyətli səslə davam elədi.

– Biz otağa qayıdanda, miss Brent, siz missis Rocersin üstünə əyilmişdiniz.

– Sizcə, sadəcə mərhəmət hissi də cinayətdir? – Emili Brent çiyinlərini çəkdi.

– Mən sadəcə faktları müəyyən eləmək istəyirəm. – Hakim dedi. – Sonra otağa Rocers daxil oldu. Onun əlində konyak vardı. Konyaka yuxu dərmanını tökə bilərdi. Bundan sonra əriylə doktor Armstronq missis Rocersi yuxarı otağa qaldırdılar. Orada da doktor ona, dediyi kimi, az miqdarda sakitləşdirici verib.

– Bəli, hər şey belə olub, – Blor dedi, – məhz belə. Deməli, mən, mister Lombard, Vera Kleytorn və hakim şübhədən kənardır. – Təntənəli səslə sözünü bitirdi.

Soyuq baxışlarını Blora zilləyən hakim dedi:

– İlk baxışdan belədir. Amma biz hər xırda detalı da nəzərdən qaçıra bilmərik.

– Mən sizi anlamıram. – Blor çiyinlərini çəkib hakimə zilləndi.

– Dünənki günü gözümüz önündə canlandıraq. – Uorqreyv davam elədi. – Missis Rocers yuxarıdakı yataq otağında uzanıb. Sakitləşdirici dərman öz təsirini göstərir. Elə bu vaxt kimsə qapını döyüb içəri girir və ona



https://www.facebook.com/groups/Kitabsever/

bir həb uzadaraq deyir ki, doktor bunu içməyinizi tapşırdı. Sizcə, yarımhuşsuz vəziyyətdə olan missis Rocers həbi qəbul etməzdi?

Ağır sükut çökdü. Blor dodaqaltı nəsə mızıldanırdı. Lombard isə bir müddət susub dilləndi.

– Bütün bunlar fərziyyələrdir. Bizim heç birimiz sonrakı iki-üç saat ərzində bu otaqdan çıxmamışdıq. Hamımızın başı Morstonun ölümünə qarışmışdı.

– Mən deyənlər sonra da baş verə bilərdi. – Hakim təslim olmadı. – Hamı yatandan sonra.

– Axı gecə Rocers onun yanında olub... – Lombard etiraz elədi.

– Yox, – Armstronq müdaxilə etdi. – Rocers aşağıda idi. Hələ uzun müddət yeməkləri yığışdırmaqla məşğul idi. Deməli, bu müddət ərzində kimsə rahatca yuxarı qalxa bilərdi.

– O vaxta qədər missis Rocers artıq yatmış olmalıydı. – Emili Brent dedi. – Elə deyil, doktor? Axı siz ona sakitləşdirici vermişdiniz.

– Sakitləşdirici vermişdim, düzdür. – Doktor dedi.

– Amma başqa heç nəyə cavabdeh ola bilmərəm. Pasienti uzun müddət müayinə eləməmişdən əvvəl onun hansısa dərmana reaksiyasını bilmək olmur. Bəzi adamlara sakitləşdirici dərmanlar çox gec təsir göstərir, bəzənsə, ümumiyyətlə, təsir eləmir. Hər şey xəstənin fiziologiyasından asılıdır.

Lombard özünü saxlaya bilmədi.

– Bu, əsl siz istəyəndir. Elə deyilmi, doktor?

Armstronq yenə də özündən çıxdı, lakin nəsə etiraz eləməyə macal tapmadı, hakimin amiranə səsi onu susdurdu.

– Qarşılıqlı ittihamlarla biz heç nəyə nail olmayacağıq. Biz yalnız faktlarla hesablaşmalıyıq. Deməli, belə nəticəyə gəldik ki, bizim hər birimiz missis Rocersi zəhərləyə bilərdik. Düzdür, inandırıcı görünmür, lakin bu versiyanın üstündən xətt çəkmək də olmaz. Hər şey o mənhus mister Onimin əqli səviyyəsindən asılıdır.

– Tutalım, sizinlə razılaşdıq. – Blor dedi. – Bəs sonra...



https://www.facebook.com/groups/Kitabsever/

# 7

Hakim Uorqreyv sakit tərzdə üst dodağını qaşıdı. Kənardan baxanlara elə gələ bilərdi ki, hakimə, ümumiyyətlə, insani narahatlıq, əsəbilik yaddır. O bunlardan bixəbərdir.

– Beləliklə, ikinci qətli araşdırandan sonra belə nəticəyə gəldik ki, bizim heç birimiz tam mənada şübhələrdən kənarda qala bilməz. – O dedi. – İndi isə general Makarturun ölüm şəraitiylə tanış olaq. Hadisə bu gün səhər baş verib. İndi isə sizdən xahiş edirəm, əgər sizin hər hansı birinizin alibisi varsa, desin, amma qısa şəkildə. İlk olaraq özüm demək istəyirəm ki, mənim alibim yoxdur. Mən bütün səhəri evin qarşısındakı meydançada keçirtmişəm, neçə saat ərzində kresloda oturaraq düşdüyümüz vəziyyəti

fikrimdə götür-qoy eləmişəm. Yalnız qonqun səsi eşidiləndə öz yerimi tərk elədim. Lakin arada elə vaxtlar olub ki, mənim yanımda heç kim olmayıb. Və bu müddət ərzində mən sahilə düşüb generalı öldürər, təzədən öz yerimə qayıda bilərdim. Mənim meydançanı tərk eləmədiyimi özümdən başqa heç kim təsdiq edə bilməz. İndiki vəziyyətdə isə bu şahidlik kifayət deyil. Sübut lazımdır. Mənimsə sübutum yoxdur.

Blor dedi:

– Mən bütün səhəri mister Lombard və doktor Armstronqla birlikdə olmuşam. Onlar təsdiq edə bilərlər.

– Siz arada kanat ardınca evə getdiniz. – Armstronq etiraz elədi.

– Siz nə demək istəyirsiniz? – Blor hiddətləndi. – Axı özünüz gördünüz ki, mənim qayıtmağım o qədər də çox çəkmədi.

– Mən deməzdim. – Doktor təslim olmadı. – Siz xeyli yubandınız.

– Sizcə, kəndir elə evin qapısında asılmışdı? – Blor çiyinlərini çəkdi. – Yad evdə kəndir tapmaq üçün gərək o qədər yeri ələk-vələk edəsən.

– Mister Blor olmayan müddətdə siz bir-birinizdən aralanmamışdınız ki? – Hakim Uorqreyv Lombarda, Armstronqa baxdı.

– Əlbəttə ki... – Doktor təsdiq elədi. – Daha doğrusu, Lombard bir neçə dəqiqəlik getmişdi, mənsə yerimdə -qalmışdım.

Lombard gülümsündü.

– Mən yoxlamaq istəyirdim görüm, sahilə qelioqraf vasitəsiylə həyəcan siqnalı yollamaq olar, yoxsa yox. Bunun üçün yer seçməyə getdim, iki dəqiqədən sonra da qayıtdım.

– O haqlıdır. – Doktor Armstronq təsdiq elədi. – Adam öldürmək üçün, məncə, kifayət deyil.

– Siz saata baxmışdınız? – Hakim doktordan soruşdu.

– Yox.

– Mən də evdən saatsız çıxmışdım. – Lombard dedi.


https://www.facebook.com/groups/Kitabsever/

– İki dəqiqə bir qədər şərti ifadədir. – Hakimin acı səsindən hamı diksindi. O nəsə fikirləşib, toxumağına ara verməyən miss Brentə tərəf çöndü.

– Bəs siz, miss Brent?

– Biz miss Kleytornla birlikdə qayalığın başına çıxmışdıq. Bundan sonra mən meydançada oturub özümü günə verirdim.

– Axı mən sizi orda görməmişdim. – Hakim -təəccübləndi.

– Görə də bilməzdiniz. Mən evin şərq tərəfində oturmuşdum. Oranı külək tutmur.

– Lança qədər ordan tərpənməmisiniz?

– Bəli.

– Bəs siz, miss Kleytorn?

– Səhəri miss Brentlə birlikdə olmuşam, sonra da dəniz sahilinə düşüb gəzişməyə başladım. – Vera ehtiyatla dedi. – Orada general Makarturla rastlaşdım, bir-iki kəlmə -danışdıq.

– Saat neçədə görmüsünüz onu? – Hakim soruşdu.

Bu dəfə Veranın səsi o qədər də qətiyyətli çıxmadı.

– Bilmirəm, – o, çiyinlərini çəkdi. – Lançdan bəlkə bir saat əvvəl, bəlkə də bir az gec.

Blor soruşdu:

– Bizim generalla rastlaşdığımızdan əvvəl, yoxsa sonra olub bu? Axı adanı axtarmağa gedəndə o bizim də qarşımıza çıxmışdı.

– Bilmirəm. Yadımda deyil. – Vera etiraf elədi. – O, qəribə sözlər danışırdı. Görkəmi də əvvəlki kimi deyildi.

– Hansı qəribə sözləri danışırdı? – Hakim soruşdu.

– Dedi ki, bizim hamımız öləcəyik. Sonra da dedi ki, burda oturub sonunu gözləyir. O məni yaman qorxutdu. Bədənimdən üşütmə keçdi, indiyəcən yadımdadır. – Vera çiyinlərini yığdı.

Hakim başını tərpətdi.



https://www.facebook.com/groups/Kitabsever/

– Bundan sonra neynədiniz?

– Evə qayıtdım. Lançdan əvvəl yenə də qayalığın üstünə çıxdım, dənizə baxdım. Özümə heç cür yer tapa bilmirdim.

Hakim Uorqreyv razılıqla başını tərpətdi.

– Yalnız Rocers qalır. – O dedi. – Amma inanmıram ki, onun ifadələri bizim bildiklərimizə nəsə əlavə edəcək.

Hakim haqlı idi. Rocers yalnız onu dedi ki, bütün səhəri mətbəxdə işləyib. Əvvəl səhər yeməyi, sonra lanç hazırlayıb. Lançdan əvvəl də kokteyllərlə məşğul olub. Arada imkan tapıb yuxarı mərtəbəyə qalxıb, arvadının yataq otağından öz əşyalarını yığışdırıb aşağı düşüb. Pəncərədən bayıra baxmayıb, heç kimi görməyib. General Makarturun ölümündən də yalnız sonra xəbər tutub. Bir də Rocers and içdi ki, lanç üçün nimçələri düzəndə stolun üstündə səkkiz zənci balası vardı.

Rocers susandan sonra otağa yenə sükut çökdü. Hakim bir müddət ara verib deyəcəklərini götür-qoy elədi, nəhayət, boğazını arıtlayıb dilləndi.

– Biz bu üç ölümün şəraitini bacardıqca diqqətlə araşdırmağa çalışdıq. – Hakim otaqdakılara baxdı. – Hərçənd ki, bəzi hallarda konkret adamların cinayəti törədə bilməyi bir qədər inanılmaz görünür, lakin bununla belə heç kimi, məncə, tam olaraq məsuliyyətdən kənar hesab eləmək olmaz. Mən yenə də təkrar edirəm, tamamilə əminəm ki, bu otaqda yığışanlardan biri çox təhlükəli cinayətkardır. Biz qərara gəlməliyik ki, sahillə əlaqə yaratmaq üçün və oradan kömək çağırmaq üçün hansı addımları atmalıyıq. Və əgər kömək yubanacaqsa, bundan sonra neyləməliyik. Bu saat öz təhlükəsizliyimizi təmin etmək hər şeydən vacibdir. Mən sizdən xahiş edirəm, bir müddət fikirləşin və bu vəziyyətdə hansı addımları atmalı olduğumuz barədə fikirlərinizi deyin. Xəbərdar edirəm ki, bundan sonra hamımız çox diqqətli olmalıyıq. Bu vaxta qədər qatilə öz işini görmək nisbətən asan idi. Biz onun barəsində heç nə bilmirdik. Lakin bundan sonra bizim ilk vəzifəmiz hər kəsdən şübhələnməkdir. Hamı bir-birinə göz qoymalıdır. Risk eləməyin və heç kimə inanmayın. Mənim deyəcəklərim başa çatdı.

– Məhkəmə məsləhətə gedir. – Lombard mızıldandı.


https://www.facebook.com/groups/Kitabsever/

## ONUNCU FƏSİL

### 1

– Siz ona inanırsınız? –Vera soruşdu.



https://www.facebook.com/groups/Kitabsever/

O, Filipp Lombardla birlikdə qonaq otağındakı pəncərənin qırağında oturmuşdular. Bayırda möhkəm yağış yağırdı, güclü külək su damcılarını pəncərənin şüşəsinə çırpırdı.

– Bizim birimizin qatil olması barədə Uorqreyvin fikrini deyirsiniz? – Filipp soruşdu.

– Bəli.

– Fikir demək çətindir. Məntiqi düşünəndə, əlbəttə ki, onun fikirlərində həqiqət çoxdur. Amma buna -baxmayaraq...

– Buna baxmayaraq nə? – Vera soruşdu. – Şəxsən mən bunu ağlasığmaz hesab edirəm.

Lombard üz-gözünü turşutdu.

– Burda hər şey o qədər inanılmazdır ki... Amma general Makarturun qətlindən sonra heç bir təsadüfi ölümdən söhbət gedə bilməz. Mənim buna heç bir şübhəm yoxdur. Bu, açıq-aydın qətldir.

Vera diksindi.

– Dəhşətli yuxudur elə bil. Mənə elə gəlir ki, bütün bunlar həqiqətdə yox, hansısa yuxuda baş verir.

Filipp razılıq əlaməti olaraq başını tərpətdi.

– Hə, mən özüm də hərdən çaşıb qalıram. Bir tıqqıltı eşidən kimi elə bilirəm ki, bu saat qapını açıb mənimçün qəhvə gətirəcəklər.

– Təkcə qəhvəylə iş bitsəydi nə vardı ki? – Vera ah çəkdi.

– Yox, bitməyəcək. – Filipp Lombardın rəngi qaraldı. – Buna ümid eləmək axmaqlıq olar. Hər şey dəhşətlidir, amma yuxu deyil. Biz gerçəklikdə baş verən dəhşətli bir oyunun iştirakçısıyıq.

– Əgər... əgər... – Vera tərəddüdlə dedi. – Əgər qatil bizlərdən biridirsə, sizcə... sizcə bu kim ola bilər?

Lombard başını yellətdi.

– Sizin sözlərinizdən belə çıxır ki, – Lombard diqqətlə qıza baxdı. – Bizim ikimizi də şübhədən kənar sayırsınız. Sizinlə tam razıyam. Mən özümə arxayınam, bilirəm ki, burda heç kimi öldürməmişəm. Sizin də bu


https://www.facebook.com/groups/Kitabsever/

addımı atmağınız mənə gülməli görünür. Sizin kimi soyuqqanlı və normal qıza mən çoxdandır rast gəlmirəm. Nəyə istəyirsiniz and içim ki, siz ağıldankəm manyak deyilsiniz.

– Çox sağ olun. – Vera acı-acı gülümsündü.

Filipp dedi:

– Elə bu? Yəni siz komplimentə komplimentlə cavab vermək istəmirsiniz?

Vera özünü itirdi.

– Siz özünüz etiraf elədiniz ki, – nəhayət, dilləndi,

– insan həyatı sizinçün heç nədir. Lakin buna baxmayaraq, mən heç cür təsəvvür eləmirəm ki, o plastinkadakı yazını siz təşkil eləmisiniz.

– Düzdür, – Lombard etiraf elədi. – Əgər mən kiminsə ölümünü təşkil eləmiş olsaydım, bunu yalnız maddi mənfəətim üçün edərdim. Cəzasız qalmış cinayətkarların kütləvi cəzalandırılması mənimçün maraqlı deyil. Deməli, biz özümüzü siyahıdan pozduq. Onunçün də diqqətimizi yerdə qalan beş nəfərin üstündə cəmləşdirməli olacağıq. Bunlardan hansı mister A.N.Onimdir? Heç bir fakta söykənmədən, intuitiv olaraq şəxsən mən hakim Uorqreyvə səs verirəm.

– Doğrudan? – Vera təəccübləndi, bir-iki dəqiqə fikirləşib soruşdu. – Bəs niyə bu fikrə düşmüsünüz?

– Bilmirəm, amma içimdə belə bir hiss var ki, bütün bunlar onun işidir. Birincisi, o, çox qocadır. İkincisi də ki, uzun illər ərzində hakim işləyib, günahkarları cəzalandırmaqla məşğul olub. Deməli, bütün ömrü boyu özündə bir əzəmət hiss edib. Axı onlarla, yüzlərlə insan taleyi onun əlində əlində olub. Belə vəziyyətdə onun başı fırlana bilərdi. Bəlkə də özünü Tanrı hiss edir. Bəlkə də başına hava gəlib, özünü eyni zamanda həm hakim, həm də cəllad rolunda görməyə başlayıb.

– Bəlkə də haqlısınız, – bir qədər susan Vera, nəhayət, cavab verdi.

– Bəs siz kimi seçirsiniz? – Lombard soruşdu.

– Doktor Armstronqu. – Vera tərəddüd eləmədən dedi.

Lombardın qaşları qalxdı.

– Doktor? Sizi bilmirəm, amma mən onu şübhəlilər siyahısında ən son yerdə görürəm.

Vera başını tərpətdi.

– Siz haqlı deyilsiniz. Ölümlərdən ikisi zəhərlənmə nəticəsində olub. Bu, birbaşa doktoru ittiham eləməyə əsas verir. Həm də əsas məsələni unutmayaq ki, yuxu dərmanını da missis Rocersə məhz o verib.

– Düzdür, haqlısınız. – Lombard təsdiq elədi.

– Amma doktorun ağlı çaşıbsa, bunu sübut eləmək o qədər də asan olmaz. Bir də ki, həkimlər çox işləyir, zehni işlə məşğul olurlar. – Vera israr elədi. – Həddən artıq beyin yüklənməsindən ağılları çaşa bilər.

– Ola bilər. Amma mən onun Makarturu öldürməyinə inana bilmərəm. – Lombard dedi. – Mən cəmisi iki dəqiqəlik aralanmışdım. Onun sadəcə vaxtı çatmazdı. Gərək ildırım sürətiylə dəniz sahilinə düşüb generalı öldürə, sonra eyni sürətlə geri qayıdaydı. Həm də mən qayıdanda o, təngnəfəs deyildi. Çox sakit tərzdə dayanıb məni gözləyirdi.

– O, generalı sonra da öldürə bilərdi. – Vera etiraz elədi.

– Sonra nə vaxt?

– Onu lança çağırmağa düşəndə.

Lombardın qaşları yenə də yuxarı qalxdı.

– Doğrudanmı hesab edirsiniz ki, doktor Armstronq generalı öldürüb, sonra da qaça-qaça yuxarı qalxıb bu barədə bizə xəbər verib? Əgər belədirsə, onun dəmir əsəbləri -olmalıdır.

– Özünüz düşünün. Axı o, riskə getmirdi. – Vera onun sözünü kəsdi. O bizim aramızda yeganə həkimdir. Biz də yalnız onun sözünə əsasən nəticə çıxartdıq ki, general məhz bir neçə saat əvvəl öldürülüb. Axı bizim heç birimiz bunun belə olmadığını sübut edə bilmərik. Deməli, onun yalanının üstünü açmağımız da mümkün deyil.

Filipp Lombard başını qaşıyıb qəribə nəzərlərlə qıza baxdı. Deyəsən, bu cür məntiqli fikirləri Veradan heç -gözləmirdi.

– Ağıllı fikirdir, – o dedi. – Bunun üstündə baş sındırmağa dəyər.


https://www.facebook.com/groups/Kitabsever/

2

2



https://www.facebook.com/groups/Kitabsever/

– Axı bu kimdir, mister Blor? Mən bunu bilmək istəyirəm. O kimdir. – Rocersin sifətinin əzələləri titrəyirdi. O, dəri parçasıyla qonaq otağının gümüş qablarını silirdi.

– Sual da bundan ibarətdir. – İstefada olan müfəttiş dedi.

– Mister Uorqreyv deyir ki, qatil bizim aramızdadır. Deməli belə, mən bilmək istəyirəm ki, bu adam kimdir? Kimdir bizim aramızdakı kabus?

– Bizim hamımız bunu bilmək istəyirik. – Blor cavab verdi.

– Amma sizin, deyəsən, bəzi tapıntılarınız var, mister Blor? Mən səhv eləmirəm ki? – Lombard soruşdu.

– Bəlkə də haqlısınız. Mənim ağlıma bəzi fikirlər gəlib. Lakin fərziyyə başqa, fakt başqadır. Fakt olmadan nəsə demək çətindir. Yalançı görünmək istəmirəm. Yalnız onu deyə bilərəm ki, bu adamın dəmir əsəbləri var.

Rocers alnının tərini sildi.

– Mən heç nə başa düşmürəm. – Batmış səslə dedi.

– Heç nə anlamıram. Və məni ən çox qorxudan da elə budur.

## 3



https://www.facebook.com/groups/Kitabsever/

– Biz burdan çıxıb getməliyik. Necə olur-olsun. – Doktor Armstronq yerindən sıçradı. – Mütləq getməliyik.

Hakim Uorqreyv siqaret çəkənlər üçün ayrılmış otağın pəncərəsindən bayıra boylandı, pensnesinin ipini barmağına dolaşdırıb dedi.

– Hərçənd ki, mənim sinoptik funksiyasını həyata keçirmək niyyətim yoxdur, cəsarət edib deyə bilərəm ki, əgər hava bu cür davam edərsə, nə bu gün, nə də sabah gəmi dənizə çıxmayacaq.

Armstronqun başı əllərinin arasına düşdü.

– O vaxta qədər bizim hamımızı elə yataqdaca öldürüb qurtararlar. – O inildədi.

– İnanmıram. – Hakim əminliklə dedi. – Şəxsən mən bütün təhlükəsizlik tədbirlərini görəcəm.

Armstronq qəfildən fikirləşdi ki, qocalar həyata cavanlardan daha çox bağlanırlar. Öz tibb təcrübəsində doktor buna dəfələrlə əmin olmuşdu. Şəxsən onun özü hakimdən iyirmi yaş kiçik idi. Lakin içindəki yaşamaq yanğısı bu qocaya nisbətən daha az görünürdü.

Doktor Armstronqun dediyi söz hakimin qulaqlarında təkrar səsləndi: «Yataqda öldürəcəklər. Bütün həkimlər şablon düşünürlər. Bu da o birilərin tayıdır».

– Unutmayın. Üçünü artıq öldürüblər.

– Haqlısınız. Amma onu da nəzərdən qaçırmayın ki, bu üç nəfər həyatlarının təhlükə qarşısında olduğunu bilmirdilər. Bizsə bilirik.

Armstronq dodaqlarını sıxıb yavaşça dedi.

– Axı biz neyləyə bilərik? Onsuz da əvvəl-axır...

– Mənə elə gəlir ki... – hakim Uorqreyv ətrafdakıları süzüb dedi, – biz nəsə eləyə bilərik.

– Axı biz qatilin kim olduğunu bilmirik. – Armstronq inildədi.

– Mən belə deməzdim. – Hakimin səsi o biriləri -diksindirdi.

– Bəlkə siz artıq nəsə anlamısınız? – Doktor onun üzünə baxdı.


https://www.facebook.com/groups/Kitabsever/

– Etiraf edim ki, həqiqi dəlillərə malik deyiləm. – Hakim yayındırıcı tərzdə dedi. – Lakin bütün faktları beynimdə bir yerə yığanda şübhələrin çoxu bir adamın üstünə gətirib çıxarır.

Armstronq hakimin üzünə zilləndi:

– Mən heç nə anlamıram.

## 4



https://www.facebook.com/groups/Kitabsever/

Yuxarıdakı yataq otağında olan miss Brent İncili götürüb pəncərənin qarşısında oturdu. Əvvəl kitabı açıb oxumaq istəsə də qısa tərəddüddən sonra büküb kənara qoydu və dolaba yaxınlaşdı. Siyirtmədən qara üzlü qeyd kitabçasını çıxarıb yazmağa başladı:

«Dəhşətli hadisələr baş verir. General Makartur ölüb. (Onun dayısı oğlu bizim Elsi Makfersonla evlidir.) Heç bir şübhə yoxdur ki, onu öldürüblər. Lançdan sonra hakim Uorqreyv gözəl bir nitq söylədi. Belə bir fikir irəli sürdü ki, qatil bizlərdən birimizik. Belə çıxır ki, bizlərdən birinin içinə iblis girib. Mən çoxdan şübhələnmişdim. Bəs, görəsən, bu adam kimdir? İndi hamını bu sual düşündürür. Yalnız mən bilirəm ki...».

O, bir müddət hərəkətsiz dayanıb xəyala daldı. Gözləri sanki dumanlandı, əlləri əsməyə başladı. Əlindəki karandaş da yelləndi. Sanki ondan da xəbərsiz karandaş kağızın üstündə iri hərflərlə yazdı: «Qatilin adı Beatris Teylordur».

Onun gözləri bağlandı, lakin elə o an da diksinib ayıldı. Vərəqə baxıb inildədi, hərfləri diqqətlə gözdən keçirtdi.

«Bu nədir mən yazıram? – o mızıldandı. – Deyəsən, yavaş-yavaş başıma hava gəlir».


https://www.facebook.com/groups/Kitabsever/

# 5

Tufan getdikcə güclənirdi. Külək vıyıldayır, yağışı evin divarlarına çırpırdı.

Hamı qonaq otağına yığışmışdı. Bir küncdə yığışıb susmuşdular. Altdan-altdan bir-birini gözdən keçirirdilər.

Əlində sini olan Rocers isəri girəndə hamı elə bil diksinib yerindən qalxdı.

– İcazə versəydiniz pərdələri bağlayardım, – o dedi. – Belə daha rahat olar.

Qonaqlar etiraz eləmədilər və Rocers pərdələri bağlayıb otağın işığını yandırdı. Doğrudan da otağa elə bil rahatlıq gəldi. Qonaqların kefi də kökəldi. Əlbəttə ki, sabah hər şey bitəcək, tufan da yatacaq, gəmi də gələcək.

Vera Kleytorn dedi:

– Çayı paylayırsınız, miss Brent?

– Yox-yox, əzizim, bu işi boynunuza siz götürün. Çaydan çox ağırdır, mənim gücüm çatmaz. Həm də kefim yaxşı deyil. İki yumaq boz yun sap itirmişəm.

Vera stola yaxınlaşıb fincanlara çay süzdü. Qaşıqların və nəlbəkilərin səsi eşidildi. Dəhşət hiss elə bil oturanların hamısını tərk eləmişdi.

Çay. Hamının vərdiş elədiyi çay.

Filipp Lombard hətta zarafat da elədi. Blor qəhqəhə çəkdi. Doktor Armstronq öz praktikasından maraqlı bir hadisə danışdı. Adətən çaya çox əhəmiyyət verməyən hakim Uorqreyv də əvvəlkinə nisbətən daha həvəslə içirdi.

Bu idilliyanı yalnız Rocersin gəlişi pozdu. Onun üzündə heyrət nişanələri vardı.

– Bağışlayın, – o soruşdu, – siz bilmirsiniz, vanna otağındakı pərdə hara yoxa çıxıb?

Lombard təəccübləndi.



https://www.facebook.com/groups/Kitabsever/

– Pərdə? Nə pərdə? Bu nə sözdür, Rocers?

– Pərdə yoxa çıxıb, ser, elə bil ki, əriyib gedib. Mən indi oranı yığışdıranda gördüm. Yerində yoxdur.

– Səhər yerindəydi? – Hakim Uorqreyv soruşdu.

– Bəli, ser.

Necə pərdədir? – Blor maraqlandı.

– Al-qırmızı rəngli ipək parçadandır. Kafelin rənginə uyğun idi.

– Və yoxa çıxıb? – Lombard dedi.

– Yoxa çıxıb, bəli.

– Lap elə yoxa çıxıb. Burda nə var ki? – Blor təəccübləndi. – Pərdəylə heç kimi öldürmək mümkün deyil, ona görə gəlin bu məsələni unudaq.

– Necə istəyirsiniz. Məndən deməkdir. – Rocers təzim edib çıxdı.

Yenə də elə bil otağa qorxu yayıldı. Qonaqlar oğrun-oğrun bir-birini süzməyə başladılar.


https://www.facebook.com/groups/Kitabsever/

## 6

Nahar vaxtı çatdı. Konservlərdən ibarət yemək gəldi, yedilər, qabları yığışdırdılar.

Yeməkdən sonra qonaq otağına yenə də ağır və gərgin sükut çökdü.

Saat doqquzda Emili Brent ayağa qalxdı.

– Mən yatmaq istəyirəm. – O dedi.

– Mən də. – Vera da durdu.

Qadınlar yuxarı qalxdılar, Lombardla Blor onları müşayiət elədilər. Qadınlar qapılarını arxadan qıfıllayana qədər kişilər pilləkənin qabağında dayanıb gözlədilər.

Kilidlərin səsi eşidiləndən sonra Lombard Blora baxdı.

– Heç olmasa bir gecəlik onlardan arxayın olmaq olar.

Onlar aşağı düşdülər. Bir qədər də oturandan sonra kişilər də yatmağa qalxdılar. Pilləkəni hamısı birlikdə qalxırdı.

Stolu səhər yeməyi üçün hazırlayan Rocers onların bir-birinin ardınca yuxarı qalxdığını müşahidə edirdi. Onların ikinci mərtəbədəki dəhlizdə dayandıqlarını da gördü. Ordan qısa söhbət eşidildi.

– Mənə elə gəlir ki, sizə qapıları bağlamaq məsləhətini vermək artıqdır.

– Nəinki qapını bağlamaq, hətta stulun ayağını qapının tutacağına da keçirtmək lazımdır. – Blor əlavə elədi. – Kilidi bayırdan açmaq mümkündür.

– Əzizim Blor, sizin probleminiz ondadır ki, həddən çox bilirsiniz. – Lombard əlavə elədi.

– Gecəniz xeyirə qalsın. – Hakim Uorqreyv dedi. – Umid edirəm ki, səhər sizin hamınızı sağ-salamat görəcəm.


https://www.facebook.com/groups/Kitabsever/

Rocers sakitcə mətbəxdən çıxıb pilləkənlə yuxarı qalxdı. Kişilərin hamısının eyni vaxtda qapını arxadan kilidlədiyini eşitdi.

– Lap yaxşı. – O, dodaqaltı mızıldandı və mətbəxə qayıtdı. Səhər yeməyi üçün hər şeyi hazırlayandan sonra yenə də qonaq otağına keçdi, nimçələri düzdü. Sonra cibindən açarları çıxarıb zənci balası fiqurlarına baxdı. Üzünə təbəssüm yayıldı.

– Görək bu gün neyləyəcəklər.

O, qonaq otağından çıxıb qapını yaxşıca kilidlədi, mətbəxin də qapısını bağladı. Sonra nə düşündüsə, aşağıdakı bütün qapıları kilidləyəndən sonra rahat nəfəs aldı, yuxarı, özünün yeni yataq otağına qalxdı.

Otaqda gizlənməyə yeganə yer iri şkaf idi. Onunçün də Rocers içəri girən kimi ilk növbədə şkafı yoxladı, orda heç kimin olmadığını görəndən sonra qapını içəridən möhkəm bağladı, soyunub yerinə girdi.

– Bu gecə zənci balalarının sayı, yəqin ki, azalmayacaq. – O öz-özünə dedi. – Mən bütün tədbirləri görmüşəm.



https://www.facebook.com/groups/Kitabsever/

# ON BİRİNCİ FƏSİL

## 1

Filipp Lombard artıq neçə vaxt idi, səhər tezdən oyanmağa adət eləmişdi. Bu dəfə də həmişəki kimi sübh tezdən durdu. Dirsəklənib küləyin səsinə qulaq asmağa başladı. Tufan elə bil azca zəifləmişdi. Yağışın da səsi gəlmirdi…

Saat səkkizə yaxın yenidən möhkəm külək qalxdı. Lakin Lombard bunu hiss eləmədi. O, təzədən yuxuya getmişdi.

Saat doqquz otuzda o təzədən yerindən qalxıb saatına baxdı, qulağına yaxınlaşdırıb tıqqıltıya qulaq asandan sonra əsl canavar kimi dişlərini qıcıdı.

– Yaxşı. Məncə, hərəkət elməyin vaxtı çatıb. – Mızıldandı.

Beş dəqiqə sonra o, artıq Blornu qapısında dayanmışdı. O, qapını ehtiyatla açdı. Gözləri qızarmış, saçları dağılmışdı. Hiss olunurdu ki, yuxudan indicə qalxıb.

– On üç saatdır ki, yatırsınız, Blor, – Lombard gülümsünərək dedi. – Görünür, vicdanınız həqiqətən də təmizdir.

– Nə istəyirsiniz? – Blor onun sözünü kəsdi.

– Sizi oyatmayıblar ki? – Lombard soruşdu. – Çay gətirən olmayıb? Saatdan xəbəriniz var?

Blor arxaya çevrilib çarpayının üstündə, divarda asılmış saata baxdı.

– Ona iyirmi beş dəqiqə qalıb. – Başını yellətdi. – Heç vaxt inanmazdım ki, bu qədər yata bilərəm. Bəs Rocers hardadır?



https://www.facebook.com/groups/Kitabsever/

– Elə mənimçün də maraqlıdır. – Lombard dedi.

– Görəsən, o harda ola bilər?

– Başa düşmədim. – Blor, deyəsən, yuxudan hələ tam oyanmamışdı.

– Başa düşməməli nə var ki? – Filipp Lombard başını yellətdi. – Rocers yoxa çıxıb. Yataq otağında da, mətbəxdə də gözə dəymir. Heç çaydanı da qızmağa qoymayıb. Qonaq otağı da soyuqdur. Sobanı yandırmayıb.

Blor dodaqaltı deyindi.

– Görəsən, hara yoxa çıxıb? Bəlkə adanı gəzməyə çıxıb? Qoy geyinim çıxım, hamıdan soruşaq. Bəlkə kimsə görüb onu...

Lombard başını tərpətdi və Blorun qapısını örtüb dəhliz boyu gedərək o biri yataq otaqlarının qapılarını döyməyə başladı.

Doktor Armstronq artıq durmuşdu. Qapı döyüləndə ayaqqabılarını geyinirdi. Hakim Uorqreyvi isə Blor kimi yuxudan oyatmaq lazım gəldi.

Vera Kleytorn da geyinmişdi, lakin Emili Brentin otağı boş idi.

Axtarış qrupu evi ələk-vələk elədi. Rocersin otağı boş idi, yatağı yığılmamışdı, diş fırçasıyla üzqırxan fırça hələ də nəm idilər.

– Belə məlum olur ki, Rocers gecəni burda yatıb və səhər də salamat olub. – Lombard yavaşca dedi.

– Deyirsiniz, yəni o hardasa gizlənib bizi gözləyir?

– Vera yavaşca dedi. Onun titrək səsində əvvəlki qətiyyətdən əsər-əlamət yox idi.

– İndi, mənim əzizim, mən hər kəs haqqında hər şey düşünməyə hazıram. – Filipp Lombard etiraf elədi. – Məsləhətim də budur ki, biz onu tapana qədər hamımız bir yerdə olaq.

– Yəqin ki, o hardasa adada olar. – Doktor Armstronq dedi.

– Bəs miss Brent hardadır? – Blor maraqlandı. – Bu da yeni tapmacadır?

Lakin holla düşəndə onlar miss Brentlə rastlaşdılar. Onun əynində nazik plaş vardı. Yəqin ki, yağışdan qorunmaq üçün çiyninə atmışdı.

– Dəniz çox ləpəlidir. Yəqin ki, bu gün də gəmi limandan çıxmayacaq.

– Siz tək-tənha adanı gəzməyə cəsarət eləmisiniz, miss Brent? – Blor təəccübləndi. – Məgər başa düşmürsünüz ki, bu necə təhlükəlidir?

– Sizi inandırıram, mister Blor, mən ehtiyatı əldən verməmişdim. – Miss Brent dedi.

– Rocersi görmüsünüz? – Lombard müdaxilə elədi.

– Yox, bu gün onu görməmişəm. – O, qaşlarını qaldırdı. Nə olub ki?

Səliqəylə geyinmiş, üzünü qırxmış və protez dişlərini taxmış Uorqreyv pilləkənin başında göründü. Aşağı düşəndən sonra qonaq otağına nəzər salıb dedi:

– İşə baxın. O, süfrəni salmağı da unutmayıb.

– O bunu dünən gecə də edə bilərdi. – Lombard dedi.

Onlar qonaq otağına daxil olub stolun üstündə səliqəylə düzülmüş nimçələri və fincanları gözdən keçirməyə başladılar.

İlk olaraq Veranın gözləri bərəldi. O sanki qeyri-ixtiyari inildəyib hakimin əlindən yapışdı.

– Zənci balalarına baxın…

Dairəvi sininin içində cəmi altı zənci balası qalmışdı.



https://www.facebook.com/groups/Kitabsever/

## 2

Bir azdan Rocers də tapıldı. Onu evin arxasındakı camaşırxananın yanında üzü üstə uzanmış vəziyyətdə tapdılar. Əlində balaca baltanı sıxmışdı. Deyəsən, sobanı yandırmaq üçün odun doğrayırmış. Böyük balta da bir qədər aralıda düşüb qalmışdı. Kəsici hissəsi qana bulaşmışdı.

Rocersin boynunun ardında dərin yara görünürdü.



https://www.facebook.com/groups/Kitabsever/

## 3

– Məsələ aydındır. – Doktor Armstronq dedi. – Qatil arxadan gəlib baltanı qaldıraraq onun boynunun ardından zərbə vurub.

– Doktor, düzünü deyin, belə zərbəni endirmək üçün böyük fiziki qüvvəyə ehtiyac var? – Hakim Uorqreyv -soruşdu.

– Yox, belə zərbəni hətta qadın da vura bilərdi.

Onlar arxaya çöndülər, lakin Vera Kleytornla Emili Brent artıq mətbəxə getmişdilər.

– Qız da bunu eləyə bilərdi. Həm də nəzərə alaq ki, o, idmançıdır. Miss Brentin bədən quruluşu nisbətən zərifdir. Lakin məhz belə qadınlar bir çox hallarda fiziki cəhətdən güclü olurlar. Bir şeyi də nəzərdən qaçırtmayaq. Adətən əqli cəhətdən çatışmazlığı olan insanlar böyük fiziki qüvvəyə malik olurlar. Bu, sübut olunmuş faktdır.

Hakim susub fikrə getdi. Bayaqdan diz üstə çöküb meyiti gözdən keçirən Blor isə ayaq üstə qalxıb üstünü çırpdı.

– Əl izləri yoxdur. Baltanın dəstəsini yaxşıca siliblər.

Qəfildən arxadan qəfil qəhqəhə eşidildi. Onlar çönəndə divara söykənmiş Vera Kleytornu gördülər.

– Bəlkə bu adada arılar da var? Var, yoxsa yoxdur?

– o, qəhqəhə çəkərək, sözləri ara verərək tələffüz edirdi. – Bəlkə bal da var. Bal şanı görməmisiniz bu tərəflərdə? Ha-ha-ha...



https://www.facebook.com/groups/Kitabsever/

Kişilər təəccüb içində Veraya zillənmişdilər. Doğrudanmı onun başına hava gəlir, ağlı çaşır? Hamının gözü qabağında qız havalanır?

Gözlərinizi niyə bərəldirsiniz? – Vera sakitləşmək bilmirdi. – Elə bilirsiniz, başıma hava gəlib? Mənsə sizdən soruşuram, burda arılar hardadır? Başa düşmürsünüz? Arı axtarıram. Başa düşmürsünüz niyə? Divardakı yanıltmacı xatırlamırsınız? Hər yataq otağında göz qabağında asılıb. Əgər ağlımızı itirməsəydik, çoxdan bura gəlmişdik.

Vera nəfəsini dərib əlavə elədi:

Yeddi zənci balası odun doğradı,

Balta kəsdi birini, altısı qaldı.

Mən bu şeiri artıq əzbər bilirəm. Sonrakı bənd də -belədir:.

Altı zənci balası, gəzməyə çıxdı,

Birini arı sancıb tez göyə qalxdı.

Ona görə soruşuram ki, adada arı var, yoxsa yoxdur... gülməlidir, həqiqətən də gülməlidir.

Vera yenə də dəli kimi qəhqəhə çəkdi.

Doktor Armstronq dözə bilmədi, qıza yaxınlaşıb sifətindən möhkəm bir şillə vurdu. Vera hıçqırıb dayandı. Bir müddət sakit durub onlara baxdı, sonra udqunub gözlərini döydü, yavaşca dedi:

– Çox sağ olun... Mən özümə gəldim... – bunu deyib üzünü qapıya tərəf çevirdi, bir-iki addım atandan sonra yenə də kişilərə çöndü. – Mən mətbəxə gedirəm. Miss Brentlə birlikdə səhər yeməyi hazırlamalıyıq. Mümkünsə bir az odun gətirin, sobanı yandıraq, yoxsa ev soyuq -olacaq.

Doktorun şilləsinin izi onun yanağında qızarırdı.

Qız çıxıb gedəndən sonra Blor dedi:

– Əhsən, doktor, bir anın içində qızı özünə gətirdiniz.

– Başqa neyləməliydim ki? – Doktor Armstronq çiyinlərini çəkdi. – Bu vəziyyətdə elə bircə dəlimiz çatmırdı.

– O, dəli deyil. – Lombard etiraz elədi.

– Düzdür, – Blor da təsdiq etdi.

– Razıyam. – Doktor Armstronq dedi. – Çox soyuqqanlı və ağıllı qızdır. Amma sarsıntı hamının başına gələ bilər.

Onlar Rocersin macal tapıb doğradığı odunları mətbəxə daşıdılar.

Miss Emili Brentlə Vera Kleytorn artıq xeyli iş -görmüşdülər.

– Çox sağ olun. – Miss Brent kişilərə təşəkkür elədi.

– Biz çalışacağıq ki, səhər yeməyini bacardıqca tez hazırlayaq. Lakin yarım saatdan tez olmayacaq. Çaydanın qaynamağını gözləməliyik.

## 4

– Bilirsiniz nə fikirləşirəm? – Lombard istefada olan müfəttiş Blora dedi.

– Bilmirəm, oturub fikirləşməyə də həvəsim yoxdur.

– O dedi. – Özünüz danışın.

İstefada olan müfəttiş ciddi adam idi. Kinayə-filan da anlamırdı. Onunçün də çox ciddi şəkildə danışmağa başladı.

– Amerikada belə bir hadisə olmuşdu. İki nəfəri öldürmüşdülər. Qoca ər və arvadı günün günorta vaxtı baltayla doğramışdılar. Sübut olundu ki, qulluqçu qız bunu edə bilməz. Onların qızı da vaxtı keçmiş, qız qarımış biriydi. Hamı da ona hörmət edirdi. Ağlasığmaz iş idi ki, onu günahkar hesab eləsinlər. Lakin istintaq vaxtı sübut olundu ki, bu qətl onun işidir. Mən Rocersin yanında baltanı görən kimi bu hadisəni xatırladım. Sonra mətbəxə keçdim, -gördüm ki, miss Brent orada heç nə olmamış kimi iş görür. Əslində Veranın isteriyaya düşməyi mənə daha təbii görünür, nəinki bu qarımışın sakitliyi. Sizcə, mən səhv edirəm?

– Bəlkə də haqlısınız. – Lombard dedi.

– Dəhşətli adamdır. – Blor davam elədi. – Hələ arsız-arsız önlük də taxıb. Yəqin ki, missis Rocersin önlüyüdür. «Yarım saatdan sonra səhər yeməyi hazır olacaq», – səsinin tonuna fikir verdiniz? Elə bil burda heç nə

olmayıb. Mən əminəm ki, bütün bunlar onun işidir. Qarımış qızlarda belə şeylər çox olur. Təklikdən başlarına hava gəlir. Dönüb manyak olurlar, hamıya nifrət edirlər, kimi gəldi öldürürlər. Fikir verdiniz, bütün günü İncil oxuyur. Bəlkə havalanıb, özünü Tanrı cəlladı hesab edir?

– İncil oxumaq insanın ağlının çaşdığını sübut eləmir.

– Həm də axı o, səhər evdən çıxmışdı. Bunu hamımız gördük.

Lombard başını tərpətdi.

– Rocersi səhər sübhdən, odun doğrayanda öldürüblər. Əgər bunu miss Brent eləsəydi, sonradan iki saat yağışın altında gəzməyi mənasız olardı. Mənim fikrimi bilmək istəyirsiniz? Məncə, Rocersi öldürən adam tez öz otağına gəlməliydi və sonradan özünü təzə yuxudan durmuş kimi göstərməliydi.

– Siz məni başa düşmədiniz, mister Lombard. – Blor dedi. – Əgər Emili Brent günahsız olsaydı, səhər tezdən adada gəzməyə cəsarət eləməzdi. Bunu yalnız o adam eləyər ki, heç kimdən qorxusu yoxdur. Əgər miss Brent heç kimdən qorxmursa, deməli, qatil elə özüdür.

– Sonuncu fikriniz ağlabatandır. – Lombard etiraf elədi. – Mənim ağlıma gəlməmişdi. Şadam ki, daha məndən şübhələnmirsiniz.

Blor dilləndi.

– Bəli, haqlısınız, ən əvvəl mən sizdən şübhələnmişdim. Həm revolverə görə, həm də danışdığınız qəribə hadisəyə görə. Amma indi başa düşürəm ki, sizin belə planlarınız olsaydı, daha inandırıcı nağıllar fikirləşə bilərdiniz. Ümid edirəm ki, siz də məndən şübhələnmirsiniz.

Filipp fikirli halda cavab verdi.

– Bəlkə də mən yanılıram, amma bu cür planı sizin hazırlamağınız beynimə batmır. Axı sizin qətiyyən təxəyyülünüz yoxdur. Əgər mən səhv edirəmsə, onda, deməli, siz çox məharətli aktyorsunuz. Mən sizinlə fəxr edirəm. – O, səsini azaltdı. – Qulaq asın, bəlkə elə yaxın vaxtlarda bizim də axırımıza çıxdılar. Sizdən soruşmaq istəyirəm, o vaxt siz yalan ifadə vermişdiniz?

Blor əvvəl əsəbiləşsə də sonra özünü ələ aldı.


https://www.facebook.com/groups/Kitabsever/

– Valda deyilənləri unutmamısınız, əhsən. Onsuz da bundan o tərəfə gizlətməyin mənası yoxdur. Düzdür, Landorun həmin işdə günahı yox idi. Bunu mən bilirdim. Sadəcə, onun quldur dəstəsi mənim başqa bir işimdən keçirdi və mən ağına-bozuna baxmadan hamısını tutub məhbəsə basdım. Sonra mənim vəzifəmi yüksəltdilər.

– Landor isə iş alıb katorqaya göndərildi və orda da öldü.

– Mən nə biləydim ki, o öləcək, – Blor dedi.

– Bəlkə də, sadəcə, sizin bəxtiniz gətirmədi.

– Mənim, yoxsa onun? – Blor qaşlarını çatdı.

– Əlbəttə ki, ilk növbədə onun, lakin həm də sizin. Axı məhz onun ucbatından sizin ömrünüz vaxtından əvvəl başa çatacaq. – Lombard başını yellətdi.

– Mənim ömrüm? – Blor özündən çıxdı. – Doğrudanmı siz hesab edirsiniz ki, mən Rocers kimi özümü baltalamağa imkan verəcəm? Başqalarını bilmirəm, amma mən özümü müdafiə eləməyə qadirəm.

Lombard acı-acı gülümsündü.

– Sizinlə böyük məmnuniyyətlə mərc gələrdim. Lakin sizi öldürsələr, uduşumu kimdən alacağam?

– Mister Lombard, nə demək istəyirsiniz?

Lombard dişlərini qıcıtdı.

– Əzizim Blor, demək istəyirəm ki, sizin də sağ qalmaq şanslarınız o qədər də çox deyil.

– Axı nəyə görə belə düşünürsünüz?

– Çünki təxəyyüldən məhrum olduğunuza görə sizi də o dünyaya göndərmək o qədər çətin deyil. Çox gözəl təxəyyülə malik olan cinayətkar mister Onim bir göz qırpımında sizi barmağına dolayar.

– Bəs sizi? – Blor mırıldadı.

Lombardın üzü ciddiləşdi.



https://www.facebook.com/groups/Kitabsever/

– Mənim təxəyyülüm heç də cənab Onimin təxəyyülündən geri qalmır. – O dedi. – Mən bundan da gərgin vəziyyətlərə düşmüşəm və həmişə salamat qurtulmuşam. Başqa heç nə demək istəmirəm, amma inanıram ki, mən burdan da sağ çıxacam, sizdən fərqli olaraq.

## 5

Sobanın qarşısında dayanıb qayğanaq bişirən Vera fikirləşirdi ki, isteriyaya düşüb, özünü kişilərin gözündən salmağı çox pis oldu. Gərək əsəblərimi cilovlayım. Nə olur-olsun, özümü ələ almalıyam. Axı mən həmişə soyuqqanlılığımla fəxr eləmişəm.

...Həmin gün də miss Kleytorn özünü itirmədi, cəld Sirilin qışqırıq səsləri eşidilən kimi suya baş vurdu, onu xilas eləməyə çalışdı.

Vera əsəbiləşdi. Axı indi bunları xatırlamağın yeri deyil... hər şey artıq arxada qalıb, çox-çox uzaqda...

Vera suya təzəcə girmişdi ki, uşağın səsi kəsildi. Artıq suda boğulmuşdu. Vera isə oraya yaxınlaşıb suya baş vurdu, qayalıqların ətrafında eşələndi, amma üzərək geri qayıtmağa həvəsi olmadı, suyun üzündə uzanıb qayığı gözləməyə başladı.

Sonradan hamı onun soyuqqanlılığını təriflәmişdi. Hamı tərifləyirdi, bircə Huqodan başqa. Huqonun bircə baxışı kifayət idi ki, Sirilin nəyə görə qayalığa tərəf üzməyinə imkan verildiyini anlasın... İlahi, bu necə də ağır dəqiqələr idi. Görəsən, indi Huqo hardadır? Nə işlə məşğuldur? Nişanlanıbmı, evlənibmi?



https://www.facebook.com/groups/Kitabsever/

– Vera, bekonu yandırırsan. – Miss Brentin qəzəbli səsi onu xəyallardan ayıltdı.

Doğrudan da tavadakı bekon dilimi qaralmaq üzrəydi.

– Bağışlayın, miss Brent, fikrim başqa yerdəydi. Heyif...

Vera tavadakı bekon dilimini nimçəyə qoyub yerinə təzəsini yerləşdirəndən sonra yenə də miss Brentə baxdı.

– Sizin soyuqqanlılığınız məni valeh edir, miss Brent.

– Məni uşaq vaxtından öyrədiblər ki, heç bir şəraitdə başını itirmək olmaz, ən ağır şəraitdə də soyuq başı və düzgün düşüncə qabiliyyətini saxlamaq lazımdır.

«Deyəsən, uşaq vaxtı qapazaltı olub», – Vera bunu düşünsə də, təbii ki, dilinə başqa sözlər gəldi.

– Bəs siz heç qorxmursunuz? Bəlkə ölmək elə sizin -ürəyinizcədir?

– «Ölmək? – Bu söz iti mil kimi miss Brentin şüuruna sançıldı. – Ölmək nədir? Onun qətiyyən ölmək fikri yoxdur. Başqaları öləcək. Mütləq. Amma Emili Brent yox. Doğrudanmı bu qız heç nəyi anlamır. Əlbəttə ki, Emili Brent heç nədən qorxmur. O, hərbiçi ailəsindən çıxıb, onların ailəsində hamı ölümün gözünün içinə baxmağı bacarıb. Hə, düzgün, əxlaqlı ömür sürüblər, ölümdən də qorxmayıblar. Emili Brent də onlara oxşayıb. İndi onu heç bir təhlükə gözləmir...

Bizim heç birimiz bu adanı tərk etməyəcəyik. Kim demişdi bunu? Deyəsən, general Makartur. Lakin Emili Brenti belə bir gələcək qorxutmurdu. Hələ bəlkə sevinirdi də. Bu isə günah əməldir. Bəziləri ölümün mahiyyətini anlamırlar və intihar edirlər. Beatris Teylor kimi...

Dünən gecə Beatris onun yuxusuna girmişdi. Qaranlıqda pəncərəyə sıxılıb üzünü şüşəyə söykəmişdi və ağlayaraq onu evə buraxmağını xahiş edirdi. Lakin Emili Brent onu evə buraxmaq istəmirdi. Belə əxlaqsızın yeri küçədir. Qoy ağlı başına gəlsin»

Emili qəfildən diksinib özünə gəldi. Yanındakı qızın baxışları nəsə onun xoşuna gəlmədi.



https://www.facebook.com/groups/Kitabsever/

– Hər şey hazırdır? – O, işgüzar səslə soruşdu. – Səhər yeməyini aparmaq olar, məncə.

# 6

Bu səhər yeməyi çox qəribə keçdi. Hamı bir-birinə qarşı çox nəzakətli idi.

– Sizə qəhvə təklif eləmək olar, miss Brent?

– Bir dilim bekon götürün, miss Kleytorn.

– Bəlkə yumurta istəyirsiniz, mister Blor…

Stol arxasında oturmuş altı nəfər özlərini elə aparırdılar ki, elə bil heç bir faciə baş verməmişdi. Lakin hər kəsin ürəyində bir tufan vardı. Hamının fikirləri ildırım sürətiylə hərəkət edirdi.

«Bəs sonra? Sonra nə olacaq? Növbəti qurban kimdir? Bu dəfə kim öldürüləcək? Kimdir bunları təşkil edən? Niyə gəmi hələ gəlib çıxmayıb? Görəsən, burdan qaçıb getmək mümkün olacaq? Görəsən, kimsə salamat qurtaracaq? Və sair… ».

Altı zənci balası. Cəmisi altı fiqur. Görəsən, axşama neçəsi qalacaq?



https://www.facebook.com/groups/Kitabsever/

– Son yumurtanı kim istəyir?

– Cem yeyən yoxdur ki?

– Çox sağ olun, mən vetçina götürəcəm.

Altı nəfər heç nə olmamış kimi səhər yeməyini davam etdirirdilər. Çünki bilirdilər ki, ən azından bu yeməyin sonuna qədər hamı salamat qalacaq.

# ON İKİNCİ FƏSİL

## 1

Səhər yeməyi başa çatdı. Hakim Uorqreyv yüngülcə öskürərək oturanlara müraciət elədi.

– Mənə elə gəlir ki, cənablar, yenə də birlikdə yığışıb düşdüyümüz vəziyyəti müzakirə eləməyə ehtiyac var. Zənnimcə, yarım saatdan sonra qonaq otağında yığışsaq, yaxşı olar.

Heç kim etiraz eləmədi.

– Mən süfrəni yığışdırıb qabları yuyaram. – Vera dedi.

– Biz qabları mətbəxə apararıq. – Lombard ayağa durdu.

– Ehtiyac yoxdur, biz özümüz öhdəsindən gələrik.

– Bunu Emili Brent dedi və ayağa qalxdı, lakin elə bil başı hərləndi, yenə kresloya çökdü.



https://www.facebook.com/groups/Kitabsever/

– Sizə nə oldu, miss Brent? – Hakim soruşdu.

– Bağışlayın, deyəsən, miss Kleytorna kömək eləyə bilməyəcəm. – Emili Brent özünə bəraət qazandırmağa çalışdı. – Özümü pis hiss edirəm, başım fırlanır.

– Başınız fırlanır? – Doktor Armstronq qalxıb ona yaxınlaşdı. – Bu, təbiidir. Daxili gərginlikdəndir. Orqanizmin sarsıntıya gecikmiş reaksiyasıdır. Mən sizə bir dərman...

– Yox! – Emili Brent qəfildən qışqırdı. – İstəmirəm. Heç nə içməyəcəm.

Hamı diksindi. Doktor Armstronqun rəngi qızardı.

– Necə istəyirsiniz. – O, sakitcə cavab verib yerinə -oturdu.

– Dərman lazım deyil, – miss Brent dedi. – Bir az otursam, keçib gedəcək. Sadəcə sakitlik lazımdır.

Stolun üstünü yığışdırandan sonra Blor Veraya müraciət elədi.

– Mən təsərrüfat işləriylə məşğul olmağa öyrəşmişəm, miss Kleytorn, sizə kömək edərəm.

– Çox sağ olun, – Vera dedi.

Emili Brenti qonaq otağında qoyub çıxdılar.

Başının hərlənməsi yavaş-yavaş keçirdi. Bədəni sustalırdı, hiss edirdi ki, onu yuxu aparır. Qulaqlarında vızıltı səsi gəlirdi. Bəlkə doğrudan da otaqda arılar var? Miss Brent fikirləşdi ki, görəsən, arıdır, yoxsa milçək?

Qəfildən onun nəzərinə pəncərədə gəzişən arı sataşdı. Bu gün səhər də Vera Kleytorn arılar barədə nəsə danışırdı.

Arılar və bal... Onun baldan xoşu gəlirdi. Çox...

Otaqda kim var? Elə bil addım səsləri gəlir. Elə bil onun üstünə su damcılayır. Budur, Beatris Teylor aydan çıxıb onun üstünə gəlir. Qızın saçlarından sıçrayan su -damcıları onun üstünə tökülür. Budur, lap yaxınlaşır. O, üzünü çevirmək istəyir, amma alınmır. Niyə? Axı niyə o, başını çevirə bilmir?



https://www.facebook.com/groups/Kitabsever/

Bəlkə qışqırsın? Axı səsi də çıxmır? Evdə heç kim yoxdur. O tamamilə tənhadır. Yenə də arxadan addım səsləri eşitdi... Elə bil boynunun ardından arı sancdı. Çox da ağrıtmadı. Yüngülcə...

## 2

Qonaq otağında yığışanlar Emili Brenti gözləyirdilər.

– Bəlkə mən ona baş çəkim? – Bir müddət sonra Vera soruşdu.

– Bir dəqiqə. – Blor onu saxladı.

Vera yerinə oturdu. Hamı heyrətlə Blora baxdı.

– Qulaq asın. – O dedi. – Mənə elə gəlir ki, qatili daha axtarmağa ehtiyac yoxdur. O bu saat qonaq otağında oturub. Mərc gələrəm ki, bütün bu qətlləri o qarımış qız təşkil edib.

– Axı onu bu işə nə vadar edə bilərdi? – Armstronq soruşdu.

– Dini zəmində havalanma. Siz buna nə deyirsiniz, doktor?



https://www.facebook.com/groups/Kitabsever/

– Etiraf edim ki, sizin dediklərinizi inkar eləməyə əsasım yoxdur. Lakin təsdiq eləmək üçün də, məncə, əlimizdə kifayət qədər fakt toplanmayıb.

– Biz səhər yeməyi hazırlayanda o özünü çox qəribə aparırdı. – Vera dedi. – Gözləri qaynayırdı, rəngi -dəyişmişdi.

– Bu hələ sübut deyil. – Filipp Lombard dedi. – Bizim hamımız bu saat özümüzdə deyilik.

– Bir də ki, bizə qarşı ittihamlar irəli sürüləndə bu barədə danışmaqdan imtina edən yeganə adam da miss Brent oldu. Sual olunur, niyə? Mən cavab verərəm. Çünki danışmağa sözü yox idi.

ox, burda səhv edirsiniz. – Vera dedi. – Sonradan o bütün hadisəni mənə danışdı.

– Nə danışdı, miss Kleytorn? – hakim maraqlandı.

Vera Beatris Teylorun başına gələnləri hamıya danışdı.

– İnandırıcı hadisədir. – Hakim etiraf elədi. – Mənim deyilənlərin doğruluğuna şübhəm yoxdur. Miss Kleytorn, xahiş edirəm, deyəsiniz, miss Brent öz əməlinə görə vicdan əzabı çəkir? Bunu hiss eləmisiniz?

– Məncə, yox, – Vera çiyinlərini çəkdi. – Miss Brent o qızın ölümünə tam laqeyd yanaşır.

– Bu möminlərin hamısı belədir. Ürəkləri daşdandır elə bil. Üstəlik də qarımış qız. – Blor dedi. – Bir adamda ikisi birləşəndə dəhşət olur. Hər şey sadəcə paxıllıqdan başlayır.

Hakim onun sözünü kəsdi.

– İndi saat  on birə on dəqiqə qalıb. Yaxşı olar ki, kimsə gedib miss Brenti bura dəvət eləsin.

– Başa düşmürəm. Siz nəsə eləmək fikrində deyilsiniz?

Hakim çiyinlərini çəkdi.

– Başa düşmürəm, siz məndən nə gözləyirsiniz? Sizin şübhələrinizin arxasında heç bir fakt dayanmır. Lakin buna baxmayaraq, mən doktor

Armstronqdan xahiş edərdim miss Brentə göz qoysun. İndi isə gedək yemək otağına.

Emili Brent bayaqkı kimi üzü pəncərəyə oturmuşdu. Düzdür, onların gəlişinə miss Brent reaksiya vermədi, lakin başqa qeyri-adi heç nə qonaqların gözünə dəymədi.

Yalnız pəncərənin qarşısına keçəndə gördülər ki, onun üzü göyərib, gözləri bərəlib, dodaqları da sallanıb.

– İşə bax, ey. Bu da ölüb. – Blor qeyri-ixtiyari dedi.

## 3

– Bizlərdən biri də bəraət aldı. – Hakimin yorğun səsi eşidildi.

Doktor Armstronq meyitin üstünə əyilib dodaqlarını iylədi, başını yellədib göz qapaqlarını qaldırıb baxdı.

– Doktor, o nədən ölüb? – Lombard səbirsizliklə soruşdu. – Axı biz çıxanda onun vəziyyəti yaxşıydı, sadəcə başı hərlənirdi.



https://www.facebook.com/groups/Kitabsever/

Armstronq onun boynundakı balaca qırmızı nöqtəni göstərdi.

– Bu, şprisin izidir, – o dedi.

Vızıltı səsi eşidildi.

– Arıya baxın. Pəncərədə gəzir. Yox ey, bu, eşşəkarısıdır. – Vera qışqırdı. – Yadınızdadır, səhər nə deyirdim?

– Yox, bu, arı dişlərinin yeri deyil. – Doktor Armstronq dedi. – Ona iynə vurublar.

– Nə iynə? – hakim soruşdu.

– Yəqin ki, kalium-sianid. Amma bu sadəcə fərziyyədir. Antoni Morstonun öldürüldüyü zəhərə oxşayır. Yəqin ki, miss Brent də Morston kimi boğulmadan ölüb.

– Bəs arı hardan peyda oldu? – Vera dedi. – Bu da sadəcə təsadüfdür?

– Yox, bu boyda təsadüf ola bilməz. – Lombardın rəngi qaraldı. – Burda təsadüf yoxdur. Bizim qatil yaman zarafatcıl adamdır. Deyəsən, yerli koloriti də çox sevir. Öz yanıltmacından bir addım da geri çəkilmir. – Adətən təmkinini saxlayan Lombard bu dəfə özündən çıxdı. Görünür ki, onun çoxsaylı imtahanlardan çıxmış dəmir əsəbləri də daha tab gətirmirdi. – Bu, ağılsızlıqdır. Bizim hamımızın ağlı çaşıb.

– Mən ümid edirəm ki, – hakim dedi, – biz hər halda sağlam düşüncəni saxlamalıyıq. Bilmək istəyirəm, kimsə özüylə şpris gətirib?

Armstronqun beli əyilmişdi, lakin səsi əvvəlki kimi sərt olaraq qalmışdı.

– Məndə şpris var.

Dörd cüt göz ona zilləndi. Hamının baxışlarında qəribə bir nifrət çaları hiss olunurdu.

– Mən həmişə özümlə şpris götürürəm, – o dedi. – Bütün həkimlər belə edir.

– Siz haqlısınız. – Hakim təsdiq elədi. – Bəs o şprisi bizə göstərə bilərsinizmi, doktor?

– Əlbəttə ki. Yuxarıda çamadanımdadır.



https://www.facebook.com/groups/Kitabsever/

– Baxmaq olar? – Hakim soruşdu.

Doktor etiraz eləmədi, hamı sakitcə yuxarı qalxdı. Otağa girib çamadanın içindəkiləri stolun üstünə tökdülər. Şpris gözə dəymədi.

## 4

– Şpris yoxdur. – Armstronq dedi.

Otağa sükut çökdü. Armstronq fikirli halda pəncərəyə söykəndi. Yenə də dörd cüt şübhəli göz doktora zilləndi. O isə acizliklə baxışlarını gah Veraya, gah da Uorqreyvə çevirərək özünü təmizə çıxartmağa çalışırdı.

– Nəyə istəyirsiniz and içim. Şprisi həqiqətən də -oğurlayıblar.



https://www.facebook.com/groups/Kitabsever/

Blorla Lombard baxışdılar.

Hakim isə nəsə fikirləşib dilləndi.

– Otaqda beş nəfərik və bizlərdən biri qatildir. – O, bəyan elədi. – Vəziyyət çox təhlükəli həddə çatıb. Biz əlimizdən gələni eləməliyik ki, dörd nəfər günahsız insanın təhlükəsizliyini təmin edək. Mən doktor Armstronqa müraciət edirəm. Sizdə hansı dərmanlar var?

– Adi tibb çantasıdır. – Doktor Armstronq açıb göstərdi. – Özünüz baxın. Yuxu dərmanı, trional, sulfonal, brom, soda, aspirin... Başqa heç nə yoxdur.

– Mən də özümlə yuxu dərmanı götürmüşəm, – hakim dedi, – sulfonaldır. Böyük dozada ölümcül sayılır. Sizdə isə, cənab Lombard, səhv eləmirəmsə, revolver var.

– Bəli, var, nə olsun ki? – Lombard özündən çıxdı.

– O olsun ki, mən bütün bunları, doktorun və mənim dərmanlarımı və sizin revolveri bir yerə yığıb gizlətməyi təklif edirəm. Əgər kimdəsə dərman, yaxud odlu silah varsa, təklif edirəm ki, açıq desin. Bunu eləyəndən sonra bizim hər birimiz öz əşyalarında axtarış aparmağa icazə verməlidir.

– Revolveri verim? – Lombard qışqırdı. – Heç vaxt. Bu, mümkün deyil.

– Mister Lombard, – hakim dedi, – hərgah siz bir cavan oğlan kimi öz gücünüzə arxayınsınızsa, əmin edirəm ki, müfəttiş Blor sizdən heç də zəif deyil. Əlbəyaxa döyüşdə kimin qalib gələcəyini dəqiq deyə bilmərəm, amma onu əmin edirəm ki, doktor Armstronq, mən və Vera Kleytorn müfəttişin tərəfində olacağıq. Ona bacardığımız kimi kömək edəcəyik.

Lombard bir qədər geri çəkilib vəhşi heyvanlar kimi dişlərini qıcıdı, nəhayət, özünü ələ alıb dedi:

– Yaxşı, əgər bununla məsələ həll olunacaqsa, buyurun gedək.

Hakim Uorqreyv razılıqla dedi:

– Siz vaxtında özünüzü ələ aldınız, cavan oğlan. Tapançanı harda saxlayırsınız?

– Çarpayımın yanındakı dolabın siyirməsində.



https://www.facebook.com/groups/Kitabsever/

– Aydındır.

– Mən gedib gətirərəm.

– Yaxşı olar ki, birlikdə gedək. – Hakim təklif elədi.

Onlar Lombardın yataq otağına keçdilər. O, dolaba yaxınlaşıb siyirməni çəkdi və qeyri-ixtiyari söyüş söydü.

Yeşik boş idi.

## 5

Bundan sonra, danışıldığı kimi, Vera dəhlizə çıxdı, Lombard isə paltarlarını soyundu. Onun həm paltarlarını, həm də otağı yoxladılar.

– Hə, indi razı qaldınız? – o, əsəbiliklə paltarlarını -geyindi.



https://www.facebook.com/groups/Kitabsever/

Bundan sonra doktor Armstronqun, Blorun və hakim Uorqreyvin də otağını axtardılar.

Son otaqdan çıxanda kişilər Veraya üz tutdular.

– Əzizim, miss Kleytorn, – hakim azca nəvazişlə dedi. – Yəqin başa düşürsünüz ki, burada heç bir güzəşt ola bilməz. Biz nə olur-olsun revolveri tapmalıyıq. Yəqin ki, siz özünüzlə çimərlik kostyumu gətirmisiniz.

– Hə, – Vera başını tərpətdi.

– Onda, xahiş edirəm, yataq otağına gedib çimərlik paltarını geyinin və bayıra çıxın.

Vera qapını arxasınca bağlayıb otağa keçdi, bir neçə dəqiqədən sonra qırışmış ipəkdən tikilmiş dar çimərlik paltarında dəhlizə çıxdı...

– Minnətdaram, miss Kleytorn, – hakim dedi. – Burda gözləyin, biz sizin otağı da yoxlamalıyıq.

Vera bir müddət dəhlizdə oturub kişilərin bayıra çıxmasını gözlədi. Yalnız bundan sonra paltarını geyinib onlara qoşuldu.

– İndi biz əminik ki, – hakim dedi, – heç birimizdə nə silah, nə də zəhər var. Əlimizdə olan bütün dərmanları indi bir yerdə gizlədərik. Yəqin ki, burda seyf olmamış olmaz.

– Bu, yaxşıdır. – Blor dedi. – Ancaq açar kimdə qalacaq? Sizdə?

Hakim ona cavab vermədi. Onlar seyfi axtarıb tapdılar, bütün dərmanları ora qoyub açarladılar. Daha sonra yenə də hakimin təklifiylə o qədər də böyük olmayan seyfi gətirib şkafa yerləşdirdilər, öz növbəsində onun da qapısını açarladılar.

Seyfin açarı hakim Lombarda, şkafın açarı isə Blora -verildi.

– Bizim aramızda siz ən güclülərsiniz, – o dedi. – Deməli, açarı bir-birinizdən almağınız o qədər də asan olmayacaq. Şkafın və seyfin qapısını sındırmaq isə o qədər də asan olmayacaq, səsə hamı yığılacaq.

Bir qədər susan hakim yenə dilləndi:

– İndi isə çox vacib bir məsələni də həll eləməliyik. Mister Lombardın tapançası hara yoxa çıxıb?



https://www.facebook.com/groups/Kitabsever/

– Məncə, bu suala ən düzgün cavabı tapança sahibi özü verər. – Blor dedi.

Filipp Lombardın burnu qızardı.

– Siz axmaqsınız, Blor, axı mən dedim ki, tapança -oğurlanıb.

– Siz öz silahınızı son dəfə nə vaxt görmüsünüz? – Hakim soruşdu.

– Dünən gecə. Yatanda dolaba qoydum ki, əlimin altında olsun.

Hakim başını tərpətdi.

– Onda tapançanı səhər qarışıqlıqdan istifadə edib oğurlayıblar. Bu, ya biz Rocersi axtaranda, ya da onun meyitiylə məşğul olanda olub.

Tapança hardasa evdə gizlədilib. – Vera əminliklə dedi. – Biz onu axtarıb tapmalıyıq.

Hakim etiraz əlaməti olaraq başını tərpətdi.

– Ağlım kəsmir ki, tapança hardasa göz qabağında olsun. Qatil, yəqin ki, onu çox yaxşı gizlədib. Düzünü deyim ki, mən tapançanı tapacağımıza əmin deyiləm, bütün evi alt-üst eləsək də.

– Düzdür, tapançanın harda olduğunu bilmirəm, – Blor əminliklə dedi, – lakin şprisin harda gizlədildiyini tapmışam. Ardımca gəlin.

O, qapını açıb evin qarşısındakı meydançaya çıxdı. Qonaq otağının pəncərəsinə yaxınlaşıb pəncərənin altındakı otları araladı.

Şpris də, beşinci zənci balası fiqurunun qırıntıları da orada idi.

– Başqa heç yerdə ola bilməzdi. – Blor təntənəli şəkildə dedi. – Miss Brenti öldürəndən sonra qatil sakitcə pəncərəni açıb şprislə bərabər heykəlciyi də bura atıb.

Şprisin üstündə barmaq izləri tapılmadı. Yəqin yaxşıca silib təmizləmişdilər.

Vera qətiyyətlə dedi:

– İndi isə tapançayla məşğul olmaq lazımdır.



https://www.facebook.com/groups/Kitabsever/

– Yaxşı, siz deyən olsun. – Hakim razılaşdı. – Amma bir şərtim var, birlikdə olmalıyıq. Başa düşün ki, tək dolaşan adam manyaka kömək eləmiş olur.

Onlar təzədən bütün evi ələk-vələk elədilər, anbardan tutmuş çardağa qədər bütün künc-bucaqları qarış-qarış yoxladılar.

Revolver tapılmadı.

# ON ÜÇÜNCÜ FƏSİL

## 1

«Bizlərdən biri... Bizlərdən biri... Bizlərdən biri... – fasilə vermədən onların hər birinin beynində yalnız bu fikir dolaşırdı. Beş nəfər idilər və hamısı qorxmuşdu. Hamısı əsəb sarsıntısı halına yaxın vəziyyətdə idilər, bir-birini gizlincə güdürdülər, lakin bunu hiss olunmadan eləyirdilər. Nəzarət də yaddan çıxmışdı, artıq əvvəlki kimi söhbət də eləmirdilər. Yalnız qısa fikirlər, replikalar, təkliflər... Beş düşmən – zəncirlə bir-birinə bağlanmış katorqa məhbusları kimi özünü qoruma instinktinə bağlanmış beş nəfər...

Saatlar keçdikcə elə bil insan sifətini də itirməyə başlayırdılar. İbtidai insanlara xas heyvani hisslər yaşayırdılar. İri dərin kreslonun içində büzüşüb oturan hakim Uorqreyv öz qınına çəkilən qoca müdrik tısbağalara oxşayırdı. Yalnız gözlərində həyat əlamətləri görünürdü.

Müfəttiş Blor bir az da kobudlaşmış, ağırlaşmışdı. Yanını basa-basa yeriyəndə qoca ayıya bənzəyirdi. Gözləri qan çəkmişdi, kor-koranə nifrət ifadəsi sanki sifətinə yapışıb qalmışdı. Filipp Lombardın isə əksinə, reaksiyaları daha da sürətlənmişdi. Kiçik bir taqqıltı eşidən kimi dik atılırdı. Yerişi daha yüngül, cəld, hərəkətləri daha çevik olmuşdu. O birilərlə danışanda da sanki qeyri-ixtiyari dişlərini qıcıyırdı.

era sakitləşmişdi. Deməк olar ki, kreslodan qalxmır, bütün günü qarşısındakı hansısa məchul nöqtəyə baxırdı. Şüşəyə çırpılaraq yerə düşmüş və yanı üstə yıxılıb qalmış quşcuğazı xatırladırdı. Oturduğu yerdə uzun müddət hərəkətsiz qalırdı, sanki düşünürdü ki, əgər yerindən tərpənməsə, qatil onun mövcudluğunu da unudacaq.

Armstronqun da vəziyyəti yaxşı deyildi. Əsəbdən tez-tez gözlərini qırpırdı. Əlləri də əsməyə başlamışdı. Siqareti siqaretə calayırdı, birini çəkib qurtarmamış o birini yandırırdı. Deyəsən, məcburi işsizlik ona başqalarından daha çox əziyyət verirdi. Bəzən də özündən çıxıb alovlu nitqlər söyləyirdi.

– Yox, belə olmaz, biz nəsə eləməliyik. Ola bilməz ki, bir çıxış yolu olmasın. Yox, çıxış yolu mütləq var, sadəcə onu axtarıb tapmaq lazımdır, nə yolla olursa-olsun, sahillə əlaqə yaratmalıyıq. Onlara düşdüyümüz vəziyyəti çatdırmalıyıq. Bəlkə sahildə bir neçə yerdə ocaq qalayaq? Ola bilməz ki, sahildəkilər görməsinlər...

– Belə havada? – Blor onun sözünü kəsdi. – Belə havada bir adam evdən bayıra çıxar ki, bizim qaladığımız ocağı da görsün?


https://www.facebook.com/groups/Kitabsever/

Hava isə deyəsən, düzəlmək istəmirdi. Yağış elə yağırdı ki, tut ucundan, çıx göyə. Külək pəncərələri möhkəm silkələyirdi. Bəzən damın örtüyü elə cırıldayırdı ki, elə bil bu saat külək bütün evi qaldırıb dənizə atacaq.

Onların ortaq məxrəcə gəldikləri yeganə məsələ özlərini bundan sonra necə aparmaq qaydaları idi. Həmişə qonaq otağında otururlar, bayıra kimsə təkliklə çıxır, o birilər otaqda qalır və onun qayıtmağını gözləyir.

Bir axşam Lombard dedi:

– Sadəcə səbir eləmək lazımdır. Tufan yatandan sonra ocaq da qalamaq olar, başqa yolla da sahilə işarə vermək olar. Hətta sal düzəldib sahilə üzmək də mümkündür. Sadəcə tufanın sakitləşməyini gözləmək lazımdır.

Armstronq qəfildən qəhqəhə çəkdi.

– Səbir eləmək? Siz nə danışırsınız? Bizim səbir eləməyə vaxtımız yoxdur. Burda bizim hamımızın axırına çıxacaqlar.

Hakim Uorqreyv yerində qurcalandı.

– Əgər diqqətli olsaq, ehtiyatı əldən verməsək, heç nə olmaz.

Naharı da birlikdə hazırladılar. Beşi də anbara düşüb konservlərdən yığdılar, mətbəxə gəlib nimçələrə düzdülər, elə mətbəxdəcə yeyib qonaq otağına qayıtdılar. Sonra yenə də sakit oturub bir-birinə baxmağa başladılar...

Xəstə, səfeh, bədbin fikirlər onların beynindən çıxmırdı.

...Bu Armstronqdur... O bayaqdan oğrun-oğrun mənə baxır... Onun ağlı çaşıb. Bəlkə heç əslində həkim deyil? Şübhəsiz ki, həkim deyil, elədir, ruhi xəstəxanadan qaçmış dəlidir. -Özünü yalandan həkim kimi qələmə verir. Hə, mən səhv eləmirəm... görəsən, o birilərə deyim? Bəlkə qışqırım? Yox, lazım deyil, əgər desəm Armstronq duyuq düşər. Saat neçədir? Dördə on beş dəqiqə qalıb... İlahi, bir azdan mənim də başıma hava gələcək. Hə, Armstronqdur, gizlincə mənə baxır. Yəqin növbəti qurbanını seçir...



https://www.facebook.com/groups/Kitabsever/

...Yox, mənə əlləri çatmayacaq – əlləri çox qısadır. Mən öz qeydimə qala bilərəm... Ağır vəziyyətə düşməyim ilk dəfə deyil ki... amma bu zəhrimar revolver hara yox oldu axı... kim götürdü? Heç kimin otağında yoxdur, hamısını yoxladıq. Bəlkə evdən kənarda gizlədiblər, bəlkə çimərlikdə, ya qayalıqda...

...Onların hamısının başına hava gəlir... Başları xarab olur. Hamımız ölümdən qorxuruq... Mən də qorxuram. Lakin bu mənə ölməyə mane ola bilməz... «Tabut artıq hazırdır», – hardasa bu ifadəni oxumuşdum. Qıza göz qoymaq lazımdır. Mən onu diqqətdən qaçırtmamalıyam. Belə situasiyalarda adətən günahkar hamının ən az şübhələndiyi adam olur. Burda da üstünə ən az şübhə düşən adam o qızdır...

Dördə on beş dəqiqə qalıb... Cəmisi on beş dəqiqə qalıb... Bəlkə saat dayanıb?.. Mən heç nə anlamıram. Heç nə... Ola bilməz, heç cür ola bilməz... Buna rəğmən olub. Hər şey reallıqdır... Bəlkə yuxudur? Axı nəyə görə oyanmırıq? Oyanın, Məhşər günü gəlib çatıb, hamı öz günahlarına görə cavab verməlidir... Heç nə fikirləşə bilmirəm, fikirlərim qarışır... Başım az qalır partlasın... Hə, başım ağrıyır, dincəlmək lazımdır... Yox, olmaz, hamıya göz qoymaq lazımdır, mütləq... Saat neçədir, görəsən? İlahi, belə də şey olar? Dördə hələ cəmisi on beş dəqiqə qalıb, cəmisi on beş dəqiqə...

Sakit olmaq lazımdır, başımı itirsəm pis olacaq. Sakitlik, yalnız sakitlik... Hər şey əvvəlcədən düşünülüb, hər şey yaxşı olacaq. Amma gərək heç kim şübhələnməsin. Görəsən, bu dəfə hansı qabağa düşəcək? Görəsən, hansını seçim? Bəlkə... Hə, yəqin ki...

Saat beş oldu. Divar saatının səsi eşidilən kimi hamı ayağa qalxdı.

– Kim çay istəyir? – Vera soruşdu.

Sükut çökdü, oturanlar bir-birinə baxdılar. Blor dilləndi.

– Mən imtina eləmərəm.

Vera mətbəxə tərəf baxdı.

– Onda mən gedim çay dəmləyim. Sizsə burda gözləyə bilərsiniz.

– Mənim əzizim. – Uorqreyv onu nəzakətlə saxladı.



https://www.facebook.com/groups/Kitabsever/

– Mənсə, dostlarım da etiraz eləməz ki, biz birlikdə mətbəxə gedib sizin çay dəmləməyinizə baxaq.

Vera qaşlarını çatdı, amma əsəbiləşdiyini hiss -elətdirmədi.

– Əlbəttə. – O, dişlərini sıxıb yavaşca dedi. – Mən bunu gözləyirdim.

Hamısı qalxıb mətbəxə keçdi. Vera çay hazırladı. Lakin çayı yalnız Vera ilə Blor içdi, o birilər viskiyə üstünlük -verdilər...

Anbardakı taxta yeşiklərin birindən viski tapdılar, mətbəxə gətirdilər, ağzını açandan sonra hakim Uorqreyv bir müddət tərəddüd elədi, amma nə fikirləşdisə əlini yellətdi.

– Nə olar, olar, – bunu deyib viskini qədəhə boşaldaraq dodaqlarına yaxınlaşdırdı.

Bir azdan qonaq otağına döndülər. Yay ayları olsa da qonaq otağı işıqlı deyildi. Qara buludlar göy üzünü tutmuşdu. Filipp Lombard elektrik lampasını yandırmağa çalışdı, amma bir şey çıxmadı.

– Təəccüblü heç nə yoxdur. – Lombard dedi. – Rocers yoxdur, generatoru heç kim işə salmayıb. – O, qətiyyətsiz səslə dedi. – Amma mənсə, burda çətin bir şey yoxdur, özümüz də öhdəsindən gələ bilərdik. Elə deyilmi?

Hakim Uorqreyv elə bil nəyisə xatırladı.

– Mən anbarda bir qutu şam görmüşdüm. Mənсə, şam daha məsləhətlidir.

Lombard otaqdan çıxdı, o birilər yenə də bir-birinə baxmağa başladılar. Bir azdan əlində bir qutu şam və bir neçə kiçik nimçə tutan Lombard geri qayıtdı.

O, hər nimçəyə bir şam qoyub alışqanla yandırdı. Otaq bir az işıqlandı.

## 2

Şamların otağa saldığı kölgələrin görünüşündən Veranın halı pisləşdi. Qərara gəldi ki, öz otağına qalxsın, soyuq suyla əl-üzünü yusun, bəlkə başının ağrısı keçdi.

Otaqdakılardan üzr istəyib ayağa qalxdı, qapıya tərəf gedəndə birdən işıqsız qaldıqlarını xatırladı, geri qayıtdı, dolabdan bir şam götürüb yandırdı, nimçəyə yapışdırdı və otaqdan çıxıb qapını arxasınca örtdü.

O birilər qonaq otağında qaldılar.

Vera pilləkənlə yuxarı qalxıb öz yataq otağının qapısına yaxınlaşdı, açarla qapını açıb içəri keçdi, elə bu vaxt elə bil burnuna dəniz qoxusu gəldi. Yerində donub qaldı... Hə, dəniz qoxusuydu. Əlbəttə, adada dəniz qoxusunun gəlməyində qeyri-adi heç nə yox idi, lakin bu qoxu burdakı dənizin yox, məhz Sent-Tredennikdəki çimərliyin qoxusuydu.

Hə, düzdür, o, səhv eləyə bilməzdi. Həmin gün dənizdən məhz belə qoxu gəlirdi, günəşin qurutduğu qayalıq yosunlarının qoxusunu heç nəylə səhv salmaq olmazdı.

«Qayalığa tərəf üzmək olar, miss Kleytorn? Axı niyə icazə vermirsiniz, mən yaxşı üzürəm axı, qorxmayın, heç nə olmaz...», – balaca Sirilin səsi onun qulaqlarında -səslənirdi.

Axmaq uşaq. Sən bir işə bax, əgər bu uşaq olmasaydı, Huqo indi varlı olardı və biz evlənərdik. Axx, bu uşaq -olmasaydı...

Huqo... Yəqin ki, indi hardasa çox yaxındadır, çox. Bəlkə elə otağın dərinliklərində gizlənib onu gözləyir...

Vera otağın içinə keçən kimi pəncərədən yel vurdu, şamın alovu titrədi. Vera pəncərənin aralı qalıb-qalmadığını yoxlamaq üçün yaxınlaşanda yel bir də vurdu, şam söndü.

Otağa zülmət çökdü. Veranı dəhşət bürüdü.

«Axmaqlıq eləmə, axı nədən qorxursan? – O öz-özünü sakitləşdirməyə başladı. – Kişilərin hamısı bu saat aşağıdadır, bir-birinə göz qoyurlar. Otaqda heç kim yoxdur, qorxmaq lazım deyil. Burda qorxmalı heç nə yoxdur, sakit olmaq lazımdır, sakit...».

Bəs bu qoxu? Sent-Tredennikdəki qumlu çimərliyin yosun qoxusu...


https://www.facebook.com/groups/Kitabsever/

Əlbəttə ki otaqda kimsə var. Qulağına nəsə tıqqıltı səsi gəlmişdi. Şübhə yoxdur, kimsə yuxarı qalxıb.

O, qulaqlarını şəklədi. Birdən kiminsə yapışqan kimi nəm əli – dəniz qoxusu verən bir əl onun boğazından -yapışdı...

## 3



https://www.facebook.com/groups/Kitabsever/

Vera dəhşət içində çığırdı. Özündən də asılı olmayaraq elə möhkəm qışqırdı ki, otağın şüşələri də silkələndi.

Qonaq otağında oturan kişilər onun səsindən diksinib qapıya tərəf atıldılar, qaranlıqda kiminsə ayağı stula dəydi, stul aşdı, şamlardan biri yerə düşdü, nimçə sındı, hamı pilləkənə tərəf şığıyıb yuxarı qalxdı. Vahimə hissi hamıya güc gəlmişdi. Özlərini Veranın otağına çatdıran əli şamlı kişilər onu yerdə uzanmış vəziyyətdə gördülər.

Vera möhkəm qorxsa da huşunu itirməmişdi.

– Nə oldu ona?

– Niyə çığırırdı?

– İlahi, sizə nə olub axı?

Vera diksinib özünə gəldi. Kişilər onun üstünə əyilib şamı yaxına gətirdilər, qalxızıb döşəmədə oturtdular. Huşu başında olsa da qız elə bil yarıyuxulu vəziyyətdəydi. Sanki yuxudan heç cür oyana bilmirdi.

Birdən kimsə qışqırdı: «Bura baxın, bu nədir belə?»

Bu səsdən Vera tam özünə gəldi. Diqqətlə başı üstündəki kişilərə baxdı. Kişilər harasa yuxarı zillənmişdilər.

Vera da diqqətini cəmləyib tavana baxdı. Taxçaların arasında bir topa dəniz yosunu quyruqları dolaşmış ilanlar kimi aşağı sallanmışdılar.

Şamın zəif işığında yosunlar çox qəribə görünürdülər. Vera başa düşdü ki, dəniz iyi verən də, ona toxunan da məhz bu yosun topası olub. Qıza isə elə gəlmişdi ki, dənizdə batan qurbanı geri qayıdaraq onu cəzalandırmaq, öldürmək istəyir.

Qəfildən Vera dəli kimi qəhqəhə çəkdi.

– Yosunlar... Sadəcə yosunlar... İndi bildim o iy hardan gəlirdi... – bunu deyən Veranın ürəyi bulandı, yenə huşunu itirdi. Yenə də kişilər onu otuzdurub özünə gətirməyə çalışdılar, sifətini, əllərini ovuşdurdular.



https://www.facebook.com/groups/Kitabsever/

Vera ayılanda elə bildi ki, aradan çox böyük zaman keçib. Kimsə ona dolu stəkan uzatmışdı. Stəkandan konyak iyi gəlirdi. Vera konyakı dilinə vurmaq istəyəndə elə bil hansısa həyəcan siqnalı onu saxladı. O, belini dikəldib əliylə stəkanı kənara itələdi.

– Haradan götürmüsünüz bunu? – o, sönük səslə -soruşdu.

Stəkanı ona uzadan Blor bir müddət gözlərini döydü, nəhayət, qızın sualını anladı.

– Narahat olmayın, mətbəxdən götürmüşəm.

– Yox, içməyəcəm. – Vera qətiyyətlə dedi.

Əvvəl hamı çaşıb qaldı, amma qəfildən Filipp Lombardın qəhqəhəsi eşidildi.

– Əhsən, Vera, əhsən. – O, qızı təriflədi. – Mən görürəm sağlam təfəkkür sizi hələ də tərk etməyib. Hərçənd ki, bir dəqiqə əvvəl heç nədən möhkəm qorxmuşdunuz. Bu saat mən gedib ağzı açılmamış şüşələrdən birini gətirərəm, özünüz açıb içərsiniz.

Lombard bunu deyib otaqdan çıxdı.

– Çox sağ olun, heç nə lazım deyil. – Veranın səsi qətiyyətsiz çıxdı. – Özümü yaxşı hiss edirəm. Su içsəm beynim açılar.

Doktor Armstronq ona kömək elədi, Vera birtəhər ayağa qalxıb doktorun qolundan tutaraq vanna otağına keçdi, kranı açıb stəkanı soyuq suyla dolduraraq başına çəkdi.

– Nahaq konyakdan imtina elədiniz, – Blor incik səslə dedi.

– Bilmək olmaz. – Doktor Armstronq mızıldandı.

– Bəlkə də düz eləyib.

– Siz nəyə işarə vurursunuz? – Blor özündən çıxdı.

– Mən konyaka heç nə qatmamışam.

– Mən demirəm ki, siz eləyə bilərdiniz. Ya siz, ya başqası çox rahat şəkildə şüşəyə zəhər tökə bilərdi. – Doktor dedi.


https://www.facebook.com/groups/Kitabsever/

Elə bu vaxt Filipp Lombard otağa daxil oldu. Onun bir əlində ağzı açılmamış konyak şüşəsi, o birində isə qapaqaçan vardı.

O, şüşəni Veraya uzadıb dedi:

– Götürün, əzizim, rahat içə bilərsiniz. Şüşəyə heç kim toxunmayıb.

Veranın hərəkət eləmədiyini görən Lombard şüşənin qapağını açıb başını yellətdi.

– Yaxşı ki evdə spirtli içki ehtiyatı böyükdür. Bu, mister Onim tərəfindən böyük mərhəmət nümunəsidir.

Vera üşüyürdü. Armstronq stəkanı götürdü, Filipp isə ora konyak süzüb Veraya verdi.

– Götürün, miss Kleytorn, – bunu doktor Armstronq dedi. – Sarsıntıdan sonra bunun xeyri var.

Vera bir qurtum konyak içdi və bir neçə saniyə sonra yanaqlarına yenə qızartı çökdü. Hiss olundu ki, bir az özünə gəlib.

Lombard güldü.

– Budur, bizim qarşısını ala bildiyimiz bir qətl.

– Deyirsiniz yəni məni öldürmək istəyirdilər? – Vera tərəddüdlə soruşdu.

– Əlbəttə. Yəqin fikirləşiblər ki, qorxudan ürəyiniz partlayacaq. – Lombard doktor Armstronqa çöndü. – Ola bilməzdi məgər, doktor?

Armstronq cavabdan yayındı.

– Dəqiq bir söz deyə bilmərəm. O baxır insanın daxili gərginliyinə, dözümlülüyünə. Möhkəm iradəli gənc oğlan, yəqin ki, qorxudan ölməzdi, amma... – Doktor Armstronq nə düşündüsə, birinci dəfə Blorun qədəhdə gətirdiyi konyakı əlinə götürdü, barmağını konyaka batırıb ehtiyatla dilinə vurdu.

– Adi konyaka oxşayır, – tərəddüdlə dedi.

Qəzəbini cilovlaya bilməyən Blor yumruqlarını düyünləyib onun üstünə gəldi.



https://www.facebook.com/groups/Kitabsever/

– Hünəriniz varsa, məni adam zəhərləməkdə təqsirləndirin. Mən sizin boynunuzu sındıraram.

İçdiyi konyakdan özünə gələn Vera birdən kişilərə fikir verdi.

– Bəs hakim hanı?

Kişilər bir-birinə baxdılar. Hakim Uorqreyv doğrudan da onların arasında yox idi. Lakin buna yalnız indi fikir vermişdilər.

– Harda ola bilər ki? Axı bizimlə birlikdə yuxarı qalxmışdı? – Lombard dedi.

– Mənə də elə gəldi. – Blor təsdiq elədi. – Düzdür, doktor? Axı siz mənim ardımca gəlirdiniz?

– Deyəsən, o, axırıncı qalxırdı. – Doktor Armstronq çiyinlərini çəkdi. – Yaş öz sözünü deyir. Mən hiss elədim ki, arxamızca təngnəfəs halda gəlirdi.

Kişilər yenə baxışdılar.

– Heç nə başa düşə bilmirəm. – Lombard dedi.

– Gedək axtaraq onu. – Blor təklif elədi və qapıya tərəf getdi.

Onlar pilləkənlə aşağı düşəndə doktor Armstronq dedi:

– Yəqin yuxarı qalxmağa halı olmayıb, qonaq otağına qayıdıb.

Onlar hollu keçəndə bir neçə dəfə hakimi çağırdılar.

– Uorqreyv, hardasınız, Uorqreyv...

Cavab gəlmirdi. Yalnız küləyin səsi eşidilirdi. Qonaq otağına çatanda doktor Armstronq yerində donub qaldı. Blorla Lombard onun arxasından heç nə görmürdülər.

Nəhayət, hamısı qonaq otağına daxil oldular... Kiminsə qışqırığı eşidildi.

Hakim Uorqreyv həmişəki yerində, otağın yuxarı başındakı iri kresloya çökmüşdü. Kreslonun hər iki -tərəfindəki stolların üstündə şamlar yanırdı. Amma otaqdakıları ən çox heyrətləndirən Uorqreyvin hakim mantiyasında və parikdə olmasıydı.



https://www.facebook.com/groups/Kitabsever/

Doktor Armstronq işarəylə onları saxlayıb özü hakimə tərəf getdi, başındakı pariki götürdü. Onun alnında xırda dəlik görünürdü. Dəlikdən qan axırdı...

Doktor hakimin sallanan əlini yuxarı qaldırıb nəbzini yoxladı. Nəhayət, üzünü o birilərə çevirib sönük, ölü bir səslə elan elədi:

– Hakimi güllələyiblər.

– Mənim revolverimlə? – Blor dedi.

Doktor Armstronq eyni sönük səslə davam elədi.

– Güllə alnından dəyib. Hakim yerindəcə canını tapşırıb.

Vera əyilib parikə baxdı.

– Budur, miss Brentin itirdiyi boz yun sap.

Və qırmızı ipək pərdə. – Vannadan itmişdi, yadınızdadır? – Blor əlavə elədi.

– Deməli, buna görə oğurlamışdılar. – Vera pıçıldadı.

Qəfildən Lombardın qəhqəhəsi eşidildi. – Amma bu qəhqəhə əvvəlkilərə nisbətən nəsə süni çıxdı.

Beş zənci balası məhkəmə qurdu,

Biri cəzalandı və qaldı dördü.

Əlləri qanlı hakim Uorqreyv də cəzasını aldı. Ömrü sona çatdı. Bir daha hakim mantiyasını çiyninə salmayacaq. Bir daha məhkəmələrdə sədrlik etməyəcək. Bir daha günahsız adamları dar ağacına göndərməyəcək. Biçarə Sitton burda olsaydı, ürəkdən gülərdi. Yəqin ki, gülməkdən qarnı cırılardı.

Lombardın qəhqəhəsi hamını çaşdırmışdı. Heç kim onun belə isteriyaya düşəcəyini gözləmirdi.

– Axı elə bu gün səhər siz mənə deyirdiniz ki, qatil məhz Uorqreyvdir. – Vera Lombarda dedi.

Lombard bu sözdən elə bil özünə gəldi, qaşlarını çatdı.



https://www.facebook.com/groups/Kitabsever/

– Siz haqlısınız. Bizlərdən biri də bəraət aldı... Ölümündən sonra...

## ON DÖRDÜNCÜ FƏSİL

### 1

Onlar hakimi öz yataq otağına keçirib çarpayıya uzatdılar. Sonra pilləkənlə düşüb bir müddət hollda dayanıb şübhəylə bir-birinə baxdılar.

– Neynəyək? – Blor qaşqabaqla soruşdu.

– Əvvəlcə toqqamızın altını bərkitmək lazımdır. – Lombard dedi. – Gücümüz olmasa bu vəziyyətdən çıxa bilmərik.

Onlar yenə də birlikdə mətbəxə keçdilər, dil konservlərindən birini açıb yedilər, iştahsız, filansız. Sadəcə aclıqdan əziyyət çəkməmək üçün.

– Ömrümdə bir də dil yeməyəcəm. Lap iyrəndim ondan. – Vera dedi.

Yeməyi yesələr də heç kim yerindən tərpənmədi.

– Cəmi dördümüz qaldıq. – Blor dedi. – İndi kimin -növbəsidir?

Doktor Armstronq təəccüblə ona baxdı.

– Yox, əgər diqqətli olsaq... – doktor bunu sanki qeyri-iradi dedi və o saat da susdu.

Lombard başını yellətdi.

– Hakim də elə deyirdi. Amma indi çarpayıda uzanıb, alnında da güllə yeri.

– Maraqlıdır, görəsən, bu necə baş verib? – Armstronq bunu deyib oğrun-oğrun Lombarda baxdı.

Lombard, deyəsən, bunu hiss elədi.

– Yaman dəqiq fikirləşiblər. Əvvəlcə qatil yosunları daşıyıb miss Kleytornun otağına gətirib. Sonrası isə hamıya məlumdur. Qışqırıqdan biz


https://www.facebook.com/groups/Kitabsever/

elə bildik ki, Veraya nəsə olub, özümüzü yuxarı atdıq, qatil isə bu qarışıqlıqdan istifadə edib qocanın axırına çıxıb.

– Bəs nəyə görə bizim heç birimiz güllə səsi eşitməmişik? – Blor soruşdu.

Lombard başını tərpətdi.

– Siz nə danışırsınız? Külək o cür vıyıldayırdı, miss Kleytorn da çığırırdı. Biz də qışqır-bağırla onun köməyinə qaçırdıq. Belə hay-küydə güllə səsini eşitməməyimizdə qeyri-adi heç nə yoxdur. – O nəsə fikirləşib əlavə elədi.

– Yox, biz bir daha bu tələyə düşən deyilik. Gələn dəfə gərək daha maraqlı şey fikirləşsin.

– Onun üçün təzə nəsə fikirləşmək o qədər də çətin deyil. – Blor mənalı səslə deyib Lombarda baxdı.

– Biz dörd nəfərik və bilmirik ki... – doktor Armstronq sözə təzə başlamışdı ki, Blor onun sözünü kəsdi.

– Mən bilirəm, – o dedi.

– Mən də tamamilə əminəm ki... – Vera əlavə elədi.

– Mən də zərrə qədər şübhə eləmirəm... – Lombard müdaxilə etdi. – Nəhayət ki, başa düşdüm.

Onların baxışları kəsişdi.

Vera ayağa qalxdı. Onun ayaqları əsirdi.

– Mən özümü pis hiss edirəm. Gedib yatsam yaxşıdır. – o dedi. – Daha dözə bilmirəm, bacarmıram.

– Mən də yatmaq istəyirəm. – Lombard dedi. – Oturub bir-birinin gözünün içinə baxmaq mənasızdır.

– Mən də etiraz eləmirəm. – Blor fikrini bildirdi.

– Yəqin ki, bu saat ən yaxşı qərar budur, – Armstronq da etiraz eləmədi. – Hərçənd inanmıram ki, kimsə gözünü yuma bilsin.

Dördü də pilləkənə tərəf getdi.



https://www.facebook.com/groups/Kitabsever/

Qapıya çatanda Blor ayaq saxlayıb sanki öz-özünə dedi:

– Görəsən, indi revolver hardadır?

## 2

Onlar ikinci mərtəbəyə qalxıb bir neçə saniyə hollda dayandılar, sonra hərəsi öz qapısına yaxınlaşdı və sanki hansısa siqnal əsasında eyni vaxtda qapını açıb otaqlarına girdilər, qapıları da içəridən möhkəm bağladılar. Amma deyəsən, bu da kifayət eləmədi, otaqların içindən ora-bura çəkilən mebelin səsi eşidildi. Deyəsən, hər biri öz qapısının qarşısında barrikada qururdu.



https://www.facebook.com/groups/Kitabsever/

# 3

Stolun ayağını qapının tutacağına keçirən Lombard rahat nəfəs aldı və dolaba sarı getdi. Şamı götürüb güzgüyə yaxınlaşdı, şam işığında bir müddət öz sifətini gözdən keçirtdi. Sonra öz-özünə mızıldandı: «Bu hadisələr, deyəsən, mənim də əsəblərimi pozur».

Onun üzündə vəhşi bir təbəssüm parladı. Tez soyunub çarpayıya yaxınlaşdı, saatını dolabın üstünə qoydu. Sonra siyirməni çəkdi və o saat da heyrətdən gözləri kəlləsinə çıxdı.

Revolver siyirmədəydi.


https://www.facebook.com/groups/Kitabsever/

# 4

Vera Kleytorn yatağında uzanmışdı. Şam çarpayının yuxarı tərəfinə yaxın qoyulmuş dolabın üstündəydi. O, qaranlıqdan qorxurdu.

“Səhərə qədər mənə heç nə olmayacaq, – o, fasilə vermədən zikr edirmiş kimi təkrarlayırdı. – Dünən gecə heç nə olmadı, bu gecə də olmayacaq, heç nə ola bilməz, qapı möhkəm bağlıdır, heç kim içəri girə bilməz, mənə heç kim yaxın gələ bilməz...”.

Birdən elə bil beyni açıldı: «Axı mən burdan çıxmaya da bilərəm. Hə, otaqda oturum, bayıra çıxmayım. Cəhənnəm olsun yemək, birtəhər dözərəm, amma burdan çıxmaram. Kənardan kömək gələnəcən burda oturaram. Bir sutka, iki sutka. Nə qədər lazımdırsa, gözləyərəm».

Qərar yaxşı qərar idi, lakin Vera özü də başa düşürdü ki, günlərlə bu otaqda, dörd divar arasında tək-tənha, özüylə, öz günahıyla üzbəüz oturmaq o qədər də asan olmayacaq. Həm də şam yoxdursa, deməli, günün yarısını qaranlıqda oturmalı olacaq.

Onun fikirləri yenə də o çimərliyə və Huqonun yanına qayıtdı. Balaca Sirillə son söhbətini xatırladı: «Miss Kleytorn, axı niyə icazə vermirsiniz ki, o qayaların yanına üzüm, axı niyə qoymursunuz? Gəlin mərc gələk ki, üzüb çatacam...».

Uşağın ciyiltili səsi axır günlər yaman bezdirirdi onu, amma dözürdü.



https://www.facebook.com/groups/Kitabsever/

## 4

Vera Kleytorn yatağında uzanmışdı. Şam çarpayının yuxarı tərəfinə yaxın qoyulmuş dolabın üstündəydi. O, qaranlıqdan qorxurdu.

“Səhərə qədər mənə heç nə olmayacaq, – o, fasilə vermədən zikr edirmiş kimi təkrarlayırdı. – Dünən gecə heç nə olmadı, bu gecə də olmayacaq, heç nə ola bilməz, qapı möhkəm bağlıdır, heç kim içəri girə bilməz, mənə heç kim yaxın gələ bilməz...”.

Birdən elə bil beyni açıldı: «Axı mən burdan çıxmaya da bilərəm. Hə, otaqda oturum, bayıra çıxmayım. Cəhənnəm olsun yemək, birtəhər dözərəm, amma burdan çıxmaram. Kənardan kömək gələnəcən burda oturaram. Bir sutka, iki sutka. Nə qədər lazımdırsa, gözləyərəm».

Qərar yaxşı qərar idi, lakin Vera özü də başa düşürdü ki, günlərlə bu otaqda, dörd divar arasında tək-tənha, özüylə, öz günahıyla üzbəüz oturmaq o qədər də asan olmayacaq. Həm də şam yoxdursa, deməli, günün yarısını qaranlıqda oturmalı olacaq.

Onun fikirləri yenə də o çimərliyə və Huqonun yanına qayıtdı. Balaca Sirillə son söhbətini xatırladı: «Miss Kleytorn, axı niyə icazə vermirsiniz ki, o qayaların yanına üzüm, axı niyə qoymursunuz? Gəlin mərc gələk ki, üzüb çatacam...».

Uşağın ciyiltili səsi axır günlər yaman bezdirirdi onu, amma dözürdü.

Lakin son söhbətlərində Veranın səsi gözlənilmədən mülayimləşmişdi:

«Mən inanıram ki, sən həqiqətən də qayalığa qədər üzə bilərsən. Buna şübhəm yoxdur».

«Bəs onda niyə icazə vermirsiniz, miss Kleytorn?»

«Bilirsən, Siril, sənin anan ora üzməyinə icazə verməz. Gəl belə danışaq, sabah mən onu söhbətə tutaram, sən də bundan istifadə edib qayalığa üzərsən, o bundan xəbər tutanda sən artıq qayalığın üstünə çıxıb oradan anana əl eləyərsən. Yəqin ki, o da yaman sevinəcək».

«Çox sağ olun, miss Kleytorn, təşəkkür edirəm...».

O, uşağa vədə verdi. Sabah Huqo səfərə gedir. O qayıdana qədər isə hər şey bitəcək.

Yox, birdən alınmadı, bəlkə Siril həqiqətən də ora üzüb çatdı. Sonra geri qayıdandan sonra dedi ki, miss Kleytorn özü qayalığa üzməyə icazə verib?

Nə olsun ki? Riskə getmək lazımdır. Əgər uşaq salamat qayıdıb gəlsə, Vera onun üzünə durub hər şeyi inkar edə bilər: «Siz niyə yalan danışırsınız, Siril, mən sizə nə vaxt icazə verdim?»

Yəqin ki, uşağa yox, ona inanarlar. Uşağın gopa basmağını hamı bilir. Yalnız Siril özü biləcək ki, dayəsi yalan danışdı. Nə olsun? Qoy bilsin... Amma yox, çalışmaq lazımdır ki, hər şey qaydasında olsun.

Bəlkə başqa cür eləsin. Uşaq uzaqlaşan kimi o da suya girib onun ardınca üzsün və təbii ki, ona çata bilməsin. Heç kimin də ağlına gəlməyəcək ki, Vera qəsdən ona «çata bilmədi».

Bəs Huqo? O hər şeyi anladımı? Çox qəribə nəzərlərlə baxırdı Veraya. Baxan nəzərlərdə həm inam, həm inamsızlıq, həm qorxu, həm də etibar vardı. Bəlkə hər şeyi anlamışdı, məhz buna görə də istintaqdan dərhal sonra ölkəni tərk edib Amerikaya getdi.

Vera ona böyük bir məktub yazdı, amma cavab almadı.

«Huqo, Huqo...».

Vera yatağının içində narahatlıqla qurcalanırdı.

«Yox, yox, Huqo barədə düşünmək lazım deyil, yox, lazım deyil...Bu, çox böyük iztirab gətirir. Unutmaq, unutmaq, mütləq unutmaq lazımdır. Huqo yoxdur, belə bir adam yoxdur. Bəs axı nəyə görə məhz bu axşam ona elə gəlir ki, Huqo bu saat hardasa çox yaxındadır. Niyə məhz indi?»

Qəfildən Vera başını qaldıranda tavandan böyük bir dəmir qırmağın asıldığını gördü. Bayaq necə olub fikir -verməyib?

Yosunlar da bayaq ordan sallanmışdı.

Diksindi. Nəm yosunların onun boynuna toxunduğu anı xatırladı.

«Bu qırmaq hardan peyda oldu?”

Lakin qəribəsi o idi ki, Vera qışqırmadı, sakitcə qırmağa baxmağa başladı.

Dəmir qırmaq elə bil onu tilsimə salmışdı.

## 5

İstefada olan müfəttiş Blor çarpayının kənarında oturmuşdu. Ətli sifətində qan çəkmiş xəstə gözləri görünürdü. O bu saat öz qurbanının üstünə atılmağa hazır olan vəhşi qabanı xatırladırdı.

Yatmaq istəmirdi. Təhlükə çox ciddi idi. On nəfərdən cəmisi dördü sağ qalıb. Hakim Uorqreyv də hamı kimi öldürüldü. Amma o, çox ayıq-sayıq və hiyləgər adam idi.

Blor mızıldandı: «Bu qoca necə deyirdi? Biz hər an sayıqlığımızı itirməməliyik».

Özündən müştəbeh riyakar. Ömrü boyu məhkəmələrin yuxarı başında oturub, insanlara hökmlər verib, özünü az qala tanrılar cərgəsində hiss edib. Amma o da öz cəzasından qaça bilmədi... O həmişə ayıq-sayıq idi. Lakin bunun da köməyi olmadı.

Cəmisi dördümüz qalmışıq. O qız, Lombard, doktor Armstronq və mən. Növbə bizlərdən birimizindir... Amma yox, kim olur-olsun, yalnız o yox. Uilyam Henri Blora heç kim yaxın düşə bilməz. O özünü müdafiə edə biləcək.

Bu zəhrimara qalmış revolver hardadır, görəsən? Bu saat onu narahat edən yalnız bu idi.

Blorun alnı qırışmışdı, gözləri yığılmışdı, heç cür yerinə uzana bilmirdi, tapançanın harda olduğunu düşünürdü... Sakitlik idi, arabir



https://www.facebook.com/groups/Kitabsever/

aşağıdakı iri saatın kəfkirinin səsi eşidilirdi. Artıq gecə yarıdır. Gərginlik azca onu tərk elədi. Blor hiss elədi ki, bir az rahatlaşıb. Çarpayıda dirsəkləndi, amma soyunmadı.

Uzanıb fikirləşirdi. Skotland Yardda müfəttiş işləyən vaxtlarda olduğu kimi baş verən hadisələri bir-bir metodiki şəkildə araşdırır, fikrində götür-qoy edir, hər xırda detalı nəzərdən qaçırmamağa çalışırdı.

Şam yavaş-yavaş əriyib qurtarırdı. Blor kibriti əlinin altına qoyub üfürərək şamı söndürdü. Qəfildən ona elə gəldi ki, dünyanın özü qədər qədim olan ibtidai qorxular bu saat onun altşüurundan çıxıb bütün varlığını ələ almağa çalışır. Adaya gələn adamların sifətləri heç cür onun gözünün qabağından getmirdi: başına boz parik keçirilmiş hakimin büzüşmüş sifəti; missis Rocersin donuq, ölü çöhrəsi; Morstonun sıxılmış cizgiləri... və bir də solğun, sönük bir sifət, nazik bığlar, kiçik eynək... Axı onu harda görmüşdü? Heç cür xatırlaya bilmirdi... Yox, adada görməmişdi, əvvəl, çox-çox əvvəllər... Qəribədir, nəyə görə bu adamın adını heç cür xatırlaya bilmirdi? Yeri gəlmişkən, çox səfeh sifəti vardı.

Hə, hə, birdən xatırladı, hər şey yadına düşdü. Landor, hə, onun adı Landor idi.

Qəribədir ki, onun sifəti qətiyyən Blorun yadına gəlmirdi. Dünən də bütün günü onun sifətini xatırlamağa çalışmışdı. Amma alınmamışdı. Lakin indi adını xatırlayan kimi Landorun sifəti onun gözü qarşısına elə dəqiqliklə gəldi ki, sanki elə dünən ayrılmışdılar...

Landorun arvadı vardı – beli bükülmüş, arıq bir qadın idi. Qızı isə on dörd yaşındaydı. Blor ömründə ilk dəfə o qızı xatırladı, fikirləşdi ki, örəsən, qızın aqibəti necə oldu?

Yox-yox, bu saat Landoru filanı fikirləşmək vaxtı deyil, revolveri tapmaq lazımdır, mütləq. Görəsən, harda ola bilər? Haranı axtarmamışıq? Bəlkə o birilərdən biri götürüb gizlədib?

Yenə saatın səsi eşidildi. Artıq saat bir idi. Blor nədənsə narahat oldu. Qalxıb çarpayıda oturdu.

Dəhlizdən yüngül tappıltı səsləri eşidildi. Qaranlıq evdə elə bil kimsə barmaqlarının ucunda gəzirdi. Blor hiss elədi ki, alnından tər damcılayır. Görəsən, gecə vaxtı hamıdan gizlin dəhlizləri gəzən kimdir? Hər kimdirsə, ondan yaxşı şey gözləmək olmaz. Bəlkə elə qatil özüdür?

Blor ağır çəkisinə baxmayaraq, səssizcə çarpayıdan qalxdı, barmaqlarının ucunda qapıya yaxınlaşdı, qulaqlarını qapıya söykədi. Səs gəlmirdi. Lakin Blor bütün varlığı ilə hiss elədi ki, elə bu dəqiqə kimsə çox ehtiyatla onun qapısının qarşısından keçdi.

Qeyri-ixtiyari Blorun tükləri biz-biz durdu. Yenə canını vahimə bürüdü... Mümkünsüz görünsə də şübhə yox idi ki, kimsə evdə gəzir.

Qulaqlarını bir də qapıya sıxdı. Sakitlik idi. Blorun ağlına gəldi ki, otaqdan çıxıb dəhlizə baxsın. Görsün ki, bu gecə vaxtı qaranlıq evdə gəzən kimdir?

Amma yox, yox, bu saat qapını açıb bayıra çıxmaq ən axmaq hərəkət olardı. Bayırdakı qatil, yəqin ki, bu saat elə bunu gözləyir. Yəqin elə dəhlizdə də o məqsədlə gəzir ki, Blor səsə yuxudan oyansın, dəhlizə çıxsın...

Blor qapının qarşısından çəkilməyərək fikrə getdi. Bir azdan hər tərəfdən əcaib pıçıltılar, xışıltılar, taqqıltılar, fışıltılar eşidilməyə başladı. Lakin onun sağlam təfəkkürü bu qorxularla mübarizə aparmağa çalışırdı. Blor başa düşürdü ki, bütün bu səslər onun vahimə bürümüş təxəyyülünün məhsuludur.

Lakin qəfildən əməlli-başlı addım səsləri eşidildi. Çox da bərk deyildi, saat səsləri idi, lakin Blor o saat hiss elədi ki, bu dəfə təxəyyüldən-filandan söhbət gedə bilməz. Dəhlizdə doğrudan da kimsə gəzirdi. Bu adam onun qapısının yanından keçib dəhlizin başına, Lombardla Armstronqun otağına tərəf getdi.

Blor içindəki tərəddüdləri boğub qəti qərar qəbul elədi. Nə olursa-olsun, o bu gecə vaxtı qaranlıq evdə gəzən adamın kim olduğunu öyrənməliydi.

Addım səsləri artıq pilləkəndən gəlirdi. Görəsən, indi hara gedir?

Əgər Blor hərəkət eləmək qərarına gəldisə, ağır bədəninə, yaşının çoxluğuna baxmayaraq, çox cəldliklə hərəkət edirdi. Barmaqlarının ucunda yatağa yaxınlaşdı, kibrit qutusunu cibinə soxdu, sonra gecə lampasının şnurunu -şəbəkədən ayırıb ani olaraq durub nəsə fikirləşdi, nəhayət, gecə lampasını əlinə götürüb qapıya yaxınlaşdı. Bəd ayaqda gecə lampasının dəmir altlığı soyuq silahı əvəz edə bilərdi.



https://www.facebook.com/groups/Kitabsever/

Blor səs salmamağa çalışaraq qapının dəstəyinə keçirtdiyi stulun ayağını ordan çıxartdı, yavaşca cəftəni açıb dəhlizə çıxdı. Aşağıdakı holldan yüngül xışıltı səsləri eşidilirdi. Blor yenə də barmaqlarının ucunda yeriməyə çalışaraq pilləkənin başına çatdı. O yalnız indi başa düşdü ki, ayaq səsləri nəyə görə bu cür aydın eşidilirdi.

Külək yatmışdı, səma buludlardan təmizlənmişdi. Pilləkənin yuxarısındakı pəncərədən içəri düşən ay işığı əsas qapıdan bayıra çıxan adamın kürəyini işıqlandırdı.

Blor az qala onun ardınca cumacaqdı ki, qəfildən özünü saxladı. Bəlkə bütün bunlar onu evdən çıxartmaq üçün qurulmuş bir tələdir?

Bu hiyləgər hər şeyi nəzərə alsa da, müfəttiş Blorun məharətini, yəqin ki, nəzərə almayıb. Axı əgər kimsə çıxıbsa, deməli, yataq otaqlarından biri boşdur. Sadəcə kimin otaqda olmadığını öyrənmək kifayət edər ki, qatili tapsınlar.

Blor əvvəlcə doktor Armstronqun otağına yaxınlaşdı, bir neçə dəfə qapını döysə də içəridən səs-səmir gəlmədi.

Sonra Lombardın qapısına yaxınlaşıb döydü. Lombard o saat hay verdi.

– Kimdir orda?

– Mənəm, Blor. Armstronq otağında yoxdur. Bir dəqiqə...

Blor o biri yataq otağına da yaxınlaşıb qapısını döydü.

– Miss Kleytorn, miss Kleytorn...

– Nə olub, kimdir orda? – içəridən Veranın titrəyən səsi eşidildi.

– Qorxmayın, mənəm, Blor... bir dəqiqə gözləyin...

O yenə də Lombardın otağına yaxınlaşdı. Əlində şam tutan Lombard kandarda dayanmışdı.

– Nə olub? – Lombard maraqlandı.

Blor bir neçə sözlə hər şeyi ona başa saldı.

Lombardın gözləri parıldadı.



https://www.facebook.com/groups/Kitabsever/

– Deməli, Armstronq. Mən çoxdan şübhələnmişdim ondan. – O, doktorun qapısına tərəf getdi. – Gərək bağışlayasınız, Blor. Amma mən indi yalnız öz gözlərimə inana bilərəm. Sizin dediklərinizi də yoxlamalıyam.

Lombard yaxınlaşıb doktor Armstronqun qapısını yumruqlamağa başladı.

Cavab gəlmirdi. Lombard diz çöküb açar deşiyindən içəri baxdı.

– Açar orada yoxdur, – o dedi.

– Deməli, Armstronq çıxandan sonra qapını arxasınca bağlayıb.

– Başa düşülən addımdır. – Filipp Lombard razılaşdı.

– Gedək ardınca, Blor, bu dəfə onu əldən buraxmaq olmaz. – O, Veranın qapısına tərəf cumdu. – Vera, Vera...

– Bəli...

– Biz Armstronqu axtarmağa gedirik. O harasa çıxıb. Nə olursa-olsun, qapını açmayın. Heç kim üçün açmayın. Eşidirsiniz?

– Başa düşdüm.

– Əgər Armstronq gəlib sizə desə ki, ya mən, ya da Blor ölüb, inanmayın. Qapını yalnız bizim ikimiz birlikdə olarkən açarsınız.

– Yaxşı, başa düşdüm. Mən o qədər də səfeh deyiləm.

– Lap yaxşı. – Lombard rahat nəfəs alıb pilləkənə tərəf getdi, Blora çatıb dedi.

– İndi isə əsl ov başlanır.

– Diqqətli olmaq lazımdır. – Blor pilləkəndən düşə-düşə dedi. – Unutmayın ki, revolver də onda ola bilər.

– Bax burda səhv edirsiniz. – Filipp Lombard qəhqəhə çəkib çöl qapıya yaxınlaşdı. – Cəftə bağlanmayıb. Deməli, Armstronq istənilən vaxt geri qayıda bilər. Amma... qoy qayıtsın... Onsuz da revolver yenə məndədir.

O, tapançanı cibindən çıxarıb Blora göstərdi.

– Bu gün dolabımı açanda gördüm ki, ordadır. Gətirib əvvəl olduğu yerə atıblar.



https://www.facebook.com/groups/Kitabsever/

Blor evin astanasında donub qaldı, gözləri bərəldi.

Bunu görən Lombard əsəbiliklə dedi.

– Özünüzü axmaq yerinə qoymayın, Blor. Mənim sizi öldürmək fikrim yoxdur. Əgər mənə inanmırsınızsa, öz otağınıza gedib yenə də qapıda barrikada qura bilərsiniz. Nə qədər istəyirsiniz oturun orda, Armstronqu mən tək də tuta bilərəm.

Lombard bunu deyib, ayın işıqlandırdığı meydançaya çıxdı.

Bir anlıq tərəddüddən sonra Blor da onun ardınca evdən çıxdı.

Nə qədər qüsurları olsa da Blor qorxaq adam deyildi. O həmişə qorxu bilmədən təhlükənin üstünə gedərdi. -Lakin real təhlükələrdən, gözlə görünən, əllə hiss olunan təhlükələrdən nə qədər qorxmurdusa, fövqəltəbii, izaholunmaz təhlükələrdən bir o qədər çəkinirdi.



https://www.facebook.com/groups/Kitabsever/

# 6

Blorla Lombard doktorun dalınca çıxandan sonra Vera qalxıb geyinmək qərarına gəldi. Ara-sıra qapıya tərəf boylanırdı. Qapının taxtaları qalın idi, yoğun cəftə bağlanmışdı, qapının tutacağına da stulun ayağı keçirilmişdi.

«Belə qapını sındırmaq o qədər də asan olmayacaq. Nəinki Armstronq, hətta ondan da yekəpəri bunu bacarmaz. Onun yerinə mən olsaydım, zor gücünə yox, hiyləylə iş görərdim».

Vera Armstronqun nə edə biləcəyini fikirləşərək vaxtını öldürməyə çalışırdı. Bəlkə Lombardın fikirləşdiyi kimi olacaq? Doktor gəlib ya Blorun, ya da Filippin öldüyünü deyəcək, özünü yalandan yaralı kimi göstərəcək, ondan qapını açıb kömək eləməyi xahiş edəcək...

Başqa variantlar da ağlına gəlirdi. Tutalım, qışqır-bağır salar ki, evdə yanğındır. Ya da yox, ən pis halda həqiqətən də evi yandıra bilər... Hə, niyə də yandırmasın? Kişiləri tovlayıb evdən çıxarıb, sonra da döşəməyə benzin töküb kibriti çəkəcək. Mən də öz otağımda oturub qorxudan əsə-əsə yanıb külə dönməyimi gözləyəcəm.

O, qalxıb pəncərəyə yaxınlaşdı. Bəlkə də çıxış yolu budur – pəncərə. Əgər yanğın-filan olarsa, tullanıb qaçmaq olar. Hərcənd ki, bir az



https://www.facebook.com/groups/Kitabsever/

hündürdür, amma pəncərənin altı otluqdur, yəqin ki, o qədər də bərk əzilməz.

Vera stol arxasına keçib gündəliyini açdı və səhifələri aydın, gözəl xətlə doldurmağa başladı. Vaxtı nə yollasa öldürmək lazım idi.

Birdən o, yerindən sıçradı. Aşağıda elə bil nəsə yerə düşüb sındı. «Şüşə səsinə oxşayır, – Vera düşündü, – bəlkə də başqa şeydir».

Vera yenə qulaqlarını şəklədi, lakin yenə də sükut -çökdü.

Düşündü ki, bəlkə bütün bunlar qorxudandır. Qulağına cürbəcür səslər gəlir: xışıltı, tappıltı, vıyıltı...

Vera da eynən Blor kimi qərara gəldi ki, bunlar onun xəstə, qorxmuş təxəyyülünün məhsuludur.

Lakin bir azdan tam real səslər eşidilməyə başladı. Aşağıda həyəcanla gəzişib nəyisə müzakirə edirdilər. Sonra pilləkən tərəfdən addım səsləri eşidildi. Kimsə üçüncü mərtəbədəki çardağa qalxdı, orada oyan-buyana gəzdi. Nəhayət, addım səsləri düz onun qapısında peyda oldu.

– Vera, Vera, burdasınız? – Lombardın səsi gəldi.

– Hə, burdayam. Nə olub ki?

– Mümkünsə açın qapını...

Vera qapıya yaxınlaşıb stulu tutacaqdan çıxartdı, cəftəni çəkib qapını açdı.

Kişilərin ikisi də təngnəfəs idi. Paltarlarından su -damcılayırdı.

– Nə olub ki? – Vera həyəcanla təkrar elədi.

– Armstronq yoxa çıxıb. – Filipp Lombard dedi.



https://www.facebook.com/groups/Kitabsever/

# 7

– Necə yəni yoxa çıxıb? – Vera geri çəkildi.

– Yoxa çıxıb, da. Heç yerdə yoxdur. – Lombard əlavə elədi. – Bütün adanı axtardıq. Heç yerdə yoxdur.

– Boş şeydir. – Vera onun sözünü kəsdi. Yəqin hardasa gizlənir.

– Yox, ola bilməz. – Bunu Blor dedi. – Adada gizlənməyə yer yoxdur axı. Quru qayalıq, kiçik çimərlik, bir də bu ev. Bir də ki ay çıxıb. Hər yan elə işıqlıdır ki, elə bil günəş çıxıb. Yox, doktor heç yerdə yoxdur.

– Onda siz adanı gəzəndə o gizlincə evə qayıdıb. – Vera bu dəfə tərəddüdlə dedi.

– Bizim də ağlımıza gəlmişdi. – Blor dedi. – Anbardan tutmuş çardağa qədər bütün evi gəzdik. O yoxdur, yerə batıb, göyə çıxıb, amma dəqiq burda yoxdur.

– Yox, mümkün deyil... – Vera heç cür inanmaq -istəmirdi.

– Buna baxmayaraq, belədir. – Lombard da Blorun dediyini təsdiq elədi. – Bir şeyi də deyim ki, qonaq otağının şüşəsi sınıb və stolun üstündə cəmisi üç zənci balası qalıb.


https://www.facebook.com/groups/Kitabsever/

# ON BEŞİNCİ FƏSİL

## 1

Hər üçü mətbəxdəki stolun başına yığılıb səhər yeməyi yedilər. Qonaq otağında oturmağa heç kimin həvəsi qalmamışdı.

Günəş doğmuşdu, dünənki tufandan əsər-əlamət yox idi. Hava yaxşılaşdıqca məhbusların kefi də açılırdı. Onlar özlərini sanki dəhşətli yuxudan oyanmış kimi hiss edirdilər. Dünən ev tufanın cəngində olanda onları ağuşuna almış, hərəkətdən məhrum eləmiş dəhşət hissi də keçib gedirdi.

– Bəlkə qayalığın lap başına çıxaq, – Blor təklif elədi. – Və ordan güzgüylə sahilə işarələr verək. Bəlkə təpəliklərin üstündə gəzənlərdən biri bunun SOS siqnalı olduğunu anlaya bildi. Axşam da ocaq qalayarıq. Amma bunun da nəticə verəcəyi şübhəlidir. Birincisi, odunumuz o qədər də çox deyil, ikincisi də, kənddəkilər elə bilər ki, biz ocaq ətrafında rəqs edərək əylənməklə məşğuluq.

– Bəlkə sahildəkilərdən hansı birisə Morze əlifbasını bilir və artıq axşamacan bizim ardımızca qayıq yollayarlar. – Vera dedi.



https://www.facebook.com/groups/Kitabsever/

– Hava açılıb. – Lombard dənizə baxdı. – Lakin dəniz hələ də ləpəlidir. Görmürsünüz necə yırğalanır? Yəqin ki, bu gün də heç bir qayıq dənizə çıxmağa cəsarət eləməz. Lap dənizə yaxınlaşsa da bura yan almaq mümkün olmayacaq.

– Deməli, hələ bir gecə də burdayıq...

Lombard çiyinlərini çəkdi.

– Neyləmək olar? Ümid edirəm ki, bir sutkadan sonra biz burdan rədd olub gedəcəyik. Cəmisi bir sutka. Bu müddət ərzində dözə bilsək, canımız qurtarar.

Blorun boğazı qəhərləndi. Öskürüb dilləndi:

– Gəlin məsələyə aydınlıq gətirək. – O dedi. – Armstronqun başına nə iş gəlib?

– Bizim ilkin faktlarımız var. – Lombard dedi. – Qonaq otağında cəmisi üç zənci balası qalıb. Deməli, doktor Armstronqu da öldürüblər. Əgər o, qatil olsaydı və təsadüfən özünün də başına bir iş gəlsəydi, zənci balası yerində -qalardı.

– Bəs onda meyiti hanı? Siz onu tapa bilmədiniz axı?

– Vera soruşdu.

– Elə məsələ də bundadır. – Blor da Veranın dediyini təsdiqlədi.

Lombard başını yellətdi.

– Düzdür, birda nəsə düz gəlmir, – o dedi. – O, özbaşına yox ola bilməz.

– Bəlkə onu dənizə atıblar? – Blor dedi.

– Axı kim? – Lombard onun üstünə gəldi. – Siz? Mən? Bəlkə Vera? Siz doktorun evdən çıxdığını görmüsünüz. Geri dönüb məni və Veranı oyatdınız. Mən otağımda idim. Sonra birlikdə bütün evi ələk-vələk elədik. Hec kimi də tapmadıq. Maraqlıdır, görəsən, mən hansı vaxt kəsiyində onu öldürüb, hələ üstəlik gizlətməyə də macal tapdım?

– Bunu bilmirəm. – Blor dedi. – Amma dəqiq bildiyim bir şey var.

– Nə? – Lombard təzədən soruşdu.


https://www.facebook.com/groups/Kitabsever/

– Sizdə revolver vardı. Guya itmişdi, sonra təzədən sizdə peyda oldu. Və siz onun oğurlandığını mənə heç cür sübut edə bilməzsiniz.

– Nə danışırsan, Blor? Axı bizim hamımızı yoxlamışdıq.

– Nə olsun ki? Yəqin onu hardasa gizlətmişdiniz, biz axtarışı bitirəndən sonra təzədən çıxartmısınız.

– Necə də qanmaz adamsan, Blor. Axı mən dedim ki, onu oğurlamışdılar. Sonra isə təzədən gətirib yerinə atıblar. Mən özüm də siyirmədə onu görəndə təəccübləndim.

– Siz məni nə hesab edirsiniz? – Blor başını yellətdi.

– Lap elə, tutalım, qatil Armstronqdur. Axı o nəyə görə təzədən tapançanı sizə qaytarmalıdır?

Lombard çiyinlərini çəkdi.

– Bilmirəm. Düzünə qalsa, bunu mən özüm də başa düşmürəm. Burada heç bir məntiq görmürəm.

– Düzdür, məntiq yoxdur. Siz bundan yaxşı bir şey də fikirləşə bilərdiniz. – Blor razılaşdı.

– Məgər bu mənim günahsız olduğumu sübut eləmir?

– Şəxsən mən başqa fikirdəyəm.

– Mən sizdən başqa şey gözləmirdim. – Lombard etiraf elədi.

– Qulaq asın, Lombard, əgər siz doğruçu adam reputasiyası qazanmaq istəyirsinizsə...

– Mən heç nə qazanmaq istəmirəm. – Lombard burnunun altında deyindi. – Bu hardan çıxdı?

Blor isə təmkinini pozmadan davam elədi.

– Əgər sizə inanmağımızı istəyirsinizsə, bircə çıxış yolunuz var. Nə qədər ki, sizin əlinizdə silah var, bizim ikimiz də sizin əlinizdəyik. Gəlin o tapançanı dərmanları qoyduğumuz seyfə qoyaq, açarlar da əvvəlki kimi sizdə və məndə olsun.

Lombard bir siqaret yandırıb tüstüsünü havaya buraxdı.



https://www.facebook.com/groups/Kitabsever/

– Nə danışırsınız? Başınıza hava gəlib? – o dedi.

– Belədirsə, – Blor sözünü bitirdi, – Onda biz elə hesab edəcəyik ki, mister Onim elə sizsiniz.

– A.N.Onim? Necə istəyirsiniz elə də düşünün. Mənimçün fərqi yoxdur. Amma mən qatil olsaydım, sizi elə bu gecə öldürərdim. Əvvəllər də buna imkanlarım çox olub. Həm də ki, heç revolveri təzədən tapdığımı sizə -bildirməzdim.

– Düz deyirsiniz. – Blor təslim oldu. – Bu, doğrudan da anlaşılmazdır. Bəlkə də bizi axıra saxlamağınızın müəyyən səbəbləri var.

Bayaqdan mübahisədə iştirak etməyən Vera qəfildən özündən çıxdı.

– Siz ikiniz də özünüzü səfeh kimi aparırsınız, – o dedi.

– Axı niyə? – Lombard təəccüblə ona baxdı.

– Siz divardakı yanıltmacı unutmusunuz? – Vera dedi. – Tapmacanın cavabı ordadır.

Vera bunu deyib yanıltmacdan bir bənd dedi.

Dörd zənci balası dənizdə çimdi,

Biri tora düşdü, bilmədi kimdi.

Vera nəfəsini dərib davam elədi.

– Tora düşdü, başa düşürsünüz, tora. Məncə, Armstronq hələ sağdır, lakin hardasa gizlənir. O, zənci balasını da qəsdən götürüb ki, biz onun ölümünə inanaq. Mən qəti əminəm, Armstronq hardasa adada gizlənir. Yoxa çıxmağı da bizi onun günahsızlığına inandırmaq üçün düşünülüb.

Lombard oturdu.

Əgər dərinə getsək, deyəsən, siz haqlısınız, – dedi.

– Hə, mən də razıyam. – Blor başını tərpətdi.

– Yaxşı, bəs onda Armstronq harda gizlənə bilər axı? Biz bütün adanı eninə-uzununa ələk-vələk eləmişik. Gizlənməyə də yer yoxdur.



https://www.facebook.com/groups/Kitabsever/

– Nə olsun ki? – Vera qaşqabağını salladı. – O vaxt revolveri də çox axtardıq, tapa bilmədik. Buna rəğmən tapança heç yerə itməmişdi, adada idi.

– Məncə, tapança ilə insan arasında bir qədər ölçü fərqləri var. – Lombard mızıldandı. – Elə deyil?

– Nə olsun ki? – Vera inadından dönmədi. – Bu, heç nəyi dəyişmir.

– Nəyə görə mister Onim özünü bu cür ələ vermiş olsun. Axı hər şeyi o yanıltmacdakı kimi eləməklə bizi duyuq salır… Nəyisə dəyişə bilərdi.

– Siz başa düşmürsünüz ki, bütün bunları təşkil edən ağıldan kəm adamdır? – Vera yenə araya girdi. – Axı yalnız ağlı çaşmış adam bütün cinayətləri məhz uşaq yanıltmacındakı ardıcıllıqla həyata keçirə bilər.

akim üçün müşənbədən mantiya düzəltmək, Rocersi odun doğrayanda öldürmək, missis Rocersi yuxudaykən öldürmək, miss Brenti öldürəndə isə otağa arı buraxmaq... Bütün bunlar əsl uşaq qəddarlığı ilə həyata keçirilib. Hər şey uyğun gəlir. Özünüz fikir verin.

– Haqlısınız. Razıyam. – Blor dedi. – Nə yaxşı ki, burda heyvanxana yoxdur. Görəsən, bu dəfə mister Onim nə fikirləşəcək. Axı yanıltmacın növbəti bəndində söhbət ayıdan gedirdi. Üç zənci balası vardı, birini ayı yedi, ikisi qaldı. Deyəsən, beləydi.

– Siz hələ başa düşməmisiniz? – Vera acı-acı dedi. – Sizin içinizdə insanlıqdan əsər-əlamət qalmayıb. Əsl ayıya çevrilmisiniz. Elə bu saat size heyvanxanaya göndərmək olar. Deməli, meşədən adaya ayı gətirməyə ehtiyac yoxdur.


https://www.facebook.com/groups/Kitabsever/

## 2

Bütün səhəri onlar qayalıqda keçirtdilər. Hər biri evdən tapdığı kiçik güzgü parçasıyla kəndə tərəf şüalar salırdı, işarə verməyə çalışırdı, lakin deyəsən, heç kim buna fikir vermirdi. Cavab siqnalları da gəlmirdi.

Hava yaxşı idi. Devonun sahillərini yüngül duman bürümüşdü. Dənizdə qayıq-filan görünmürdü.

Onlar aşağı enib yenə də adanı axtarmağa başladılar. Lakin Armstronqun izi-tozu da yox idi.

– Təmiz havada adam özünü daha yaxşı hiss edir.

– Vera bunu deyib evə tərəf baxdı, bir az susub əlavə elədi. – Gəlin burda qalaq. Mən evə qayıtmaq istəmirəm.

– Gözəl fikirdir. – Lombard dedi. – Nə qədər ki biz burdayıq, heç nədən qorxumuz yoxdur. Əgər kimsə bizə hücum eləmək istəsə, biz onu uzaqdan görəcəyik.



https://www.facebook.com/groups/Kitabsever/

– Deməli, qərar qəbul olundu. – Vera sevindi.

– Qala bilərik. – Blor etiraz elədi. – Amma gecə mütləq evə qayıtmalıyıq. Yoxsa elə açıq havada gecələmək -istəyirsiniz?

Vera fikrə getdi.

– Yox, nə olur-olsun, mən evə qayıtmaq istəmirəm. O evdə daha bir gecəyə dözə bilməyəcəm.

– Qapınızı içəridən bağlayın, rahatca yıxılıb yatın. – Filipp Lombard ona təskinlik verdi.

– Bəlkə də haqlısınız. – Vera ümidsizliklə ah çəkdi.

– Hər nədirsə, günün altında oturmaq daha xoşdur.

Qız bunu deyib gərnəşdi.

«Qəribəsi budur ki, – Vera düşündü, – mən özümü xöşbəxt hiss eləməyə başlamışam. Hərçənd ki, təhlükə hələ sovuşmayıb. Lakin mən əvvəlki kimi narahatçılıq keçirmirəm. Mən özümü güclü hiss edirəm. Yox, mən ölməyəcəm, nə olur-olsun, ölməyəcəm».

Blor saatına baxdı.

– Saat ikidir, – dedi. – Bəlkə lanç eləyək?

– Yox, yox, mən evə qayıdan deyiləm. Burda, təmiz havada qalacam.

– Belə olmaz axı, miss Kleytorn, ac qalsaq, gücdən düşərik. Güc isə bizə son döyüş üçün mütləq lazım olacaq.

– Yox, istəmirəm. Mən o konservləri görəndə ürəyim bulanır. Yeyə bilmərəm. Bir neçə gün ac qalmağımla heç nə dəyişməz. Ən pis halda bir-iki kilo arıqlayacam. Bu da mənim xeyrimə olar.

– Özünüz bilərsiniz. – Blor dedi. – Amma mən yeməksiz qala bilmərəm. Bəs siz, mister Lombard?

– Düzünü deyim, anbardakı o konservlər mənim də tamahımı çəkmir. Burda miss Kleytornun yanında qalsam yaxşıdır.

– Mənə görə narahat olmayın. Elə düşünməyin ki, siz gedən kimi kimsə gəlib məni öldürəcək. Yox, narahat olmayın, gedin yeməyinizi yeyin... – Vera dedi.

– Axı biz danışmışdıq ki, həmişə birlikdə olaq, ayrılmayaq. – Blor dedi.

– Əgər ehtiyat edirsinizsə mən sizinlə gedərəm. – Lombard ayağa durdu.

– Yox, lazım deyil. – Blor başını yellətdi. – Burda qalın, xanımdan muğayat olun.

– Aha, deməli, siz hər halda məndən qorxursunuz. – Filipp Lombard qəhqəhə çəkdi. – Necə də axmaqsınız. Əgər mən sizi öldürmək istəsəydim, elə bu saat ikinizi də burda güllələyərdim.

– Hə, amma onda siz o lənətə gəlmiş yanıltmacdan kənara çıxmış olardınız. – Blor dedi. – Plan üzrə bizim hamımız bir-bir ölməliyik. Həm də məhz orada yazılan üsulla.

– Yaman əminliklə danışırsınız. – Filipp Lombard dedi.

– Düzünü deyim ki, təkbaşına o evə girməli olduğumu düşünəndə həqiqətən də bədənimdən üşütmə keçir, – Blor etiraf elədi.

– Elə ona görə fikirləşirsiniz ki, bəlkə mən sizə revolveri verim? – Filipp Lombard səsini alçaldıb dedi. – Bunu başınızdan çıxardın. Mən bir daha onu əlimdən verən deyiləm.

Blor çiyinlərini çəkdi.

– Mən sizdən tapança istəməmişdim.

Bunu deyib qayalığın arasından keçib aşağı, evə tərəf düşməyə başladı.

– Heyvanxanada nahar başlanır. – Lombard onun ardınca baxıb dedi. – Heyvanlar konkret saatlarda qidalanmağa adət ediblər.

– Sizcə, Bloru həqiqətən də təhlükə gözləyir? – Vera narahat olmağa başladı.


https://www.facebook.com/groups/Kitabsever/

Məncə, elə də böyük təhlükə yoxdur. Armstronqun silahı yoxdur. Blor ondan iki dəfə güclüdür. Həm də ki, tülkü kimi hiyləgərdir. Bir də ki, Armstronq heç cür evdə ola bilməz. Mən buna əminəm.

– Başa düşmədim. Əgər Armstronq orda yoxdursa, belə çıxır ki…

– Belə çıxır ki, qatil Blordur. – Filipp dedi.

– Siz həqiqətən də belə düşünürsünüz?

– Qulaq asın, əzizim, Blorun versiyası sizə məlumdur. Əgər o, yalan deməyibsə, deməli, Armstronqun yoxa -çıxmasının mənə dəxli yoxdur. Onun gecə danışdıqları məni təmizə çıxarır, amma onun özünü yox. O, iddia edirdi ki, addım səsləri eşidib, sonra da bayıra çıxan adamı görüb. Lakin o, yalan da danışa bilərdi. Hesab edək ki, o, Armstronqu bir yolla tovlayıb evdən çıxarıb və öldürüb. Sonra da yuxarı qalxıb mənim qapımı döyüb.

– Ola bilməz.

Lombard çiyinlərini çəkdi.

– Niyə də olmasın. Mənim fikrimi bilmək istəyirsinizsə, bütün bunları təşkil edən məhz Blordur. Axı biz onun haqqında heç nə bilmirik. Bəlkə heç vaxt polisdə də xidmət eləməyib. Bəlkə ağlı çaşmış milyonçudur, ya manyak bir idmançı, ya da katorqadan qaçmış cani… Dəqiq bildiyimiz bir şey var ki, Blor bu qətllərin hamısını rahat şəkildə törədə bilərdi.

Veranın rəngi ağardı.

– Bəlkə ən sonda bizim də axırımıza çıxacaq? – vahimə içində dedi.

Lombard əlini cibinə salıb revolveri sıxdı.

– Narahat olmayın, – o, qızı sakitləşdirməyə çalışdı.

– Mən olan yerdə o heç nə edə bilməz.

Birdən Lombardın ağlına nə gəldisə, Veraya baxıb -gülümsündü.

– Siz mənə qəribə bir inamla yanaşırsınız. Nəyə görə əminsiniz ki, mən sizi öldürməyəcəm.

– Nəyəsə inanmaq lazımdır. – Vera dedi. – Mənə elə gəlir ki, Blorla bağlı fikirləriniz yanlışdır, qatil Armstronqdur. Sizə elə gəlmir ki, adada



https://www.facebook.com/groups/Kitabsever/

başqa kimsə də var və bizim hər addımımızı güdür? Mən bütün varlığımla bunu hiss edirəm. Necə düşünürsünüz?

– Bu, əsəbdəndir.

– Deməli, siz də eyni hissləri keçirirsiniz. – Vera Lombarddan əl çəkmədi. – Düzünü deyin, ağlınıza gəlməyibmi ki… – Veranın dili topuq vurdu. – Mən bir dəfə kitabda oxumuşdum ki, guya iki nəfər hakim bir əyalət şəhərinə gəlib özlərini ali məhkəmənin nümayəndələri kimi təqdim ediblər və camaat üçün məhkəmə qurublar. Yalnız sonradan məlum olub ki, bu hakimlər… buranın adamı olmayıb… qısası, o biri dünyadan gəliblər…

Lombardın qaşları qalxdı.

– Səma elçiləri… yox, miss Kleytorn, mən o dünyaya-filana inanmıram. Burda nə baş verirsə, insan əlinin işidir.

– Hərdən mən buna şübhə edirəm. – Vera güclə eşidiləcək səslə əlavə elədi.

– Yəqin ki, vicdanınız dilə gəlib. – Lombard laqeydliklə dedi. Sonra bir müddət susub əlavə elədi. – Deməli, o uşağı həqiqətən də siz batırmısınız.

– Yox, yox… – Vera qışqırdı. – Susun, bəsdirin. Elə deyil, siz heç nə bilmirsiniz.

– Hə, hə… – Lombard qəhqəhə çəkdi. – Yüz faiz siz batırmısınız. Səbəbini bilmirəm, amma əminəm ki, sizin işinizdir. Bəlkə arada oğlan söhbəti olub. Hə, hansısa oğlana görə belə eləmisiniz. Düz tapmışam?

Vera qəfildən özünü dəhşətli dərəcədə yorğun hiss elədi, hər şeyə qarşı laqeydləşdi.

– Hə, – kal səslə cavab verdi. – Oğlana görə eləmişəm.

– Çox sağ ol. – Lombard dedi. – Mən təkcə bunu bilmək istəyirdim.

Vera qəfildən diksinib qalxdı.

– Bu nədir? – o qışqırdı. – Bəlkə zəlzələdir?


https://www.facebook.com/groups/Kitabsever/

– Yox, burda zəlzələ nə gəzir... – Lombard bunu desə də təəccüblə ətrafa boylandı. – Amma mən də yüngül titrəyiş hiss elədim. Elə bil hardasa uzaqda nəsə ağır bir şey gurultuyla yerə düşdü. Bəlkə mən səhv edirəm... siz qışqırıq eşitdiniz?

Hər ikisi evə tərəf boylandılar.

– Deyəsən, evdən gəldi. – Vera dedi.

– Hə, mən də elə düşünürəm.

– Bəlkə düşüb yoxlayaq? – Lombard təklif elədi.

– Yox, yox. Mən ora gedən deyiləm. – Vera başını silkələdi.

– Necə istəsəniz. Mənsə gedib baxacam.

– Yaxşı. – Vera fikrini dəyişdi. – Mən burda tək qalmaq istəmirəm. Gedək baxaq.

Onlar qayaların arasından keçib evin qarşısındakı meydançaya çıxdılar. Günəşin şüalarının sığalladığı ev çox cazibədar, gözəl görünürdü. Onlar bir müddət evin qarşısında dayandılar, sonra qərara gəldilər ki, hər ehtimala qarşı hər tərəfi yoxlasınlar.

Elə evin yan tərəfinə keçən kimi qarşılarına Blor çıxdı. O, evin şərq tərəfində əllərini geniş açaraq yerdə uzanmışdı. Deyəsən, başı partlamışdı.

Onun yanında iri bir mərmər parçası düşüb qalmışdı.

Lombard başını qaldırıb yuxarı baxdı.

– Orada kimin otağının pəncərəsidir? – soruşdu.

– Mənim otağım. – Vera sınıq səslə dedi. – Bu da mənim kaminimin üstünə qoyulmuş saatdır. Hə, odur, ayı formalı iri mərmər parçasının içinə keçirilmiş saat... Ayı formalı.. Ayı heykəli... – Vera tilsimlənmiş adamlar kimi təkrar eləməyə başladı. Qəfildən səsi qırıldı.



https://www.facebook.com/groups/Kitabsever/

## 3

Filipp əlini onun çiyninə qoydu.

– İndi hər şey aydın oldu. – Armstronq, şübhəsiz ki, evdədir. Bu dəfə mənim əlimdən yaxa qurtara bilməyəcək.

Vera onun qolundan yapışdı.



https://www.facebook.com/groups/Kitabsever/

– Özünüzü axmaq yerinə qoymayın. Bizi də Blor kimi öldürəcək. O bu saat elə bircə onu gözləyir ki, onu axtarmağa başlayaq. Biz içəri girməli deyilik.

Filipp Lombard bir qədər fikirləşib gözlərini döyərək dedi:

– Ola bilər, bəlkə də haqlısınız.

– İndi etiraf eləməliyik ki, mənim şübhələrim haqlı imiş. Hər şey doktorun əməli imiş.

Lombard razılıq əlaməti olaraq başını tərpətdi.

– Hə, siz haqlı idiniz. Əlbəttə ki, bu, Armstronqdur. Amma bu lənətə gəlmiş harda gizlənir axı? Biz Blorla birlikdə bütün adanı alt-üst eləmişdik.

– Əgər gecə onu tapmamısınızsa, deməli, indi də axtarmağın mənası yoxdur. – Vera dedi. – Bu, məlum məsələdir. Yəqin elə bir gizli yer var ki, bizim ağlımıza da gəlmir.

– Hə, hə, amma bir şey də var ki... – Lombard nəsə demək istəsə də susub fikrə getdi.

– Əgər bütün bunları doktor Armstronq fikirləşibsə, yəqin ki, əvvəlcədən özünə gizli bir yer də düzəldib. Axı bu bizim ağlımıza gəlməliydi. Məgər köhnə malikanələrdə gizli otaqlar görməmisiniz? Qədimdə belə otaqlarda xəzinələr, qızıllar gizlədərdilər.

– Unutmayın ki, bura qədim qəsr yox, çox müasir evdir.

– Nə olsun ki? – Vera inadkarlıq elədi. – Məgər müasir evdə gizli otaq düzəltmək belə çətindir?

– Yox ey, sizin inşaat işlərindən başınız çıxmır. Biz təzə gələndə hamı birlikdə həm bayırdan, həm də içəridən evin ölçülərini götürüb hesablamışdıq. Boşluqlar qalmamışdı, hər şey düz gəlirdi. Evin içində gizli otaq yoxdur.

– Bəlkə səhv eləmisiniz, ya da gizli otaq hardasa evin altındadır. – Vera bunu deyib sanki qeyri-ixtiyari ayağının altına baxdı. Amma sal qayaların üstündə olan evin altının qazılıb gizli otaq düzəldilməsi inandırıcı görünmürdü.

– Bəlkə bir də yoxlayaq... – Lombard tərəddüdlə dedi.


https://www.facebook.com/groups/Kitabsever/

– Yox, lazım deyil. O da bu saat elə onu gözləyir ki, biz içəri girək. Kim bilir, orada necə tələ qurub.

– Unutmayın ki, mən silahlıyam. – Lombard arxayınlıqla dedi və əlini cibinə atıb revolveri çıxartdı.

– Siz deyirdiniz ki, Blorun da nədənsə qorxmağı yersizdir, Armstronq onun öhdəsindən gələ bilməz. O həm diqqətlidir, həm də fiziki cəhətdən güclüdür. Amma budur, Blor da öldü. Nəzərə alın ki, Armstronq ağlı çaşmış manyakdır. Normal adamlar elələrinin öhdəsindən gələ bilməzlər, çünki onların nə fikirləşəcəyini təsəvvür eləmək mümkün deyil.

Lombard revolveri təkrar cibinə soxdu.

– Haqlısınız. Siz deyən olsun. – O dedi.

## 4

Bir müddət susdular.

– Bəs gecə neynəyək? Bayırda qalaq? – Lombard bir qədər sonra dedi.

Vera cavab vermədi.



https://www.facebook.com/groups/Kitabsever/

– Bu barədə düşünməmisiniz? – Lombard əl çəkmədi.

– Axı neynəyək? – Vera sanki öz-özüylə danışırmış kimi dedi. – İlahi, mən necə qorxuram.

– Amma eybi yox. Bu gün hava yaxşıdır. – Lombard səmaya baxıb dedi. – Çox gözəl aylı gecə olacaq. Təhlükəsiz bir yer taparıq, bax orda, qayalığın üstündə. – Lombard əliylə göstərdi. – Səhərəcən oturarıq. Əsas budur ki, bizi yuxu aparmasın. Ya da növbəylə yatarıq. Əgər kimsə bizə yaxınlaşmağa cəhd eləsə, mən onu güllələyərəm. Soyuqdan qorxmursunuz ki? – O, qıza tərəf çöndü. – Paltarınız yaman nazikdir.

– Soyuq? – Vera başını tərpətdi. – Meyit olmaqdansa, soyuğa dözmək daha yaxşıdır.

Bunu deyən Vera qəfildən qəhqəhə çəkdi.

– Düz deyirsiniz. – Lombard ciddi şəkildə razılaşdı.

Vera həyəcanla ətrafa baxdı.

– Mən dözə bilmirəm. Gəlin bir az gəzişək. Yoxsa başıma hava gələcək.

– Hə, düzdür, gəzişməyimiz pis olmaz. Hava da yaxşıdır. Fikrimiz yayınar.

Onlar adanın şərq tərəfində, dəniz sahili boyu qalxan qayalıqların üstüylə bir müddət gəzişdilər.

Günəş batmaq üzrəydi. Narıncı şüalar dənizdə əks olunaraq Vera ilə Lombardı qızılı dumana bürüyürdü.

– Heyif ki, çimmək mümkün deyil. – Vera dənizə baxaraq dedi. – Məmnuniyyətlə suya baş vurardım.

Lombard da dənizə baxdı, nəsə demək istəsə də, sözünü saxladı, diqqətini sağ tərəfdəki daşlıqlara yönəltdi.

– O nədi orda, suyun içindəki daşların arasında?

Vera da onun göstərdiyi yerə baxdı.

– Doğrudan, nə qaraltıdır elə? Bir büküm paltara oxşayır, – dedi.


https://www.facebook.com/groups/Kitabsever/

– Görəsən, nə ola bilər? – Lombard birdən güldü. – Bəlkə yosun topasıdır. Yəqin ki, yosunlardır.

– Gəlin düşüb baxaq. – Vera təklif elədi.

Onlar aşağı düşüb daşlığa yaxınlaşdılar.

– Kiminsə paltarlarıdır. – Lombard dedi. – Yəqin külək gətirib. – Odur, ayaqqabıları da ordadır.

Qəfildən Vera yerində donub qaldı.

– Bu, paltar deyil, meyitdir, – o, boğuq səslə dedi.

Meyit bir-birinə yaxın olan iki iri daşın arasında ilişib qalmışdı. Elə bil qəsdən onu belə yerə keçirtmişdilər ki, su aparmasın.

Vera ilə Lombard sonuncu yoxuşu da keçib meyitə yaxınlaşdılar. Lombard əyilib onun üzünü çevirəndə Vera qeyri-ixtiyari qışqırdı. Onlar bu şişmiş, göyərmiş sifəti o saat tanıdılar.

– İlahi, – Lombard inildədi. – Bu ki doktor Armstronqdur.

## ON ALTINCI FƏSİL

### 1



https://www.facebook.com/groups/Kitabsever/

Elə bil ki, zaman dayandı. Ətrafda nə varsa, hərlənməyə başladı. Bir anın içində yüz min il keçdi. İki nəfər məhz bu hisslərlə yerlərində donaraq suda boğulmuş adamın meyitinə baxırdılar.

Nəhayət, Vera ilə Lombard yavaşca başlarını qaldırdılar və bir-birinin gözünün icinə baxdılar.

Lombard qəhqəhə çəkdi.

– Budur, hər şey aydınlaşdı. – O dedi.

– Adada bizdən başqa heç kim qalmadı. – Vera az qala pıçıltıyla dedi.

– Hə, elədir. – Lombard təsdiq elədi. İndi bütün şübhələr dağıldı.

Vera bir müddət susub soruşdu:

– O mərmər ayıyla fokusu necə eləmişdiniz?

Lombard çiyinlərini çəkdi.

– Mən də eyni sualı sizə vermək istəyirdim.

Onların baxışları yenə də toqquşdu.

«Axırı ki, iç üzü açıldı. – Veranın fikrindən keçdi. – Gözlərindəki vəhşiliyi necə olub ki, bu vaxtacan görməmişəm. Əsl quduz itə oxşayır».

– Bu hər şeyin sonudur. – Lombardın gözləri qızarmışdı. – Başa düşürsünüz? Hər şey məlum oldu. Sona o qədər də çox qalmayıb...

– Başa düşürəm. – Vera qəribə səslə dedi.

Yenə dənizə baxdı və düşündü.

«General Makartur da dənizə baxırdı. Görəsən, bu nə vaxt olub? Çoxdan? Yox, dünən. Cəmisi bir gün əvvəl. Hə, Lombard belə də dedi. Hər şeyin sonudur. Gözləri də -gülürdü».

Lakin hər şeyin sonu barədə sadəcə fikirləşməyin özü Veraya əziyyət verirdi.

«Yox, o ölməyəcək. Heç vaxt. Mümkün olan iş deyil».

Vera daşların arasında ilişib qalmış meyitə baxdı.



https://www.facebook.com/groups/Kitabsever/

– Yazıq doktor Armstronq. – Vera mızıldandı.

– Mən nə görürəm? – Lombard kinayəylə dedi. – Sizin ona yazığınız gəlir?

– Niyə də yox? – Vera çiyinlərini çəkdi. – Məgər sizin içinizdə mərhəmət hissi yoxdur?

– Hər halda sizə qarşı heç bir mərhəmət hissi yoxdur içimdə. Məsləhət görürəm ki, mənim rəhmdilliyimə ümid eləməyəsiniz.

Vera yenə meyitə baxdı.

– Meyiti burda qoymaq olmaz. Onu evə qaldırmaq -lazımdır.

– Bütün qurbanları bir yerə toplamaq üçün? Deməli, səliqə-sahman hər şeydən vacibdir? Məncə, elə burda qalmağı da pis deyil. Bu məni zərrə qədər narahat eləmir.

– Onda heç olmasa sudan çıxaraq, sahildə qalsın. Yoxsa su aparacaq.

– Yaxşı, siz deyən olsun. – Lombard əlini yellətdi, sonra aşağı əyilib meyitin əynindəki pencəyi tutub dartmağa başladı.

– Suda şişib ağırlaşıb.

Vera da aşağı əyilib ona kömək eləməyə başladı. Birtəhər cəsədi dartıb sudan çıxartdılar.

Vera ayağa qalxıb kənara çəkildi. Lombard isə təngnəfəs halda deyindi:

– Hə, razı qaldınız?

– Hə, qaldım.

Veranın səsindəki qəribə ton Lombardı vahimələndirdi. Ağlına nə gəldisə, əlini cəld cibinə atdı. Revolver yox idi.

Başını qaldırıb qıza baxdı. Vera iki metrlikdə dayanıb tapançanı düz ona tuşlamışdı.

– Deməli, qadın qayğısının səbəbi bu idi? – Lombard dedi. – Mənim cibimə girmək istəyirdiniz?

Qız başını tərpətdi. Revolver tutan əli isə heç titrəmədi də.



https://www.facebook.com/groups/Kitabsever/

Lakin Filipp Lombard belə tez təslim olmaq fikrindəmdeyildi.

– Axmaqlıq eləməyin. Tapançanı bəri verin. – O, əlini Veraya tərəf uzatdı.

Vera qəhqəhə çəkdi.

– Yaxşı, bəsdirin, verin mənə.

Onun beyni saat kimi işləməyə başladı: «Əvvəlcə diqqətini kütləşdirmək lazımdır, sonra yavaş-yavaş yaxınlaşmaq. Gərək elə edim ki, məndən qorxmasın. Bəlkə üstünə tullanıb revolveri alım əlindən? Amma bu, riskdir. Nə olsun ki? Onsuz da ömrü boyu riskə getmişəm. İndi, bu saat... Sonra gec olacaq».

– Qulaq asın, axı belə olmaz, bir səbriniz olsun...

Lombard söhbətə başlasa da, qəfildən sözünü kəsib, əsl pantera kimi cəld Veranın üstünə tullandı.

Lakin yenə də gecikdi. Vera sanki qeyri-ixtiyari tətiyi çəkdi. Güllə Lombardı geri atıb qayaya çırpdı.

Vera barmağını tətikdən çəkib ehtiyatla Lombarda yaxınlaşdı. Ehtiyat lüzumsuz idi. Güllə Filipp Lombardın düz ürəyindən dəymişdi.

## 2



https://www.facebook.com/groups/Kitabsever/

Vera inanılmaz bir rahatlıq hiss elədi. Budur, hər şeyin sonu. Nəhayət ki...

Deməli, daha heç nədən qorxmağa ehtiyac yoxdur. Hər şey arxada qaldı. İndi o, adada təkdir. Doqquz meyit və o...

Nə olsun ki? Ən əsas budur ki, o sağdır. Sağdır. Bu saat ən əhəmiyyətli olan budur...

Vera dənizin sahilində, iki meyitin yanında oturub özünü olduqca xöşbəxt hiss edirdi. Daha heç nədən qorxmaq lazım deyil, heç nədən.

## 3



https://www.facebook.com/groups/Kitabsever/

Vera evə qayıtmağı qərara alanda artıq günəş üfüqlərin arxasında yox olmuşdu. Sevinc hissi o qədər güclü idi ki, az qala Veranın bütün iradəsini keyitmişdi. İşə bax, daha onu heç bir təhlükə gözləmir. Bundan sonra hər şey yaxşı olacaq.

Yalnız indi hiss elədi ki, dəhşətli dərəcədə acıb və yuxusu gəlir. Yox, yeməyi sonraya da saxlamaq olar. Əsas yatmaqdır. Yatağa baş vurmaq və rahatlanmaq... əbədiyyətə qədər yatmaq. Sabah qayıq onu xilas eləməyə gələndə oyanar. Bəlkə heç qayıq gəlmədi? Gəlməsin. Bu saat onunçün fərqi yoxdur. Bütün ömrü boyu adada qalardı. Onsuz da daha burda heç kim yoxdur. Burada rahatlıq və sakitlik var...

O, bir az yuxarı qalxıb evə baxdı. Deməli, daha qorxmalı heç nə yoxdur. Heç nə. Adi evdir. Müasir, geniş... Qəribədir, çox yox, cəmisi bir neçə saat əvvəl bu evin sadəcə görkəmindən onu vahimə basırdı.

Vahimə... Qəribə hissdir... Amma vahimə, qorxu artıq arxada qalıb. O, qalib gəldi. Ən böyük təhlükədən də qurtuldu. Onun gücü və bacarığı çatdı. Düşmən üzərində böyük qələbə çaldı.

Bu fikirlər içində evə qalxmağa başladı. Günəş artıq üfüqlərin arxasında yox olmuşdu. Səmanın qızartısı dənizin səthini qızılı rəngə boyamışdı. Gözəllik və rahatlıq...

«Bəlkə bütün bunları sadəcə yuxuda görürdüm?»

– Vera düşündü.

O yorulmuşdu. Çox yorulmuşdu. Bütün bədəni gizildəyirdi. Gözləri öz-özünə bağlanırdı. Daha qorxmalı heç nə yoxdur. Gedib rahat yata bilər. Hətta qapını bağlamasa da olar. Yatmaq, yatmaq... Rahatca yatmaq. Axı adada ondan başqa heç kim yoxdur. Son zənci balasının gözlərindən yorğunluq yağırdı.

Vera gülümsünərək evə girdi. Burada da qəribə bir rahatlıq, sakitlik hökm sürürdü.

Vera fikirləşdi ki, başqa vaxt olsaydı, hər otağında bir meyit olan evdə yatmağa heç cürət eləməzdim. Amma indi... Bəlkə mətbəxə gedib nəsə yeyim? Yox, yemək sonraya qalsın. Əsas yatmaqdır. O, yorğunluqdan ayaq üstə dura bilmirdi.



https://www.facebook.com/groups/Kitabsever/

Yemək otağının qapısından keçdi. Üç zənci balası hələ də stolun üstündəydi.

«Siz vaxtdan geri qalırsınız, mənim dostlarım», – Vera bunu deyib yemək otağına girdi, fiqurlardan ikisini götürüb pəncərədən bayıra atdı. Otaqdan çıxmaq istəyəndə nə düşündüsə, geri qayıtdı, üçüncü zənci balasını götürüb ovcunda sıxdı.

«Gedək mənimlə, dostum. Biz qalib gəldik, balaca».

Vera zənci balasını ovcunda sıxıb pilləkənlə yuxarı qalxdı. Ayaqlarını ardınca zorla sürüyürdü.

Son zənci balası yoruldu nəsə.

«Bu yanıltmac necə qurtarırdı axı? – Vera düşündü. – Son zənci balası yoruldu nəsə, çıxıb getdi ərə, qalmadı kimsə...».

Deyəsən, belə idi. Ərə getmək... Qəfildən yenə ona elə gəldi ki, Huqo hardasa yaxında, lap yaxındadır... Hə, elədir, Huqo bu saat onu yuxarıdakı yataq otağında gözləyir.

– Bəsdir, – Vera öz-özünə dedi. – Sən yorğunsan, belə axmaq fikirlər də ondandır. Özünü ələ al. Dincəlsən hər şey keçib gedəcək.

Pilləkəni qalxıb ikinci mərtəbənin dəhlizinə çıxanda əlindəki revolver sürüşüb yerə düşdü. Amma döşəməyə xalca salındığına görə taqqıltı zəif çıxdı. Heç Vera özü də revolveri əlindən saldığının fərqində olmadı.

Necə də sakitlikdir. – Vera düşündü. – Bəs axı nəyə görə həmişə ona elə gəlir ki, içəridə kimsə var? Hə, bu, Huqodur, yataq otağında məni gözləyir...

Son zənci balası yoruldu nəsə...

Axı son misra necəydi? Heç cür yadına sala bilmirdi. Ərə getdi, hə, başqa cür ola bilməz.

Budur, o artıq öz yataq otağının qapısındadır. Huqo qapının o üzündə öz sevimli Verasını gözləyir. Buna şübhə ola bilməz.

O, qapını açıb içəri girdi və heyrətdən qışqırdı.



https://www.facebook.com/groups/Kitabsever/

Qarmaqdan sallanan nədir elə? Halqalı kəndir. Altında da stul. Hə, o bu stulun üstünə çıxıb kəndiri boğazına keçirtməlidir, sonra da ayağıyla stulu aşırtmalıdır.

Yəqin ki, stulu Huqo qoyub. Bunu məhz o istəyir. Sevimli Huqo... Hə, hə, o yanıltmacda da belə deyilir.

Son zənci balası yoruldu nəsə,

Gedib özün asdı, qalmadı kimsə.

Saxsı zənci balası onun əlindən düşüb döşəməyə çırpıldı, çilik-çilik oldu. Vera sanki qeyri-ixtiyari irəli addım atdı. Budur, hər şeyin sonu. Hər şey məhz belə qurtarmalıydı. Başqa nə cür qurtara bilərdi ki?

Sirilin yaş əlləri onun boğazına toxundu.

– Qayaya tərəf üzə bilərsən, Siril, mən sənə icazə -verirəm.

«Adam öldürməkdən asan heç nə yoxdur. Amma sonra... Sonra qara fikirlər kabus kimi sənin ardınca gəzir, xatirələr boğazından yapışıb boğur...».

Gözləri zombilər kimi bərəlmiş Vera stulun üstünə qalxdı. Yavaşca kəndiri boğazına keçirtdi.

«Huqo mənə baxır. Gözləyir ki, boynuma düşən öhdəliyi necə həyata keçirəcəm».

Vera dişlərini sıxıb stulu itələdi...



https://www.facebook.com/groups/Kitabsever/

# EPİLOQ

– Yox, bu, mümkün deyil. – Skotland Yardın komissar köməkçisi Ser Tomas Leqq özündən çıxdı.

– Tamamilə doğrudur, ser. – İnspektor Meyl hörmətlə təsdiq elədi.

– Adada on meyit var və bir nəfər də sağ qalan yoxdur. Elə bil dəhşətli yuxudur.

– Hər nədirsə, bu, həqiqətdir. – İnspektor sakitcə dedi.

– Yaxşı, bəs bu lənətə gəlmişləri kim öldürüb axı. – Ser Tomas Leqq dedi.

– Biz də məhz bunun üzərində baş sındırırıq, ser.

– Bəs tibbi ekspertiza nə göstərir?

– Elə bir şey yoxdur. Uorqreyvlə Lombard güllələnib, miss Brent və Morston zəhərləniblər. Missis Rocers isə dozadan artıq yuxu dərmanı içib. Rocersi baltayla vurublar, Armstronq suda batıb, general Makarturu nəsə bərk alətlə boynunun ardından vurublar, Vera Kleytornu da asılmış vəziyyətdə tapıblar.

Komissar köməkçisinin sifəti əyildi.

– Çox qaranlıq məsələdir.

Bir müddət susub fikirlərini cəmləşdirdi, sonra yenə inspektorun üstünə düşdü.

– Bəlkə Stikxlevnin sakinləri nəsə bilir? Onlarla söhbət eləmisiniz? Ola bilməz ki, nəsə bilməsinlər.

İnspektor Meyn çiyinlərini çəkdi.

– Kənd sakinləri sadə balıqçılardır. Bildikləri odur ki, adanı mister Onim adlı naməlum bir adam alıb. Başqa heç nədən xəbərləri yoxdur.



https://www.facebook.com/groups/Kitabsever/

– Axı adaya ərzağı-filanı kimsə aparmalıydı. Bəs evi qonaqların gəlişi üçün kim hazırlayıb?

– Bu məsələ ilə Morris adlı birisi məşğul olurdu, Ayzek Morris.

– Bəs o nə deyir?

– O da ölüb, ser.

Komissar köməkçisinin alnı qırışdı.

– Biz onun barəsində nə bilirik?

– Elə də çox şey bilmirik, ser. Nəzərəçarpan bir adam deyildi. Üç il əvvəl Bennitodakı fırıldaqda onun da əli vardı. Yadınızdadırsa, onda süni surətdə aksiyaların qiymətlərini qaldırmışdılar. Lakin onun iştirakını sübut edən konkret dəlillər tapılmadı və biz də heç nə eləyə bilmədik. O, yaxasını qurtara bildi. Narkotiklərlə də bağlı bir dəfə ilişmişdi. Yenə də eyni situasiya oldu. Onun iştirakını sübut edən dəlillər aradan götürüldü, o, canını qurtardı.

– Zəncilər adasının alqı-satqı məsələləriylə də o məşğul olurdu?

– Hə, o məşğul olurdu, lakin əvvəlcədən hamıya demişdi ki, o adanı özü ücün almır, adının açıqlanmasını istəməyən bir müştəri üçün çalışır. Düzü, onun özünün o boyda pulu da yox idi ki, adadakı malikanəni ala bilsin.

– Bəlkə bu da yanlış fikirdir? Bəlkə onun maliyyə işlərində eşələnsəniz nəsə tapa bilərsiniz?

İnspektor Meyn gülümsündü.

– Əgər siz Morrisi tanısaydınız, ağlınıza belə fikir gəlməzdi. O elə hiyləgər adam idi ki, ölkənin ən yaxşı ekspertlərini də barmağına dolayırdı... Əlbəttə ki, onun maliyyə işləriylə maraqlanmışıq, amma qanundankənar heç nə qarşımıza çıxmayıb. O, izləri azdırmağı bacaran adam idi.

Tomas Leqq ah çəkdi.

– Morris Stikxlevnə gəlib bütün təsərrüfat məsələləriylə bağlı danışıqlar aparıb, razılıq əldə edib. Deyib ki, o mister Onimin adından çıxış edir. Kənd sakinlərinə deyib ki, mister Onimin qonaqları mərc gəliblər, nə


https://www.facebook.com/groups/Kitabsever/

olur-olsun bir həftə adada qalmalıdırlar. Onunçün də, adadan nə qədər siqnal filan verilsə də heç kim buna fikir verməsin.

Ser Tomas Leqq yerində qurcalandı.

– Siz demək istəyirsiniz ki, bu detal da kənd sakinlərini şübhələndirməyib?

Meyn çiyinlərini çəkdi.

– Ser, unutmayın ki, bu ada əvvəllər məşhur Amerika milyonçusu gənc Elmer Robsona məxsus olub. Onun qonaqlarının bu adada nə oyun çıxartdıqlarını kənd sakinləri indiyəcən danışırlar. Camaatın gözü kəlləsinə çıxırdı. Amma yavaş-yavaş öyrəşdilər. Adət elədilər ki, bu adada həmişə nəsə qəribə hadisələr baş verməlidir. Məncə, onların laqeydliyini başa düşmək olar.

Ser Tomas Leqqin razılaşmaqdan başqa əlacı qalmadı.

– Qonaqları adaya gətirən kiçik gəminin kapitanı Fred Narrokotla xeyli söhbət elədik. Onun dediklərində maraqlı məqamlar çox idi. İlk olaraq dedi ki, qonaqların görkəmi onu heyrətləndirdi. Guya mister Robsonun yanına tamam başqa tipli adamlar yığışarmış, bunlar isə sadə, adi adamlara oxşayırdı. Ona görə də Narrokot mister Morrisin əmrini pozaraq SOS siqnalı görən kimi onların köməyinə gedib.

– Narrokot nə vaxt adaya gedib çıxıb?

– Səhər saat on birdə bir dəstə skaut adadan güzgüylə verilən SOS siqnalını görüb. Amma dəniz hələ tam sakitləşmədiyinə görə gəmi yalnız on ikidən sonra adaya yaxınlaşa bilib. Kənd sakinlərinin dediyinə görə tufandan sonra hava elə olub ki, heç bir başqa gəmi ora yan ala bilməzdi. Deməli, adadan qaçıb gedən də olmayıb.

– Bəlkə üzə-üzə...

– Adadan sahilə qədər iki kilometrdir. Dəniz dalğalı olub, ləpələr də vəhşi kimi sahilə çırpılırmış. Sakinlər belə dedi. Bir də sahildə həmişə balıqçılar dolaşır. Kimsə çıxsaydı, onlar görərdi.

Ser Tomas Leqq yenə də ah çəkdi.



https://www.facebook.com/groups/Kitabsever/

– Bəs evdə tapılan valla bağlı nə öyrənmisiniz? Bəlkə tapmacanın açarı ordadır?

– Bununla da maraqlanmışıq, ser. – İnspektor Meyn dedi. – Val teatr və kino üçün rekvizitlər hazırlayan firmada istehsal olunub. Mister Ayzek Morris sifariş verib. Guya hansısa həvəskar teatr tamaşası hazırlamaq üçün lazım imiş. Hazır olandan sonra isə mister Morrisin xahişi ilə mister Onimə göndərilib. Mətn firmada qalıb, götürmüşük. Adi çap maşınında yazılıb, üstündə heç bir iz-filan yoxdur.

– Mətnin özünün öyrənilməsi sizə bir şey verməyib?

– Elə onun üstünə gəlirəm, ser. – İnspektor Meyn öskürüb sözünü davam elədi. – Valdakı ittihamları bacardıqca dərindən araşdırmağa çalışdıq. Rocerslər neçə il əvvəl miss Breydi adlı bir qoca, xəstə qadının xidmətində olublar. Qadın qəfildən vəfat edib, onu müalicə edən həkimi tapıb söhbət elədim. Düzdür, Rocersləri bilavasitə onun ölümündə ittiham eləməyə konkret faktlar yoxdur, lakin hansısa bir məqamda ilkin tibbi yardımı gecikdirmək məsələsi mümkündür. Bu baxımdan onların ittihamında həqiqət ola bilər. Lakin təkrar edirəm ki, bunu sübut eləmək mümkün deyil.

Sonra Hakim Uorqreyvin ittihamı gəlir. Onun da ittihamı məncə yersizdir. Düzdür, o, adı çəkilən Sittonu dar ağacına göndərmişdi, lakin Sitton həqiqətən də günahkar idi. Buna şübhə yoxdur. Hərçənd ki, onun günahını dəqiq sübut edən faktlar yalnız çox-çox sonralar ortaya çıxdı. Proses gedən vaxt isə müşahidəçilərin böyük hissəsi hesab edirdi ki, onun günahı yoxdur və yalnız hakim Uorqreyvin şəxsi-qərəzliyi nəticəsində Sitton edama göndərilib. Düşünürdülər ki, hansısa qaranlıq məsələyə görə hakim onunla haqq-hesab çürüdüb.

Vera Kleytorn da bir vaxtlar Hamiltonlar ailəsində dayə işləyib. Orda balaca uşaq dənizdə batmışdı. Lakin o qızın, deyəsən, bu hadisəyə heç bir aidiyyəti yoxdur. O özünü suya atıb uşağı xilas eləməyə çalışmışdı, amma gecikmişdi. Hətta özü də təhlükə qarşısında qalmışdı, xilasedicilər onun özünü də yarımcan halda sudan çıxartmışdılar.

– Davam edin, Meyn. – Leqq ah çəkdi.

– Doktor Armstronqa yetişdik. – Meyn dedi. – Tanınmış adamdır. Harli-stritdə ofisi var. Hamı onu etibarlı, savadlı həkim kimi tanıyır. Qeyri-



https://www.facebook.com/groups/Kitabsever/

leqal əməliyyatlara heç vaxt yaxın düşməyib. 1925-ci ildə isə Leytmor xəstəxanasında işləyəndə həqiqətən də Kline adlı bir xəstəni əməliyyat edib. Onun peritoniti var idi və elə əməliyyat stolunda canını tapşırmışdı. Bəlkə Armstronq əməliyyatı o qədər də yaxşı eləməyib. Lakin həmin vaxtlarda o, təcrübəyə təzə başlayırdı, təcrübəsizliklə cinayətin arasında isə fərq çoxdur. Bir şey aydındır ki, o qadını öldürmək üçün Armstronqun heç bir motivi olmayıb.

Sonra Emili Brent. Onun həqiqətən də Beatris Teylor adında qulluqçusu olub. O, uşağa qalıb və miss Brent onu evdən çölə atıb, məsələni onun ailəsinə çatdırıb, bu barədə hər yerdə car çəkərək qız barədə hamıda mənfi rəy yaradıb. Yazıq qız da çarəsizlikdən özünü dənizə ataraq intihar edib. Sərt hərəkətdir, lakin burda da cinayət tərkibi yoxdur.

– Deməli, mister Onimi məhz elə cinayətkarlar cəlb edib ki, – ser Tomas Leqq dedi. – Onların əməlinə cinayət məsuliyyəti düşmür.

Meyn nəsə fikirləşib davam elədi.

– Gənc Antoni Morston həmişə maşını çox sürətli sürüb. İki dəfə sürücülük vəsiqəsindən məhrum edilib. Məncə, ümumiyyətlə, ona maşın sürməyi qadağan etməliydilər. Con və Lüsi Kombsları da o, Kembric yaxınlığında maşınla vurub öldürmüşdü. Morstonun dostları onun xeyrinə ifadə verdilər, bir neçə şahid də tapıb gətirdilər ki, guya uşaqlar özləri qəfildən yola çıxıbmış. Onunçün də Morston cərimə ilə yaxasını qurtara bildi.

General Makarturla bağlı isə ümumiyyətlə, heç nə öyrənmək mümkün olmadı. Xidmət yerlərində yüksək xarakteristikalar alıb, cəsarəti və igidliyi ilə seçilən çoxlu ordenləri, təltifləri var. Fransada döyüşərkən Artur Riçmond adında bir zabit onun polkunda xidmət edib, kəşfiyyata göndərilib və öldürülüb. Onunla general arasında heç bir intriqa, qarşıdurma olmayıb. Deyilənlərə görə, onlar möhkəm dost olublar. O ki qaldı təsadüfi səhvlərə, müharibədə belə şeylərdən heç kim sığortalanmayıb. Yəqin ki, burda da söhbət belə bir səhvdən gedir.

– Ola bilər. – Ser Tomas Leqq razılaşdı.

– Filipp Lombard. O, xaricdə çoxlu qaranlıq işlərlə məşğul olub. Bir neçə dəfə həbsə də düşüb. Hamı onu cəsarətli, qorxmaz, lakin avantürist təfəkkürlü insan kimi tanıyır. Lombard elə adamlardandır ki, qətl onunçün heç nədir, ələlxüsus belə bir gözdən uzaq yerdə. Və nəhayət, Blor.

– Meyn ani pauza verdi. – Xatırladım ki, Blor bizim həmkarımız olub.

Komissar köməkçisi yenə də kresloda qurcalandı.

– Blor alçaq adam idi.

– Siz əminsiniz, ser?

– Mən həmişə ondan şübhələnmişəm. Amma hər dəfə sudan quru çıxmağı bacarırdı. Mən əminəm ki, Landorun məsələsində Blor yalan ifadə verib. İstintaqın nəticələri məni qane eləməmişdi. Orda qaranlıq məqamlar qalmışdı. Lakin bunu sübut edə bilmədim. Mən Harrisdən xahiş eləmişdim ki, bu məsələni dərindən araşdırsın. Lakin o da bir şey tapa bilmədi. Buna baxmayaraq, mən öz fikrimdə qalıram. Əgər biz üstünə bir az tez düşsəydik, Blorun günahını sübut edə bilərdik. Şübhəsiz ki, o, alçaq adam idi. – Ser Leqq susub fikrə getdi, bir müddət sonra dilləndi. – Deyirsiniz ki, Ayzek Morris ölüb? Nə vaxt olub bu?

– Mən bu sualı gözləyirdim. Morris avqustun səkkizində ölüb. Deyəsən, dozadan artıq yuxu dərmanı içib. Yenə də məsələ qaranlıqdır. Əldə faktlar çox azdır. Bilmək olmur intihardır, yoxsa qətl.

Ser Leqq soruşdu.

– Bilmək istəyirsiniz mən bu barədə nə düşünürəm?

– Təxmin edirəm, ser.

– Ayzek Morris çox lazımlı vaxtda ölüb.

İnspektor başını tərpətdi.

– Mən bilirdim ki, ağlınıza bu fikir gələcək.

Ser Tomas Leqq yumruğunu stola çırpdı.

– Bütün bunlar nağıldır, inanılmaz nağıl. On nəfər adamı okeanın ortasındakı bir adada öldürüblər, bizsə heç cür başa düşə bilmirik ki, onları kim və niyə öldürüb.

Meyn öskürdü.

– Məncə, siz yanılırsınız, ser. Bu adamın nəyə görə qətllər törətdiyi məlumdur. Bu, təbii ki, ədalət məhkəməsi qurmaq xəyalına düşmüş bir manyakdır. O, böyük əziyyətlər çəkib, cinayət törətmiş, lakin cəzadan yaxa

qurtara bilmiş adamları axtarıb tapıb, bir yerə toplayıb. Bu on nəfər günahkar, yaxud günahsız olub, bunun bizimçün fərqi yoxdur...

Komissar köməkçisi yenə qurcalandı.

– Fərqi yoxdur? – o, müfəttişin sözünü kəsdi. – Lakin... Bağışlayın, sözünüzü kəsdim. Davam edin.

– Mənə elə gəlir ki, biz ipin ucunu tutmuşuq. Bu ip bizi əsl həqiqətin üstünə aparıb çıxara biləcək. Tutalım, bu adamların hamısı günahkar olublar və mister A.N.Onim onları cəzalandırıb və niyyətini həyata keçirəndən sonra adadan yoxa çıxıb.

– Hə, deyəsən, onun məharətinə hər bir illüziyonçu həsəd aparardı.

– Mən sizin fikrinizi başa düşdüm, ser. Əgər bu adam adada olmayıbsa, adadan qacmağı mümkünsüz olubsa, deməli, həmin adam, bütün bu qətlləri törədən cani elə o qurbanların arasında olub. Mister A.N.Onim elə bu on nəfərdən biridir.

Ser Tomas Leqq başını tərpətdi və Meyn öz söhbətini davam elədi.

– Onu demək istəyirəm ki, orada bir neçə gündə baş verən hadisələr barədə az-çox məlumatımız var. Həm Vera Kleytorn, həm də Emili Brent gündəlik tuturdular. Hakim Uorqreyv də quru məhkəmə xronikası üslubunda bəzi qeydlər edirmiş. Blorun özü də bəzi məqamları yazırdı. Onların yazdığı faktlar çox yerdə üst-üstə düşür. Onlar bu sıra ilə ölüblər: mister Morston, missis Rocers, general Makartur, Rocers, miss Brent, hakim Uorqreyv... Hakimin ölümündən sonra Vera öz gündəliyində yazıb ki, doktor Armstronq gecə vaxtı evi tərk edib, Blorla Lombard da onun dalınca qaçıblar. Blorun gündəliyində də belə bir qeyd var: Armstronq yoxa çıxıb.

Biz bütün variantları gözdən keçirəndən sonra cavab, məncə, aydınlaşır. Yadınızdadırsa, Armstronq dənizdə batmışdı. Əgər o havalanmışdısa, onun həm neçə nəfəri öldürməyi, həm də özünün intiharı qeyri-adi görünməz. Bir detal da ağlıma gəlib. Ola bilər ki, Armstronq sadəcə qayadan özünü dənizə atmayıb, üzə-üzə sahilə çıxmaq istəyib.

Lakin daha dəqiq yoxlayanda bu versiya da təsdiqini tapmır. Çünki tibbi ekspertin rəyiylə hesablaşmamaq olmaz. O, ayın on üçündə səhər tezdən adaya gəlib. Düzdür, bizə o qədər də kömək edə bilmədi. Lakin dəqiq


https://www.facebook.com/groups/Kitabsever/

onu dedi ki, bu adamların hamısı, ən aşağısı, otuz altı saat əvvəl ölüb. Bəlkə bir az da əvvəl. Armstronq barədə isə daha dəqiq dedi. Onun meyiti suda səkkiz-on saat qalandan sonra sahilə çıxarılıb. Belə çıxır ki, Armstronq ayın onundan on birinə keçən gecə suda batıb. İndi deyərəm nəyə görə bu nəticəyə gəlmişəm. Biz müəyyən elədik ki, meyit iki daşın arasında ilişib qalıbmış. Orada saç tükləri, paltar qırıntılarının izləri var. Yəqin ki, ayın on birində səhər qabarma vaxtı dalğalar meyiti sahilə atıb. Sonra tufan yatıb, daha su o qədər qalxmayıb, meyit də qayanın arasında ilişib qalıb.

Siz deyə bilərsiniz ki, Armstronq özü ölməmişdən əvvəl o biri üç nəfəri də öldürə bilərdi. Lakin burda da ziddiyyətlər ortaya çıxır. Qabarma xətti Armstronqun tapıldığı yerə qədər gəlib çıxmır. Su ora qalxmır. Həm də o, çox səliqəylə uzandırılmışdı. Su onu atsaydı, bu vəziyyətdə qalmazdı. Burdan belə çıxır ki, onun meyitini dalğalar sahilə atandan sonra kimsə onun meyitini sudan çıxarıb, yuxarı çəkib.

Meyn nəfəsini dərib davam elədi.

– Faktlardan çıxış edərək belə nəticəyə gəlirəm ki, Armstronq batandan sonra adada üç nəfər sağ qalıb: Lombard, Blor və Vera Kleytorn. Qız öz otağında asılmış tapılıb. Blor evin qarşısında başı partlamış vəziyyətdə aşkar edilib. Onun başına iri mərmər parçası düşüb. Çox güman ki, mərməri yuxarıdan atıblar.

– Yuxarıda kimin pəncərəsi olub? – Leqq maraqlandı.

– Vera Kleytornun yataq otağının pəncərəsidir. İndi isə, ser, bu iki halı ayrılıqda araşdıraq. Filipp Lombarddan başlamaq istəyərdim. Hesab edək ki, mərmər parçasını Blorun başına məhz o atıb, sonra da qızı narkotiklə uydurub və asıb. Nəhayət, dəniz sahilinə düşüb özünü gülləylə vurub. Yaxşı, bəs belə olan halda revolveri kim götürüb? Axı silahı biz evdə, Uorqreyvin otağının qarşısında tapmışıq.

– Silahda barmaq izləri varmı?

– Hə, Vera Kleytornun əl izləridir. Belə çıxır ki, bütün bunları törədən Vera Kleytorndur. Lombardı güllələyib, Blorun başına mərməri atıb, sonra da evə gəlib özünü asıb. Bu da ola bilərdi, bəzi tərəddüdlər olmasaydı. Tutalım, qız kəndiri boğazına keçirib, stulu da ayağıyla vurub aşırıb. Belə olan halda stul onun yanında aşmış vəziyyətdə tapılmalıydı. Lakin biz ora gələndə stul divarın dibindəydi. Deməli, qız ölәndən sonra kimsə stulu



https://www.facebook.com/groups/Kitabsever/

yerdən qaldırıb. Qalır təkcə Blor. Lakin siz desəniz ki, o, Lombardla qızı öldürəndən sonra evdən çıxıb və mərmər parçasını iplə dartıb öz başına salıb, bu, inandırıcı görünməz. Belə intihar eləməzlər, ələlxüsus Blor kimi adamlar. Bloru biz ikimiz də yaxşı tanıyırdıq. Blor ali ədalətə meyl edən adamlardan deyildi.

– Haqlısınız, Meyn, – komissar köməkçisi dedi.

– Əgər bütün bu faktları diqqətlə gözdən keçirsək, yenə də bu fikrin üstünə gəlirik ki, adada kimsə kənar adam olub. Yaxşı, bəs həmin adam bütün bu müddət ərzində harda gizlənib? Stikxlevn sakinləri əmindir ki, qayıq adaya gələnə qədər oranı heç kim tərk edə bilməzdi. Belə olan halda... – İnspektorun səsi batdı.

– Belə olan halda nə? – Ser Tomas Leqq soruşdu.

İnspektor ah çəkdi, başını tərpətdi və komissar köməkçisinə tərəf əyildi.

– Belə olan halda bəs onları kim öldürüb?

«Emma Ceyn» adlı balıqÇı gəmİsİnİn kapİtanının sudan tapdığı ağzıbağlı şüşənİn İçİndən Çıxartdığı və SkotlAnd Yarda yolladığı əlyazma.

Hələ gəncliyimdən hiss eləmişdim ki, mənim naturam necə ziddiyyətlidir. Ən əvvəl onu deyim ki, romantika ömrü boyu məni özünə cəlb eləmişdi. Macəraçılıq romanlarının romantik sonluğu, vacib sənədin şüşəyə salınıb suya atılması fəndi mənə həmişə qəribə və maraqlı gəlib. Bu fəndin cazibəsi indiyə qədər məni buraxmır, ona görə də öz etirafımı kağıza yazıb suya atacam. Məncə, bunun tapılıb oxunması şansı çox azdır. Lakin bu, baş verərsə, Zəncilər adasının sirri açılmış olacaq. (Şəxsən mən bunu istəməzdim, lakin bu addımdan özümü saxlaya bilmirəm.)

Lakin məni valeh edən təkcə romantika deyildi. Eyni zamanda ölümlər də mənə qəribə bir həzz verirdi. Mən canlı məxluqların ölümündən ləzzət alırdım. Uşaq vaxtımdan bağçamızdakı ziyanlı həşəratları xüsusi amansızlıqla öldürürdüm.

Öldürmək ehtirası uşaqlıqdan məni özünə tabe eləmişdi. Təzadlı görünsə də, bununla bərabər içimdə qəribə bir ədalət istəyi, ədalət tələbi vardı. Mənim günahım ucbatından nəinki hansısa bir insanın, hətta


https://www.facebook.com/groups/Kitabsever/

heyvanın belə, ölə biləcəyi fikri məndə dəhşət doğururdu. Mən öldürmək istəyirdim, lakin ədalət naminə öldürmək.

Məncə, psixologiyadan başı çıxan adamlar bu etirafdan sonra mənim nəyə görə hüquqşünas peşəsini seçməyimi anlayar. Məhz bu peşə mənim içimdəki bütün daxili tələblərə cavab verirdi.

Mən müxtəlif detektiv və kriminal romanları həmişə böyük həvəslə oxumuşam. Bekar vaxtımda isə müxtəlif qeyri-adi qətl üsulları fikirləşirdim.

Nəhayət, mən hakim oldum. Bundan sonra mənim xarakterimin daha bir qəribə tərəfi inkişaf eləməyə başladı. Artıq müttəhimlər kürsüsündə əyləşən hansısa bir caninin min bir üsulla canını cəzadan qurtarmaq üçün çalışması mənə xüsusi zövq verirdi. Cani cəzanın qaçılmaz -olduğunu hiss eləsə də, içində bir ümid işığı parlayır ki, bəlkə birtəhər xilas oldum. Və müttəhimin içindəki bu işıqla oynamaq mənə xoş idi. Mən gah özümü avamlığa qoyub bu ümid işığını yandırırdım, gah da qəzəblənib bu işığı söndürürdüm.

Lakin qeyd edim ki, günahsız adamın ittiham olunması məni həmişə özümdən çıxarırdı. Bir neçə dəfə ittiham olunan adamların günahsız olduğunu hiss etdiyimə görə onlara qarşı qaldırılan iddianı rədd edib işi bağlamışam. Lakin bizim polislərin keyfiyyətli işi sayəsində məhkəməyə qədər gəlib çıxanların çoxu həqiqətən də günahkarlar olurdu.

Eduard Sittonun işiylə də bağlı eyni situasiya idi. Hərçənd ki, onun cazibədar görkəmi, özünü aparması yalançı təəssürat yaradırdı və iclasçılar da bu təəssürat altında onun günahsız olduğunu düşünürdülər. Lakin ilk baxışdan zəif görünən, lakin mənim hakimlik təcrübəmə əsasən inandırıcı hesab elədiyim dəlillər göstərirdi ki, cinayəti məhz o törədib. Yəni yaşlı qadının inamından istifadə edib onu talayandan sonra öldürmüşdü.

İşlədiyim uzun illər ərzində mənim barəmdə insanları göz qırpmadan rahatca dar ağacına göndərən qəddar, rəhmsiz bir hakim rəyi formalaşmışdı. Lakin bu belə deyildi. Mənim iclasçılara təsirim də həmişə ədalətli və qərəzsiz olurdu. Lakin eyni zamanda dildən pərgar vəkillərin gözəl nitqlər söyləyərək iclasçıların hissləriylə oynamağına da çox yol vermirdim. Mən həmişə onların diqqətini gözəl nitqlərə yox, əldə olan dəqiq fakt və sübutlara yönəldirdim.



https://www.facebook.com/groups/Kitabsever/

Son illər öz xarakterimdə nəsə dəyişikliklər hiss eləməyə başlamışdım. Mən bəzən öz üzərimdə nəzarəti itirirdim, sadəcə hökm ıxartmaqla kifayətlənmirdim, onu məhz özüm həyata keçirtmək istəyirdim. Etiraf edim ki, canini özüm öldürmək istəyirdim. Nədənsə bu iş mənə əsl rəssamlıq kimi yaradıcı bir iş görünürdü. Əlbəttə, mən öz sahəmdə yaradıcı fəaliyyət göstərib bir növ rəssam ola bilərdim. Məhz bu hisslər məni son vaxtlar ağuşuna alıb normal düşüncəmə, gündəlik fəaliyyətimə mane olurdu.

Mənə kimisə öldürmək vacib idi, çox vacib. Həm də sadəcə qətl yox, məhz qeyri-adi, görünməmiş, ağlagəlməyən bir qətl.

Yəqin ki, bəzi sahələrdə mənim təxəyyülüm məhz yeniyetmə təxəyyülü səviyyəsində qalmışdı. Məhz teatrallığa meyl edirdim. Teatral effektli bir qətl, yaxud qətllər törətmək istəyirdim...

Lakin zatımda olan ədalət duyğusu sadəcə kimisə öldürməyə imkan vermirdi, qarşımı kəsirdi. Mən günahsız bir adamın öldürülməsinə heç cür razı ola bilməzdim.

Qaçılmaz cəza ideyası mənim ağlıma təsadüfən gəldi. Bir dəfə tanış bir həkimlə söhbət vaxtı onun ağzından belə bir fikir çıxdı ki, dünyada qanunun əli çatmadığı çoxlu cinayətlər və cinayətkarlar var. Sonra mənə öz xəstələrindən birinin başına gələn hadisəni danışdı. Həkim əmin idi ki, bu qoca qadını onun xidmətçiləri öldürüb. Qadının vəziyyəti eləydi ki, hər dəfə tutması başlayanda ilkin tibbi yardım dərhal göstərilməliydi, əks halda qadın ölə bilərdi. Elə də olub. Həkim əmin idi – evdə olan qulluqçu ər-arvad qəsdən qadına ilkin yardımı göstərməyiblər. Çünki qadın öz vəsiyyətində onlara da xeyli pul qoymuşdu. Həkim dedi ki, bu adamların günahını sübut eləmək mümkün deyil, lakin o, haqlı olduğuna yüz faiz əmindir.

Həkim onu da əlavə elədi ki, belə cinayətlər çox baş verir, lakin məsələ məhkəməyə qədər gedib çatmır.

Bu söhbət mənimçün istinad nöqtəsi oldu. Neyləməli olduğumu, hansı yolla getməli olduğumu anladım. Hə, bir qətl azdır, işə başlayırdımsa, miqyaslı bir qətl törətməliydim. Həm də bu, qətl yox, cəzasız qalmış cinayətkarlar üçün cəza olmalıydı.

Uşaq vaxtı oynayanda dilimizdən düşməyən bir yanıltmacı xatırladım – on zənci balası haqqında olan yanıltmac. Kiçik olanda bu yanıltmac mənim bütün


https://www.facebook.com/groups/Kitabsever/

ruhumu sarsıtmışdı. Hər beytdə bir zənci balası ölürdü və bu ölümlərdə qəribə bir qaçılmazlıq vardı.

Bundan sonra hamıdan gizlində axtarışa başladım. Axtarışlarımın bütün incəliklərini yazmaq çox vaxt aparar. Buna heç ehtiyac da yoxdur. Qısası, harda olmağımdan asılı olmayaraq, bütün söhbətlərimdə söhbəti məhz bu mövzunun üstünə gətirib çıxarırdım və cinayət törədərək cəzadan qaçmış adamların izinə düşməyə çalışırdım. Bir müddət sonra isə mənə lazım olan informasiyaları əldə etməyə başladım.

Xəstəxanada müalicə olunanda mənim palatamın tibb bacısından doktor Armstronqun məsələsini öyrəndim. Bu qız alkoqola nifrət edirdi, məni də içkini atmağa təhrik edirdi və içkinin ziyanlı təsirinə nümunə olaraq bu -hadisəni mənə danışmışdı. Bir neçə gün sonra mən hansı xəstəxanada təcrübə keçdiyini ondan öyrəndim və doktor Armstronqun izinə düşdüm.

Veteranlar klubunda iki qoca hərbiçinin söhbətindən general Makarturun cinayəti barədə eşitdim.

Amazonka sahillərindən gələn bir səyahətçi mənə orada qanlı cinayətlər törədən Filipp Lombard barədə danışdı.

Malyorkada işləyən bir məmurun arvadı isə mənə alicənab, mömin Emili Brentin qəddarlığı nəticəsində özünü öldürən bir qulluqçu qızın faciəsini söyləmişdi.

Antoni Morstonu mən bu cür cinayətlər törətmiş böyük qrup adamların içindən seçdim. Görünməz həyasızlıq və mərhəmət hissinin yoxluğu, məncə, onu cəmiyyət üçün təhlükəli fiqura çevirirdi.

Keçmiş inspektor Blorun məsələsini isə öz kolleqalarımdan eşitdim. O vaxtlar Landorun məsələsi bizim dairələrdə bir neçə ay gündəmdən düşmədi. Blorun hərəkətinin məndə hansı qəzəb hissinin doğurduğunu dillə demək mümkün deyil. Polis qanun keşikçisi olduğu üçün mütləq təmiz vicdanını qoruyub saxlamalıdır. Axı belə insanların hər sözü az qala qanun qüvvəsindədir. Deməli, bu sözün ədalətli olması üçün çalışmaq lazımdır.

Və nəhayət, Vera Kleytorn. Bir dəfə gəmidə Atlantik okeanını üzüb keçərkən siqaret çəkənlər üçün olan salonda gecə vaxtı Huqo Hamilton adlı gənc, yaraşıqlı bir oğlanla həmsöhbət oldum. Onun görkəmi çox bədbin idi, yaman sarsılmış görünürdü. Elə bil hansısa bədbəxt hadisəni yaddaşından silmək üçün yaman çox içirdi. Hiss elədim ki, ürəyini boşaltmağa adam


https://www.facebook.com/groups/Kitabsever/

axtarır. Mən özüm söhbətə başladım və tanış mövzuya yönəltdim. O danışandan sonra isə eşitdiklərim məni dəhşətli dərəcədə sarsıtdı. Onun danışdıqları indiyəcən qulağımdadır.

– Siz tamamilə haqlısınız. – O dedi. – Yaxın adamını öldürmək üçün onun yeməyinə zəhər qatmaq, yaxud qayadan atmaq o qədər də vacib deyil. Yox, buna ehtiyac yoxdur. – O, başını əyib mənə baxaraq davam elədi. – Mən bir qatili yaxından tanıyırdım. Yox, tanımaq azdır, mən onu sevirdim. Dəlicəsinə sevirdim o qızı. Deyəsən, indiyə qədər də sevirəm... Ən dəhşətlisi budur ki, o bu cinayəti mənim xətrimə törətmişdi. Qadınlar dəhşətli məxluqlardır. Siz heç vaxt inanmazdınız ki, belə zərif qəlbli, incə ruhlu, sadə bir qız qətl törətməyə qadirdir. Uşağın batacağını qabaqcadan bildiyi halda onu dənizə buraxmaq... Məgər qadınlar buna qadirdirlər? Axı bu, açıq-aşkar qətldir.

– Bəlkə siz səhv edirsiniz? – mən soruşdum. – Bəlkə hər şey doğrudan da təsadüfən baş verib?

– Yox, bu, təsadüf deyil. – O elə bil qəfildən ayılıb dedi. – Bu, başqa heç kimin ağlına gəlmədi. Mənsə onun gözlərinin içinə bircə dəfə baxmaqla hər şeyi anladım. O da mənim hər şeyi anladığımı hiss elədi. Lakin o qız bir şeyi nəzərə almamışdı. Mən bu uşağı çox sevirdim. Ona yaman bağlanmışdım. – O, bir müddət susub davam elədi və bütün təfərrüatları mənə danışdı.

Bundan sonra mən onuncu canini axtarmağa başladım və tapdım: Ayzek Morris. Çox qaranlıq adam idi. Bütün başqa qanunsuz işlərlə bərabər həm də narkotik alveriylə məşğul olurdu. Mənim dostlarımdan birinin qızı da onun toruna düşüb bədbəxt olmuşdu. Bədbəxt qızcığaz narkoman olub iyirmi iki yaşında intihar eləmişdi.

Cinayətkarları axtardığım müddətdə mən fəaliyyət planını da hazırlamışdım. Plan artıq hazır idi və hər şeyin son ştrixi olaraq mən Harli-stritdə bir həkimin yanına konsultasiyaya getdim. Mən ürəyimdən bir əməliyyat keçirtmişdim və həkim mənə dedi ki, ikinci əməliyyatın xeyri yoxdur. O mənimlə yumşaq danışırdı və həqiqəti gizlətməyə çalışırdı. Lakin mən onun gözlərindən hər şeyi oxudum.

Deməli, məni uzunmüddətli xəstəlik və qaçılmaz ölüm gözləyirdi. Lakin mən əl-ayağımı salladıb əcəli gözləmək fikrində deyildim. Yox,



https://www.facebook.com/groups/Kitabsever/

ölümqabağı mütləq bir tüfan qoparmalıyam. Mən ölümdən əvvəl həyatdan əməlli-başlı həzz alacam.

İndi isə bu işin mexanizmini açıqlamaq istəyirəm. Maraqlanan adamları azdırmaq üçün mən Zəncilər adasını Morrisin vasitəçiliyi ilə əldə elədim. O öz işinin öhdəsindən yüksək səviyyədə gəldi. Başqa cür ola da bilməzdi. Morris ömrü boyu belə qaranlıq işlərlə məşğul olmuşdu. Öz qurbanlarım barədə məlumatları toplayandan sonra onların hər biri üçün inandırıcı bir tələ qurmalıydım. Yoxsa onları bir yerə yığmaq çətin olardı. Qeyd edim ki, qurbanlarımın hamısı qeyd-şərtsiz qarmağa keçdilər. Qonaqlar avqust ayının səkkizində Zəncilər adasına təşrif buyurdular. Onların arasında mən də vardım.

Adaya gələnə qədər Morrisin işini bitirmişdim. O, mədə pozuntusundan əziyyət çəkirdi. Londondan çıxmamışdan əvvəl mən ona bir dərman verib gecə yatmamışdan əvvəl içməyini tövsiyə elədim və and içdim ki, bu dərman mənim mədəmin bütün problemlərini aradan qaldırıb. Mən onun ağrıya dözümsüzlüyünü bildiyimə görə, dərmanı içəcəyinə də əmin idim.

Beləliklə, adaya gəlib çatdıq. Mənim qurbanlarım növbəylə ölməliydilər. Mən buna çox əhəmiyyət verirdim. Onlara eyni cür yanaşa bilməzdim. Axı onların günah dərəcəsi müxtəlif idi. Qərara almışdım ki, daha az günahkar bildiyim adamlar tez ölməlidirlər, lakin qatı cinayətkar olanlar bu qarışıq hadisənin içində hələ bir müddət iztirab və sarsıntı keçirməlidirlər. Ən birinci Antoni Morstonla missis Rocers öldülər. Morston bir anın içində canını tapşırdı, missis Rocers isə yuxuda öldü. Morstonun əsas günahı fitrətdən mənəviyyatsız olmasındaydı, missis Rocers isə çox güman ki, ərinin təsiri altında hərəkət edib.

Onların ölümünü dəqiq təsvir eləməyə ehtiyac yoxdur. Polis o qədər də çətinlik çəkmədən onların qanında kalium-sianid zəhəri aşkar edəcək. İndi bu zəhəri əldə eləmək asandır. Arıları öldürməkçün istifadə edirlər. Mən də hər ehtimala qarşı evdə saxlayırdım və adaya gələndə özümlə götürmüşdüm. Valdakı səs onlara qarşı ittiham irəli sürəndə mən otaqdakıların çaşqınlığından istifadə edib Morstonun stəkanına zəhər tökdüm.

Onu da qeyd edim ki, ittihamlar deyilən vaxt mən onların sifətlərinin ifadələrinə diqqətlə göz qoyurdum. Və öz təcrübəmə əsaslanaraq belə nəticə çıxartdım ki, onlar həqiqətən də günahkardırlar. Mənim qədər məhkəmə stajı olan adam səhv edə bilməzdi.



https://www.facebook.com/groups/Kitabsever/

Son vaxtlar ağrılarım gücləndiyinə görə həkimlər mənə çox güclü yuxu dərmanı olan xloralhidrat yazmışdılar. Rocers huşunu itirmiş arvadına konyak gətirəndə mən imkan tapıb onun içinə bu dərmanın yüksək dozasından tökə bildim. Heç kim buna əhəmiyyət vermədi, çünki hələ heç kim vəziyyətin nə yerdə olduğundan şübhələnmirdi, sadəcə çaşqınlıq içindəydilər.

General Makartur da iztirab çəkmədən öldü. Fikri dənizdə olduğundan mənim ona yaxınlaşmağımı hiss eləmişdi. Evin qabağındakı meydançadan getmək üçün elə vaxt seçdim ki, heç kim bunun fərqində olmadı.

Hələ ki, hər şey yaxşı gedirdi.

Generalın ölümü mənim düşündüyüm fikirləri yaratdı. Hamı elə düşündü ki, adada kimsə gizlənir və bütün bunlar onun əməlləridir. Adanı yaxşıca axtarandan sonra başa düşdülər ki, burada onlardan başqa heç kim yoxdur və qatil onların arasındadır.

İşimin bu mərhələsində mənə köməkçi lazım idi və mən uzun düşüncələrdən sonra doktor Armstronqu seçdim. Ən əvvəl ona görə ki, o məni əvvəldən yaxşı tanıyırdı, məhkəmədə görmüşdü, buna görə də onu inandırmaq çətin olmadı. Onun heç ağlına da gəlmədi ki, mənim kimi cəmiyyətdə yüksək mövqe tutan adam qatil ola bilər.

O, Lombarddan şübhələnirdi və mən özümü elə göstərdim ki, guya onun şübhələriylə razıyam. Dedim ki, mənim çox hiyləgər bir planım var ki, bunun köməyilə biz qatili tələyə salıb ifşa edə bilərik.

Rocersi mən səhər tezdən öldürdüm. Onun başı odun doğramağa qarışmışdı deyə, mənim yaxınlaşdığımı eşitmədi. Bağladığı mətbəxin açarını cibindən çıxartdım.

Yenə də qarışıqlıqdan istifadə edərək Lombardın otağına girib tapançasını götürdüm. Bilirdim ki o, adaya silah gətirib.

Səhər yeməyi vaxtı miss Brentin də kofesinə güclü yuxu dərmanı tökdüm. Biz yemək otağından çıxıb onu təklikdə qoyduq. Sonra mən geri qayıtdım və yarıyuxulu vəziyyətdə uzanmış qadına iynəylə kalium-sianid vurdum. Həyətdən tutduğum eşşəkarısını otağa gətirməyim də o yanıltmacla bağlı idi. İstəyirdim hər şey məhz orda yazılan kimi görünsün.



https://www.facebook.com/groups/Kitabsever/

Bu ölümdən sonra hamı əl-ayağa düşdü. Otaqları yoxlamağı, deyəsən, elə mən özüm təklif elədim. O vaxta qədər isə bütün zəhəri işlədib qurtarmışdım, tapançanı isə yaxşıca gizlətmişdim.

Bundan sonra Armstronqa təklif elədim ki, mənim planımı reallaşdıraq. İlk baxışdan sadə bir plan idi. Növbəti qurban mən olmalıydım. Və qatil bunu görüb çaşmalı və hansısa hərəkətiylə özünü büruzə verməliydi. Bundan başqa mən gecələr evdə rahat gəzib şübhəli məqamları yoxlaya bilərdim.

Mənim planım Armstronqun xoşuna gəldi. Elə həmin axşam biz planı həyata keçirtdik. Alnımda yalançı güllə izini və qan ləkəsini düzəltmək o qədər də çətin olmadı. Otaq isə həm yarımqaranlıq idi, həm də mənə yalnız Armstronqun özü yaxın gəlmişdi.

Bu mərhələdə də hər şey yaxşı keçdi. Yosunlar başına toxunan kimi Vera Kleytorn vəhşicəsinə elə qışqırdı ki, kişilərin hamısı qaça-qaça yuxarı qalxdılar. Beləliklə, həm paltarımı dəyişməyə, həm də qrim eləyib «ölü»yə çevrilməyə xeyli vaxtım vardı.

Effekt mənim gözlədiyimdən də artıq oldu. Armstronq öz rolunun öhdəsindən yüksək səviyyədə gəldi. Məni qaldırıb öz otağıma keçirtdilər və yatağıma uzandırdılar. Daha məni heç kim xatırlamırdı. Hamı dəhşətli dərəcədə qoxmuşdu və yalnız bir-birinə göz qoymaqla məşğul idilər.

Gecə saat ikidə isə Armstronqla görüş təyin eləmişdim. Mən onu evin arxasındakı hündür qayalığa gətirdim. Dedim ki, burdan bizə yaxınlaşan olsa görəcəyik. Eyni zamanda evdən baxanda bizi heç kim görməyəcək, çünki pəncərələr əks tərəfə baxır.

Armstronq hələ də məndən şübhələnmirdi. Hərçənd ki, yanıltmacda bu barədə açıq-aşkar yazılmışdı: bir zənci balası tələyə düşdü.

Armstronq da heç nədən şübhələnmədən tələyə düşdü. Mən ona dedim ki, aşağıda gizli bir mağara tapmışam. O, mağaranın girişini görmək üçün aşağı əyildi və mən onun kürəyindən itələdim. O, yellənib qayalığa çırpılaraq dənizə düşdü.

Mən də sakitcə evə qayıtdım. Yəqin ki, Blor dəhlizdə mənim addım səslərimi eşitmişdi. Mən Armstronqun otağına keçib bərkdən səs saldım və ayaqlarımı tappıldadaraq otaqdan çıxıb aşağı düşdüm. Pilləkənlərlə düşəndə Blorun qapını açdığını eşitdim. Yəqin ki, o mənim evdən -çıxdığımı



https://www.facebook.com/groups/Kitabsever/

görmüşdü. Mən evin dövrəsinə dolanıb yemək otağının açıq pəncərəsindən içəri girdim, öz yataq otağıma qalxıb yerimə uzandım.

Mən bilirdim ki, onlar təzədən evi axtaracaqlar. Lakin ümid edirdim ki, meyitləri yoxlamayacaqlar. Elə də oldu.

Revolveri də Lombardın otağına atmışdım. Yəqin sizə maraqlıdır ki, mən tapançanı harda gizlətmişdim. Anbara çoxlu konservlər və peçenyelər yığdırmışdım. Tapançanı da qalet qutularından birinin içində gizlətmişdim. Mən düşünürdüm ki, tapançanı ərzaq ehtiyatlarının içində axtarmaq onların ağlına gəlməz.

Və nəhayət, gözlədiyim an gəlib çatdı. Adada cəmisi üç nəfər qaldı. Bunlar bir-birindən dəhşətli dərəcədə qorxurdular və hər şeyə hazır idilər. Bundan başqa, biri də silahlı idi. Onlar qayalıqların üstündə gəzişəndə mən onları pəncərədən izləyirdim. Blor evə yaxınlaşanda mən Veranın pəncərəsindən iri mərmər saatı onun başına atdım.

Veranın Lombardı güllələdiyini də pəncərədən müşahidə edirdim. Düzünə qalsa, mən bunun belə tezliklə baş verəcəyini gözləmirdim. Vera mənim düşündüyümdən də ağıllı və rəhmsiz çıxmışdı.

O qayıdana qədər mən onun otağında hər şeyi hazırladım. Budur, stul qoyulub, dar ağacı qurulub – səhnə onun gəlişinə hazırdır.

Mənə maraqlı idi ki, vicdan əzabları Veranı intihara vadar edə bilər, yoxsa yox. Axı əvvəlki cinayətdən əlavə, o, indi də adam öldürmüşdü.

Mənə elə gəlirdi ki, o mütləq intihar eləməlidir. Və yanılmamışdım.

O, otağa girib dar ağacını görən kimi özünü itirdi və yuxulu adamlar kimi stula qalxıb kəndiri boğazına keçirtdi. Mən şkafın arxasında gizlənib onu güdürdüm. Vera Kleytorn mənim gözümün qarşısında intihar elədi.

Öz hekayətimin son mərhələsinə keçirəm. Mən şkafın arxasından çıxıb stulu qaldıraraq yerinə qoydum. Revolveri qapının qarşısındakı meydançada tapdım. Yəqin içəri girəndə Veranın əlindən düşmüşdü. Mən onu qızın əlinə sıxdım ki, barmaq izləri qalsın.

Bəs sonra? Mənim hekayətim bitdi, indi yazını bitirib şüşənin içinə salacam, ağzını yaxşıca sıxıb dənizə atacam. Sirrini heç kimin aça bilməyəcəyi bir cinayəti törətmək hissi mənə çox xoş idi. Lakin mən «sənət –


https://www.facebook.com/groups/Kitabsever/

sənət üçündür» fikrindən çox uzaq idim. Hər bir sənətkarın içində tanınmaq yanğısı var. Mən də bunu istəyirdim. Etiraf edim ki, bütün dünyanın bu cinayətdən xəbər tutmağını arzulayırdım.

Ona görə də öz etiraflarımı yazdım. ürəyimdə təzadlı fikirlər var idi. Həm Zəncilər adasının sirrinin açılmasını istəyirdim, həm də uzun müddət sirr kimi qalmasını arzulayırdım.

Bəlkə də polis mən düşündüyümdən daha ağıllı oldu. Hər halda mən onlar üçün cinayətin üstünü aça biləcək üç detal qoymuşdum. Birincisi, o biri cinayətkarlardan fərqli olaraq, məhz mənim günahsızlığım onlara məlum idi. Eduard Sittonun cani olması və haqlı olaraq edam edilməsini hamı bilirdi. Deməli, on nəfərdən birinə qarşı irəli sürülən ittihamlar yanlışdır. Deməli, Zəncilər adasında törədilən qətllərin səbəbkarı məhz bu adamdır.

İkincisi, yanıltmacın bir bəndində zənci balasının tələyə düşməsi yazılmışdı. Armstronq öləndən qabaq isə adadakı adamların içindən yalnız mənə etibar edə bilərdi. Çünki o birilərdən fərqli olaraq, mən tanınmış sima idim. Deməli, onu tələyə yalnız mən sala bilərdim.

Üçüncüsü, mənim alnımdakı ölüm möhürü. Məgər bu, Habilin nişanı deyildi?

Mənim hekayətim sona çatır. Kağızı şüşəyə qoyub yuxarı qalxan kimi öz yatağıma uzanacam. Revolveri dəsmalla götürəcəm, qapının tutacağına bağladığım rezini revolverdən keçirəcəm, sonra gülləni alnıma sıxacam. Mən öləndən sonra isə rezinlə dartılmış tapança kənara sıçrayacaq, əlimə bağladığım dəsmal da yerə düşəcək. Deməli, tapança məndən aralıda düşüb qalacaq, üstündə də mənim heç bir barmaq izim olmayacaq.

Beləcə, mən otağımda alnı deşilmiş vəziyyətdə uzanıb qalacam. Hər şey eynən mənim dostlarımın öz gündəliklərində yazdıqları kimi olacaq.

Tibbi ekspertlər adaya gəlib çıxana qədər, yəqin ki, mənim ölüm vaxtımı da dəqiq müəyyən etmək olmayacaq.

Tufan yatandan sonra, yəqin ki, adamlar adaya gələcəklər. Lakin burda tapdıqları nə olacaq? – İttiham dolu val, on meyit və ZəncİlƏr adasının sirri.



https://www.facebook.com/groups/Kitabsever/

Son


https://www.facebook.com/groups/Kitabsever/